FƏXRƏDDİN CƏFƏROV

# NAXÇIVAN İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ

Az 2015/1573

**FƏXRƏDDİN CƏFƏROV**

***Qələbənin 70 illiyinə həsr olunur.***

Az1 288396

# NAXÇIVAN İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ

103521

*AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin*
*27 noyabr 2015-ci il tarixli 07/9 nömrəli qərarı*
*(Protokol № 7) ilə çapına icazə verilmişdir.*

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

ARXİV

**BAKI-2015**

105708

T3(2A)722-788,0

*Ön sözün müəllifi və elmi redaktoru:* **İsmayıl Hacıyev**
AMEA-nın həqiqi üzvü, professor

*Rəyçi:* **Hacı Fəxrəddin Səfərli**
*AMEA-nın müxbir üzvü, professor*

***F.A.Cəfərov. Naxçıvan İkinci Dünya müharibəsi illərində. ADPU- nəşriyyatı. Bakı-2015. 304 səh.***

*Kitabda İkinci Dünya müharibəsində naxçıvanlıların igidlik və şücaətləri, kişilərlə çiyin-çiyinə döyüşən qadınlarımızın rəşadətləri, partizan və antifaşist müqavimət hərəkatındakı döyüş yolundan söhbət açılır. Həmçinin 1941-1945-ci illər müharibəsində arxa cəbhədəki əmək qəhrəmanlıqları, Naxçıvan zəhmətkeşlərinin müdafiə fonduna etdiyi yardımlar, əsgərlərə göndərilən sovqatlar, alman faşistlərindən azad edilmiş şəhər və rayonların bərpa edilməsinə edilən köməkliklər, Naxçıvanın mədəniyyəti, müharibə dövründə itkin düşmüş və həlak olmuş naxçıvanlılar haqqında məlumat verilir.*

*Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*



***ÜMUMMİLLİ LİDER***

*"BİZİM ÜÇÜN II DÜNYA MÜHARİBƏSİNDƏ, FAŞİZMƏ QARŞI APARILAN BÖYÜK VƏTƏN MÜHARİBƏSİNDƏ İŞTİRAK ETMİŞ HƏR BİR ŞƏXS YÜKSƏK HÖRMƏTƏ MALİKDİR..."*

***HEYDƏR ƏLİYEV***
***ÜMUMMİLLİ LİDER***

## NAXÇIVANIN MÜHARİBƏ DÖVR TARİXİ YENİ TƏDQİQATDA

*XX əsr bəşəriyyət tarixində həm böyük elmi-texniki tərəqqi, həm də iki dağıdıcı dünya müharibəsi ilə yaddaşlara həkk olunmuşdur. Bu müharibələr içərisində İkinci Dünya müharibəsi müharibələr tarixində ən böyük hərbi-siyasi münaqişə kmi daha böyük insan tələfatına və dağıdıcı gücə malik olmuşdur. Bu müharibədə 60 milyon insan tələf olmuş, habelə müharibə 316 milyard dollarlıq maddi-mənəvi zərər hesabına başa çatmışdır. Təkcə sovetlər birliyi müharibədə 30 milyon nəfərədək itki vermişdir.*

*Müharibədə faşist Almaniyası üzərində qələbənin əldə edilməsində Azərbaycan xalqının müstəsna xidmətləri danılmazdır. 1941-ci ildə Azərbaycan SSR-in əhalisi 3,4 milyon nəfər idi. Müharibə illərində Azərbaycandan ordu sıralarına 678.950 nəfər kişi, 11 mindən çox qadın yola salınmışdır. Onlardan 300 mini həlak olmuş, 123 nəfəri ən yüksək ada – Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. 30 nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilib. 170 min nəfər isə müxtəlif orden və medallarla təltif olunub. Bu, Azərbaycan xalqının qəhrəmanlığını təsdiq edən statistik göstəricilərdir. Eyni zamanda, Azərbaycan alman faşizmi üzərində Qələbənin əldə edilməsində həlledici rol oynayıb.*

*Azərbaycanın ümummilli lideri Heydər Əliyev demişdir: "Azərbaycan xalqı 1941-1945-ci illər müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl şücaət və əzmkarlıq nümunələri göstərmişdir. Müharibə başlanandan keçən qısa müddət ərzində Azərbaycan Respublikası ərazisində 87 qırıcı batolyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilmişdir. 1941-1945-ci illərdə respublikanın 690 min oğlan və qızı cəbhəyə getmişdir. Xalqımızın müharibədə verdiyi qurbanlar və*

*fədakar əməyi onu alman faşizm üzərində qələbə çalan xalqların ön sıralarında yerləşdirir... Tarix bu gün də bilməlidir ki, İkinci Dünya müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olmuşdur".*

*Qələbənin əldə edilməsində naxçıvanlıların da əməyi olmuşdur. Onlar həm ön – döyüş cəbhələrində, həm də arxa cəbhədə əsl qəhrəmanlıq və fədakarlıq göstərmişlər. Naxçıvanın oğul və qızlarının fəaliyyətlərinə tədqiqat əsərlərində müəyyən yer verilsə də, indiyə qədər bu mövzuda ümumiləşdirici əsər olmamışdır.*

*Tarix elmləri doktoru Fəxrəddin Cəfərovun "Naxçıvan İkinci Dünya müharibəsi illərində" monoqrafiyası bu boşluğu aradan qaldıracaqdır.*

*Əsərlə tanışlıqdan sonra məlum oldu ki, müəllif çox geniş sənəd və materiallardan istifadə etmiş, Naxçıvanın müharibə dövr tarixini əhatəli, faktik materiallar əsasında işləmişdir.*

*Kitab əhatəli müqəddimə ilə başlayır. Burada 1941-1945-ci illər müharibəsi dövründə naxçıvanlıların qəhrəmanlığı, əmək fədakarlıqları, nailiyyətləri, qazandıqları uğurlar, müharibəyə göstərdikləri kömək, layiq olduqları mükafatlar faktlar əsasında izah edilmiş, məqsəd və vəzifələr əsaslandırılmışdır.*

*Əsər səkkiz fəsil əsasında qurulmuş, xronoloji və məntiqi ardıcıllıq gözlənilmişdir. İkinci Dünya müharibəsi haqqında məlumat verən müəllif "Naxçıvan MSSR-də hərbi səfərbərlik" ilə Naxçıvanın 1941-1945-ci illər müharibəsində iştirakını, döyüş cəbhələrinə, alman-faşizm işğalçıları ilə müharibəyə başlamalarını əsaslandırmışdır. Tədqiqatçının ümumiləşdirməsindən məlum olur ki, müharibə illərində 29500 nəfər naxçıvanlı müharibəyə getmiş, onlardan 15500 nəfəri qəhrəmanlıqla həlak olmuşdur. Həlak olanlardan 994 nəfəri haqqında dəqiq məlumat əldə edilməmiş, 324 nəfər itkin düşmüş və 3691 nəfər yaralanmışdır.*





*Kitabda naxçıvanlıların döyüş qəhrəmanlıqlarına geniş yer verilmişdir. Sovet İttifaqı Qəhrəmanları Qəzənfər Əkbərov, Abbas Quliyev, Nəcəfqulu Rəfiyev, "Şöhrət" ordeninin hər üç dərəcəsinə layiq görülmüş Rəhim Rəhimov, general-mayor Akim Abbasov, Əkbər Ağayev, Nemət Kərimov, Bəxtiyar Kərimov və Naxçıvanın yüzlərlə igid övladlarının qəhrəmanlıqları göstərilmişdir. Müharibədə iştirak etmiş 127 nəfər naxçıvanlı qızlarımızın-S.Sultanova, Z.Camalbəyova, F.Məmmədəliyeva, S.Allahverdiyeva, F.Cəfərova, X.Abdullayeva, D.Təhməzbə yova, S.Şəfiyeva, L.Abdullayeva və başqalarının döyüş yolu, qəhrəmanlığı verilmişdir.*

*Naxçıvanın igid övladları partizan döyüşlərində və antifaşist müqavimət hərəkatında da fəal iştirak etmişlər. Əsərin dördüncü fəsli bu məsələyə həsr edilmişdir. Naxçıvanlı partizanlardan Zəfər Qədimov, Əli Babayev, Yunis Mirzəyev, Cəlil Rəfiyev, Əkbər Ağayev, Sadiq Nadirli, Firudin Hüseynov və başqalarının igidlikləri, qəhrəmanlıqları, qorxmazlıqları, şücaətləri faktlarla əsaslandırılmışdır.*

*Müharibə illərində arxa cəbhənin də üzərində çox məsul və çətin vəzifə düşürdü. Arxa cəbhədə çalışan qadınlar, təqaüdçülər və uşaqlar həm arxa cəbhədə olan əhalini yaşadır, həm də ön cəbhəni ərzaq məhsulları, geyim materialları, döyüş silah və sursatı, yanacaqla təmin edirdi. Naxçıvanlı əhali istiqraz vərəqələrinə yazılır, döyüşən əsgərlərə isti paltar göndərir, tank və təyyarə koloniyalarının yaradılmasına kömək göstərirdilər. Təkcə belə bir faktı qeyd edək ki, Şərur rayonundan Məmməd Əliyev 350 min manat, Hüseyn Əliyev 100 min manat, Allahverdiyev 80 min manat pul vermişlər. Beşinci fəsil arxa cəbhənin fəaliyyətinə həsr edilib.*

*Naxçıvanlılar işğaldan azad olmuş Çərkəs, Çerkassk vilayətlərinə də hər cür kömək göstərirdi.*

*Əsərdə müharibə illərində Naxçıvanın sosial-iqtisadi həyatına da diqqət yetirilmiş, mədəniyyətin inkişaf səviyyəsi xarakterizə edilmişdir.*

*Monoqrafiyada verilmiş cəbhə məktublarını həyacansız oxumaq mümkün deyildir və bunların o dövr üçün, elə bu gün üçün də çox böyük tərbiyəvi əhəmiyyəti vardır. Bu məktublar döyüş cəbhələrində qəhrəmanlıq göstərən cəsur naxçıvanlılarla arxa cəbhənin əlaqələri haqqında dolğun təsəvvür yaradır.*

*Kitabın sonunda 1941-1945-ci illərdə Naxçıvan şəhərindən müharibəyə getmiş, lakin itkin düşmüş 383 nəfərin, həlak olmuş 168 nəfərin, Culfa rayonu üzrə itkin düşmüş və həlak olmuş 329 nəfərin, Ordubad rayonu üzrə itkin düşən və həlak olanlardan 51 nəfərin, Şahbuz rayonu üzrə itkin düşən və həlak olanlardan 169 nəfərin, Şərur rayonu üzrə itkin düşən və həlak olanlardan 66 nəfərin, Naxçıvan (indiki Babək) rayonu üzrə itkin düşən və həlak olanlardan 551 nəfərin (bu axırıncı istisna olmaqla-müəlif) adlı siyahısı verilmişdir ki, bu da kitabın əhəmiyyətini və oxunaqlığını daha da artırır.*

*İnanırıq ki, tarix elmləri doktoru Fəxrəddin Cəfərovun "Naxçıvan İkinci Dünya müharibəsi illərində" əsəri geniş faktik və arxiv materialları əsasında yazıldığından, dövrün və hadisələrin dolğun mənzərəsini yaratdığından oxucuların ciddi marağına səbəb olacaqdır.*

***İsmayıl Hacıyev***
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***





## MÜQƏDDİMƏ

XX əsr dünya tarixində öz mürəkkəbliyi, sosial-iqtisadi, ictimai-siyasi hadisələrin qaynarlığı ilə seçilir. Hər iki dünya müharibəsinin məhz bu dövrdə baş verməsi ölkələr arasındakı qeyri-stabil vəziyyətdən və gərgin siyasi mühitdən xəbər verirdi.

Bəşər tarixinin ən irihəcmli müharibələrindən biri olan İkinci Dünya müharibəsi, onun dünya və Azərbaycan tarixindəki rolu həmişə tarixçilərin diqqət mərkəzində olmuş, onun müxtəlif kontekstlərdən şərhi və təhlili bir çox elmi işlərin, monoqrafiyaların, tarixi yazıların, məqalələrin mövzusuna çevrilmişdir.

Sovetlər dönəminin təkcə müharibə dövrü deyil, həmçinin 70 illik Sovet Azərbaycanın hər bir tarixi yaddaşı ötən əsrin ikinci yarısında və müasir dövrümüzdə ciddi tədqiq edilmiş, hərtərəfli öyrənilmişdir. Bu, xüsusən ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, əsrin görkəmli siyasi və dövlət xadimi olan Heydər Əliyev dəfələrlə xatırlatmışdır ki, "70 illik sovet dövründə dünya tarixi, o cümlədən Azərbaycan tarixi, Sovetlər İttifaqının ərazisində yaşayan digər millətlərin tarixi təhrif edilib. Ona görə də, tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır, tarixi təhrif etmək də olmaz, tariximizdəki qara ləkələri, qara səhifələri unutmaq da olmaz".

Ulu öndəri narahat edən məsələnin – Azərbaycanın faşizm üzərində qələbədəki payı hələ 70-80-ci illərdə öyrənilməyə başlanmış, onun diqqət və qayğısı nəticəsində odlu illərin salnaməsi – "Azərbaycan SSR Böyük Vətən müharibəsi dövründə (1941-1945-ci illər) "sənədlər və materiallar" məcmuəsinin 1976-cı ildə I cildi, 1977-ci ildə II cildi işıq üzü görmüş, "Azərbaycan SSR xalq təsərrüfatı Böyük Vətən müharibəsi illərində" adlı kollektiv əsər, "Azərbaycanlıların II

Dünya müharibəsində iştirakı" və s. kitablar yazılmışdır [22, s. 9].

Heydər Əliyev siyasi kursunu davam etdirən Azərbaycan Respublikası Prezidenti İlham Əliyev də Azərbaycan tarixinə, onun 1941-1945-ci illəri əhatə edən müharibə tarixinin öyrənilməsinə və təbliğinə daim diqqət yetirir, müharibə iştirakçılarının maddi-məişət şəraitinin yaxşılaşdırılması, onların sosial reabilitasiyası istiqamətində məqsədyönlü siyasət yeridir. Müharibə veteranlarına mənzillərin və avtomobillərin verilməsi, onların ailə üzvlərinin həyat şəraitinin yaxşılaşdırılması yönündə həyata keçirilən tədbirlər bu qayğının bariz nümunəsidir [22, s. 12].

İkinci Dünya müharibəsi XX əsrin ən dəhşətli müharibələrindən biri olmuşdur. 61 dövlətin, dünya əhalisinin dörddə üçünün iştirak etdiyi bu müharibə dünyanı yenidən bölmək uğrunda mübarizənin nəticəsi idi.

1939-cu il sentyabrın 1-də Almaniyanın Polşa üzərinə hücumu ilə başlayan İkinci Dünya müharibəsi getdikcə daha geniş miqyas alaraq, ümumilikdə 40 ölkənin ərazisini əhatə etmiş, çoxsaylı insan tələfatı ilə tarixə iz salmışdır.

Almaniya dünyaya liderlik iddiasını həyata keçirmək üçün ciddi rəqibi olan SSRİ ilə qarşı-qarşıya durdu. Sovet İttifaqını sıradan çıxarmaq Almaniya üçün zəruri addıma çevrilmişdi. Buna görə də 1941-ci il iyunun 22-də faşist Almaniyası SSRİ-yə hücum etdi və bəşər tarixində ən dəhşətli Alman-Sovet müharibəsi başlandı. Bəşəriyyət heç vaxt belə bir müharibə görməmişdi.

Sovet imperiyasının tərkibində olan xalqlar, onların Silahlı Qüvvəlləri nəinki öz Vətənlərinin şərəfini və azadlığını qoruyub saxladı, həm də bütün ölkəni faşist əsarətindən, faşist "taunundan" xilas etdi.

Vətənin faşist zülmündən azad olunmasında milyonlarla sovet əsgəri ilə yanaşı, azərbaycanlı, Azərbaycan SSR-in tərkib hissəsi olan Naxçıvan MSSR-dən olan döyüşçülər də müharibə





yollarında inamla addımladılar. Böyük qələbənin qazanılmasında həmyerlilərimizin göstərdikləri igidlik və şücaətlər, fədakarlıq, qorxmazlıq, rəşadət az rol oynamamış, xalqın qəhrəman oğulları vətən sevgisini bir daha sübut etmişlər. Bu illərdə Naxçıvan MSSR də daxil olmaqla, Azərbaycan SSR-dən səfərbər olunan 700 min nəfərdən 300 min nəfəri geri qayıtmamışdır.

Sənədlərdən məlum olur ki, 1941-1945-ci illərdə Naxçıvan MSSR-dən qızıl ordu sıralarına 29500 nəfər döyüşçü səfərbərliyə alınmış, bütün rayonlar üzrə könüllü dəstələri müharibənin ən qızğın yerlərinə göndərilmiş, 15500 nəfər misilsiz qəhrəmanlıq nümayiş etdirərək qanlı müharibənin qurbanı olmuşdur.

Müharibə günlərində vacib məsələlərdən biri də SSRİ Dövlət Müdafiə Nazirliyinin "Əhali arasında ümumi hərbi hazırlığın keçirilməsi" haqqında qərarını həyata keçirməkdən ibarət idi. Şəhər və rayon partiya komitələrinin hərbi şöbələri bu tədbirə fəal qoşulmuşlar. Nəticədə respublikada I, II, III, IV dərəcəli 5118 nəfər atıcı əsgər, 1425 nəfər minomyotçu, avtomatçı və pulemyotçular hazırlanmışdır. Bunların da 25 nəfəri qadın olmuşdur.

Qızıl ordu üçün muxtar respublikada komsomol təşkilatlarının köməyi ilə hərbi mütəxəssislərin hazırlanması ilə bağlı mütəmadi işlər aparılırdı. Müharibə dövründə 6485 komsomolçu cəbhəyə göndərilmişdir.

Vətən torpaqlarından çox uzaqlarda, başqa xalqların nümayəndələri ilə birgə ümumi düşmənə qarşı yenilməz mübarizə aparan naxçıvanlılar tarix salnaməmizə qızıl səhifələr yazmış, göstərdikləri şücaətə görə həmyerlilərimizdən üç nəfəri "Sovet İttifaqı Qəhrəmanı" kimi yüksək ada layiq görülmüşdür. 8 nəfər Lenin ordeni, 1 nəfər I, II, III dərəcəli Şöhrət ordeni, 102 nəfər Şöhrət ordeninin ayrı-ayrı dərəcələri, 105 nəfər I və II dərəcəli "Böyük Vətən Müharibəsi" ordenləri, 315 nəfər "Qırmızı Ulduz", 29 nəfər "Qırmızı Bayraq" ordenləri ilə təltif

olunmuşdur. Minlərlə döyüşçü müxtəlif medallar və Ali Baş Komandanlığın təşəkkürünü almışdır. Bu qəhrəmanlar arasında həkimlər, müəllimlər, hərbçilər, kolxozçular, mədəniyyət və incəsənət nümayəndələri və bir sıra başqa peşə sahibləri var idi. Vətənin çətin günlərində əli silah tutan hər kəs müzəffər qızıl ordu sıralarına qoşulur, alman faşistlərini məhv etmək üçün yekdil mübarizə aparırdılar.

Bunlardan Qəzənfər Əkbərov, Abbas Quliyev, Nəcəfqulu Rəfiyev, Qurban Qurbanov, Akim Abbasov, Bağır Bağırov, Ənvər Hacıyev, Yusif Qasımov, Sadıq İsmayılov, Bünyad İsmayılov, Həsənalı Səfərov, Yunis Zeynalov, Əkbər Məmmədov, İbrahim Məmmədov, Allahverdi Kərimov, Bəxtiyar Kərimov, Hacı Rzayev, Kərim Əliyev, Nemət Kərimov, Əli İsmayılov, Əli Əliyev, Əkbər Musayev, Baloğlan Rüstəmov, Ağa Ağayev, Kazım Kazımov, Əli Abdullayev, Məmməd Əliyev, Qasım Hacıyev və yüzlərlə başqaları cəbhənin ön sıralarında əzmkar mübarizə aparmış, sovet şəhərlərinin azad olunmasında qəhrəmanlıqla vuruşmuş, bir çox döyüşlərdə mübarizlik və mərdlik nümayiş etdirərək hitlerçi faşistlər üzərindəki qələbəyə öz paylarını qatmış, Azərbaycan qəhrəmanlıq tarixinə adlarını silinməz çalarlarla yazmağı bacarmışlar.

Müharibəyə yollanan naxçıvanlılar təkcə düşmənlə üzbəüz mövqelərdə qəhrəmanlıq nümayiş etdirməmiş, habelə partizan döyüşlərində və antifaşist hərəkatında da yaxından iştirak etmişlər. Partizan hərəkatında iştirak etmiş naxçıvanlı partizanlardan Zəfər Qədimovu, Bəşir Qaziyevi, Əlipaşa Rəcəbovu, Yunis Mirzəyevi, Əli Babayevi, Məmmədhüseyn Əliyevi, Məmməd Kərimovu, Sadiq Nadirlini, Firudin Hüseynovu, Rüstəm Hüseynovu, Qafar Cəfərovu, Cəlil Rəfiyevi, Abış Dünyamalıyevi, Buhenvald ölüm düşərgəsinin əfsanəvi qəhrəmanı Əkbər Atayevi, Zeynal Zeynalovu, Həşim Novruzovu və başqa cəsurlarımızın adlarını qeyd etmək olar. Bu partizanlar "Pobeda", "Matteati", "Qaribaldi", "Sparniedo",





"Franko", "Çapayev", "Avanqard" və digər partizan dəstələrinin tərkibində bir sıra əməliyyatlarda fəal iştirak etmişlər.

Partizan hərəkatına qoşulanların bəziləri almanlar tərəfindən əsir alınanlar olmuşdur ki, onlar antifaşist mübarizələrini düşmən əhatəsində də davam etdirmişlər.

Bunlardan Azərbaycan xalqının şanlı oğlu, igid zabit, "Piotto" ləqəbi almış Əli Babayev partizan əməliyyatlarına bacarıqla rəhbərlik etdiyinə, döyüşlərdə şəxsi igidlik və qəhrəmanlıq göstərdiyinə görə İtaliya Respublikasının "Gümüş medal" mükafatı ilə təltif edilmişdir.

"İvan Sport" ləqəbi ilə tanınmış Əkbər Ağayev də bir neçə dəfə alman ölüm düşərgələrində olmuş, ancaq öz mübarizəsini burdan da davam etdirmişdir. O, gizli təşkilatın fəal üzvləri ilə birlikdə bir sıra tapşırıqların yerinə yetirilməsində iştirak etmişdir.

Müharibə təkcə kişilərin səfərbərliyi ilə hüdudlanmayıb, qəhrəman qadınları da öz ətrafına yığmış, bir çox qadınlar arxa cəbhə ilə yanaşı, döyüş bölgələrində də bilavasitə iştirak etmişdilər.

Tarixən igidliyi və qorxmazlığı ilə kişilərdən heç də geri qalmadıqlarını sübut edən Azərbaycan qadınları İkinci Dünya savaşında da qızıl ordu sıralarına qoşuldular, vətənə məhəbbət və igidliklərini bir daha təsdiq etdilər.

Müharibənin ilk günlərindən muxtar respublikamızdan 100-dən çox qız hitlerçi işğalçılara qarşı qəhrəmancasına vuruşmuşdur. Ümumiyyətlə, müharibədə Naxçıvandan 127 nəfər qadın iştirak etmişdir. Onlardan bir çoxu Naxçıvan tibb məktəbinin yetirmələri idilər. Səfiyyə Sultanova, Zərifə Camalbəyova, Firuş Məmmədəliyeva, Surə Allahverdiyeva, Fövqiyyə Cəfərova, Xeyrənsə Abdullayeva, Xeyrənsə Axundova, Dilbər Təhməzbəyova, Səkinə Şəfiyeva, Zeynəb Şirəliyeva, Lora Abdullayeva, Səkinə Quliyeva, Zina Şirzadova, Gültac Zülfüqarova, Asiya Hüseynova, Vera Abbasova, Səkinə Vəliyeva və başqaları tibb bacısı və feldşer ixtisasına yiyələnərək

cəbhələrə getmiş, hərbi xəstəxanalarda, batalyonlarda, polklarda xidmət etmişdilər. Döyüşçülərin həyatı keşiyində yorulmaz mübarizə aparan qəhrəman qızlarımız da müxtəlif medal və ordenlərlə təltif olunmuşlar.

Müharibə qadınlarımızın kişilərlə birlikdə cəbhələrdə necə fəal iştirak etdiklərini, xüsusilə arxada öz atalarını, ərlərini və qardaşlarını necə fədakarlıqla əvəz etdiklərini, qələbəmizə misilsiz köməklik göstərdiklərini bir daha təsdiq etdi.

Müharibənin sonunda əldə olunmuş qalibiyyət ön cəbhə iştirakçılarının birbaşa igidliyi ilə əlaqədar olsa da, bu qələbədə arxa cəbhənin də rolu az olmamış, döyüş meydanlarındakı qızıl əsgərlər arxa cəbhədən arxayın olduğu kimi, arxa cəbhədəki əməkçilər də ön cəbhələrdəki uğurlardan ruhlanmış, ordu sıralarına qoşulan əmək silahdaşlarını əvəz etmiş, heç bir sahədə geriliyə yol verməməyə çalışmışlar.

Müharibə illərində ölkənin, eləcə də Naxçıvan MSSR-in zəhmətkeşləri işlərini daha yüksək tələblərə uyğun quraraq sənaye və kənd təsərrüfatı məhsullarında xeyli artımlara nail olmuşlar. Böyük Vətən müharibəsi dövründə arxa cəbhədə göstərilən əmək qəhrəmanlıqlarında qadınların böyük rolu olmuşdur. Bu illərdə Naxçıvanlı qızlar kənd təsərrüfatı texnikasını idarə edən əsas qüvvəyə çevrilmişdilər.

Müharibə şəraitində olan ölkəni əsas yeyinti məhsulları ilə təmin etmək arxa cəbhənin zəruri məqsədlərindən idi. Naxçıvan kolxozçuları və kolxozçu qadınları bu məqsədə yüksək göstəricilərlə nail olur, artım göstəricilərini ildən-ilə daha da çoxaldırdılar. Əgər 1940-cı ildə Naxçıvan MSSR üzrə dövlətə 2899 ton taxıl verilmişdirsə, 1944-cü ildə 3861 ton taxıl verilmişdir ki, bu da 1940-cı ilə nisbətən 962 ton çoxdur, yaxud 133.8 % təşkil edir. 1944-cü ildə dövlətə 1310 ton ət təhvil verilmişdir ki, bu da 1940-cı ildəkindən 202 ton, yaxud 18.3% artıqdır. 1940-cı ildə dövlətə 40 ton kartof təhvil verilmişdirsə, 1944-cü ildə 148 ton olmuşdur ki, bu da 1940-cı ilə nisbətən 370 % təşkil edir. Muxtar respublikamızda 1940-cı ildə dövlətə





1 kq olsun tərəvəz verilməmişdir, lakin müharibənin ən çətin ili olan 1944-cü ildə vətənpərvər kolxozçularımız və kolxozçu qadınlarımız dövlətə 641 ton tərəvəz vermişdir. Dövlətə yumurta təhvili 1942-ci ildə 1940-cı ilə nisbətən 215 % yaxud 467000 ədəd olmuşdur.

Müharibənin törətdiyi ciddi çətinliklərə baxmayaraq, muxtar respublikanın təsərrüfat təşkilatları bu ağır illərdə məhsul istehsalını artırmaq, məhsuldarlığı yüksəltmək və daxili imkanlarını tam səfərbərliyə almaq sahəsində çox iş gördülər. Bütün bu əmək fəallığına və yüksək məhsul əldə edildiyinə görə Naxçıvan MSSR Azərbaycan K/b/P MK-nın və Azərbaycan Xalq Komissarlar Sovetinin keçici qırmızı bayrağını və birinci dərəcəli pul mükafatını almışdır.

Kənd təsərrüfatının başqa sahələrində olduğu kimi, ferma işçiləri də böyük vətənpərvərlik hissi ilə çalışaraq ölkəyə və orduya çoxlu heyvandarlıq məhsulları vermişlər. Qızıl Ordu fonduna verilən ət 1944-cü ildə 845 sentnerdən 1945-ci ildə 2423 sentnerə çatdırılmışdır.

Müharibə illərində muxtar respublikanın sosial-iqtisadi həyatında təkcə aqrar sahədə artım müşahidə olunmurdu. Bu dövrdə muxtar respublikada ittifaq əhəmiyyətli sənaye müəssisələri də fəaliyyət göstərmişdir.

Bəhs olunan dövrdə Qızıl əsgər ailələrinə yardımlar bütün rayonlar üzrə aparılırdı. Həmin dövrdə Naxçıvan rayon ZDS İcraiyyə Komiteti yanında hərbi qulluqçu ailələrinin dövlət təminatı və yaşayış quruluşu şöbəsinin təşkilindən sonra Naxçıvan rayonunun ayrı-ayrı kəndlərində də hərbi qulluqçu ailələrinin vəziyyəti xeyli yaxşılaşmışdı. Təkcə 1942-ci ildə qızıl əsgər ailələrinə 5523837 manat dövlət yardımı verilmişdir. Qızıl əsgər ailəsi üzvlərindən 4179 nəfəri müxtəlif işə cəlb olunmuşdur. 1944-cü ilin 9 ayı ərzində 972 nəfər qızıl əsgər ailəsinə və 117 nəfər məzuniyyətə gəlmiş döyüşçülərə tibbi yardım göstərilmişdir.

Böyük Vətən müharibəsi illərində vətən yolunda həlak

olmuş şəxslərin ailə üzvlərinə 429.400 manat dövlət yardımı verilmişdir. 7174 nəfər əsgər ailəsi kolxoz, sovxoz, fabrik, zavod, idarə, müəssisə və təşkilatlarda işə düzəldilmiş, 1901 ailəyə isə 148.970 manat birdəfəlik pul yardımı olunmuşdur.

Təkcə dövlət tərəfindən deyil, həmçinin ayrı-ayrı kolxozlar və kolxozçular, müəllimlər, tələbələr, həkimlər, ümumiyyətlə, bütün əhali tərəfindən cəbhəyə və cəbhəçi ailələrinə geyim, ərzaq, pul və tibbi yardımlar göstərilir, bu haqda bir sıra ardıcıl və mühüm qərarlar qəbul olunurdu. Bu dövrdə istər təəhhüdlü kənd təsərrüfatı məhsulları dövlət tədarükü, istərsə də mənzil kommunal xidmətləri üzrə əldə olan qanunlara əsasən qızıl əsgər ailələrinə bir sıra güzəştlər verilmişdir.

1941-1945-ci illərdə "Şərq qapısı" qəzetində mütəmadi olaraq cəbhəyə və qızıl əsgər ailələrinə olan yardımlar haqda məlumatlar verilir, bu mövzuda ardıcıl məqalələr və çağırışlar dərc olunurdu. Bu yardımlara hətta məktəblilər də qoşulur, tətil günlərində kolxozlarda işləyərək əmək günlərindən əldə etdikləri gəliri fonda verirdilər. Xüsusən "Azərbaycanın gənc pioneri" tank dəstəsinin və "Azərbaycanın gənc pioneri" hərbi təyyarənin yaradılması fonduna edilən yardımlar çoxluq təşkil edirdi. Naxçıvanlı kolxozçular "Azərbaycan kolxozçusu" tank dəstəsi yaradılması və təyyarə fonduna yardım edilməsi işində də mütəşəkkil iştirak edirdilər.

Yardımlar təkcə pul və istiqraz vərəqələri ilə məhdudlaşmır, qızıl, gümüş, dəri, yun, papaq, əlcək, corab, çəkmə və s. də ola bilirdi.

Ümumiyyətlə, Naxçıvan MSSR zəhmətkeşləri Böyük Vətən müharibəsi illərində müdafiə fonduna 180 milyon 89 min manat pul, 12 kq qızıl-gümüş, yarım milyon ton taxıl, 160 min dəstdən çox isti paltar, 10 mindən artıq bağlama hədiyyə göndərmişlər.

Müharibə dövründə arxa cəbhədə göstərilən əmək qəhrəmanlıqlarında qadınların böyük rolu olmuşdur. Belə ki, bu zaman sənayedə və kənd təsərrüfatında çalışan zəhmətkeşlərin





əksəriyyəti qadınlar olmuşdur. Müharibə illərində naxçıvanlı qızlar kənd təsərrüfatı texnikasını idarə edən əsas qüvvəyə çevrilmişdilər. Belə ki, müharibədən əvvəl qadınlar mexanizator kadrların cüzi bir hissəsini təşkil etdikləri halda, 1943-cü ildə mexanizatorların yarıya qədəri qızlar idi. Ümumiyyətlə, bu müharibədə sovet qadınlarının vətənpərvərliyi özünü parlaq şəkildə biruzə verdi. 1943-cü il martın 8-də "Pravda" qəzeti yazırdı: "Bütün keçmiş boyu hələ heç zaman qadın öz vətəninin müdafiəsində, sovet xalqının Vətən müharibəsi günlərində olduğu kimi bu cür fədakarlıqla iştirak etməmişdir".

1941-1945-ci illərdə təkcə ön cəbhəyə və cəbhəçi ailələrinə deyil, həm də SSRİ-nin işğaldan azad olunmuş rayon və vilayətlərinə də yardımlar edilirdi. Azərbaycan hökuməti 1942-ci ilin aprelində xüsusi qərar qəbul etmiş, respublika əhalisini azad olunmuş rayonlara yardım fondu yaratmağa çağırmışdı.

27 sentyabr 1943-cü ildə Naxçıvan MSSR Xalq Səhiyyə Komissarlığının alman faşist işğalçılarından azad edilmiş Çərkəs vilayətinin əhalisinə və tibb müəssisələrinin bərpa edilməsinə köməklik haqqında yığıncaq keçirilmişdir. 29 sentyabr 1943-cü ildə Naxçıvan şəhər və rayon müəllimlərinin yığıncağı keçirilmişdir. Yığıncaqda müəllimlər Çərkəs vilayəinin bərpa edilməsində zəhmətkeşlərə kömək göstərməkdə fəal iştirak edəcəklərini bildirmişlər.

Naxçıvan MSSR zəhmətkeşləri alman faşist işğalçılarından azad olunmuş Stalinqrad və Çərkəs vilayətlərinin bərpa edilməsinə böyük ruh yüksəkliyi ilə kömək etmi°lər.

Ýkinci Dünya müharibəsi Azərbaycanýn, dolayýsý ilə Naxçývanýn mədəniyyət, təhsil, mə'buat və ədəbiyyatýna da təsirsiz ötüþmədi. Müharibəyə görə iþçi qüvvəsi, eləcə də ixtisaslý kadrlarýn sayý kəskin azalmýþdý.

Muxtar respublikanın məktəblərində çalışan 771 nəfər müəllimdən 570-dən çoxu döyüş cəbhələrinə qatılır. Onların əksəriyyəti döyüşlərdə fərqlənərək orden və medallarla təltif

olunur. Naxçıvan müəllimlərindən Qəzənfər Əkbərov "Sovet İttifaqı Qəhrəmanı" adı almışdır. Müəllimlərimizdən Məhərrəm Məmmədov "Aleksandr Nevski", Məmməd Camalov "Boqdan Xmelinski", Cəlal Hüseynov "Qırmızı Ulduz", Məmmədbağır Bağırov "Slava" ordenləri və başqa medallar almışlar.

Müharibə illərində arxa cəbhədə əmək rəşadətləri göstərmiş onlarca müəllimlərimiz dövlətimiz tərəfindən orden və medallarla təltif edilmiş, bir çox müəllimlərimizə "Azərbaycan Respublikasının əməkdar müəllimi" və "Naxçıvan MR-nın əməkdar müəllimi" kimi fəxri adlar verilmişdir.

Sovet-alman müharibəsi həyatın demək olar ki, bütün sahələri kimi, onun bədii inikası olan bədii ədəbiyyatda da öz izini buraxdı. Bu dövrdə Naxçıvanda da bir sıra yazıçı və şairlər fəaliyyət göstərirdi. "Şərq qapısı", "Ədəbiyyat" qəzetləri, "Vətən uğrunda" jurnalı yeni yazılan əsərləri işıqlandırmaq baxımından mühüm xidmət göstərirdi.

Bu dövrdə ədəbiyyatın müxtəlif janrlarında yeni nümunələr yaranır, sözün gücü ilə cəbhədəki döyüşçüləri ruhlandırır, qələbəyə səsləyirdilər. Sözü qılıncdan kəsərli sayan görkəmli ədəbiyyatşünas Əziz Şərifin "Kəskin silah" adlı məqaləsində oxuyuruq: "Qoy, bizim də bədii sözümüz cəbhədəki igid döyüşçülərimizi, arxadakı yorulmaq bilməyən fəhlə və kolxozçularımızı, gözünü həsrət və ümidlə döyüş cəbhəsinə dikən ana və bacılarımızı ruhlandırsın, onlarda cəllad hitlerçilərə qarşı sarsılmaz ədavət yaratsın, onları qarı düşmənə qarşı mübarizə üçün istər cəbhədə, istərsə də arxada səfərbərliyə alsın".

Müharibə dövründə "Alqış vətənimin sadiq oğluna", "Azərbaycan fəxr edir", "Danışan sünbüllər", "Vətən", "Cəbhədən məktub", "Yadigar", "Terek Sahilində", "Gözü yolda qalan yar", "Partizanın andı", "Sən könül mülkünün iftixarısan", "Xilaskar Ordu", "Ey vətən" şeirləri, "Polad", "Hal əhliləri" dram əsərləri, "Zərifə və Qəhrəman", "Həkim" povestləri, "Zaman", "Polad" pyesləri, "Şəlalə" romanı Naxçıvanda yaranan qiymətli ədəbi nümunələrdəndir.





Bu illərdən M.S.Ordubadi məhsuldar yaradıcılıqla məşğul olmuşdur. O, yenə də satirik şeir-felyetonlar yazmağa başlayır, bu mənzum felyetonlarda faşist işğalçılarını ifşa edir, onların iddia etdikləri kimi "Yenilməz" olmadıqlarını xalqa izah edirdi. "Canavarsan, canavar", "Hitlerin siqəxanasında", "Hitler cənnətində" felyetonları buna misal ola bilər.

Bu illərdə Ordubadi "Serjant İvanov adına körpələr evi" və "Xəstəxana" hekayələrini yazır. Bu hekayələr ədibin müharibə illərində yazdığı ən səmimi və təsirli əsərlərindəndir. Ədibin "Gənc çekistlər" romanı müharibə dövrü üçün əhəmiyyətli olan bir mövzudan bəhs edir.

Gənc şairlərin inam, vətənə bağlılıq, qələbə əzmi, mərdlik nümunələrini ehtiva edən, öz arzu və düşüncələrini əks etdirən ehtiraslı şeirləri dövri mətbuatda yer alıb dillər əzbərinə çevrilirdi. Şair Hüseyn Əzimin aşağıdakı misraları buna ən yaxşı örnəklərdəndir:

103528

Bu vətən düşmənə əyməmiş başın.
İgidlər qoruyur hər kiçik daşın.

Müharibə qələbə ilə yekunlaşdıqdan sonra ədəbiyyatdakı döyüşə, qəhrəmanlığa çağırış motivli əsərləri daha coşğun ilhamla, nikbin ovqatla yazılan əsərlər əvəz etməyə başladı.

Müharibənin gedişatında ən çətin yüklərdən biri də mətbuatın üstünə düşmüşdü. Böyük Vətən müharibəsi illərində də "Şərq qapısı" qəzeti təbliğatçı, təşviqatçı rolunu bacarıqla yerinə yetirmişdir.

Müharibənin başlanması haqqında ilk məlumat "Şərq qapısı" qəzetinin 25 iyun tarixli sayında dərc olunmuş Sovet Sosialist Respublikaları İttifaqı Xalq Komissarları Soveti sədrinin müavini və Xarici İşlər Komissarı V.M.Molotovun 22 iyun 1941-ci ildə radio ilə çıxışının tam mətni də verilmişdir.

Bütün müharibə dövründə digər yazılarla paralel olaraq cəbhəyə məktublar, yardımlar haqda məlumatlar da dərc olunurdu. Qəzetin 1942-44-cü ildə çıxmış nömrələrində Sovet İttifaqı Qəhrəmanları Abbas Quliyev, Qəzənfər Əkbərov,



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Nəcəfqulu Rəfiyev, cəsur komandirlərdən Akim Abbasov, Əsgər Əhmədov, Nemət Kərimov, Əli Məmmədov, Allahverdi Kərimov, Mehdi Mahmudov, İsmayıl Sayılov, Əsgər Hüseynov, Cəfər Məmmədov və onlarla başqalarının Böyük Vətən müharibəsindəki qəhrəmanlıqlarından danışılır.

Mətbuat işi təkcə Naxçıvanda deyil, həmçinin də Şərur, Şahbuz, Ordubad və Əbrəqunus (indiki Culfa) rayonlarında da fəaliyyət göstərirdi. Bu qəzetlərdə müharibə dövründə rayon zəhmətkeşlərinin düşmənlə mübarizə aparmağı, arxa cəbhədə görülən işlər işıqlandırılır, cəbhədən təzə xəbərlər, həmyerlilərimizin şücaətindən bəhs edən materiallar və foto-şəkillər dərc edilirdi.

Böyük Vətən müharibəsi illərində muxtar respublikanın incəsənət işçiləri böyük həvəslə, mətanətlə çalışmışlar.

Böyük Vətən müharibəsinin başlanması ilə Azərbaycanda olduğu kimi, Naxçıvan teatrının yaradıcılığında da xeyli dəyişikliklər oldu. Əllərinə silah alaraq cəbhəyə yollananlar arasında Naxçıvan teatrının da kolektivindən var idi. Ön cəbhədə vuruşan teatrın əməkdaşlarından biri Sovet İttifaqı Qəhrəmanı Abbas Şahbaz oğlu Quliyev idi.

Müharibə dövrünün sənədlərindən və qəzetlərdən məlum olur ki, 1941-ci ilin 6 ayında cəmi üç əsər tamaşaya qoyulmuşdur. Bunlar C.Cabbarlının "Od gəlini" (30 yanvar 1941-ci ildə), M.H.Təhmasibin "Bahar" (fevral 1941-ci ildə), S.Rüstəmin "Qaçaq Nəbi" (8 aprel 1941-ci ildə) olmuşdur. İlin ikinci yarısında isə Ə.Haqverdiyevin "Pəri cadu", S.Rəhmanın "Toy", O.Sarıvəllinin "Babək" əsərləri tamaşaya qoyulmuşdur.

Teatrın əmrlərində 1942-ci ilin əvvəllərində Naxçıvan Dövlət Dram Teatrının aktyorları tərəfindən Osman Sarıvəllinin "Babək" (13 fevralda), Ü.Hacıbəyovun "Leyli və Məcnun" (15 fevral və 6 mayda), "Əsli və Kərəm" (28 fevral), Abdulla Şaiqin "Vətən oğlu", M.İbrahimovun "Məhəbbət" və s. əsərlərin hazırlanıb göstərilməsi haqda məlumat verilmişdir.

Müharibə dövründə Naxçıvan Dövlət Dram Teatrı





repertuarında olan tamaşalarla rayonlarda, hərbi xəstəxanalarda da çıxışlar edirdi.

Bu dövrdə incəsənətin digər sahələri də inkişafdan qalmamışdı. 1943-cü ildə Naxçıvan ASSR XKS yanında İncəsənət İşləri İdarəsinin təşəbbüsü ilə Naxçıvanda Dövlət cazı təşkil edilmişdir. Teatra olan maraq nəzərə alınaraq 1944-cü ildə Ordubadda Dövlət Dram Teatrı təşkil edilir.

21 avqust 1944-cü il tarixdə Naxçıvan ASSR Xalq Komisarları Soveti yanında İncəsənət İşləri İdarəsinin rəisi İsa Musayev Azərbaycan İncəsənət İşləri İdarəsinin rəisi Rəhimova göndərdiyi sənəddə xalqımızın mədəni tələbini ödəmək üçün bir sıra incəsənət obyektlərinin yaradılması üçün müraciət etmişdir. Göndərilən sənəddə Naxçıvan şəhərində musiqi orta məktəbinin açılması, Dövlət Filarmoniyası, Şəxsi yaradıcılıq evi, Rəssamlıq məktəbi, İncəsənət muzeyi, Ordubad rayonunda musiqi məktəbi, Şərur rayonunda dövlət teatrı kimi bir sıra obyektlərin yaradılmasının zəruriliyi nəzərə çatdırılmışdır.

Həmçinin kitabda müharibə illərində həlak olan və itkin düşən naxçıvanlılar haqqında da məlumat verilmişdir.

Bütün bu göstərilənlər deməyə əsas verir ki, Böyük Vətən müharibəsi illərində Naxçıvan müharibəyə hərtərəfli yardımlar etmiş, ciddi çətinliklərin yaşandığı bu sınaq illərində öz gücünü, qəhrəmanlığını ön cəbhədə, zəhmətkeşliyini, insansevərliyini arxa cəbhədə bir daha təsdiq etmişdir. Qələbənin əldə olunmasında Azərbaycanın böyük payının olması onun ayrı-ayrı bölgələrinin iradəsindən, dözümlülüyündən xəbər verir. Bu mənada Naxçıvanın yeri və rolu xüsusi olmuş, onun tarixində İkinci Dünya müharibəsi dövrü silinməz hərflərlə yazılmışdır.

## İKİNCİ DÜNYA MÜHARİBƏSİNİN BAŞLANMASI

Bəşər tarixində baş verən saysız-hesabsız müharibələr içərisində miqyasına, toqquşan tərəflərin maraqlarına və digər məsələlərə görə İkinci Dünya müharibəsi xüsusi yer tutur.

İkinci Dünya müharibəsi əks geosiyasi mövqelərdə çıxış edən aparıcı dövlətlərin dünyanı yenidən bölmək uğrunda mübarizəsinin nəticəsi idi.

Əsas məqsədi Sovet İttifaqını sıradan çıxarmaq olan faşist Almaniyası 1941-ci il iyunun 22-də SSRİ-yə hücum etdi və bəşər tarixində ən dəhşətli Alman-Sovet müharibəsi başlandı. Dünya heç vaxt belə bir müharibə görməmişdi.

Hitler Almaniyasının və onun müttəfiqlərinin təpədən dırnağa qədər müasir hərbi texnika ilə silahlanmış 190 diviziyası Barents dənizindən tutmuş Qara dənizə qədər geniş cəbhə boyunca Sovet Ordusuna qarşı hərbi əməliyyata başladı. Alman faşistlərinin hərbi hava qüvvələri Ukrayna və Belarusiyanın, Pribaltika respublikalarının şəhər və kəndlərini, hərbi obyektlərini, hərbi-dəniz bazalarını, təyyarə meydanlarını, dəmir yol stansiyalarını güclü surətdə bombardman edirdilər [25, s. 10].

Alman faşistlərinin SSRİ-yə qarşı işğalçı müharibədə imperialist məqsədlərlə yanaşı, həm də mürtəce sinfi məqsədləri var idi. Onlar SSRİ-nin azad xalqlarını faşist əsarəti altına salmaq istəyirdilər. Hitlerçilər Ukraynanı, Belarusiyanı, Qafqazı, Pribaltikanı, Krımı Almaniyaya qatmaq kimi xam xəyallar bəsləyirdilər.

Faşist Almaniyasının SSRİ üzərinə xaincəsinə basqını sovet xalqını dinc quruculuq işindən ayırdı. SSRİ-nin bütün xalqları silaha sarılaraq öz sosialist vətəninin azadlıq və istiqlaliyyətini qoruyub saxlamaq üçün döyüşə qalxdı. Beləliklə, tarixdə yeni bir dövr – Sovet İttifaqının faşist Almaniyasına qarşı müharibəsi dövrü başlandı. Bu müharibə xalqımızın tarixində olmuş müharibələrdən ən ağır və dəhşətlisi idi. Bu





müharibədə SSRİ xalqlarının müqəddəratı, onların ölüm-dirim məsələsi həll olunurdu.

Sovet hökuməti 1941-ci il 22 iyun tarixli bəyanatında, ÜİK(b)P MK və SSRİ XKS-nin 23 iyun tarixli qərarında, SSRİ XKS və ÜİK(b)P MK-nın 29 iyun tarixli dekretlərində və Dövlət Müdafiə Komitəsinin sədri İ.V.Stalinin radio ilə 3 iyul tarixli çıxışında partiya və sovet orqanlarının, ictimai təşkilatların və bütün zəhmətkeşlərin müharibə şəraitində vəzifələri müəyyən edildi. Sovet İttifaqının faşist Almaniyasına qarşı müharibəsinin siyasi və strateji məqsədləri aydınlaşdırıldı, düşmənə qarşı mübarizənin konkret proqramı işlənib hazırlandı.

Düşmənə qarşı mübarizədə bütün qüvvələri səfərbər etmək üçün SSRİ Ali Soveti Rəyasət Heyətinin, SSRİ Xalq Komissarları Sovetinin və ÜİK(b)P Mərkəzi Komitəsinin 1941-ci il 30 iyun tarixli qərarı ilə İ.V.Stalinin sədrliyi altında Dövlət Müdafiə Komitəsi yaradıldı. DMK fövqəladə səlahiyyətə malik olub, ölkənin bütün siyasi və inzibati hakimiyyətini, ictimai və hərbi idarəsini öz əlində cəmləşdirmişdi [25, s. 14-15].

O zaman SSRİ-yə daxil edilmiş bütün respublikalar, o cümlədən Azərbaycan SSR də bu dəhşətli müharibəyə cəlb olundu. Bütün Azərbaycan xalqı kimi Naxçıvan əhalisi də o zaman ümumi vətən sayılan SSRİ-nin müdafiəsinə qalxdı.

Geniş cəbhə boyu hücuma keçmiş alman faşist qoşunları üç istiqamətdə - "Şimal" qrupu orduları Pribaltika və Leninqrad istiqamətində, "Mərkəz" qrupu orduları Minsk-Smolensk-Moskva istiqamətində, "Cənub" qrupu orduları isə Ukrayna-Krım-Rostov istiqamətində irəliləyirdilər. Sovet qoşunları qəflətən hücum nəticəsində təşəbbüsü öz əlinə alsa da, faşist ordusunun güclü zərbələri altında böyük itki verərək geri çəkildi.

Müharibənin birinci on günü ərzində düşmən sürətlə irəliləyərək Litvanın, Latviyanın, Belarusiyanın və Ukraynanın xeyli hissəsini ələ keçirə bildi [25, s. 25].
Lakin cəbhədəki ilk müvəffəqiyyətsizliklər sovet xalqını

sarsıtmadı. Vətənin müdafiəsində köksünü sipərə çevirən sovet adamları, o cümlədən azərbaycanlıların yüksək mənəvi keyfiyyəti özünü parlaq surətdə göstərdi.

Çoxmillətli sovet ordusunun əsgər və komandirləri müharibənin ilk günlərindən misilsiz qəhrəmanlıq nümunələri göstərərək Vətən müharibəsi tarixinə şanlı səhifələr yazdılar. Düşmən bütün sərhəd boyu sovet adamlarının ciddi müqavimətinə, mətin iradəsinə rast gəldi. Sərhəddi qoruyan hər bir əsgər əsl alovlu vətənpərvər kimi hərəkət edir, düşmənlə son nəfəsinədək vuruşurdu.

Sovet Azərbaycanı SSRİ-nin tərkibində olduğu üçün hələ 1939-cu ilin payızından müharibəyə cəlb olunmuşdu. Onun igid oğul və qızları sovet-fin müharibəsinə getmişdilər. 1941-ci ilin iyununda Sovet İttifaqı müharibəyə qoşulduqdan sonra Azərbaycan da faşizmə qarşı müharibəyə cəlb olundu, cəbhəyə kütləvi səfərbərlik elan olundu. Müharibə illərində Azərbaycan döyüşən cəbhəyə 600 min oğlan və qız göndərdi. Onlardan 40 mini könüllü olaraq cəbhəyə yollanmışdı. Müharibədə azərbaycanlılardan ibarət 77-ci, 223-cü, 271-ci, 402-ci, 416-cı diviziyalar formalaşdırıldı. 227-ci və 396-cı diviziyaların tərkibində də azərbaycanlılar çoxluq təşkil edirdilər.

Vətənin faşist zülmündən azad olunmasında milyonlarla sovet əsgəri ilə yanaşı, Azərbaycan SSR-nin tərkib hissəsi olan Naxçıvan MSSR-dən olan döyüşçülər də müharibədə fəal iştirak etdilər.

1941-1945-ci illərdə Azərbaycan SSR-dən olan on minlərlə döyüşçü, hitlerçi işğalçılarla vuruşlarda böyük rəşadət və qəhrəmanlıqlar göstərmişdi. Sovet İttifaqı Qəhrəmanları Həzi Aslanovun, Ziya Bünyadovun, İsrafil Məmmədovun, Qafur Məmmədovun, Abbas Quliyevin, Gəray Əsədovun, Qəzənfər Əkbərovun, Səməd Abdullayevin, Müseyib Allahverdiyevin, Adil Quliyevin, Aslan Vəzirovun, Nəcəfqulu Rəfiyevin və bir çox başqa qəhrəmanların adları şanlı tarixə qızıl





hərflərlə yazılmışdır.

İkinci Dünya müharibəsində səfərbər olunan 110 milyon nəfərdən 50 milyonu məhv olmuşdu. Məhv olan əhalinin 33%-i hərbçi, 67%-i isə mülki şəxslər olmuşdu. Bu müharibədə ən çox itki verən SSRİ idi. Belə ki, 1941-1945-ci illərdə SSRİ 29000000 nəfər vətəndaşını itirmişdir. Onlardan 12 milyon nəfəri hərbçi, 17 milyon nəfəri isə mülki vətəndaş idi. Bu illərdə Naxçıvan MSSR də daxil olmaqla Azərbaycan SSR-dən səfərbər olunan 600 min nəfərdən 300 min nəfəri geri qayıtmamışdı. Müharibə nəticəsində SSRİ-nin 1700 şəhər və qəsəbəsi, 70 min kəndi dağıdılmış, 35 milyon əhali evsiz-eşiksiz qalmışdı.

Müharibənin birinci həftəsi ərzində respublikada 40 min nəfərdən çox oğlan və qız cəbhəyə getmək üçün ərizə ilə hərbi komissarlıqlara müraciət etmişdilər. Onlardan 5 min nəfərdən çoxunu naxçıvanlılar təşkil edirdi. Yenə də müharibənin ilk həftəsi Naxçıvan əhalisi 7 min nəfər igid oğul və qızını döyüş cəbhələrinə yola salmışdı. 10 min nəfərdən çox naxçıvanlı xalq qoşunu və qırıcı batalyonların sıralarına yazılmışdı. Muxtar respublikanın minlərlə oğul və qızı vətən saydıqları Sovet İttifaqının hər qarış torpağını sinələri ilə qoruyaraq öz canlarını belə qurban verməkdən çəkinmədilər. Onların adları bütün ölkədə tanındı [97, s. 116].

Respublikamızın fəhlələri, kəndliləri və ziyalıları Sovet hökumətinin düşməni dəf etmək üçün bütün ölkəni vahid ordugaha çevirmək haqqındakı göstərişini həyata keçirərək, şəhər və kəndlərdə xalq qoşunu dəstələrinə yazılır, qırıcı batalyonlar təşkil edir, müəssisələrdə və evlərdə özünümüdafiə dəstələri yaradırdılar. Artıq 4 iyul 1941-ci ilə kimi Naxçıvan MSSR-də 7 min nəfər xalq qoşunları sıralarına yazılmışdı. Ümumiyyətlə, Azərbaycan SSR-də 186704 nəfər xalq qoşunu dəstələrinə yazılmışdı. Xalq qoşunu dəstələrinə fəhlələr, kolxozçular və qulluqçularla yanaşı respublikanın ziyalıları, yazıçıları, incəsənət işçiləri, pensiyada olan hərbçilər də daxil

olurdular [11, s. 25].

1941-ci il 22 iyul tarixə olan məlumata görə muxtar respublika üzrə 10 min 595 nəfər xalq qoşunu sıralarına yazılmışdı. Bunlardan 3208 nəfəri qadınlar idi [32, v. 2].

Naxçıvan şəhərində və rayonlarda 185 hava hücumundan və kimyəvi hücumdan müdafiə dərnəkləri yaradılmış və onların işinə şəhər və kəndlərdən gəlmiş 6212 nəfər cəlb olunmuşdur. Bunlardan əlavə, mülki müdafiə ilə bağlı müəssisələrdə, evlərdə və kolxozlarda 1134 nəfəri əhatə edən 31 özünümüdafiə qrupu yaradılmışdır [97, s. 117].

İkinci Dünya müharibəsi cəbhələrində vuruşan naxçıvanlılar öz iş yerlərinə, ata-analarına göndərdikləri məktublarında Vətənə axıradək sadiq olacaqlarına, Azərbaycan xalqının qəhrəmanlıq ənənələrini qoruyacaqlarına, düşmənlə amansız olacaqlarına müqəddəs and içirdilər.

17 iyun 1943-cü ildə bir qrup azərbaycanlı döyüşçü Naxçıvan MSSR zəhmətkeşlərinə göndərdikləri məhəbbət hissi ilə dolu olan məktubda yazırdılar: "Hörmətli ata, ana, bacı və qardaşlarımız! Sizdən çox uzaq məsafədə yerləşən Vətən müharibəsi cəbhələrindən göndərdiyimiz səmimi döyüşçü salamımızı qəbul edin.

Azərbaycan xalqının bizə, öz istəkli balalarına yazdığı məktubun hər bir kəlməsi bizi düşməndən yeni və amansız intiqam almağa ruhlandırır. Doğma xalqımızın tapşırığını bir dəqiqə də olsun yaddan çıxarmır və çıxarmayacağıq. Bütün fikrimiz doğma sovet torpağını alman faşistlərinin məzarına çevirmək və bu torpağı tezliklə onlardan təmizləməkdir. Buna görə də biz Sovet İttifaqının qardaş xalqları ilə birlikdə çiyin-çiyinə gedərək, Vətən torpağının hər bir qarışını köksümüzlə qoruyuruq.

İgid babalarımızın döyüş məharətini davam etdirmək, tezliklə həyasız düşmənin axırına çıxmaq müqəddəs borcumuzdur.

Əzizlərimiz, sizi inandırırıq ki, biz Azərbaycan oğulları





ata-analarımızın, bacı-qardaşlarımızın və öz övladlarımızın yanında həmişə alnıaçıq olacağıq. Vətən yolunda öldü var, döndü yoxdur!" [ 72, v. 26-28].

Məktubu naxçıvanlı Abbasəli Bayramov, Hüseyn Hüseynov, Şərur rayonundan Təhməz Vəliyev, maştağalı Məstan Məstanov və gəncəli İsgəndər İsgəndərov imzalamışdılar.

İkinci Dünya müharibəsi illərində sovet xalqının alman faşist işğalçılarına qarşı mübarizəsi cəbhədəki və ölkəmizin müvəqqəti işğal olunmuş ərazisindəki partizan müharibəsi ilə məhdudlaşmırdı. On minlərlə sovet adamı Fransada, Yuqoslaviyada, İtaliyada, Polşada, Çexoslovakiyada, Albaniyada, Bolqarıstanda, Rumıniyada, Norveçdə və başqa ölkələrdə silaha sarılaraq bu ölkələrin şanlı oğulları ilə çiyin-çiyinə faşistlərə qarşı mətanətlə vuruşurdu. Bu mübarizədə misilsiz əsgəri rəşadət göstərən Əli Babayev, Cəlil Rəfiyev, Cavad Həkimli, Mehdi Hüseynzadə, Zəfər Qədimov, Sadıq Nadirli, Məmmədhüseyn Kərimov, Mirdaməd Seyidov və başqalarının adlarını nəinki SSRİ xalqları, eyni zamanda Avropa ölkələrinin xalqları da böyük iftixar hissi ilə yad edir və onların xatirəsini əziz tuturlar.

İkinci Dünya müharibəsi illərində sovet adamları faşizmə qarşı müxtəlif mübarizə üsullarından məharətlə istifadə etmişdilər. Onlar gizli antifaşist təşkilatlar yaradır, əsirlərin qaçıb partizan dəstələrinə qoşulmasını təşkil edir, faşistlərə işləyən sənaye müəssisələrində təxribat, ziyankarlıq işləri ilə məşğul olurdular. 1942-1944-cü illərdə azərbaycanlı əsirlər Polşanın Yedlina, Almaniyanın Noyqammer-Ştrans, Fransanın Rodez, İtaliyanın Udine, Triyestin Opçina şəhərlərində gizli antifaşist təşkilatlar yaratmağa nail olmuşdular [25, s. 422-423].

İkinci Dünya müharibəsində qazanılmış qələbənin çox böyük tarixi əhəmiyyəti oldu. Bütün xalqların, o cümlədən Azərbaycan xalqının bu qələbədəki rolu istər daxildə, istərsə də xaricdə hamılıqla qəbul edilmişdi.

Müharibə illərində Moskva, Leninqrad, Sevastopol, Odessa, Stalinqrad, Kiyev və digər şəhərlərin azad edilməsində, Qafqaz uğrunda gedən şiddətli döyüşlərdə, sovet ordusunun sonrakı hücumlarında, partizan əməliyyatlarında, Berlin uğrundakı döyüşlərdə azərbaycanlı, eləcə də naxçıvanlı döyüşçülər igidlik göstərmişlər.

Avropa ölkələrində əldə etdikləri yüngül qələbələrdən başı gicəllənmiş faşistlər İkinci Dünya müharibəsində sovet xalqının, onun rəşadətli ordusunun ciddi müqavimətinə rast gəldilər. Düşmən ölkəmizin içərilərinə doğru böyük itki bahasına irəliləyirdi. Alman faşist ordusu komandanlığının məlumatına görə, 1941-ci il iyulun ortalarına qədər hitlerçilər 100 min əsgər və zabit, 1000 təyyarə, 1500 tank və xeyli miqdarda digər hərbi texnika itirmişdilər [25, s. 33].

Alman faşist komandanlığının qəfləti güclü zərbələrlə Sovet Silahlı Qüvvələrini əzib müharibəni bir neçə həftə ərzində qurtarmaq planları ilk döyüşlərdə alt-üst edildi.

Azərbaycanın İkinci Dünya müharibəsində iştirakı, faşizm üzərində qələbədə xalqımızın payı ümummilli lider Heydər Əliyevin həmişə diqqət mərkəzində olmuşdur. Ulu Öndər demişdir: "Biz onu xatırlayırıq ki, faşizm üzərində qələbə kimi ümumi işə Azərbaycan xalqı özünün çox böyük və misilsiz töhfəsini vermişdir. Azərbaycan sakinlərinin beşdə biri bizim ümumi vətənin müdafiəsinə qalxmışdır. 3- 4 milyon əhali arasında 680 mindən çox kişi və qadın cəbhəyə getmiş, onların 300 mindən çoxu qəhrəmancasına həlak olmuşdur" [22, s. 12].

İkinci Dünya müharibəsində olan 61 dövlətin, dünya əhalisinin 1.700 milyon nəfərinin və ya dörddə üçünün iştirak etdiyi bu müharibə 40 ölkənin ərazisində getmiş 110 milyon adam, yaxud Birinci Dünya müharibəsindəkindən 40 milyon nəfər artıq insan hərbi səfərbərliyə alınmışdır. Müharibədə 50 milyondan çox insan yaralanmış və şikəst olmuşdur. Təkcə Sovetlər birliyi müharibədə 27 milyon nəfər itki vermişdir [17, s. 14].





## NAXÇIVAN MSSR-DƏ HƏRBİ SƏFƏRBƏRLİK

Arxiv sənədlərindən aydın olur ki, müharibənin ilk günlərində ayrı-ayrı yerlərdə keçirilən saysız-hesabsız mitinq və yığıncaqlar xalqın tam birliyinin parlaq nümunəsinə çevrildi. O ağır, qanlı-qadalı günlərdə fəhlələr, qulluqçular, kolxozçular və ziyalılar dəstə-dəstə hərbi komissarlığa gəlir, döyüşən ordu sıralarına göndərilmələrini xahiş edirdilər. 1941-ci il 03 iyula olan məlumata görə Naxçıvan Muxtar Respublikası üzrə 10495 nəfər, o cümlədən 7287 kişi və 3208 nəfər qadın ərizə vermişdir. Bundan 1127 partiyaçı, 2158 nəfər komsomolçu və 7210 nəfəri isə bitərəf idi. Ərizə verənlərdən 1127 nəfər partiyaçı, 2156 nəfər komsomolçu, 3208 nəfər bitərəf səfərbərliyə alınaraq ordu sıralarına yola salınmışdılar [42, v. 88-89; v-6].

Muxtar respublikamızın zəhmətkeşləri hökumətin alman faşistlərini məhv etmək üçün bütün ölkəni vahid ordugaha çevirmək haqqındakı göstərişlərini həyata keçirərək şəhər və kəndlərdə xalq qoşunu dəstələrinə yazılır, qırıcı batalyonlar təşkil edir, idarə və müəssisələrdə, evlərdə özünümüdafiə dəstələri yaradırdılar.1941-ci il 22 iyul tarixə olan məlumata görə muxtar respublika üzrə 10 min 595 nəfər xalq qoşunu sıralarına yazılmışdır. Bunlardan 3208 nəfəri qadınlar olmuşdur [45, v, 2].

Sənədlərdən məlum olur ki, 1942-ci ilin fevral ayına olan məlumata görə, Naxçıvan şəhəri üzrə 116 nəfər, Culfa rayonu üzrə 14 nəfər, Ordubad rayonu üzrə 11 nəfər, Əbrəqunus (Culfa) rayonu üzrə 40 nəfər, Şahbuz rayonu üzrə 60 nəfər, Şərur rayonu üzrə 177 nəfər və Naxçıvan (Babək) rayonu üzrə 52 nəfər müəllim hərbi komissarlığa ərizə verərək səfərbərliyə alınmış, cəbhələrdə vuruşmaq üçün göndərilmələrini xahiş etmişdilər [37, v, 19].

Naxçıvan rayon partiya təşkilatı partiyanın ən yaxşı oğullarından, partiya üzvü namizədlərindən 677 nəfərini Qızıl ordu sırasına göndərmişdir. Onların bir çoxları "416-cı Qızıl

bayraqlı Taqanroq" diviziyasında olmuşlar.

Naxçıvan rayon komsomol təşkilatı gənclərdən 2567 nəfərini Qızıl ordu sırasına göndərmişdir [47, v, 44-45].

Böyük Vətən müharibəsi illərində təkcə Sədərək kəndindən 462 nəfər döyüşçü ordu sıralarına getmiş və 199 nəfəri geri qayıtmışdır [97, s. 28].

1941-1945-ci illərdə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonundan Böyük Vətən müharibəsinə təqribən 5600 nəfər rayon Hərbi komissarlığı tərəfindən səfərbərliyə alınmış və onlardan 760 nəfəri yaralı geri qayıtmışdır [14, s. 4-5].

Böyük Vətən müharibəsi illərində 4.007 nəfər şərurlu döyüşən ordu sıralarına səfərbər edilmiş, onlardan 394 nəfəri həlak olmuş, 2.395 nəfər itkin düşmüşdür [106.2007.14 may].

Ölkədə səfərbərlik edildiyi gündən əli silah tutan bütün Şərur rayonunun Zeyvə-Düdəngəliləri də könüllü surətdə ordu sıralarına getmək üçün müraciət etmiş, bunların 250 nəfəri müharibəyə yola salınmışdır ki, onların da 106 nəfəri döyüşlərdə həlak olmuşdur.

Həmin illərdə bu kəndlərin bir nəfər də olsun sakini əsgəri çağırışdan yayınmamışdır. Kənddə yaşayan və səfərbərlik yaşına çatmış hər kəs cəbhəyə yola düşmüşdür. Müharibəyə gedənlər içərisində 16 nəfər müəllim, 10 nəfər həkim, 19 nəfər peşəkar hərbçi olmuşdur. Onların 17 nəfəri müxtəlif rütbəli zabitlər, 20 nəfərdən artığı isə starşina və serjant olmuşdur [105.2005.9 may].

Müharibənin ilk günlərindən Kəngərli yurdunun zəhmətkeşlərinin bütün səyləri vahid məqsədə – faşizmin darmadağın edilməsinə yönəlmişdi. Onlar böyük ruh yüksəkliyi ilə yekdillik, hərbi dövrünün bütün çətinliklərini dəf etməyə hazır olmaq əzmini nümayiş etdirdilər.

Kəngərli kəndlərində keçirilən mitinq və yığıncaqlardan sonra fəhlələr, kolxozçular, ziyalılar dəstə-dəstə hərbi komissarlığa gələrək cəbhəyə getmələrini xahiş edirdilər. Bu ağır illərdə Kəngərli ərazisindən 1370 nəfər cəbhəyə getmişdir.





Onlardan 600 nəfəri faşizmə qarşı mübarizədə müharibə veteranı adını qazanmışdır [11.2005.10 may].

Babək rayonundan müharibəyə 1250 nəfər göndərildi, bu igidlərin 1050 nəfəri döyüş meydanlarında həlak oldu, itkin düşdü [12.2009.4 may].

Bu ağır, qanlı müharibədə Cəhri sovetliyindən 613 nəfəri faşizmə qarşı ölüm-dirim mübarizəsi aparmışdır. Onların yarıdan çoxu geri qayıtmamışdır. Sağ qalanların əksəriyyəti əlil olmuşdur [104.2005.30 aprel].

Babək rayonunun Nehrəm kəndindən müharibəyə 641 nəfər yollanıb, onlardan 409 nəfəri Vətən yolunda qəhrəmancasına həlak olub [104.2005.8 may].

Böyük Vətən müharibəsinin ilk günlərində muxtar respublikanın həkim və orta tibb işçilərinin xeyli hissəsi Vətənin çağırışına cavab olaraq Sovet Ordusu və Hərbi Dəniz Donanması sıralarına səfərbərliyə alınmışdır. Həkimlərdən Tofiq Sultanovu, Mehdi Bağırovu, Abbas Əliyevi, Əbdüləli Tahirovu, Əkbər İsmayılovu, Camal İbrahimovu, Əkbər Fəttahovu, Valentina Suxovanı, Abdulla Abdullayevi, Əzim Kazımovu, Hacı Mehdiyevi, Cabbar Cəfərovu, orta tibb işçilərindən Dilbər Təhməzbəyovanı, Zərifə Camalbəyovanı, Xeyrənsə Abdullayevanı, Səffiyyə Sultanovanı və başqalarını göstərmək olar ki, onların da müharibənin başa çatmasında, düşmən üzərində qələbədə xidmətləri böyük olmuşdur [26, s. 86-87].

Müharibə günlərində vacib məsələlərdən biri də SSRİ Dövlət Müdafiə Nazirliyinin "əhali arasında ümumi hərbi hazırlığın keçirilməsi" haqqında qərarını həyata keçirməkdən ibarət idi. Şəhər və rayon partiya komitələrinin hərbi şöbələri bu tədbirə fəal qoşulmuşlar. Nəticədə respublikada I, II, III, IV dərəcəli 5118 nəfər atıcı əsgər, 1425 nəfər minomyotçular, avtomatçılar, pulemyotçular hazırlanmışdır ki, bunların da 25 nəfəri qadın olmuşdur [29, v-9].

Şahbuz rayon Osoaviaxim şurası Böyük Vətən

müharibəsi dövründə 2.300 nəfər Voroşilov nişançısı, 380 nəfər avtomatçı, 1.020 nəfər "Hava hücumundan müdafiə" nişançısı hazırlamışdır [98.1945.30 oktyabr].

Böyük Vətən müharibəsi günlərində muxtar respublikanın komsomol təşkilatlarının işi haqqında yazılan arayışdan aydın olur ki, respublikanın komsomol təşkilatları gənclərin hərbi tərbiyəsi üzrə əhəmiyyətli işlər görmüşdülər. Müharibə dövründə 6485 komsomolçu cəbhəyə göndərilmişdir. Qızıl ordu üçün respublikada komsomol təşkilatlarının köməyi ilə hərbi mütəxəssislərin hazırlanması ilə bağlı mütəmadi işlər aparılırdı. Müharibə dövrü ərzində 2889 komsomolçu ümumi məcburi hərbi təhsil bölmələrində 110 saatlıq ümumi məcburi hərbi təhsil proqramını keçərək müxtəlif hərbi ixtisaslara yiyələnmişlər. Təkcə müharibə vaxtı komsomolçulardan 100 nəfər pulemyotçu, 155 nəfər avtomatçı, 70 nəfər minomyotçu, qırıcı tanklar 432, 527 nəfər snayperçi, 35 nəfər əl pulemyotçusu, 166 nəfər tibb bacısı, 467 nəfər sanitar drujinaçı, 38 nəfər teleqrafçı, 10 nəfər telefonçu, 143 nəfər döyüş süngülərinin təlimatçıları hazırlanmışdı [34, v. 34].

Sənədlərdən məlum olur ki, müharibə illərində 29500 nəfərdən çox naxçıvanlı səfərbərliyə alınmış, düşmənə qarşı misilsiz şücaət göstərmişdir. Müharibədə rəşadətlə vuruşaraq 15500 nəfərə qədər naxçıvanlı həlak olmuşdur [83, v. 3].

Həmçinin sənədlərdən görünür ki, 994 nəfər həlak olmuş, 324 nəfər itkin düşmüş və 3691 nəfər müharibənin gedişində ağır yaralanıb şikəst halda Naxçıvana qayıtmışdır [83, v. 1-21].





## NAXÇIVANLILAR ÖN CƏBHƏLƏRDƏ: CƏBHƏ MƏKTUBLARI










İkinci dünya müharibəsi cəbhələrində mərdliklə vuruşan Naxçıvanın oğul və qızlarından bir çoxu Qafqazın ətəklərindən Berlinə qədər şanlı döyüş yolu keçmiş, vətən uğrunda qanını belə əsirgəməmişdir. Bu qəhrəmanlardan partizan dəstəsinin komandiri Əli Babayev və Buhenvald qəhrəmanı, mərd döyüşçü Əkbər Ağayev, İtaliya partizan hərəkatının fəal iştirakçısı Cəlil Rəfiyev, general-mayor Akim Abbasov, Nemət Kərimov, Əjdər Hacıyev, Adil Cəfərov, Qurban Qurbanov, Bağır Bağırov, Yusif Qasımov, Sadıq İsmayılov, Baloğlan Rüstəmov, Kazım Kazımov, Bünyad İsmayılov, Həsənalı Səfərov, Yunis Zeynalov, Yaqub Zalov, Əkbər Məmmədov, İbrahim Məmmədov, Bəxtiyar Kərimov, Əli Kərimov, Ənvər Hacıyev, Mirməmməd Seyidov, Allahverdi Kərimov, Zeynalabdin Kazımov, Ağoş Mirişli, Həmid Mürsəlov, Əli Şeyxov, Əli Əliyev, Yunis Əliyev, Hacı Rzayev, Əli İsmayılov, Hüseyn Rzayev və on minlərlə naxçıvanlı ölkəmizdən çox-çox uzaqlarda belə ümumi düşmənə qarşı ölüm-dirim mübarizəsi aparmışlar.

Müharibə illərində adı dillər əzbəri olmuş naxçıvanlı qəhrəmanlardan biri Əkbərov Qəzənfər Qulam oğludur. O, 1917-ci ildə Naxçıvanın Cəhri kəndində anadan olmuş, 1940-cı ildə Naxçıvan Müəllimlər İnstitutunu bitirmiş, 1941-ci ildə Qoşadizə kənd məktəbinin müdiri işləmişdir. Faşist Almaniyası SSRİ-yə hücum etdikdən sonra Sovet Ordusuna səfərbər edilmiş, Tbilisi topçuluq məktəbində təhsil almışdır. Təhsilini başa vurduqdan sonra 1942-ci ildə Şimali Qafqaza göndərilmişdir. Döyüş yoluna Qafqaz dağlarının ətəklərindən başlayan Q.Əkbərov topçu komandir kimi Ukraynanın, Belarusiyanın alman faşistlərindən təmizlənməsində fəal iştirak etmişdir.



**Qəzənfər Əkbərov**

O, 1944-cü il avqustun 3-də Belarusiyanın Volojin şəhəri ətrafında





gedən döyüşlərdə misilsiz qəhrəmanlıq göstərmişdir. Onun başçılığı altında üç nəfər topçu almanların beş ağır tankına qarşı qeyri-bərabər döyüşə girmiş, bir neçə saat davam etmiş döyüşdə düşmənin 4 tankı, 60-dan artıq əsgər və zabiti məhv edilmişdi. Bu döyüşdə Q.Əkbərov qəhrəmanlıqla həlak olsa da, düşmənin hücumunu dayandırmağa və beləliklə də öz döyüş yoldaşlarının mühasirəyə düşməsinin qarşısını almağa nail olmuşdur.

Qəzənfər Əkbərov 1944-cü ilin avqust ayında Volojin qəsəbəsinin azad edilməsi uğrunda döyüşlərdə düşmənin bir neçə tankını yandırmış, canlı qüvvəsini məhv etmişdir. Naxçıvanın mərd oğlu bu vuruşmada həlak olmuşdur. Ona bu qəhrəmanlığına görə SSRİ Ali Soveti Rəyasət heyətinin 1944-cü il 26 oktyabr tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir [79, v. 2].

Naxçıvan Muxtar Respublikasında Q. Əkbərovun xatirəsi əbədiləşdirilmişdir. Ona Cəhri kəndində abidə qoyulmuşdur. Adına küçə və məktəb vardır.

Naxçıvan zəhmətkeşlərinin fəxr etdikləri qəhrəmanlardan biri də Abbas Şahbaz oğlu Quliyevdir. O, 15 sentyabr 1916-cı ildə Babək rayonunun Şəkərabad kəndində anadan olmuşdur. Naxçıvan şəhərində yeddiillik təhsil aldıqdan sonra Bakıda Pedaqoji məktəbə daxil olmuşdur. Təhsilini başa vurduqdan sonra Naxçıvana qayıtmış, Dövlət Musiqili Dram Teatrında işləməyə başlamışdır.

Böyük Vətən müharibəsi başlananda Abbas Quliyev də cəbhəyə yollanır.

Faşistlər 1942-ci ilin axırlarından etibarən Sovet Ordusunun başladığı zəfərli hücumu Dnepr sahillərində dayandırmaq fikrində idilər. Lakin qəhrəman döyüşçülərin qarşısıalınmaz hücumu nəticəsində düşmənlər Dneprin sahillərindən qovuldular. Bu döyüşdə



**Abbas Quliyev**

yüksək şücaəti ilə fərqlənənlər sırasında Abbas Quliyev də var idi. Hücum zamanı onun komandirlik etdiyi topçu dəstəsi düşmənə sarsıdıcı zərbələr endirərək qəhrəmanlıq nümayiş etdirmişdi.

Cəsur komandir Poltava torpağında misilsiz döyüş rəşadəti, dönməz iradəsi və hərbi bacarığı ilə şöhrət qazanmışdı. 1944-cü ilin avqustunda o, vacib bir hərbi tapşırığı yerinə yetirdi. Gecə ikən Visla çayının sağ sahilinə keçərək mövqe tutmuş və üç gün fasilələrlə gedən qeyri-bərabər döyüşdə sovet əsgərlərinin çayı maneəsiz keçib düşməni darmadağın etmələri üçün əlverişli şərait yaratmışdı. O, Poltava və Xarkov ətrafında gedən döyüşlərdə də igidlik və qəhrəmanlıq nümunəsi göstərmişdi. Bütün bunlara görə Abbas Quliyev I dərəcəli "Vətən müharibəsi", "Aleksandr Nevski", "Qızıl Ulduz" və "Qırmızı Bayraq" orden və medalları ilə təltif edilmişdi.

Visla çayının sahillərində gedən döyüşlərdən ağır yaralı çıxan Abbas Quliyevə 1945-ci il fevralın 25-də Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir [72, v. 3].

Abbas Quliyev 1997-ci ildə vəfat etmişdir.

Qəhrəmanlardan söz açarkən Nəcəfqulu Rəcəbli oğlu Rəfiyev (08.04.1912-24.12.1970) haqqında fəxrlə danışmaq lazımdır. O, Ordubad şəhərində anadan olmuşdur. 1941-ci ilin avqustunda Poltava ətrafındakı vuruşmalarda Nəcəfqulu Rəfiyevin tankçılar dəstəsi düşmənin 2 ağır tankını, 6 topunu, 50-dən çox əsgərini məhv etmişdir. 1941-ci ilin sentyabrında isə N.Rəfiyevin tankçılar dəstəsi düşmənin 16-ya qədər müxtəlif topunu, 1 tankını, 40 düşmən əsgərini məhv etmiş, 3 əsgərini isə əsir tutmuşdu [25, s. 76]. 1943-cü ilin payızında Çerniqov və Qoml vilayətlərinin birləşdikləri yerdə qanlı döyüşlər gedirdi. Düşmən ağır tələfata uğramasına baxmayaraq Terexovka yaşayış məntəqəsini ələ keçirməyə nail



Nəcəfqulu Rəfiyev





olmuşdu. Düşmən qoşunların irəliləməsinə maneçilik törədirdi. Bu zaman polkovnik Kovalyov kiçik leytenant N.Rəfiyevə deyir: "Düşməni Terexovkadan vurub çıxarmalısınız. Zərbə sarsıdıcı və qəti olmalıdır".

Bəli, belə də oldu. Əfsanəvi "34-lər" ("KV-T-34" markalı tank deməkdir) tank vzvodu desantçılarla birlikdə ildırım sürətilə hücuma keçdi. Şiddətli vuruşma başladı. Vətənə məhəbbət hissi qalib gəldi. Hücum gözlənilmədən olduğundan faşistlər özlərini itirdilər. Nəcəfqulu Rəfiyev iki atəş nöqtəsini darmadağın etdi. Bu döyüşlərdəki qəhrəmanlığına görə "Qırmızı Bayraq" ordeni ilə təltif edildi [96, s. 14].

O, tank vzvodunun komandiri kimi Cənub-Qərb, Şimali Qafqaz, 1-ci Belarusiya cəbhələrində alman-faşist işğalçılarına qarşı vuruşmalarda iştirak etmişdir. 1944-cü ilin yayında Minsk şəhəri yaxınlığında gedən vuruşmalarda Baronoviçi şəhərinin azad edilməsində şücaət və qəhrəmanlıq göstərmişdir. O, SSRİ Ali Soveti Rəyasət heyətinin 1944-cü il 9 sentyabr tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür [77, v. 2].

Terek sahilində və Mozdok rayonunda müdafiə döyüşləri zamanı Azərbaycan oğulları yüksək vətənpərvərlik, misilsiz igidlik göstərirdilər. Düşmən Qroznı-Bakı istiqamətində hücuma keçərkən Sovet Silahlı Qüvvələrinin müqavimətini qırmaqda öz tank hissələrinə böyük ümid bəsləyirdi. Odur ki, faşistlər Qroznı-Bakı istiqamətinə daha çox tank və mexanikləşdirilmiş hərbi qüvvələr yeritmişdilər. Mozdok rayonunda gedən müdafiə döyüşlərində Zaqafqaziya cəbhəsi şimal qrupunun tərkibində olan 44-cü ordu düşmənə ağır zərbə endirmişdir. Döyüşlərdə 402, 416, 223, 77-ci Azərbaycan diviziyaları böyük şücaət və igidlik göstərmişdir [92, s. 50-51].

Şimali Qafqazdakı 44-cü ordunun hücum əməliyyatlarında 402-ci Azərbaycan diviziyası da fəal iştirak etmişdir. 1942-ci il noyabrın 3-dən dekabrın 11-dək diviziya

10-a qədər yaşayış məntəqəsini azad etmişdir. Bu döyüşlərdə diviziyanın döyüşçüləri düşmənin 108 tank və zirehli maşınını sıradan çıxarmışdır [5, v. 62].

Rəfiyev Ukraynanın faşist işğalçılarından azad edilməsi əməliyyatlarında rəşadətlə vuruşmuşdur. Təkcə bir döyüşdə düşmənin bir neçə tankını və topunu məhv etmiş, 29 avtomaşınını yandırmış, əsirlikdə olan 200 nəfər əsgərin həyatını xilas etmişdir. Cəbhədə göstərdiyi şücaətə görə qəhrəman bir "Lenin" ordeni, iki "Qırmızı Ulduz" ordeni və çoxlu medalla təltif edilmişdir.

1942-ci ilin dekabrında bu diviziyanın igid oğlu, mayor Akim Abbasovun komandanlıq etdiyi 833-cü polk Mozdokun şimal-şərqində İşşersk-Kapustino-Novo-Lednev-Mojorsk yaşayış məntəqələri xəttində vuruşurdu. Almanlar polkun mövqeyinə 100-ə qədər tank və zirehli maşınla hücuma keçdilər. Lakin onlar igid sovet döyüşçülərinin mətanətini qıra bilmədilər. Əlavə qüvvə alan düşmən ikinci dəfə hücuma keçdi. Akim Abbasov Vətəninə olan sonsuz sədaqəti ilə döyüşçüləri qələbəyə ruhlandırdı.

Döyüşdən əvvəl o, üzünü yoldaşlarına çevirib dedi ki, biz burada ya qəhrəman olub qayıtmalıyıq, ya da qəhrəman kimi ölməliyik. Faşistlərə qarşı igid bir azərbaycanlı kimi döyüşməliyik. Sevimli komandirin alovlu müraciətindən ruhlanan döyüşçülər düşmənin canlı qüvvəsini və texnikasını daha amansız məhv etməyə başladılar. Düşmən döyüş meydanında 17 tank, 2 zirehli maşın, çoxlu əsgər və zabiti itirdi [92, s. 51-52].


General-mayor Akim Abbasov

Sonrakı gün düşmən yenidən hücuma keçdi. 10 saat davam edən döyüşdə düşmənin 13 hücumu dəf edildi. Bu döyüşdə A.Abbasovun döyüş yoldaşları misilsiz şücaət göstərdi. Akim Abbasovun polku iki gündə düşməni 34 kilometr geri qovmuş, 4 yaşayış məntəqəsini azad etmiş, 2 müqavimət nöqtəsini ləğv etmişdir. Bu müddət A.Abbasovun polku düşmənin 36 tankını, 3 avtomaşınını, 7 radiostansiyasını, 5 minomyot artilleriya batareyasını və 500-dən çox əsgər və zabitini məhv etmişdi.





Döyüşdə igidlik göstərdiyinə görə polkun 72 döyüşçüsü SSRİ orden və medalları ilə təltif edilmişdir. Mayor A.Abbasov isə "Qırmızı Bayraq" ordeni ilə təltif edilmiş və ona podpolkovnik rütbəsi verilmişdir.

Zaqafqaziya cəbhəsinin komandanı, ordu generalı İ.V.Tulenev yazmışdı: "Faşistlər A.Abbasovun bölməsi tərəfindən müdafiə olunan mövqelər üzərində 70-dən 100-ə qədər tankla 30 dəfə hücum etdi. Almanlar top və pulemyotlardan atəş açır, tankların tırtılları ilə hər şeyi əzib məhv edirdilər. Azərbaycanlı döyüşçülər bir çox yoldaşlarının həlak olduğunu görürdülər. Lakin onlar düşmənin 36 tankını yandırdılar və məhv etdilər, həm də hər dəfə sübut etdilər ki, qoçaq əsgər tankdan güclüdür" [24,1943, 25 fevral].

1941-ci ilin payızında alman-faşist ordusu Ukrayna və Belarusiyanı zəbt edib Leninqradı mühasirəyə aldı, böyük qüvvələrlə Moskvaya doğru hücuma keçdi. Faşist komandanlığı Moskvanı hələ 1941-ci ilin yayında ələ keçirməyi planlaşdırsa da, Sovet ordusunun müqaviməti buna imkan vermədi. Alman-faşist komandanlığı 1941-ci ilin sentyabrında Moskvanı almaq üçün yeni qoşun-canlı qüvvə və texnika gətirdi. Canlı qüvvəyə görə faşistlər Moskva müdafiəçilərindən 1.8, tankların sayına görə 1.5, topların, minomyotların sayına görə 1.25 və təyyarələrin sayına görə 3.2 dəfə çox idi [11, s. 45].

1941-ci il sentyabrın 30-da alman-faşist qoşunları Moskva istiqamətində hücuma keçdi. Ölkənin paytaxtı təhlükə altında idi.

"Kommunist" qəzetinin 1943-cü il 23 fevral tarixli nömrəsindəki "Azərbaycanlılar hücumda" sərlövhəli məqalədə oxuyuruq: "Qoşunlarımızın müvəffəqiyyətindən qəzəblənən

faşistlər xeyli qüvvə toplayaraq, topların köməyi ilə yenidən əks-hücuma keçirlər. Mayor Akim Abbasovun komandir olduğu hissənin hücumunu dayandırmaq üçün faşistlərin 30-dan çox tankı və xeyli piyadası bir gündə beş dəfə əks hücuma keçmişdir. Lakin hissənin igid döyüşçüləri Azərbaycan xalqına məxsus igidliklə vuruşaraq, hitlerçilərin müqavimətini qırdılar. Düşmənlər döyüş meydanında vurulub sıradan çıxarılmış 17 tank, bir rotaya qədər əsgər və zabitin meyidini qoyub geri çəkilməyə məcbur oldular".

207-ci atıcı alayının və 402-ci atıcı diviziyasının komandiri olan Akim Abbasov Şimali Qafqazda, Belqrad şəhəri altında gedən döyüşlərdə başçılıq etdiyi hissəni cəsarətlə hücuma aparmış, misilsiz qələbələr qazanmışdır.

Ordu generalı İ.V.Tulenyev "Azərbaycan tarixi" kitabındakı xatirələrində yazır: "Qafqazın igid oğlu ölməyə razı olar, adını ləkələməz. Bu, bir həqiqətdir. Mayor Akim Abbasovun hissəsinin müdafiə etdiyi məntəqə üzərinə 70-dən 100-ə dək alman tankı 13 dəfə hücum etdi. Düşmənlər top və minomyotlardan atəş açırdılar. Azərbaycanlı döyüşçülər 13 hücumun hamısını rəşadətlə dəf etdilər".

"Vətən qəhrəmanları" adlı cəbhə qəzetinin 1942-ci il 27 dekabr tarixli nömrəsindəki "34 kilometr irəli adlı məqalədə yazılır: "Akim Abbasov yoldaşın hissəsi bir neçə gün ərzində 34 kilometr irəliləmiş, dörd yaşayış məntəqəsini, iki müqavimət nöqtəsini azad etmiş, faşistlərin 79 tankını, 3 avtomobilini, 2 radio-stansiyasını məhv etmiş, 7 minaatan batereyanın atəşini susdurmuş, 250-dən artıq əsgər və zabitini qırmışdır. Hissənin onlarla igid döyüşçüsü və komandiri müxtəlif orden və medallarla, o cümlədən Akim Abbasovun özü "Qırmızı bayraq" ordeni ilə təltif edilmişdir.

Moskva uğrunda vuruşmada Akim Abbasov alman-faşist işğalçılarına qarşı mübarizədə göstərdiyi hünər və yüksək dövlət mükafatı olan "Qırmızı bayraq" ordeni ilə təltif olunması münasibəti ilə Naxçıvanın komsomolçu gəncləri A.Abbasovun





adına 4002 manat dəyərində olan bir qutu sovqat və məktub göndərmişdilər. Məktubda komsomolçu gənclər yazırlar: "Hörmətli Akim Abbasov yoldaş! Böyük Vətən müharibəsinin gərgin vəziyyəti Sizi bir müddət bizdən ayırmışdır. İndi Siz bizim şanlı Qafqazı azğın alman quldurlarından məharətlə müdafiə edirsiniz. Sizin məharətiniz və gözəl planlarınızla düşmənə vurulan ağır zərbələr haqqında xəbərləri eşitdikdə və məktubda oxuduqda sevincimizin nə qədər artdığını təsəvvür edə bilmirik.

Əziz dostumuz və həmyerlimiz! Sən ümumi iş dairəsində həmişə bizimləsən. Bizim ölkədə arxa ilə cəbhənin əlaqəsi və dostluğu getdikcə möhkəmlənir, artır. Biz çox yaxşı başa düşürük ki, yaxşı işləməyimiz sizin qələbənizi təmin edir. Düşmənin tamamilə darmadağın və məhv olunmasını yaxınlaşdırır.

Hörmətli Abbasov yoldaş! Biz, Naxçıvan gəncləri sənin adına yeni bayram sovqatları göndərməklə öz məhəbbət və hörmətimizi Sizə bildirir, vətən uğrunda xalqımızın şərəfi və namusu uğrunda sonadək sönməz bir qüvvə ilə mübarizə etməyinizi arzu edirik. Bu yalnız bizim deyil, bütün ölkənin və zəhmətkeş xalqımızın arzusudur".

Akim Abbasov Naxçıvan zəhmətkeşlərinə göndərdiyi cavab məktubunda yazır: "Göndərdiyiniz məktubu və hədiyyəni aldıq. Vətənimizin müdafiəçilərinə bu diqqət və qayğınız üçün sizə təşəkkür edirik. Keçirdiyimiz döyüşlərdə bizim hissəmizdəki Azərbaycan oğulları Azərbaycan xalqının etimadını şərəflə doğruldurlar.

Vətən qarşısında öz borcunu şərəflə yerinə yetirən hissəmizin döyüşçülərindən və komandirlərindən 73 nəfərinə yüksək qiymət verilərək, onlar orden və medallarla təltif edilmişlər.

Hazırda insanlığın vəhşi düşməni olan alman faşist işğalçılarına qarşı qəti hücuma keçmək üçün hissəmizin bölmələri arasında böyük hazırlıq aparılır.

Komandir və siyasi işçilərimiz qarşıda qoyulan vəzifəni şərəflə yerinə yetirirlər. Biz əminik ki, Böyük Vətən müharibəsi cəbhələrində yaxşı təcrübə qazanmış hissəmizin bütün şəxsi heyəti bu dəfə də alman faşistlərini sevimli vətənimizdən qovmaq və məhv etmək vəzifəsini əla surətdə yerinə yetirəcəkdir.

Sizə Qızıl ordunun arxasını daha da möhkəmləndirmək üçün yaxşı işlər arzu edirik. Sizin şəxsinizdə Naxçıvan rayonunun bütün zəhmətkeşlərinə səmimi salam göndəririk".

"N" hissəsinin komandiri
podpolkovnik A.Abbasov.
"N" hissəsi komandirinin
siyasi hissə üzrə müavini
mayor Məmmədov".

Qafqaz dağları ətəklərində döyüşə girən əsgərlər hitlerçilərə ağır zərbələr endirirlər. Qızğın döyüşlərdə Akim Abbasovun hərbi istedadı özünü büruzə verir. Komandanlıq onun igidliyini, hərbi qabiliyyətini yüksək qiymətləndirərək ona daha məsul vəzifələr tapşırır.

21 yanvar 1943-cü ildə Naxçıvan MSSR Hərbi Komissarlığının kollektivinin tapşırığı ilə mayor Qocayev Akim Abbasova göndərdiyi məktubunda yazır: "Naxçıvan MSSR Hərbi Komissariatı kollektivi, vətənimiz üzərinə quldurcasına basqın etmiş alman faşist işğalçılarına qarşı mübarizədə hünər göstərməyinizə görə yüksək dövlət mükafatı olan "Qırmızı bayraq" ordeni ilə təltif edilməniz münasibətilə Sizi hərarətlə təbrik edir və qızğın salam göndərir.

Biz səninlə fəxr edirik. Əminik ki, Sizin Qafqaz cəbhəsində alman faşist yırtıcılara qarşı apardığınız mübarizə faşist köpəklərini sovet torpağından, gözəl Qafqazdan tamamilə qovulub darmadağın edilməsilə nəticələnəcəkdir.

Sizə can sağlığı və düşmənlə mübarizədə yeni müvəffəqiyyətlər arzu edirik".

Böyük və şanlı döyüş yolu keçən Akim Abbasov sıravi





əsgərlikdən general-mayor rütbəsinədək yüksəlir, diviziyaya başçılıq edir.

Akim Abbasov dörd il vətən yolunda, el yolunda ağır döyüşlərdə iştirak etsə də, düşmən gülləsi ondan qorxmuş, ona dəyməmişdir. Cəsur döyüşçü, mahir sərkərdə döyüş cəbhələrindən sağ salamat qayıtmış, uzun illər sevimli peşəsində çalışaraq, gənc əsgərlərə və zabitlərə hərbi təlim keçmişdir. Akim Abbasovun ehtiyata buraxılması ilə əlaqədar olaraq Zaqafqaziya qoşunları hərbi şurasının 1967-ci il 14 yanvar tarixdə generala təqdim etdiyi fəxri fərmanda yazılır: "Sıravi əsgərlikdən general-mayor rütbəsinə qədər şərəfli bir döyüş yolu keçən Akim Abbasov Sovet Silahlı Qüvvələri sırasında 36 il komandanlıq etmişdir.

Hərbi kadrların yetişdirilməsində, vətənimizin düşmənlərdən xilas edilib təmizlənməsində Sizin böyük xidmətiniz vardır. Bunu unutmaq olmaz" [23.1975,9 fevral].

Akim Abbasov 1992-ci ildə vəfat etmişdir.

O gün gənc Qurban da sürücü paltarını soyunub əsgər paltarı geyindi. Sükanı buraxıb silahdan yapışdı. Müharibə bir çoxları kimi onu da doğma evindən, ailəsindən, canından artıq sevdiyi balalarından ayrı saldı.

1942-ci ilin may ayı. Stalinqrad uğrunda şiddətli döyüşlər gedir... Don çayının yaxınlığındakı meşələr və təpələrin arası faşist quldurları ilə doludur. Çayın sahilindəki müşahidə məntəqəsində yalnız iki nəfər var: Polk komandiri Veniamin Aleksandroviç Xolin, onun sürücüsü, bizim həmyerlimiz Qurban Abdulla oğlu Qurbanov.



Qurban Qurbanov

Vəziyyət gərgindir... Telefon xətti kəsildiyindən hissə ilə əlaqə saxlamaq mümkün deyildi. Faşistlərin hücumu gözlənilir. Ya məhv olmaq, ya da əsir düşmək qorxusu var. Lakin Qurbanın qorxmazlığı

onları yaxınlaşan fəlakətdən xilas etdi.

Qurban burada göstərdiyi şücaətə görə "Stalinqradın müdafiəsinə görə", bir az sonra isə "Döyüş xidmətlərinə görə" medalı ilə təltif edildi. Müharibədən qabaq Naxçıvan MSSR Xalq Torpaq Komissarlığında çalışan sürücü Qurban Qurbanov 24 iyun 1943-cü ildə öz işçi yoldaşlarına göndərdiyi məktubunda yazır: "Sizə səmimi döyüşçü salamlarımı yetirir və əllərinizi sıxıram. Mən Naxçıvan MSSR Xalq Komissarlığında necə çalışdımsa, cəbhədə ondan on qat artıq gücümlə çalışıram. Komandirlərim mənim işimə yüksək qiymət verirlər.

4 dəfə təşəkkür almış və 1943-cü ilin yanvar ayında "Döyüş xidmətinə görə" medalı ilə təltif edilmişəm. Özüm də qvardiyaçı sürücüyəm. İndi Stalinqrad cəbhəsində almanlardan qənimət alınmış avtomobildə işləyir, düşmənin tezliklə məhv edilməsi uğrunda yorulmaq bilmədən çalışıram. Sürücüsü olduğum polkovniki hara göndərirlərsə, məni də özü ilə aparır. O, çox yaxşı və qayğıkeş adamdır.

Əziz işçi yoldaşlarım! Qəhrəman Ordumuzun qış hücumu zamanı çoxlu sovet şəhərini və kəndini əclaf düşməndən azad etdik. Alman faşistlərinin dinc sovet əhalisinə verdiyi əzabın şahidi oldum. Bu məni düşmənə qarşı daha amansız olmağa çağırır. Düşmənə elə bir zərbə vuracağıq ki, o, bir daha özünə gələ bilməyəcəkdir. Məndən ailə üzvlərinizə və bütün tanışlara salam söyləyin.

Hörmətlə: Sizin Qurban Qurbanov.
24 iyun 1943-cü il [105].

Döyüş tapşırıqlarını həmişə şərəflə yerinə yetirən, öz komandirini dəfələrlə fəlakətdən qurtarmış bu cəsur əsgəri, mahir sürücünü cəbhə dostları böyük məhəbbətlə sevirdilər.

Polk komandiri Xolin döyüş saatlarında da, istirahət vaxtı da, hətta yemək stolu arxasında da bir an da olsun Qurbandan ayrılmır, onun simasında öz xilaskarını görürdü.

Qurban Qurbanov öz cəbhə dostları ilə birlikdə qardaş





Litvanın, Latviyanın və Estoniyanın azadlığı uğrundakı mübarizələrdə də fəal iştirak etdi. O, uçub dağılmış şəhər və kəndləri, alovlarda yanan zəmiləri, oğul deyə haray çəkən anaları, alovlarda yandırılan körpələri gördükcə qəlbi düşmənə qarşı nifrətlə alovlanırdı. O, Pribaltika Respublikalarının azadlığı uğrundakı döyüşlərdə göstərdiyi şücaətlərə görə iki dəfə "Qırmızı bayraq" ordeni ilə təltif edildi.

Belqrad, Vitebsk və Şaulya şəhərlərinin faşist işğalından azad olunmasında göstərdiyi xidmətlərə görə üç dəfə Ali Baş Komandanlığın təşəkkürünü aldı.

Sinəsində avtomat Arazın günəşli sahilindən Oderə qədər vüqarla addımlamış, gözü ilə odlar, alovlar görmüş Qurban Qurbanov 1945-ci ildə faşist Almaniyası üzərində "Qələbə" medalı ilə təltif edildi.

Müharibə qələbə ilə qurtardı. Bir çoxları kimi Qurban da öz doğma ocağına, ailəsinin, övladlarının yanına qayıtdı. Uzun illər sürücü işləyən Qurban Qurbanov 2000-ci ildə Naxçıvan şəhərində vəfat etmişdir.

Bağır Məmməd oğlu Bağırov Böyük Vətən müharibəsində iştirak etmiş həmyerlilərimizdən biridir. O, 1906-cı ilin mart ayının 13-də Naxçıvan rayonunun (Babək) Nehrəm kəndində kəndli ailəsində anadan olmuşdur. Nehrəm kənd natamam orta məktəbi bitirmiş, 1929-1936-cı illərdə Nehrəm kənd "Qızıl Ordu" kolxozunda işləmişdir. 1936-cı ildə yaxşı işinə görə "Staxanovçu" adını qazanmışdır. 1936-cı ildə Bağır ailəsi ilə birlikdə Naxçıvan şəhərinə köçür. Naxçıvan Vilayət Komsomol Komitəsinin göndərişi ilə B. Bağırov Naxçıvan Sənaye İttifaqına müdir təyin edilir.


Bağır Bağırov

76-cı diviziya Ukrayna torpağında hitlerçilərlə üz-üzə gəlmişdir. Diviziyanın 560-cı artilleriya alayı

Poltava şəhəri ətrafında inadla mübarizə aparırdı. Bir çox mahir topçu ilə birlikdə Bağır da xeyli vaxtdır ki, burada gecə-gündüz vuruşurdu. Düşmən ardı-arası kəsilmədən yeni qüvvələr göndərir. Bunun qarşısını almaq üçün bizimkilər müvəqqəti olaraq geri çəkilirlər. Bağırın topçu olduğu alay bir müddət Xarkovda faşistlərlə küçə vuruşması apardıqdan sonra qayıdıb Briqadirovka kəndində müdafiədə durur. Bağır hər geri çəkilmədə məyus olurdusa da, sonra bu taktiki hərəkətin düzgünlüyünü dərk etdikcə qələbəyə inam hissi artırdı. Əslində onun özü də bu fürsətdən az qazanmırdı. O, düşmənlə mübarizədə fasilələrdən istifadə edərək döyüş texnikasına daha mükəmməl yiyələnir və öz silahının get-gedə kamil ustası olurdu.

Qoşun 1942-ci ilin may ayının 1-də Ukraynanın Volçanski şəhərini faşistlərdən azad etmək üçün hücuma başlayan zaman Bağır artıq mahir bir topçu idi. Üç gün küçə vuruşmasından sonra şəhər tamamilə azad edildi. Batareya komandirinin bu döyüşdə həlak olması hitlerçilərə ucuz başa gəlmədi. Bağır və onun yoldaşları bu intiqamı onlardan yaxşı aldılar. Onlar Volçanski əməliyyatında öz toplarının sərrast atəşi ilə düşmənin çoxlu hərbi texnikasını və canlı qüvvəsini sıradan çıxardılar.

Bu itkidən qəzəblənən almanlar döyüşə öz yeni qüvvələrini göndərirdilər. 1942-ci il iyunun 21-də göydən və yerdən gələn od-alov Bağırgilin hissəsini düşmənə qarşı yeni ehtiyat qüvvəsi toplamaq üçün Stalinqradadək geri çəkilməyə məcbur etdi. Hissə 1942-ci il avqustun 14-də burada birinci qvardiya diviziyasının 505-ci qırıcı alayına daxil olduqdan sonra Stalinqrad rayonunda Qalaca şəhərini azad edərək öz mövqeyini möhkəmləndirdi. Marinovka kəndində almanların ən güclü diviziyası darmadağın edildi. Qatlavana stansiyasındakı vuruşma çox ağır keçdi. Bağır bu döyüşdə böyük mərdlik nümunəsi göstərsə də, ürəyində acı xatirələr qaldı. Çünki o, naxçıvanlı Kamil Bağırov, Yunis Məmmədov





kimi sevimli, igid və cəsur cəbhə dostlarını burada itirdi. Bu döyüş haqqında Bağır Bağırov öz xatirələrində yazır: "1942-ci ilin noyabrın 6-da gecə saat 4-də qəflətən hücuma keçmək əmri almışdıq. Əsas vəzifə – faşistlərin müdafiəsini dağıtmaq, mühasirəyə almaqdan ibarət idi. Səhər saat 4-də bütün katyuşalardan, pulemyotlardan açılan atəşlər və ura səsləri qulaq batırırdı. 3 saat alov tutub yanan Marinovka çöllərində almanların qaçmalarına imkan vermədik. Vəlvələyə düşmüş almanlar silahlarını atıb ağ bayraq qaldıraraq təslim oldular. Faşistlər çox millətli sovet ordumuzun qüvvə və qüdrətinin dadını buradan daddılar".

1943-cü il yanvarın 19-na keçən gecə Bağırgilin alayı hücuma hazır vəziyyətdə dayandı. Səhərə yaxın topların nəriltisi yeri titrətdi. Düşmən mövqelərinə tərəf uçan mərmilər almanların ağır gövdəli toplarının və minaatanlarının əjdaha ağzını yumdu. Beləliklə, piyadalarımızın qəti hücumu üçün əlverişli şərait yarandı. Stalinqrad rayonunda almanları mühasirəyə almaq əmri yerinə yetirildi. Döyüş batareyanın bir çox topçuları ilə bərabər Bağıra da qəhrəmanlıq şöhrəti gətirdi. O, "Fədakarlığa görə", "Stalinqradın azad edilməsinə görə" medalları ilə təltif edildi. Sonra ən yaxşı topçu kimi diviziyada daha güclü sayılan 200-cü qvardiya alayının üçüncü briqadasının beşinci batareyasına keçirildi. Buradan o, qvardiyaçı topçu adını aldı.

27 aprel 1943-cü ildə Bağır anasına göndərdiyi məktubda yazır: "Mehriban ana! Qəlbimin ən dərin guşəsində bəslədiyim yaz səhərində şehlənmiş yasəmən ətirli salamımı sizə təqdim edirəm. Əgər siz də zəhmət qəbul edib məni sormaq istəsəniz, şükürlər mən də sağ-salamatam. Ana, çoxdandır ki, sizdən məktub almamışam. Ana siz bilirsiniz ki, mənim könlümü ancaq sizin məktubunuz alır. Ana, sən fikir etmə, sənin oğlun heç vaxt düşmənə əyilməz, həmişə düşmənlə mübarizə aparar. Xain, faşist köpəklərin kökünü kəsməyə cəhd edir. Ana sən zənn etmə ki, Bağır təkdir. Bağır tək deyil,

arxamda Sovet ordusu durub, qardaş kimi əl-ələ verərək düşmənləri məhv edirik. Sağ ol! Ana öpürəm sizi. Bütün qohum-əqrabaya məndən salam söyləyin. Cavab yazmağı yaddan çıxarmayın! Oğlun Bağır".

Alay tam mütəşəkkilliklə Kursk və Orlovski tərəfə hərəkət etdi. 1943-cü ilin yaz aylarında Poddoblıda şiddətli vuruşmalar nəticəsində həmin şəhərlər azad edildi. İstiqamət Kiyevə doğru yönəldi. Noyabrın 6-da Kiyevlə birlikdə Jitomir, Komenets-Poddolsk, Kovalo, Tornepol, Çernovets, Stanislav, Doroqobıç və Lvov şəhərləri də azad edildi. Bağır Bağırov bu zaman iri çaplı uzaqvuran topu idarə edirdi. O, bu topla düşmənin üç tankını, bir zirehli maşınını, iki hərbi sursat daşıyan maşınını, bir rabitə motosikletini və çoxlu canlı qüvvəsini məhv etdi. Bu şücaətə görə "Qırmızı Ulduz" ordeni ilə təltif olundu [73, v. 8].

B. Bağırov xatirələrində yazır: "1943-cü il noyabrın 5-də bizə əmr verildi ki, 6 noyabrda səhər saat 4-də hücuma başlayacağıq. 7 noyabrda Kiyevdə bayram etməliyik. Noyabrın 6-da hücum başlandı. Bütün günü vuruşma davam etdi. Axşam düşən kimi almanlar şəhəri tərk etməyə məcbur oldular. Biz isə Kiyev şəhərinə daxil olduq. Biz Kiyevdə şadlıq keçirmək istərkən kəşfiyyatçılar məlumat verdi ki, almanlar Jitomiri talamaq və dağıtmaq istəyirlər. Dərhal bizim alay hər tərəfdən alman faşistlərini sıxışdırıb Jitomiridən çıxardı. Almanlar qərbi Ukraynaya tərəf üz tutdular qaçmağa. Yeni bir əmr aldıq: Dnepr çayını keçmək, alman faşistlərinin bir hissəsini mühasirəyə almaq. Elə də etdik. Almanların böyük bir qrupunu Torpopol şəhərində mühasirəyə aldıq. Almanların çıxacaq yolu tamamilə kəsildi. Arxadan qüvvə gələnə qədər şiddətli hücumları dəf etdik. Kömək aldıqdan sonra alman faşistlərinin əlacı kəsildi və təslim oldular".

20 aprel 1945-ci ildə alay komandiri qvardiya leytenant İvan Lazareviç Filimanov Bağır Bağırovun anası Püstə arvada göndərdiyi məktubunda yazır:





"Sevimli Bağırınızın hünəri bizi heyran edir. O, qorxmaz və cəsurdur, döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetirir. Oğlunuz Bağır bütün diviziyanın hörmətini qazanıb. O, bu hörməti ağır döyüşlərdə, faşistlərə qarşı vuruşmalarda qazanıb. İnsanların azadlığı uğrunda döyüşlərdə o, düşmənlərə qarşı mərdliklə döyüşür. O, uçuq şəhərlərdən, yanan kəndlərdən keçərək Berlinin divarlarına çatmışdır.

Komandirlərin döyüş tapşırıqlarını əla yerinə yetirdiyinə görə oğlunuz Bağır "İgidliyə görə", "Stalinqradın müdafiəsinə görə" medalı və "Qırmızı ulduz", "III-cü dərəcəli Şöhrət" ordeni ilə təltif edilmişdir. Onun döşünü bir-birinin ardınca orden və medallar bəzəyir. Öz oğlunuzla fəxr edin. Bu nəinki Sizin fəxrinizdir, bu, Qızıl Ordunun, bütün sovet xalqının fəxridir.

Qızıl Ordu üçün tərbiyə etdiyiniz oğlunuz üçün Sizə təşəkkür edirəm və Sizə can sağlığı arzulayıram"...

Məktubun axırında qoyulmuş nöqtələrin yerini Bağır cəbhədə öz yeni döyüş müvəffəqiyyətləri ilə doldurdu.

Bağırgilin hissəsi suratlə irəliləyərək az vaxt içərisində cənubi Polşaya çatdı. Sonra Visla çayını adlayıb Polşanın ikinci mərkəz şəhəri olan Krakovu və mühüm sənaye rayonu yuxarı Seleziyanı tutdu. Oradan isə düşmənin müqavimətini qıraraq daha uzaqlara getdi. Oder çayını keçib Neyse, Şbre ətrafında döyüşə-döyüşə Elba çayını çıxdı. Burada birinci Belarusiya cəbhəsinin qoşunları ilə birləşərək almanları Berlinə qədər təqib etdi.

Bu uzun və şanlı döyüş yollarında qurbanlar da az olmadı. Həmyerlisi Sadıq Sadıqovun, cəbhə dostları Liyalinin, Benderenkonun, Tananbayevin, Burqanovun və başqalarının həlak olması Bağırın gözlərində düşmənə qarşı kin və qəzəbi daha da alovlandırdı. İntiqam döyüşçüləri daha ağır vuruşmalara apardı. Onlar sarsıdıcı zərbə endirə-endirə faşistləri öz torpaqlarına qədər qovdular. Almaniya torpağında çox kəskin vuruşmalar başlandı. Drezden, Zarova və Binaodakı

döyüşlər xüsusilə dəhşətli oldu. Bütün piyadalarla birlikdə cəsur topçular həmin şəhərlərdə hitlerçiləri susdurub Praqanı düşmən tör-töküntülərindən təmizləməyə qayıtdılar.

Bağır Bağırov 1945-ci ilin vuruşmalarında fəal iştirak etdiyinə görə üçüncü dərəcəli "Şöhrət" ordeni, "Praqanın azad edilməsinə görə" və "1941-1945-ci illərdə faşist almaniyası üzərində qələbəyə görə" medalları ilə təltif edildi.

Həmyerlimiz, Nehrəm kənd sakini Bağır Məmməd oğlu Bağırov mayın 9-da qvardiyaçı adını öz qanı ilə daha da şöhrətləndirdi. O yaralandı. Lakin faşizmin üzərindəki tarixi qələbə Bağırın ağır yarası üçün gözəl məlhəm oldu. O, tezliklə sağaldı və müharibə qurtardıqdan sonra ordudan tərxis olunub doğma Naxçıvana-əmək cəbhəsinə qayıtdı. Müharibədən sonrakı illərdə Bağır Bağırov muxtar respublikamızın bir çox təsərrüfatlarında çalışdı. O sənət artelində dəmirçi sexinin müdiri, Naxçıvan MSSR Daxili İşlər Nazirliyinin nəzdində olan yanğından mühafizənin siyasi hissə üzrə rəisi, Naxçıvan mebel fabrikasının direktoru, Dəmiryol evlər idarəsinin müdiri, Naxçıvan şəhər qarışıq mallar idarəsində 71 №-li mağazanın müdiri və s. işlərdə çalışmışdır. Bir neçə dəfə Naxçıvan MSSR Ali Soveti Rəyasət heyətinin fəxri-fərmanları ilə təltif olunmuşdur. B. Bağırov 1986-cı ildə Naxçıvan şəhərində vəfat etmişdir.

Naxçıvan Tibb məktəbini bitirib, oktyabr ayına kimi Culfa rayonunun Bənəniyar kəndindəki feldşer-mama məntəqəsində işləmiş Ənvər Hacıyev 1940-cı ilin oktyabrında Ordu sıralarına yola düşür. O, ilk hərbi xidmətini Türkmənistan SSR Mari şəhərindəki 9-cu alayda başlayıb. Müharibənin başlanması xəbərini də məhz həmin şəhərdə eşidib, xüsusi əmrlə Ənvərgilin alayı təcili olaraq ikinci Ukrayna cəbhəsinə göndərilir.



**Ənvər Hacıyev (28.03.1945-ci il)**





İlk döyüşləri iyulun 2-də Beloçerkovı və Velikoluksk ətrafında başlayır. Həmin döyüşlərdə Ənvər Hacıyev ayağından yaralanır və hərbi xəstəxanaya göndərilir. Qayğıkeş həkimlər onun sağalması üçün İ. Qalqudinə ilk tibbi yardım edərkən əllərindən gələni əsirgəmirlər. O, sağalır, yenidə cəbhəyə dönür, od-alovun içinə atılır. Dəfələrlə ölümün gözlərinə dik baxır. Özü də dəfələrlə igidlik göstərir. O, söhbət edirdi ki, Sevastopol şəhəri uğrunda gərgin döyüşlər gedirdi. Onların hissəsi bu vuruşlarda fəallıq göstərir, düşməni sürətlə geri oturdur. Ənvər Hacıyevə də xüsusi tapşırıq verilmişdi: döyüş xəttindən yaralıları çıxarmaq. Ənvər qorxu bilmədən cəsurcasına döyüş xəttinə atılır, neçə-neçə yaralını xilas edir. Və belə vuruşların birində də özü yaralanır. Bu şücaət hissənin komandanlığı tərəfindən yüksək qiymətləndirilir. O, "İgidliyə görə" medalı ilə təltif olunur.

Ənvər Hacıyev 14 oktyabr 1944-cü ildə Naxçıvan Vilayət Partiya Komitəsinin Hərbi Şöbəsinin müdiri Şahsuvarov yoldaşın adına göndərdiyi məktubda yazırdı:

"Hörmətli Şahsuvarov yoldaş! Döyüşçü salamını qəbul edin. Bu saat mən qvardiya topçu hissəsində hərbi feldşer işləyirəm. Özüm də qvardiyaçıyam. Beş il olar ki, vətəndən, ailəmdən uzaqdayam. Bacımın biri 7 yaşında, o biri isə 1 yaşında idi. Əgər sağ-salamatdırlarsa, indi böyük bir qız olublar. Çoxdandır ki, evdən məktub almıram. Çox nigaranam. Sizdən çox xahiş edirəm mənim ailəmlə maraqlanıb, mənə ətraflı məlumat verəsiniz.

Yoldaş Şahsuvarov, şəklimi də Sizə göndərirəm. Düzü bir o qədər də yaxşı çıxmayıb. Yaralı Sovet İttifaqı Qəhrəmanı İ.Qalqudin yoldaşdır. Bratslov şəhərini azad edərkən yaralanmışdır. Bu şəkil İ.Qalqudinə ilk tibbi yardım edilərkən çəkilmişdir. Bu günə kimi üç dəfə Ali Baş Komandanlığın təşəkkürünü almış və "İgidliyə görə" medalı ilə təltif olunmuşam.

Bütün yoldaşlara salam söyləməyi xahiş edirəm. Hələlik, qvardiyaçı starşina hərbi feldşer Ənvər Hacıyev!"

Ənvər Hacıyev 15 aprel 1945-ci ildə göndərdiyi ikinci məktubunda yazırdı: "Gün aydın hörmətli Şahsuvarov! Əvvəla dolu cəbhə salamımı göndərməklə bildirmək istəyirəm ki, sağ-salamatlıqdır. Artıq Avstriya torpağına daxil olmuşuq. Yaxın günlərdə Alman faşistlərini bu torpaqdan da qovacağıq və məhv edəcəyik. Qələbəyə çox az qalıb. Məndən bütün Naxçıvan zəhmətkeşlərinə odlu cəbhə salamı söyləməyinizi xahiş edirəm. Qvardiyaçı starşina Ənvər Hacıyev".

Ənvər Hacıyev alman faşistlərinə qarşı vuruşmalarda göstərdiyi xidmətlərə görə birinci və ikinci dərəcəli "Vətən müharibəsi", "Qırmızı Bayraq", "Qırmızı Ulduz" medalları ilə təltif olunmuşdur. O, 15 dəfə Ali Baş Komandanlığın təşəkkürünü almışdır [72, v. 12].

Müharibə qələbə ilə bitir. Ənvər Hacıyev doğma kəndlərinə qayıdır. Eşidir ki, anası Əzizə xala hicrana dözə bilməyib...

Ənvər Hacıyev yenidən öz peşəsinə qayıdır, feldşer işləyir. Sonra müxtəlif vəzifələrə irəli çəkilir. Əbrəqunus kənd xəstəxanasına, həm də kənd poliklinikasına rəhbərlik edir.

Bəli, müharibə veteranı Ənvər Hacıyev öz işi ilə başqalarına nümunə göstərməklə yorulmaq bilmədən çalışmışdır.

İgid odur atdan düşə atlana,
İgid odur hər çətinə qatlana...

Sədəf xala bu sözləri deyib doldu. Qəhər iki damla göz yaşına çevrilib yanaqlarına süzüldü. Ana oğlunu bağrına basıb:

- Get, - dedi, Vətən çağırır...

Qatar Naxçıvan stansiyasından qışqırıqla tərpənib tövşüyə-tövşüyə irəlilədi, sürüşdü.

Yusif anasına ilk məktubu topçular alayından göndərdi. O, anasına yazırdı:

- "Əziz anam! Oğlunuzun döyüşçü salamını qəbul edin. Məndən heç də nigaran olmayın. Tezliklə düşməni məhv edib qayıdacağıq".





Yusif Qafqaz dağlarının ətəklərində gedən ağır vuruşmalarda mərdlik və rəşadət göstərdiyi üçün bütün alayda şöhrətlənmişdir. 1943-cü ilin fevral ayında o, Rostov yaxınlığında öz topu ilə düşmənin 6 topunu məhv etmişdir.

Həmin döyüşdən sonra alay komandiri Yusifi yanına çağırıb təbrik etmiş və sinəsinə "Qırmızı bayraq" ordeni sancmışdır.

"N" qoşun hissəsi komandirinin siyasi hissə üzrə müavini kapitan Hüseynov yoldaş 21 dekabr 1943-cü ildə Naxçıvan Vilayət Partiya Komitəsinə göndərdiyi məktubunda yazır:

"Kommunist salamından sonra bildirmək istəyirəm ki, sizin rayonun Cəhri kənd sakini Qasımov Yusif Səfəralı oğlu bölməmizin ən cəsarətli döyüşçülərindən biri kimi komandanlıq tərəfindən həmişə qiymətləndirilmişdir. O, topun tuşlayıcısı vəzifəsində işləyir. Ali Baş Komandanlığın əmrlərindən ruhlanan Qasımov yoldaş silahının yaxşı ustası olmuşdur.

Qasımov yoldaş son günlərdə öz topu ilə düşmənin 3 tankını, 5 müşahidə nöqtəsini, 8 pulemyot nöqtəsini məhv etmiş və 200-dən artıq hitlerçi qırmışdır.

Komandanlıq Qasımov yoldaşı ali dövlət mükafatına təqdim etmişdir. Qoy Qasımovun ana vətəni belə oğulları ilə fəxr etsin.

21 dekabr 1943-cü
il. Kapitan: Hüseynov".

Yusif Qasımovun topu cəbhənin ən çətin keçidlərində gurlayırdı. İgid serjant Melitopol və Taqanroq uğrunda gedən döyüşlərdə misilsiz rəşadət göstərib "Qırmızı ulduz" ordeni ilə təltif olunmuşdur. Dnepr çayının sahilində ona "Vətən müharibəsi" ordeni verilmiþ, Ali Baþ Komandanlýðýn təþəkkürünü almýþdýr.

Serjant Yusif Qasýmov Dnepr, Visla, Oder və Neyse çaylarýnýn sahillərində gedən döyüþlərin, həmçinin faþist Almaniyasýnýn ürəyi olan Berlində gedən döyüþlərin

iþtirakçýsý olmuþdur.

1942-ci ilin yayında faşistlər nəyin bahasına olursa-olsun, Stalinqradı ələ keçirmək istəyirdilər. Şəhəri müdafiə edən qoşunlarımız misilsiz qəhrəmanlıq göstərərək düşməni şəhərə daxil olmağa qoymurdular.

Bir gün komandir Sadıqla birlikdə Nikolayı, İvanı və Pyotru yanına çağırıb şəhərin cənubundakı yolun açıq olub-olmadığını öyrənməyi əmr edir.

Onlar yol kənarındakı kolluqlarla sürünə-sürünə irəliləyirdilər. Birdən qarşıdan düşmən avtomaşınının gəldiyini gördülər. Kolların arasında gizlənib maşının yaxınlaşmasını gözləyirlər. Maşın lap yaxına çatdıqda Sadıq əlində qumbara yolun ortasına çıxır. O, qumbaranı başı üzərinə qaldıraraq faşistlərə qandırır ki, əgər atəş açmaq fikrinə düşsələr, maşınları ilə birlikdə havaya sovrulacaqlar.

Faşistlər kənardan daha 3 nəfərin avtomatları onlara tuşladığını görüb təslim olurlar. Qoçaq döyüşçülər maşında oturan bir zabiti və 4 alman əsgərini maşınla hissəyə gətirirlər. Əsirlər dindirildikdə alman zabiti şəhərin cənub hissəsində olan düşmən qüvvələri və hərbi texnika haqqında qiymətli məlumatlar verir.

Bu şücaətə görə Sadıq İsmayılov "İgidliyə görə" medalı ilə təltif olundu.

Sadıq Əli oğlu İsmayılov müharibənin dördüncü günü Qızıl Ordu sırasına getmişdir. O zaman Sadıq faşist Almaniyasının vətənimiz üzərinə xaincəsinə basqın etməsi xəbərini Ordubadda eşitdi. Bütün naxçıvanlılar kimi Sadiq İsmayılovun da qəlbində azğın düşmənə qarşı qəzəb hissi coşub daşdı. Sadıq həmin gün Ordubaddan Naxçıvana qayıdıb birbaşa hərbi komissarlığa getdi, ön cəbhəyə göndərilməsini xahiş etdi.



**Sadıq İsmayılov**

Ertəsi gün Sadıq cəbhəyə yollandı.





O, ilk döyüş yoluna Poltavadan başladı. İlk döyüşlərdə düşmənə qarşı mərdliklə vuruşdu. 8 iyun 1943-cü ildə X.Vəzirov Naxçıvan zəhmətkeşlərinə göndərdiyi məktubunda yazır:

"Bu hadisə cənub cəbhəsində olmuşdu. Sadığın xidmət etdiyi avtomobil batalyonu bombardmançı təyyarələrimizin bazasına ehtiyat hissələri daşımalı idi. Qarşıdakı döyüşün nəticəsi bu vəzifənin vaxtında yerinə yetirilməsindən çox asılı idi. Sadıq ehtiyat hissələri ilə dolu öz yük maşınını surətlə sürürdü. Düşmən təyyarələri avtomobillərimizin hərəkətini görüb maşınları bombaya tutmuşdu.

Bombalar Sadığın avtomobilini iki dəfə zədələyib dayandırdı. Sadıq hər dəfə maşını təkbaşına təmir etdi və yenə təhlükəli yoluna davam edib ehtiyat hissələrini vaxtında aerodroma çatdırdı.

Başqa bir döyüşdə Sadıq özünü böyük təhlükə içinə ataraq pul kassasını və ştab sənədlərini xilas etmiş və bunları öz maşınında cəbhə xəttindən arxaya aparmışdır.

Hissədə Sadıq İsmayılovu həm komandirlər, həm də döyüşçülər çox sevirlər. Komandanlıq ona təşəkkür elan etmişdir. Sadıq bolşeviklər partiyasının üzvüdür. Sadıq igid Azərbaycan xalqının balasıdır. O, bu adları həmişə şərəflə daşıyacaqdır. X Vəzirov.8.VI. 1943-cü il".

Stalinqradın müdafiəsi günlərində batalyon komandiri Puşner Sadıq İsmayılov haqqında yazır:

"İgid Azərbaycanlı döyüşçüsü" qana-qan, ölümə-ölüm deyə düşmənə qarşı amansızlıqla vuruşur. O, təcrübəli sürücüdür, gözəl kəşfiyyatçıdır. S.İsmayılov faşistləri doğma torpağımızdan tezliklə qovmaq üçün gedən amansız vuruşlarda öz həyatını belə qurban verməyə hazırdır".

1945-ci ilin əvvəllərində qoşunlarımız Polşa, Macarıstan, Rumıniya, Çexoslovakiya torpaqlarını faşistlərdən azad edə-edə Almaniya ərazisinə daxil olmuşdular. Berlin yaxınlığında böyük vuruşmalar gedirdi. May ayının 5-də Sadıq

İsmayılovun xidmət etdiyi diviziya düşmənlə ağır vuruşmalar aparırdı. S.İsmayılov gah maşını idarə edir, gah da silaha əl atırdı. Bu döyüşdə o, ağır yaralanır və xeyli qan itirir. Bütün günü ölülərin içərisində qalır.

Ertəsi gün ölənləri dəfn edərkən S.İsmayılovun sağ olduğunu görürlər. Onu dərhal hərbi xəstəxanaya göndərirlər.

Qələbə gününü Sadıq hərbi xəstəxanada qarşılayır. Sağalandan sonra Naxçıvana qayıdır. Onun sinəsində "İgidliyə görə", "Stalinqradın müdafiəsinə görə", "1941-1945-ci illərin Böyük Vətən müharibəsində qələbəyə görə" və başqa medallar parlayırdı [72, v. 12].

Bilirəm, əziz ana, gözləyirsən yolumu,
Ürəyində hey deyirsən, kaş görəydim oğlumu.
Tələsirsən sabah olsun bir məktub alasan
Xeyir-xəbər eşidərək bir rahatlıq tapasan.

Şeirin müəllifi Şahbuz qəsəbəsinin sakini Bünyad İsmayılovdur. O, bu şeiri cəbhədən anasına göndərmişdir.

Bünyad İsmayılov 1941-ci ilin avqustunda səfərbərliyə alınmışdır. 1942-ci ilin əvvəllərində Krım cəbhəsində ilk dəfə döyüşdə iştirak etmişdir. Bu döyüşdə o, ağır yaralanaraq xəstəxanaya düşür. Xəstəxanadan çıxdıqdan sonra evə qayıda bilərdi. Lakin belə etmədi. Vətən təhlükə qarşısında idi. Bünyad yenidən cəbhəyə qayıtdı.

24 iyul 1943-cü ildə Bünyad İsmayılov Naxçıvan Vilayət Partiya Komitəsi, Naxçıvan MSSR Xalq Komissarları Soveti və Naxçıvan MSSR Ali Soveti Rəyasət heyəti adına cəbhədəki 15 nəfər Naxçıvanlı döyüşçünün tapşırığı ilə göndərdiyi məktubunda yazır:



Bünyad İsmayılov

"Biz Naxçıvanlı döyüşçülər muxtar respublikamızın zəhmətkeşlərini salamlayır, arxa cəbhədə onlara yeni müvəffəqiyyətlər arzu edirik. İki ildən artıqdır ki, davam edən Böyük Vətən müharibəsi cəbhələrində biz öz borcumuzu namusla yerinə yetirir və yetirəcəyik. Gözümüzlə gördüklərimizi bildirərək düşmənin ağır məğlubiyyətə düçar olduğunu biz bir daha xatırladırıq. Bizim hissəyə qarşı vuruşan alman və rumınları getdikcə daha artıq sıxışdırır və onları qərbə doğru qovaraq məhv etməkdəyik. Qələbəyə olan inamımız hər gün möhkəmlənir və artır. Bizim döyüş ruhumuz yüksəkdir. Vətən qarşısında and içirik ki, düşməni tamamilə darmadağın etməkdə bir damcı qanımız qalanadək fədakarlıqla mübarizə edəcəyik".





21 iyul 1943-cü il. Novorossiysk şəhəri uğrunda qızğın vuruşma gedirdi. Faşistlər şəhərin zirvələrində özlərinə möhkəm istehkam düzəltmişdilər. Bünyadgilin hissəsinə yer altından tunellər vuraraq həmin istehkamları almaq əmri verilir. Nə qədər çətin olsa da, bu əmr vaxtında yerinə yetirilir. Faşistlər öz istehkamlarından qovulub çıxarılır. Bundan sonra qoşunlarımız hücuma keçərək şəhəri düşməndən azad edirlər. Taman, Anapa, Tamyuruq və bir sıra başqa şəhərlərin də düşməndən azad edilməsində Bünyad yaxından iştirak edir. O, vuruşmalarda sol ayağını itirsə də, heyfsilənmir. Çünki o, öz ayağını Vətənin azadlığı uğrunda itirmişdir.

Həmin günün səhərisi Dəmirçi kəndi (Şərur rayonu) əsgər yola salırdı. 1942-ci ilin payızında Həsənalı Səfərovun döyüş yolu Qafqaz cəbhəsində, Mozdok ətrafında gedən döyüşlərdən başlayır.

H.Səfərov o illəri belə xatırlayır: "Mozdok ətrafında qızğın döyüşlər gedirdi. Komandanlıq tərəfindən bir dəstə əsgərlə bizə düşmən arxasına keçmək və "dil" gətirmək əmr olunmuşdu. Axşamçağı hava qaralanda biz düşmən snayperlərinin müşaiyəti altında qarşıdakı təpədə yerləşən almanların arxasına keçdik. Qayıdanda bir nəfər alman zabiti ilə geri döndük. Ələ keçirdiyimiz "dil" vasitəsilə çoxlu məxfi məlumatlar əldə etdik. Səhər sübh tezdən qarşıdakı təpəyə hücum başlandı. Bu döyüşdə əsgərlərimiz ölüm-dirim vuruşuna

atılaraq qalib çıxdılar. Düşmənin 2 tankını və xeyli əsgərini ələ keçirdik. Bir çox əsgərlərimiz vətənin orden və medalları ilə təltif olundu. Mən də "Qafqazın müdafiəsinə görə" medalı ilə mükafatlandırıldım".

Həsənalı Səfərovun sonrakı döyüş yolu 1943-cü ildə ikinci Ukrayna cəbhəsində, 52-ci ordunun 277-ci diviziyasında, kiçik serjant rütbəsində bölmə komandiri kimi davam edir. Onun başçılıq etdiyi bölmə Kiyev, Lvov, Jitomir və İzyaslav şəhərlərinin faşistlərdən təmizlənməsində mərdliklə vuruşur. Bu döyüşlərdə bölmə komandirinin göstərdiyi cəsurluq qiymətləndirilir. O, "İgidliyə görə" və "Döyüş şücaətinə görə" medalları ilə təltif olunur.

19 yanvar 1944-cü ildə "N" qoşun hissəsinin komandiri kapitan Filatov siyasi rəhbər kapitan Jalkovskiy və bölük komandiri baş leytenant Abdullayev "Şərq qapısı" redaksiyasına göndərdikləri məktubda yazırlar:

"Sizin Respublikanın oğullarından Həsənalı Məmmədhəsən oğlu Səfərov hissəmizin ən qabaqcıl, intizamlı, qorxmaz döyüşçülərindən biridir.

Həsənalı hissəmizin qış hücumunda döyüş nümunələri göstərdiyi kimi, Ukrayna Respublikasının alman-faşist işğalçılarından təmizlənməsində böyük şücaət göstərərək Azərbaycan xalqının adını bir daha yüksəklərə qaldırmışdır. O, xidmət etdiyi hissənin bütün döyüşçülərinin və komandirlərinin hörmətini qazanmışdır.

Hissəmizin komandanlığı oğlunuz Həsənalı Səfərovu "Döyüş xidmətlərinə görə" medalı ilə təltif etmişdir".

1944-cü ildə qoşunlarımız almanları 2-ci Ukrayna cəbhəsində əzdikdən sonra Qızıl Ordunun zəfər yürüşü başlanır. Qızıl Ordu hissələri qardaş Avropa xalqlarını da faşizmin əsarətindən xilas etməyə başladılar. Gənc komandir H.Səfərov da bu döyüşlərdə ön sırada gedərək, qardaş Çexoslovakiya torpağının faşistlərdən təmizlənməsində şücaət göstərmiş, Praqaya kimi gedib çıxmışdır. O, Çexoslovakiya torpağında





göstərdiyi igidliyə görə Ali Baş Komandanlıq tərəfindən bir neçə dəfə təşəkkür almışdır. Gənc komandir H.Səfərov döyüşə-döyüşə Berlinə qədər gedib çıxmış və "Almaniya üzərində qələbəyə görə" medalı ilə təltif olunmuşdur.

Cəsur döyüşçü Həsənalı Səfərov Qafqazdan başlanan döyüş yolunu Berlində başa vurduqdan sonra doğma kəndlərinə – Dəmirçiyə qayıdır. Uzun müddət kolxozda manqa başçısı işləyir, kolxoz iqtisadiyyatının möhkəmlənməsində fəal iştirak edir.

Bütün gənclər kimi, onun da qəlbində düşmənə nifrət hissi kök salmışdı. Yunis 1942-ci ilin avqust ayında cəbhəyə yola düşdü, həm də əsgəri xidmətin ən çətin və məsul sahəsində istehkam batalyonunda xidmət etməyə başladı.

Alman işğalçıları Azov sahillərinə çatıb bol nemətli Kubanın kənd və şəhərlərini işğal etmişdilər. Qızıl Ordu düşmənin qarşısını kəsib irəliyə hərəkət etməyə qoymayır, onun həmlələrinə ciddi müqavimətlə cavab verirdi. Buna baxmayaraq, düşmən Azov sahilindəki Abinski, Krımsk şəhərlərini və Teman yarımadasını öz əlinə keçirib qüvvətli dayaq nöqtələri yaratmışdı. Döyüş ara vermirdi. Top, mina səsləri Kuban çöllərini bürümüşdü.

Yenicə 19 yaşına çatmış Yunis 383-cü nişançı diviziyasının 468-ci əlahiddə istehkam batalyonunda döyüşə başladı. Komandanlığın ona tapşırdığı vəzifələri şərəflə yerinə yetirdi. Dostları ilə birlikdə almanların cəbhə yolu basdırdığı minlərlə minanı çıxarıb keçid yollarını zərərsizləşdirdi. Diviziya öz hücum əməliyyatını genişləndirib Abinsk, Krımsk və Temuruğu işğalçılardan azad etdi.



**Yunis Zeynalov**

Bu döyüşlər zamanı Yunis təkbaşına almanların səngərləri qarşısında çəkilmiş tikanlı məftilləri və basdırılmış minaları çıxarıb tankların və piyadaların

keçməsi üçün 20 metrlik sahədən yol açdı. Kuban çayı üstündə taxta körpü salındı. Bu rəşadətli döyüşçünün sinəsini "Qırmızı Ulduz" ordeni bəzədi. 1943-cü ilin yanvarında artıq sovet ordusu bütün cəbhələr boyu hücuma keçmişdir. 383-cü nişançı diviziyasına Ali Baş komandanlıq tərəfindən Kerçi faşistlərdən azad etmək əmri verildi. Yunisin döyüşçü olduğu istehkamçı batalyon hamıdan əvvəl sahilə çıxıb düşmənin minaladığı sahələri təmizlədi. Hərbi əmri rəşadətlə yerinə yetirdiyinə, Kerçin, Hacımuşqay və Kamuşburunun azad edilməsində göstərdiyi igidliyə görə Yunisə ikinci dərəcəli "Şöhrət" ordeni verildi. Qanlı döyüşlərdən sonra Kerçdə Qızıl bayraq dalğalandı. Yunisin xidmət etdiyi diviziya 1944-cü ilin baharında Qara dəniz sahili hərəkət edərək Krım torpağını düşmənlərdən azad edib Feodosiya istiqaməti ilə irəlilədi.

7 dekabr 1943-cü ildə "N" qoşun hissəsinin komandiri Gerasimov və siyasi iş üzrə komandir müavini Peysee Şıxmahmud kənd əhli (Babək rayonu) Maqsud Novruzov yoldaşa göndərdiyi məktubda yazır:

"Sizin böyütdüyüz oğlan Yunis Zeynalov düşmənlə mübarizədə özünü göstərir. Şiddətli hücum zamanı döyüşçülərimizin hamısından oğlunuz irəlidə gedərək mərdlik və qorxmazlıq nümunələri göstərir. Onun qoçaqlığı nəzərə alınaraq dövlət tərəfindən "Qırmızı Ulduz" ordeni ilə təltif edilmişdir. Bu bizim hissəmizin şöhrətini və sizin hörmətinizi artırır.

Yaxşı oğul tərbiyə etdiyinizə görə Sizə və sizin kənd kolxozunun üzvlərinə təşəkkür edirik. Sizdən və kolxozçulardan xahişimiz budur ki, oğlunuzu kolxoz tarlalarında əvəz etməklə cəbhəni və vətəni daha çox kənd təsərrüfatı məhsulları ilə təmin edəsiniz.

Cəbhə ilə arxanın əlaqəsi nə qədər sıx olarsa, cəbhə nə qədər çox şeylə təmin edilərsə qələbəmiz bir o qədər yaxınlaşar.

Bizə özünüzün və kolxozunuzun vəziyyəti haqqında yazın" [72, v. 29].





Qoşunlarımıza Saxarnı-Qornı tutmaq əmri verilmişdir. Lakin qarşıdakı təpədə almanların betonlaşdırılmış səngərlərindən yola çarpaz atəş yağırdı. Yunis bu səngəri partlatmaq əmri aldı. O, tapşırığı ləyaqətlə yerinə yetirdi.

Diviziyanın əlahiddə istehkamçı batalyonu Krımda dinc əhaliyə, kolxozçulara kömək edir, tarlalarda, yollarda almanlar tərəfindən basdırılmış minaları zərərsizləşdirdi. Düşmən sovet torpağından qovulsa da, Polşada, Visla sahilində inadlı müqavimət göstərir, təslim olmaq istəmirdi.

383-cü nişançı diviziyası və döyüşlərdə sınanmış istehkamçı batalyon əvvəlcə I Ukrayna, sonra I Belorusiya cəbhəsinə köçürüldü. Yunis öz döyüş dostları ilə birlikdə Visla çayı üzərində körpü salınmasında mərdlik və rəşadət göstərdi. Bu döyüşdəki hünərinə görə o, 1944-cü ilin oktyabrında ikinci dərəcəli "Vətən Müharibəsi" ordeni ilə təltif olundu.

Sovet ordusu düşməni tar-mar edərək Berlinə yaxınlaşırdı. 1945-ci ilin yanvar ayında əlahiddə istehkamçı batalyon Oder çayı kənarındakı Frankfurtun sol tərəfindəki yaşayış məntəqələrini alıb Berlinə yaxınlaşdı. Bu il şaxta bərk kəsirdi. Hər yanı qar bürümüşdü. Oder çayı buz bağlamışdı. Frankfurtdan 15-20 km aralıda almanların sığındığı böyük bir zavoddan bizim əsgərlərin üstünə güllə dolu kimi yağırdı. Axşama az qalırdı, Yunisə döyüşçü Belovla birlikdə tankların keçməsi üçün cığır açmaq, yolu minadan təmizləmək əmri verildi. Yunis dostu ilə birlikdə bu tapşırığı vaxtında yerinə yetirdi. Bütün dünyanın gözlədiyi gün gəlib çatdı. Mayın 9-da Berlin üzərində sovet bayrağı qaldırıldı. Yunisin də sevinci hədsiz idi. Axı bu qələbədə onun da payı vardı. Təəccüblü olsa da, o, düşmənlə ölüm-dirim mübarizəsi apardığı 3 il ərzində ən çətin hərbi tapşırıqları yerinə yetirdiyi halda, bir dəfə də olsun yaralanmamışdı. Onun sinəsini "Qırmızı Ulduz", "İkinci dərəcəli Şöhrət", I və II dərəcəli "Vətən Müharibəsi"ordenləri, "Qafqazın müdafiəsinə görə", "Varşavanın azad edilməsinə görə", "Berlinin alınmasına görə" və s. medallar bəzəyir [72, v.

29].

1945-ci ilin may ayının 20-də batalyon qərargahının rəisi kapitan Savçenko Yunisi yanına çağırıb diviziya komandirinin əmrini ona bildirdi:

- Sən diviziyanın döyüş bayrağı ilə Moskvada keçiriləcək hərbi paradda iştirak edəcəksən.

1945-ci ilin iyun ayının 24-də Yunis Zeynalov diviziyanın iki ordenli döyüş bayrağını Qızıl meydanda təşkil edilmiş Qələbə paradında iftixarla dalğalandırdı. Əlbəttə, bu azərbaycanlı döyüşçü üçün böyük səadət idi. Yunis Zeynalov müharibədən sonra uzun müddət əmək cəbhəsində çalışdı. O, 2004-cü ildə dünyasını dəyişmişdir.

Hərbi xidmətə yaşı çatmayan komsomolçular, gənclər belə hər gün hərbi komissarlıqlara, komsomol komitələrinə müraciət edərək cəbhəyə göndərilmələrini xahiş edirdilər. Belə gənclərdən biri də Əkbər Heydər oğlu Məmmədov idi. O, çağırış vərəqəsini gözləmədən Naxçıvan Hərbi Komissarlığına gedib oradan ordu sıralarına yola düşür. Qısa müddətli kursda hərbi təhsil aldıqdan sonra Əkbər Məmmədov leytenant rütbəsi ilə mühəndis polkunda vzvod komandiri kimi fəaliyyətə başlayır.

Əkbər orduda tez bir zamanda komandanlığın diqqətini cəlb edir. Onun başçılıq etdiyi vzvoda ən məsul döyüşlərdə iştirak etmək etibar olunur. Əkbərgilin polku Donbas, Kuban və Qafqaz uğrunda gedən şiddətli vuruşmalarda böyük qəhrəmanlıqlar göstərir.

1943-cü il. Mühüm strateji əhəmiyyətə malik olan Donbas uğrunda şiddətli vuruşmalar gedir. Yüksəklikdə özünə möhkəm dayaq məntəqəsi düzəldən düşmən pulemyot atəşi ilə polkun irəliləməsinə maneəçilik törədirdi. Pulemyotları susdurmaq döyüşçülərimiz üçün yol açmaq və yüksəkliyi ələ keçirmək Əkbər Məmmədovun başçılıq etdiyi vzvoda tapşırılır. Əkbər döyüşçüləri ilə birlikdə bu çətin və şərəfli tapşırığın öhdəsindən bacarıqla gəlir. Komandanlıq cəsur vzvod





komandirinin göstərdiyi igidliyi layiqincə qiymətləndirərək onu "Qırmızı Ulduz" ordeni ilə təltif edir.

Vətənimizin və xalqımızın azadlığı uğrunda vuruşmalarda mətinləşən Əkbər Məmmədovun göstərdiyi qəhrəmanlıqlar "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə" və s. medallarla qiymətləndirilmişdir.

Əkbər müharibədən sonra xalq təsərrüfatının müxtəlif sahələrində çalışmış, həyatını dinc quruculuq işlərinə həsr etmişdir.

Haqqında söhbət açdığımız cəbhəçilərdən biri də İbrahim Məmmədovdur. Müharibə başlayanda İbrahim Naxçıvan ticarət idarəsində mühasib işləyirdi. İbrahim müharibənin dəhşətləri ilə Poltava uğrundakı döyüşlərdə qarşılaşdı.

İbrahim 76-cı diviziyanın tərkibində Poltava, Kursk və Xarkov şəhərlərinin alınmasında yaxından iştirak etdi. Xarkov uğrunda döyüşlərdə o ağır yaralandı. Sağaldıqdan sonra onu Stalinqrada göndərdilər. 26 iyun 1943-cü ildə "N" hissəsi komandirinin siyasi hissə üzrə müavini Petrov yoldaş Naxçıvan zəhmətkeşlərinə göndərdiyi məktubunda Azərbaycan xalqının sadiq oğlu naxçıvanlı İbrahim Məmmədov yoldaşın yüksək vətənpərvərlik nümunəsindən yazmışdır. Petrov yoldaş məktubunda yazır ki, "Döyüş xidmətlərinə görə" medalı ilə təltif edilmiş İbrahim Məmmədov ikinci Dövlət hərbi istiqraz vərəqəsinin yazılışında hissəmizin döyüşçüləri arasında fərqlənmişdir. O, yeni zayoma 650 manat yazılmış və bunun çoxunu nəğd ödəmişdir. Döyüşçülərimiz onun yolu ilə gedərək istiqraz vərəqəsinə cəmi 3500 manat miqdarında yazdırmışdır ki, bu da əmək haqqı fondunun 385 faizini təşkil edir. Bu məbləğin 3000 manatı yazılışın birinci günü nəğd göndərilmişdir.

Cəbhə dostları İbrahim Məmmədovun döyüş igidliyi və müdafiə fonduna fəal köməyindən hədsiz ruhlanırlar.

Məktubun sonunda Petrov yoldaş İbrahim Məmmədov kimi yüzlərlə mərd döyüşçü yetirən Naxçıvan zəhmətkeşlərini

təbrik edir və salamlayır.

1944-cü ilin ortalarında alman işğalçıları vətənimizdən qovuldular. Öz azadlığı və istiqlaliyyəti uğrunda mübarizə aparan sovet xalqı faşizm zülmü altında inləyən başqa xalqların müqəddəratına laqeyd qala bilməzdi. İbrahim və onun döyüş dostları 1944-cü il martın axırlarında Rumınıyanı da düşmənlərdən azad etdilər. Sonra onlar Macarıstan torpağına daxil oldular.

İbrahim Məmmədovun xidmət etdiyi ikinci Ukrayna ordusu Budapeşt rayonunda düşmənin böyük bir qoşun qrupunu məhv etdi. Lakin hitlerçilər Macar xalqını satan xain faşistlərlə birlikdə Budapeşti alınmaz qalaya çevirmişdilər. Budapeşt uğrunda iki aylıq şiddətli mübarizədən sonra düşmən təslim edildi. İbrahim Macarıstanın alınmasında şəxsi igidlik göstərdiyinə görə ikinci dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif edildi. Onun yaxasını həmin ordenlə yanaşı "İgidliyə görə", "Almaniya üzərində qələbəyə görə" və s. medallar bəzəyirdi.

Melitopol ətrafında qızğın vuruşma gedirdi. Faşistlər ciddi müqavimət göstərirdilər. Almanlar Krıma gedən bir dəmir yolunu əldə möhkəm saxlayırdılar. Bu vaxt kəşfiyyata getmək, düşmənin ehtiyatda olan hərbi texnikasının gücünü öyrənmək lazım idi. Polk komissarının müavini Əjdər Hacıyev başda olmaqla 20 nəfər döyüşçü kəşfiyyata getdi. Onlar 10 nəfər alman əsgər və zabitini əsir gətirdilər və düşmənin ehtiyat -qüvvələrini öyrəndilər. Aramsız vuruşmalar nəticəsində bu rayonda faşistlər darmadağın edildilər. Bu vuruşmada Əjdər Hacıyevin xidməti "Qırmızı Ulduz" ordeni ilə qiymətləndirildi. Əjdər Hacıyev Naxçıvan şəhərində anadan olmuş, 1943-cü ildə V.İ.Lenin adına Hərbi Akademiyanı bitirmiş, baş



**Əjdər Hacıyev**





leytenant rütbəsində cəbhəyə getmişdir.

7 dekabr 1944-cü ildə Əjdər Hacıyev Naxçıvan Vilayət Partiya Komitəsi adına göndərdiyi məktubunda yazır: "Hörmətli yoldaş H.Nəcəfov! Döyüşən ordudan hərarətli salam göndərməklə əhvalınızı soruram. Bu gün qalibiyyətli döyüş əməliyyatından sonra Sizə məktub yazmağı qərara aldım.

Bir dəqiqə belə yadımdan çıxmırsınız, xüsusilə son gecə yola düşərkən Naxçıvan Vilayət Partiya Komitəsi adından mənə verdiyiniz tapşırıqları bacardıqca əla yerinə yetirirəm. Hərbi Akademiyada oxuyanda bütün dərslərdən əla qiymət almışam. 1943-cü ilin iyul ayından cəbhədəyəm. Yenə də öhdəmə düşən hərbi vəzifəni layiqincə yerinə yetirməklə 7 dəfə Ali Baş Komandanlığın təşəkkürünü, 2 dəfə "Vətən Müharibəsi" və "Qırmızı Ulduz" ordenləri ilə təltif edilmişəm. İki dəfə ağır, bir dəfə yüngül yaralanıb döyüş meydanından çıxmamışam.

Mən olan hissədə Naxçıvandan bir çox yoldaşlar var. Onları həmişə başıma toplayıb söhbət edirəm və Naxçıvan zəhmətkeşlərinin etimadını qazanmağı onlardan tələb edirəm. 416-cı Taqanroq diviziyasının bayrağını daha da yüksəldirik. Sağlıq olsun, müharibə qalibiyyəti ilə alnı açıq qayıdacağıq.

Hər bir naxçıvanlının iki-üç ordeni, medalı döşlərini şöhrətləndirir. Naxçıvan rayonunun Nehrəm kəndindən mayor Əli Əliyev, Təzəkəndli baş leytenant Məmməd Məmmədov, Mahmudkəndli (Şərur rayonu) mayor M.Mahmudov, Cabbar Hüseynov, Şahbuz rayonundan üç ordenli kəşfiyyatçı T.Məmmədov bizim hissənin adlı-sanlı komandiri və döyüşçüləridir.

Biz naxçıvanlılar öz döyüş tariximizə Melitopol, Taqanroq, Nikolayev, Odessa, Kişiynev şəhərlərini yazmaqla 4 min kilometrə kimi şücaətli döyüş yolumuz var. Yüzlərlə kənd və minlərlə sovet adamlarını əbədi olaraq alman faşist işğalçılarının zülmündən azad edib şən həyatlarını bərpa etmişik.

Bizim hissəmizin adı Azərbaycan zəhmətkeşlərinin adı ilə sıx bağlıdır. Hər yeni qalibiyyətimiz üçün Bakı fəhlələri 10

min tonlarla artıq neft verir. Azərbaycan kolxozçuları öz qəhrəman əməkləri ilə pambıq, taxıl, ət, yağ və başqa kənd təsərrüfatı planlarını vaxtından əvvəl və artıqlaması ilə yerinə yetirir. Bu da bizim əsgərlərin, komandirlərin fəxridir.

Naxçıvanlı döyüşçülərin salamını həmyerlilərimizə yetirməyinizi rica edirik.

Hörmətlə: Mayor Əjdər Hacıyev.

7 dekabr 1944-cü il" [79, v. 14].

6 fevral 1945-ci ildə Naxçıvan Vilayət Partiya Komitəsi mayor Əjdər Hacıyevə göndərdiyi cavab məktubunda yazır: "Hörmətli həmyerlimiz Əjdər! Sənin və Naxçıvanlı komandirimizlə birlikdə Naxçıvan Vilayət Partiya Komitəsinə yazdığınız məktubu aldıq. Həmin məktubda sənin və naxçıvanlı oğulların bir çox ordenlərlə təltif olunmalarınızı təbrik edirik.

Naxçıvan Vilayət Partiya Komitəsi və Naxçıvan zəhmətkeşləri Qızıl Bayraq ordenli 416-cı Taqanroq diviziyasının mübariz və ordenlərlə təltif olunan naxçıvanlı komandir və döyüşçülərilə fəxr edirik. Biz əmin oluruq ki, məğlub olmaqda olan düşmənin qəti məhv edilməsi üçün sovet bayrağını birinci dəfə Berlinə sancacaqdır.

Siz və bütün komandir və döyüşçüləriniz ailənizin vəziyyəti haqqında heç bir fikir etməyin. Qızıl Ordunun tələblərini ödəyə bilən Naxçıvanın rəhbər və zəhmətkeşləri sizin ailənizin qayğısına qalacaqdır.

Siz düşmənin qəti məğlubiyyətini başa çatdırmaqda bizi əmin etdiyiniz kimi, biz də sizin ailələrinizi lazımi qədər saxlamaq üçün Sizi əmin edirik.

Salamlar Naxçıvan Vilayət Partiya Komitəsinin bütün kollektivindən və Naxçıvan zəhmətkeşlərindəndir".

Melitopol, Taqanroq, Odessa, Kişinyev şəhərlərinin azad edilməsində şərəfli bir döyüş yolu keşmiş Ə.Hacıyevin komandirlik etdiyi hissə, almanları bir neçə gün ərzində Nikolayev şəhərinə qədər qovdular. Ə.Hacıyev burada yaralandı, Sibirli Yuri Zabrodin onu ölümün pəncəsindən xilas





etdi. Ə.Hacıyev müalicə olunduqdan sonra yenidən öz döyüş yoldaşlarının yanına qayıtdı.

Əjdər Hacıyev alman faşistlərinə qarşı vuruşmalarda göstərdiyi xidmətlərə görə birinci və ikinci dərəcəli "Vətən müharibəsi", "Qırmızı Bayraq", "Qırmızı Ulduz" və 6 medalla təltif olunmuşdur. O, 15 dəfə Ali Baş Komandanlığın təşəkkürünü almışdır.

Müharibə qələbə ilə başa çatdıqdan sonra Əjdər Hacıyev əmək cəbhəsinə qayıdaraq müxtəlif vəzifələrdə: Naxçıvan Vilayət Partiya Komitəsində 2-ci katib, Naxçıvan ( Babək) rayon XDS-də yol şöbəsinin müdiri, Naxçıvan tikinti idarəsinin rəisi, 17 №-li yol istismar şöbəsinin müdiri vəzifələrində çalışmışdır. O, 1976-cı ildə Naxçıvan şəhərində vəfat etmişdir.

416-cı Taqanroq diviziyasının tərkibində qvardiya polkovniki M.Mahmudovun komandanlıq etdiyi topçu polkunda olan naxçıvanlı döyüşçülərindən biri də Mir Məhəmməd Seyidov idi.

Quduzlaşmış alman orduları Qafqaza qədər gəlmişdilər. Döyüşçülərimizə düşməni geri oturtmaq və darmadağın etmək əmri verilmişdi. Döyüşlərin birində bölmə komandiri M.Seyidov qarşıdakı düşmən pulemyotunu susdurmaq əmri aldı. M.Seyidovun bölməsi əmri layiqincə yerinə yetirdi. Bu vaxt qarşıdan 20 düşmən tankı çıxdı. Döyüşçülər özlərini itirmədilər. Faşist tanklarının üzərinə bir-birinin ardınca ağır zərbələr endirdilər. Bir neçə tank yandırıldı, qalanları isə geri çəkilməyə məcbur oldular. Bu döyüşdə M.Seyidovun bölməsi daha fəal iştirak etdi. M.Seyidov komandanlığın təşəkkürünü aldı, medalla təltif edildi.

26 avqust 1943-cü ildə medallı serjant M.Seyidov öz həmyerliləri olan medallı serjant Yunis İbadullayev, medallı serjant Qasım Qasımov, medallı yefreytor İmamqulu Əhmədalıyev, baş serjant Hüseyn Əsgərov, starşina Cabbar Hüseynov, hərbi feldşer Nadir Bağırov, qızıl əsgər İbadulla

Həsənov və qızıl əsgər Bayram İsmixanovla birlikdə Naxçıvan Vilayət Partiya Komitəsinə və Ali Soveti Rəyasət heyətinə göndərdikləri məktubda yazırlar:

"Bizim adımızdan Naxçıvan MSSR-in bütün zəhmətkeşlərinə, atalarımıza, analarımıza, arvadlarımıza, bacı və qardaşlarımıza qızıl döyüşçü salamı yetirməyinizi xahiş edirik.

Biz vətən uğrunda inadla mübarizə edərək müqəddəs vətənimizi alman işğalçılarından tamamilə azad etmək məqsədilə komandanlığın bütün tapşırıqlarını əla surətdə yerinə yetiririk. Məhz buna görədir ki, komandanlıq hazırda döyüşçü Naxçıvan şəhər sakini İbadullayev Yunis Mehdi oğlu, Naxçıvan rayonunun (Babək) Nehrəm kənd sakini İmamqulu Əhmədalıyev, Sirab kənd sakini Qasım Qasımov və başqalarını ali mükafatla təqdim etmiş və onlar medalla təltif olunmuşlar.

Biz hamımız düşmənə gecə-gündüz ağır zərbələr vurur və onları məhv edirik. Bütün zəhmətkeşlərimizi inandırırıq ki, biz öz ailəmizə, Sizin yanınıza alnı açıq gələcəyik.

Düşmənin ağzı qırılmışdır. Qızıl ordu düşməni mərdliklə qərbə doğru qovmaqdadır. Lakin düşmən hələ darmadağın edilməmişdir. Düşməni tamamilə darmadağın etmək üçün arxanın cəbhəyə olan köməyi daha da artırılmalıdır.

Hörmətli fəhlələr, kolxozçular, ziyalılar və bütün zəhmətkeş yoldaşlar! Öz iş sahənizdə birə on qat artıq qüvvə ilə çalışın. Vətənin və cəbhənin tələbini durmadan və yorulmadan təmin edin. Unutmayın ki, var qüvvəsini, bütün təcrübəsini və biliyini qələbəmiz naminə sərf edən arxadakı hər bir sovet adamı Qızıl Ordunun hücumunda özünün də iştirak etdiyini zənn etməyə haqlıdır".

Döyüş meydanında partiya sıralarına keçən M.Seyidov komandanlığın hər bir çətin tapşırığını layiqincə yerinə yetirmişdir. Bir dəfə ona telefon xəttini qaydaya salmaq tapşırılmışdır. O, bu tapşırığı yerinə yetirməyə gedərkən üç alman tankının irəlilədiyini görür. M.Seyidov özünü itirmədən yaxınlıqdakı xəndəyə girib tankların yaxınlaşmasını gözləyir.





Birinci tank ona 20-25 metr qalanda əlindəki qumbaranı və yandırıcı mayeni tullayır. Faşist tankı bir anda alovlanıb yanır. O, bundan sonra ikinci və üçüncü tankı da məhv edir. M.Seyidov bu igidliyə görə "Qırmızı Ulduz" ordeni ilə təltif olunur.

M.Seyidov müharibənin sonunadək döyüşən ordu sıralarında xain düşmənə qarşı mərdliklə vuruşmuşdur.

Allahverdi Kərimov hərbi feldşer, həm də cəsur döyüşçüdür. Cəbhədə o, bəzən sanitar sumkasını çiyninə alaraq od, alov içində döyüş meydanına soxulur, yaralı döyüşçülərimizə ön atəş xəttində yardım göstərir, çox vaxt on nəfəri əvəz edir. Bəzən isə o, komanda da verir. Komandir vurulduqda ətrafı qorxu sarmasına baxmayaraq o, ayağa qalxdı və mərdi-mərdanə səsləndi:

Mən komandirəm, komandirə qulaq asın, irəli, yoldaşlar-deyib rotanı hücuma apardı, düşməni tutduğu mövqedən çıxarıb qovdu. Sizin qoçaq oğlunuz Allahverdi Kərimov belə cəsur qəhrəmandır. O, komandanlığın tapşırığını əla yerinə yetirdiyinə görə və çox böyük rəşadət göstərdiyinə görə "Qızıl Ulduz" və "Qırmızı Bayraq" ordenləri ilə təltif edilmişdir. Siyasi rəhbər B.Esipov 24 iyul 1942-ci il [37, c. 412].

Bu iki ordenli qəhrəman komsomolçu bizim həmyerlimiz Culfa rayonunun Milax kəndindən idi. Allahverdi Kərimov müharibə başlamazdan 3 il qabaq Naxçıvan tibb məktəbinin son kursunda feldşerlikdə oxuduğu zaman Qızıl Ordu sırasına əsgəri xidmətə çağırılır.

Allahverdinin əsgəri xidməti qurtarmasına bir az qalmış alman-faşist işğalçıları vətənimiz üzərinə xaincəsinə basqın etdi. O, komandanlığa ərizə verdi, cəbhəyə göndərilməsini xahiş etdi. Qızıl Ordu sırasında namuslu döyüşçü olacağını bildirdi. Onun xahişi yerinə yetirildi.


**Allahverdi Kərimov**

Müharibənin ilk günlərindən

Sovet-alman cəbhəsində qızğın vuruşmalarda iştirak etdi. Onun Rostov cəbhəsində etdiyi mərdlik və igidlik daha çox diqqətəlayiqdir. Allahverdi Rostov cəbhəsində gedən qızğın döyüşlərdə yaralandı, lakin sarsılmadı. Sağaldı və yenə döyüşə yollandı. Lakin döyüşə getməzdən qabaq anası və doğma kəndi xatirində canlandı. O, məktub yazmaq qərarına gəldi. Düşmənlə necə vuruşduğunu anasına və onu tərbiyə edib böyüdən el-obaya bildirmək üçün anasının adına bir məktub yazdı.

Allahverdi kəndə göndərdiyi məktubunda qoca kolxozçu anasına sadə və aydın dildə yazır: "Ürəyimin dərin guşəsində döyüşçü-ölkə müdafiəçisi salamımı sənin kimi əziz anama səmimiyyətlə təqdim edirəm. Ana, əgər sən də bu tərəfi soruşsan, vətənin müdafiəsində sağ və salamat varam. Ana! Ürəyini sıxma, qorxma nə vaxt ki, güllələr açılır, toplar guruldayır, aeroplanlar uçur, bizim əsgərlər hücuma keçir, güllə yağış kimi yağır, onda mənim gözüm qızır. Hansı faşisti tuturamsa, az qalıram ki, qanını içəm. Ana! Biz çoxlu alman əsiri tutduq. Ürəyini sıxma, biz hər yerimizi düşməndən azad edib və onu darmadağın edəcəyik".

1943-cü ilin payızı idi. Bir dəfə kəşfiyyata getmək üçün Allahverdi əmr aldı. Onlar kiçik dəstə ilə düşmənin arxasına keçdikdə atışma başlandı. Lakin qüvvələr bərabər deyildi. Açılan toplar, nərildəyən avtomatlar bütün döyüş meydanını ağzına almışdı. Bu döyüşdə Allahverdi qəhrəmancasına həlak oldu. Lakin döyüşçü yoldaşlarının və Naxçıvan zəhmətkeşlərinin qəlbində əbədi yaşadı.

Həmyerlimiz Bəxtiyar Oruc oğlu Kərimov Naxçıvan rayonunun (Babək) Şıxmahmud kəndində anadan olmuşdur.

Bəxtiyar Kərimov Şıxmahmud kəndində orta məktəbi bitirdikdən sonra rayon komsomol komitəsində işləmiş, evləndikdən sonra Naxçıvan şəhərinə köçmüş və bir müddət işlədikdən sonra bir çox gənclər kimi vətənin müdafiəsinə getmişdir.

Cəbhənin Krım tərəfində arabaçı qızıl əsgər Bəxtiyar





Kərimov çörəkxanadan qayıdırdı. Qar tozunu sovuran külək onun qulağına rus dilində deyil, başqa bir dildə danışanların qırıq-qırıq sözlərini çatdırdı. Kərimov səs gələn tərəfə diqqətlə qulaq asdı, atını saxladı, dərhal tüfəngi əlində möhkəm sıxdı.

Yolun sol tərəfində, dərə ilə faşist kəşfiyyatçılar dəstəsi gəlirdi. Kərimov Bəxtiyar kolun dalında gizlənərək faşistləri saydı, bunlar 11 nəfər avtomatçıdan ibarət idilər. Kolun qolu əyildi, Bəxtiyar az qala dərəyə yıxılacaqdı. Alman avtomatçısının gülləsi Bəxtiyarın qulağını yandırdı.

Bəxtiyar bir güllə atıb quldurlardan birini yerə sərdi. Almanlar yerə uzandılar. Kəşfiyyatçılar dəstəsindən iki nəfər əsgər ayrılıb, müxtəlif tərəfdən sürünə-sürünə yola çıxmaq üçün irəliləyirdi. Faşistlərdən biri dərədən çıxdıqda Bəxtiyar daha bir güllə atdı. Quldur dərəyə yıxıldı. Bunu görən qeyzlənmiş faşistlər şiddətli atəş açdılar. Kərimov çiyninə, boynuna və qulağına güllə dəydiyini hiss etdi. Yerə yıxılıb bir dəqiqə özündən getdi. Gözünü açarkən 9 quldurun çıxdığını gördü.

Bəxtiyar tələsməyərək yanındakı iki qumbaranı atmaq üçün hazırladı, sonra bir az qalxıb bu qumbaraları yırtıcı faşistlərin içərisinə tulladı. Qüvvətli partlayış əmələ gəldi. Bəxtiyarın qulağı cingildədi. Yırtıcı düşmənlərdən daha səkkizinin meyidi dərənin dibinə yuvarlanıb düşdü.

Sağ qalan və döşündə iki dəmir xaç nişanı olan kiçik zabit qumbaranın qəlpəsi ilə yaralanmışdı. Buna baxmayaraq, alman zabiti özündən getmiş olan Kərimova tərəf sürünə-sürünə gəldi və Kərimova bir neçə güllə atdı. Ölümcül yaralanmış olan Bəxtiyar çox çətinliklə gözünü açdıqda düşmənin onun üzərinə əyildiyini gördü. Qızıl əsgərin ürəyindəki qəzəb hissi o qədər böyük idi ki, ölümcül yaralandığına baxmayaraq özündə qüvvət hiss etdi və faşisti tutub özünə tərəf çəkdi. Quldur faşisti əli ilə boğa bilməyən Bəxtiyar onun hulqumunu dişinə aldı.

Bir azərbaycan gəncinin 11 quldur faşisti məhv etdiyi

bu faciəli çarpışma yerinə bir saatdan sonra batalyonumuz gəlib çıxdıqda döyüşçülər papaqlarını çıxardılar və bir dəqiqə susaraq qəhrəmanın xatirəsini yad etdilər. Sonra döyüşçülər burada qəbir qazıb, xalqımızın səadəti və azadlığı uğrunda canından keçən mərd yoldaşlarını-Kərimov Bəxtiyarı burada dəfn etdilər.

Kiçik siyasi rəhbər: L.Perelman. 1942-ci il.

Böyük Vətən müharibəsi veteranı "Qırmızı Ulduz" ordenli Şıxmahmud kənd orta məktəbin müəllimi Hüseyn Tağıyev deyir ki, Bəxtiyarı mən yaxşı tanıyırdım. Onlar bir bacı və üç qardaş idi. Bəxtiyar, Xudayar və Rəhim. Hər üçü cəbhədən qayıtmadı. 1941-ci ildə Bəxtiyarı Naxçıvandan cəbhəyə yola saldıq. Sonra özüm də bir neçə aydan sonra cəbhəyə yola düşdüm. Müharibədən sonra Bəxtiyarın anası Zeynəb xala onun məktub və şəklini mənə göstərdi. Komandirdən gələn məktubunda isə onun qəhrəmanlığından danışılırdı.

Bəxtiyar Kərimov Böyük Vətən müharibəsi cəbhələrində cəmi bir neçə ay vuruşdu. Lakin onun göstərdiyi şücaət və qəhrəmanlıq ön cəbhədə çalışanlara çox gözəl məlum idi. Xalq şairi Rəsul Rzanın 1942-ci ildə yazdığı və tez bir zamanda dillər əzbəri olan "Bəxtiyar" şeri döyüşçülərin cib dəftərçələrinə köçürülmüş, onlarla əsgərin papiros qutularının üstünə yazılıb əldən-ələ gəzirdi.

İgid həmyerlimizin göstərdiyi misilsiz qəhrəmanlığı döyüşçülərimizin azğın faşist işğalçılarına qarşı son damla qanları qalana kimi vuruşa səsləyirdi.

Həmyerlimiz Bəxtiyar Kərimovun bu qəhrəmanlığı haqqında şeir və hekayə yazılmış, Azərbaycan Sovet Ensiklopediyasının 5-ci cildində, "Azərbaycan SSR Böyük Vətən müharibəsi illərində" kitabında söhbət açılmışdır. Bəli, Bəxtiyar Kərimovun qəhrəmanlığı unudulmamışdır.

Xalq şairi Rəsul Rzanın dediyi kimi:

Sən qorudun vətəni -Bəxtiyar!
Vətən unutmaz səni -Bəxtiyar!
Bundan sonra fəxr ilə analar.





Körpələrinə ad qoyar: - Bəxtiyar!

Qızıl Ordu sıralarına alınmış naxçıvanlı gənc döyüşçülərdən 13 nəfəri: baş serjant Məmməd Bağırov, serjant Zeynalabdın Kazımov, starşina Ağoş Mirişli, baş serjant Həmid Mürsəlov, serjant Əli Şeyxov, serjant Əli Əliyev, serjant Yunis Əliyev, şofer Bəhlul Əliyev, şofer Qəşi Abbasov, baş serjant İsmayıl İsmayılov, kiçik leytenant Müzəffər Məmmədov, kiçik leytenant Qocayev və kiçik siyasi rəhbər İslam Səfərli Azərbaycan LKGİ Naxçıvan rayon komitəsi adına göndərdikləri 29 avqust 1942-ci il tarixli məktublarında yazırdılar:

"Naxçıvanın bütün zəhmətkeşlərinə, kolxozçularına, kolxozçu qadınlarına, fəhlələrinə, fəhlə qadınlarına, ziyalılarına bizdən alovlu qızıl əsgər salamı!

Biz Lenin komsomolu sırasında böyümüş və tərbiyə almış gənclərik. Biz vətənin Lenin partiyası işi uğrunda dönməz mübarizlərik. Biz əlimizə silah alaraq əziz vətənimizin müdafiəsinə qalxmışıq. Vətən uğrunda son damcı qanımız qalana qədər vuruşacağımıza və azğın düşmənə sarsıdıcı zərbələr vuracağımıza and içmişik. Qoy qoca tarix bizim qəhrəmanlıq tradisiyalarımızı bir rübab kimi tərənnüm etdirsin:

Biz cəbhələr aslanıyıq eşit tarix, eşit ana!
Silah tutub çarpışırıq ana vətən uğrunda.

İşimizin haqq olduğunu biz yaxşı bilirik.

Naxçıvan gəncləri! Biz özümüzün və sizin alçaq alman faşistlərinə olan kinimizi süngümüzə yığaraq əclaf düşmənlərimizin köksünə çalacağıq. Biz düşmənlə mərdcəsinə vuruşduğumuz kimi, siz də təsərrüfatda, dəzgah başında namusla çalışın! Cəbhəni və ölkəni hər cür məhsulla bol-bol təmin edin! Siz bunu yaxşı bilin ki, həyat mərdlərin, qoçaqların və həqiqət uğrunda mübarizə edənlərindir. Biz sizi əmin edirik ki, alçaq faşizmin məhv edilməsində qəhrəmanlıqla vuruşanların ilk sıralarında olacağıq".

O zaman bu cəsur döyüşçülərin sırasında orta məktəbi

yenicə bitirmiş, Arazın sahilində boy atmış bir qarabuğdayı, qıvrımsaçlı oğul da var idi. Həmin gənc bu gün hamımızın yaxşı tanıdığımız mərhum sevimli şairimiz İslam Səfərli idi. Onlar Naxçıvandan cəbhəyə gedərkən 13 nəfər olmuşlar. Bu gənclərin hamısı əyinlərinə əsgər şineli geyinməmişdən əvvəl hərbi komissarlıqdan icazə alıb 5 dəqiqəliyə Möminə Xatun türbəsinin yanına gəlmişlər. Onlar sıraya düzülüb türbənin ətrafında and içmişdilər ki, son damla qanlarınadək vətən uğrunda vuruşacaqlar.

13-lər 4 il ərzində dəfələrlə qanlı cəbhələrdə güllə yağmurunun altına düşmüşlər. Lakin ruhdan düşməmişlər.

Şair bu haqda "13-lərim" adlı şerində gözəl deyibdir:

On üçlərim, on üçlərim,
Bir geyindik şineli biz.
Bir and içdik al bayrağa,
Bir döyündü ürəyimiz.

Bir düşündük, bir daşındıq,
Bir sıçradıq düşmən üstə.
"Ana" dedik, "Vətən" dedik,
Dar ayaqda, son nəfəsdə.

Dağılanda gecəyarı
Faşistlərin istehkamı,
Baxıb qarşı səngərlərə
"On üçlərdir"-dedi hamı.


**İslam Səfərli**

İslam Səfərli milyonlarla vuruşan əsgər kimi həmişə qanı bahasına, canı bahasına qələbəyə doğru irəliləmişdir. O, bircə şey bilirdi: faşist canavarları öz yuvalarında boğulmayınca ağ saçlı anaların göz yaşları qurumayacaq, ağ saçlı babaların dərdi tükənməyəcək, qaragözlü gəlinlər gözlərini yoldan çəkməyəcəklər.





Müharibə illərində həmişə cəbhələrin ön xəttində olan İslam yalnız bir mərd olaraq qalmamışdır. O, yeri gələndə kəşfiyyatçı kimi də, ana vətənin tapşırıqlarını yerinə yetirmişdir. Bir gün rota komandiri bu qarabuğdayı oğlanı yanına çağırıb qarşıdakı düşmənin qüvvəsini öyrənməyi tapşırır.

İslam gecəyarı yoldaşları ilə birlikdə sürünə-sürünə cəbhə xəttini keçib alman əsgərlərinə doğru yaxınlaşırlar. Elə bu zaman alman gözətçisi atəş açır, İslam dərhal həmin gözətçinin üstünə cumur və onun ağzını dəsmalla bağlayır. Fürsəti itirmək olmazdı. İslam yoldaşlarına dərhal həmin alman əsgərini aparmağı əmr edir. Özü isə çiyninə avtomatı salıb keşikdə dayanır. Atəş səsinə gələn almanlara işarə verir ki, təhlükəli heç nə yoxdur. Beləliklə cəsur döyüşçü həm yoldaşlarını ölümdən xilas edir, həm də vətənin müqəddəs tapşırığını ləyaqətlə yerinə yetirir.

İslam Səfərlinin belə qəhrəmanlıqlarını saymaqla qurtarmaz. Məhz buna görə də o, dəfələrlə mükafatlandırılmışdır.

Müharibə qələbəmizlə qurtardıqdan sonra İslam Səfərli arxaya qayıdır. Təhsilini davam etdirməyə başlayır. O, Azərbaycan Dövlət Universitetinin filoloji fakültəsinə daxil olur. O, əsgər şinelini qara kostyumla, zağlı silahını qələmlə əvəz edir. Ancaq gələcəyin şairi cəbhədə igidliklə ötən günləri bir an belə xəyalından çıxara bilmir. "Bıçaq yarası" adlı şeirində oxuyuruq.

Artıq xeyli keçibdir, bax, o zamandan bəri,
Xəyalımdan getməmiş hələ döyüş illəri.
Düşmən! Kəsə bilmədi mənim bu sağ əlimi.
Bu gün min bir ilhamla tutaraq mən qələmi,
Düşmənə, yağılara, yada qarşı yazıram,
Qanlı imperializmə ölüm marşı yazıram!...

İslam Səfərli Böyük Vətən müharibəsindən sonra yavaş-yavaş yazıb-yaratdı, bir şair kimi məşhurlaşmağa başladı. O, 1976-cı ildə Bakı şəhərində vəfat etmişdir.

Ayaz bir qış gecəsi idi. Əsən həzin külək havadakı

soyuqluğu bir daha artırmışdı. Çoxdan bəri yağmış olan qalın qarın üzəri gecənin mavi boşluqları arasında axan ayın parlaq şüaları altında almaz kimi parıldayır, ətrafa sanki qığılcımlar saçırdı.

Gecədən xeyli keçməsinə baxmayaraq gəliş-gediş heç də azalmamış, vağzal yolunda hərəkət daha da çoxalmışdı.

Dəmiryol stansiyasında böyük qələbəlik və canlanma vardı. Stansiyanın perronu gülərüzlü adamlarla dolmuşdu. Hamı bir-birilə görüşür, şirin söhbət edir və gəzişirdi. Bu adamlar Qızıl Ordu sıralarına növbəti çağırışa düşmüş oğullarını, qızlarını, qardaşlarını, qohum-əqrəbalarını yola salmağa toplaşmışlar.

Stansiya növbətçisi divardan asılmış böyük sarı bürünc zəngin yanına gəldi.

Ətrafı güclü zəng səsi bürüdü. Uzun dalğalı bu səs həm vəzifə, həm də ayrılıq zəngi idi. Axşamdan bəri buraya toplaşan izdihamın gözlədiyi qatar artıq axırıncı stansiyadan çıxmışdı.

Stansiyanın yuxarı tərəfində toplaşan böyük bir dəstənin içərisində uca boylu, qara gözlü, enli kürəkli, başında saqqalı qoyun dərisindən papaq, əynində yun parçadan tikilmiş göy rəngli çuxa olan bir kişi öz şirin və xoş söhbətilə ətrafındakıların nəzərini cəlb etmişdi. Onun bütün hərəkətləri və baxışı ciddi və işcil bir adam olduğunu andırırdı.

Oğlu Hacını yola salmağa gələn bu şəxs Naxçıvan rayonunun (Babək) Cəhri kəndindən olan Hüseyn Qənbərov idi.

Vətənimizin, günəşli elimizin xüsusiyyətlərindən, qorxu bilməz, mərd adamlarından söhbət edən Hüseyn kişi oğluna da nəsihət edirdi. Dünya görmüş bu kişinin gözəl söhbəti və nəsihətləri Hacı və digər dinləyicilərə dərin təsir edirdi...

-Qorxmaz ol, oğlum. Komandirlərinin və səndən böyük yoldaşlarının sözünə diqqət et, onların tapşırıqlarını vaxtında və düzgün olaraq yerinə yetir. Düşmənə heç zaman rəhm etmə. Onu mərdlik və qoçaqlıqla öldür. Bu vətənimizin, elimizin,





sənin və ailəmizin adını ucaldar. Qoy mənim haqqım, ananın südü sənə halal olsun.

Artıq qatar stansiyaya çatmışdı. Hacı və yoldaşları vaqona minmişdilər.

İkinci zəng vurulmuşdu.

Paravoz fitini çaldı. Qatar yavaş-yavaş hərəkətə başladı.

Hacı atasını ötürmək üçün vaqonun qapısına qədər gəlmişdi.

-Xudahafiz, oğlum. Kəndimizə ordenlə qayıtmağını gözləyirəm- deyə perronda duraraq əlini yelləyə-yelləyə oğlundan ayrılan Hüseyn kişi qatar gözdən itincəyədək yerindən ayrılmadı.

1941-ci il idi. Hacı Naxçıvan rayonunun Sust kənd natamam orta məktəbində müəllim işləyirdi. 1941-ci il dekabrın 11-də Naxçıvan MSSR Hərbi Komissarlığından çağırış vərəqəsi alan Hacı Rzayev ertəsi günü bir çox naxçıvanlılarla birgə cəbhəyə yola düşdü.

Əvvəlcə Hacıgili Ermənistan Respublikasının Leninakan şəhərində hərbi hissəyə gətirirlər. Onlara hərbi hazırlıq keçirlər. 1942-ci ilin iyul ayında həmin hissədəki azərbaycanlılar ayrılıb Quba şəhərində hazırlanmış 320-ci Azərbaycan diviziyasının tərkibinə verilir.

1942-ci ilin avqust ayında faşistlər Şimali Qafqazda hücumu genişləndirərək bir həftə sonra Mozdoku tutdular. 320-ci atıcı diviziyasının tərkibində Hacı Rzayev də məhz burada-Mozdok ətrafında döyüşə girməli olur. Onun Böyük Vətən müharibəsində qəddar düşmənə qarşı əsas döyüş yolu da burdan başlandı.


**Hacı Rzayev**

1942-ci ilin dekabr ayında Mozdok şəhərinin alman faşistlərdən azad edilməsi uğrundakı vuruş-

malarda Hacı yaralanır. Onu Maxaçkala şəhərindəki hərbi xəstəxanaya göndərirlər. Hacı Rzayev hərbi xəstəxanada müalicə olunaraq yenidən cəbhəyə qayıdır.

İkinci dəfə Hacının döyüş yolu Krasnodar vilayətinin Krımskaya stansiyası altından başlanır. Orada o, 5-ci qvardiya briqadasında kiçik serjant rütbəsində vzvod komandiri idi. Həmin döyüşdə Hacı ağır yaralanır. Krasnodar və Yesentuki hərbi xəstəxanalarında müalicə olunduqdan sonra 32-ci qvardiya diviziyasının 82-ci qvardiya polkunda "Maksim" pulemyot heyətinin komandiri kimi Novorosiyski şəhərinin azad olunmasında iştirak edir. Həmin döyüşdə də Hacının bəxti gətirmir. Bu dəfə yaralanmaqla bərabər sol tərəfindən kantuziya alır. Səhra hərbi xəstəxanasında müalicə olunan Hacı Rzayev yenidən döyüşə atılır. Bu dəfə 18-ci ordunun 317-ci diviziyasının tərkibində Taman şəhərinin azad olunmasında iştirak edir.

Müharibə veteranı, ehtiyatda olan mayor Hacı Rzayev xatirələrində deyir: "1943-cü ilin payız aylarında bizim 18-ci ordunu Kiyev istiqamətinə göndərmək haqqında Ali Baş Komandanlığın əmrini aldıq. Kiyev, Jitomir və Berdıçev şəhərlərinin azad edilməsində baş serjant rütbəsində vzvodun döyüşçüləri ilə birlikdə fəal iştirak etdim. Berdıçev şəhərinin azad etdikdən sonra məni diviziya qərargahına çağıraraq 18-ci ordu nəzdindəki kiçik leytenant hazırlayan kursa getməyimi təklif etdilər. Həmin kursa diviziyadan 30 nəfər göndərdilər ki, 30 nəfərdən biri də mən idim".

Hacı Rzayev 1944-cü ilin fevral ayında kursu bitirib kiçik leytenant rütbəsi alaraq 317-ci diviziyanın 761-ci polkuna vzvod komandiri təyin edilir.

Veteran xatirələrində deyir: "Vzvodu gecə müdafiə xəttində Karpat dağlarının şərq ətəklərində təhvil aldım. Bir müddət müdafiədə dayandıqdan sonra Karpat dağlarını alman faşistlərindən təmizləməyə başladıq. Karpat dağlarını azad edərkən Ujqorod şəhərini də faşistlərdən təmizlədik.

761-ci atıcı polkunun komandiri polkovnik Qrafski





bizim, yəni 2-ci batalyonun komandiri mayor İvanışini çağırıb əmr etdi ki, qarşıda bir təpə var, 1330 metr yüksəkliyində, onu sizin batalyon almalıdır, çünki gələcək vuruşmalarda həmin təpə həlledici rol oynayacaqdır.

Tipoqrafik xəritədə mayor İvanışi hərəkət xəttini müəyyənləşdirib rota komandirlərinə öz əmrini verdi. Qabağa kəşfiyyatçılar göndərildi. Həmin təpənin yarısınadək qalxdıq. Meşədən çıxıb açıq yerdə dayandıq. Təpənin başı duman içərisində idi. Batalyon komandiri rota komandirlərini çağıraraq təpənin yuxarısına qalxmağa başladılar. Biz isə uzanaraq dincəlmək istəyirdik ki, almanların atəş açdığını gördük. Yuxarı qalxan zabitlərin bizə tərəf gəldiklərini görəndə bildik ki, təpənin başında almanlar yerləşirlər.

Bizim batalyon təpəni mühasirəyə almaq qərarına gəldi. Sonra batalyon komandiri mayor İvanışinin alman pulemyotundan beş metr aralı həlak olduğunu bildik. Onun almanlar tərəfindən aparılmaması üçün tədbir görmək lazım gəldi. Bunun üçün avtomat pulemyot və tank əleyhinə olan silahlardan ibarət atəş qrupu yaradıldı və qrupun rəhbərliyinə komandir batalyonunun müavini məni təyin etdilər. Biz batalyon komandirinin qisasını almaq üçün və polk komandirinin təpəni azad etmək barədəki əmrini yerinə yetirmək məqsədilə hücuma keçdik. Heç bir itkiyə yol vermədən alman faşistlərini məhv etdik və təpəni almanlardan azad etdik. Bu hadisə diviziyanın tarixində silinməz bir iz buraxdı".

Karpatın, Ujqorod şəhərinin azad edilməsində göstərdiyi igidliyə görə Hacı Rzayev 2-ci dərəcəli "Böyük Vətən müharibəsi" ordeni ilə təltif edilir. Bu münasibətlə 761-ci atıcı polkunun komandiri Qrafski Hacı Rzayevin atası Hüseyn kişiyə 23 dekabr 1944-cü ildə göndərdiyi məktubunda yazır: "48491 hərbi hissənin komandanlığı sizə bildirmək istəyir ki, oğlunuz Hacı Rzayev alman faşist işğalçılarına qarşı döyüşlərdə komandiri olduğu vzvodun döyüşçüləri ilə göstərdiyi igidliyi və cəsurluğu qiymətləndirilərək "2-ci dərəcəli Vətən müharibəsi"

ordeni ilə təltif olunmuş, Ali Baş Komandanığın təşəkkürünü almışdır" [72, v. 22].

Hacı Rzayevin şanlı döyüş və qəhrəmanlıq yolu Şimali Qafqazın, Macarıstanın, Avstriyanın, Ujqorod şəhərinin, Karpat dağlarının, Çexoslovakiyanın azad edilməsi ilə 1945-ci ilin 9 may səhərində Çexoslovakiyanın Mərkəzi Praqada başa çatdı. Bu döyüşlərdə Hacı Rzayev "Qırmızı Ulduz" ordeni ilə təltif edildi.

Polk komandiri polkovnik Qrafski 10 mart 1945-ci ildə ikinci dəfə Hacı Rzayevin atasına göndərdiyi məktubunda yazır: "Oğlunuzun alman faşist işğalçılarına qarşı döyüşlərdə göstərdiyi cəsurluğu və igidliyi komandanlıq tərəfindən qiymətləndirilərək "Qırmızı Ulduz" ordeni ilə təltif edilmişdir. Oğlunuzla fəxr edə bilərsiniz".

Veteran xatirələrində deyir: "Müharibə qurtardıqdan sonra mən leytenant rütbəsində rota komandirlərinin təkmilləşdirmə kursuna göndərildim. 53-cü ordunun nəzdində 1945-ci il iyul ayında Şərqdə yapon millitaristlərinə qarşı müharibəyə yola düşdük. Bizim kursda oxuyan zabitlər ehtiyyatda olmaqla iki eşalonda hərəkət etdik. 1945-ci ilin sentyabrın 2-də yaponlar da təslim oldular. Beləliklə, İkinci Dünya müharibəsi qurtarmış oldu".

Hacı 1946-cı il iyul ayında ordudan tərxis olunub doğma vətəni Naxçıvana qayıdır. Bir müddət Cəhri kənd orta məktəbində müəllimlik etdikdən sonra, 1951-ci ildən yenidən ordu sıralarında qulluq etməyə başlayır. O, Naxçıvan MR Hərbi Komissarlığında xidmətə başlamış və mayor rütbəsinədək yüksəlmişdir. 1971-ci ildən istefaya çıxmış Hacı Rzayev əmək cəbhəsindən ayrılmayaraq Naxçıvan MR Maarif Nazirliyində müfəttiş, sonralar isə Maarif, Ali məktəb, Elmi İdarə işçiləri Həmkarlar İttifaqının Naxçıvan Vilayət Komitəsində təlimatçı işləmişdir. Hazırda təqaüdçüdür.

1940-cı ilin payızı idi. Kərim Əliyev Qızıl Ordu sıralarında xidmətə çağırılmışdı. Anası Pəri Məmmədova qapıya





çıxaraq oğlunu yola salırdı. O, vidalaşaraq oğlunu qucaqladı, bir ana məhəbbətilə sevə-sevə dedi:

-İstəkli oğlum, ana vətənə namusla xidmət et, igid ol.

O, bir qədər yolda durdu, uzaqlaşan oğlunun boybuxununa doyunca baxıb tamaşa etdi... Naxçıvan şəhər sakini müharibə veteranı Yaqub Zalovun dedikləri:

"15 oktyabr 1940-cı ildə bir çox həmyerlilərimlə və o cümlədən Yarımca kənd əhli Kərim Mehbalı oğlu Əliyevlə Naxçıvandan vaqona minib Qızıl Orduya xidmətə yola düşdük.

Biz Ukrayna SSR Odessa şəhərində 151-ci diviziyada xidmət edirdik. Müharibə xəbərini də məhz həmin şəhərdə eşitdik. Müharibə başlananda Kərim Əliyev baş serjant rütbəsində idi. Alman faşistləri 22 iyun 1941-ci ildə səhərə yaxın bizim hərbi lageri bombaladılar. Əmr verilmişdi ki, bizim diviziya Kişinyov şəhərinə köçürülsün. Bizi Kişinyov şəhərinə apardılar. Biz oradan döyüşə başladıq. Həmin döyüşdə mən yaralandım. Məni hərbi xəstəxanaya göndərdilər. Mənim yaralanmağım bizi bir-birimizdən ayırdı və bir daha görüşmədik".

Babək rayonunun Hacıvar kənd sakini, II dərəcəli Vətən müharibəsi əlili Məhəmməd Cəfərovun dedikləri:

- Həmyerlim Kərim Əliyevlə Odessa şəhərində 151-ci diviziyanın 469-cu atıcı polkunda xidmət edirdik. 1 may 1941-ci ildə bizi hərbi lagerdən apardılar Yevpatoriya portuna. Oradan gəmi ilə bizi Bessarabiyanın Kişinyov şəhərinə apardılar.


**Kərim Əliyev**

22 iyun 1941-ci ildə alman faşistləri vətənimizə xaincəsinə hücum edən zaman biz Prut çayı ətrafında müdafiədə idik. Alman-faşistlərlə döyüşümüz məhz buradan başlandı. 1941-ci ilin sentyabr ayında ağır yaralandım. Məni Xerson şəhərindəki hərbi xəstəxanaya göndərdilər. Hərbi

xəstəxanada Kərimi gördüm. O da yaralanmışdı. Kərim sağaldıqdan sonra yenidən cəbhəyə qayıtdı. Mən isə ağır yaralandığım üçün II dərəcəli hərbi əlil kimi döyüşən ordudan tərxis olub arxa cəbhəyə qayıtdım.

Kərim Əliyev 151-ci diviziyanın tərkibində Kişinyov Prut çayı ətrafındakı döyüşlərdə yaxından iştirak etdi. Prut çayı ətrafındakı döyüşlərdə yaralandı. Sağaldıqdan sonra onu Qafqazın müdafiəsinə göndərdilər.

Hitlerçilər Qızıl Ordunu əzmək, onun əsas qüvvələrini məhv etmək və qış girənədək müharibəni qurtarmaq ümidində idilər. Lakin döyüşçülərimiz qəddar düşmənə qarşı misilsiz bir rəşadət və mərdliklə vuruşur, hitlerçilərin planını puça çıxarırdılar.

1943-cü il yanvarın 1-də düşmənin Mozdokdan qovulub çıxarılması başlandı. Kərim Əliyevin Mozdok uğrundakı vuruşmalarda göstərdiyi igidlik komandanlıq tərəfindən qiymətləndirildi. O, Ali Baş Komandanlığın təşəkkürünü alır və partiya sıralarına qəbul edilir.

Kərim Əliyev 1 may 1943-cü ildə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin katibi H.Nəcəfov yoldaşın adına göndərdiyi məktubunda yazır:

- Əziz Nəcəfov yoldaş! Uzaq bir məsafədən sizə cəbhəçi, kommunist və komandir salamımı göndərirəm. Mən sizin "Pravda" qəzetində məktubunuzu oxudum. Bu məktub məni və yoldaşlarımı son dərəcə şad etdi. Siz məktubunuzla Azərbaycanlı döyüşçülərini daha da vətənpərvərlik hissləri ilə ruhlandırırsınız. Mən sizə söz verirəm ki, öz əsgərlərimlə düşməni həmişəkindən daha çox əzəcəyik.

Döyüşçü K.Əliyev yazır:

- Yoldaş Nəcəfov, mən üç ildir ki, ordudayam. Öz əvvəllər rus dilini bilmirdim. İndi rus dilini yaxşı bilirəm. işimdə intizamlı olduğum üçün və döyüş nümunələri göstərdiyimə görə məni komandir etdilər və partiya sıralarına qəbul edildim.





Əliyev Kərim məktubunun axırında yazır: Əziz Nəcəfov yoldaş, biz faşistləri günü-gündən geri qovuruq. Biz qalib gələcəyimizə əminik, çünki bizə komanda verən Marşalımız Stalin yoldaşdır.

Məndən Naxçıvan rayonunun kolxozçularına döyüşçü və kommunist salamı".

Almanlar geri çəkilirdilər. Kəşfiyyat xəbər gətirmişdi ki, faşistlər damları yandırırlar. 800 evlik bir kənd onlar tərəfindən bir gecədə məhv edilmişdir. Qaranlıq içində ətrafı bürüyən od püskürürdü. Sanki isti damlar da gülərüzlə işıqlanan odlarla bizi qarşılayırdı. Ancaq biz yaxınlaşdıqca göz önündəki mənzərə daha şiddətli şəkil alırdı.

Sovet döyüşçüləri bir an dayandılar.

- Alçaq düşmənlərə lənət olsun!- deyə Kərim Əliyev qışqırdı. Faşist quldurlarından intiqam almaq lazımdır!

Bütün döyüşçülər onun bu sözlərini mehribanlıqla təsdiq etdilər.

...Qoşunlarımız Mozdok-Nalçik-Krasnodar istiqamətində irəlilədi. Geri çəkilən düşmən daha da azğınlaşmışdı. Şiddətli vuruşma gedirdi. Qoşunlarımızın irəliləməsi ucuz başa gəlmirdi. Bu döyüşlər zamanı K.Əliyev "Qırmızı Ulduz" ordeninə layiq görülür.

Həmyerlimiz Kərim Əliyev sonrakı döyüşlərin birində qəhrəmancasına həlak olur. Kərim Əliyevin qardaşı Baba Əliyevin dedikləri:

"Müharibə başlananda mənim 12 yaşım var idi. Qardaşım Kərim müharibədən qabaq Qızıl Orduda xidmət edirdi. Böyük qardaşım Rəhim isə müharibə başlanandan bir neçə gün sonra vətənin müdafiəsinə getdi.

Kərim öz məktublarında döyüşçü yoldaşları haqqında, alman faşistlərin sovet şəhər və kəndlərində etdikləri vəhşiliklər haqqında yazırdı.

Yaxşı yadımdadır. 1943-cü ildə evimizə yazdığı məktubunda komandanlıq tərəfindən göstərdiyi igidliyə görə "Qır-

mızı Ulduz" ordeni ilə təltif olunmasından bəhs edirdi. Döşündə "Qırmızı Ulduz" olan şəklini də göndərmişdi.

1943-cü ilin iyul və yaxud avqust ayında qardaşım Kərimin qara kağızı gəldi. Anam Pəri oğlunun ölüm xəbərinə dözə bilmədi. Üç gün sonra anam vəfat etdi.1944-cü ildə isə qardaşım Rəhimin qara kağızı gəldi, hər ikisi səhv etməsəm Qafqaz uğrunda döyüşlərdə həlak olmuşlar.

Üçüncü qvardiya ordusu Neyse çayını keçib möhkəm mövqe tutmuşdu. Ordunun 239-cu diviziyası Kotbus şəhərinin arxasında hücuma hazırlaşırdı. Qərargah rəisi polkovnik Nemət Kərimov kəşfiyyatçıların raportunu dinləyib döyüş xəritəsini nəzərdən keçirəndə telefon səsləndi. Bu danışıqla da diviziyanın qarşısında çox çətin bir döyüş vəzifəsi qoyuldu. Diviziya ordunun ayrılıb düşmənin arxasına keçməli, müdafiə mövqelərini dağıtmalı idi.

Polkovnik dərhal hissə komandirləri ilə məsləhətləşib qəti döyüş əməliyyatının taktiki planını hazırlamağa başladı. İki saatlıq top atəşindən sonra hücum başlandı. Atəş yağmuru altında yer titrəyir, üfüqlər alova bürünür, nəriltilər çox uzaqlarda əks-səda qoparıb Berlinə çatırdı. Diviziyanın hissələri aprelin 28-də Berlinin 15 km-də dayanmışdı. Ordudan ayrılıb çox irəli getmiş diviziyanı məhv etmək üçün düşmənin gördüyü tədbirlər nəticə vermir, Berlinə sarı uzanan keçid eninə-uzununa genişlənirdi.


Nemət Kərimov

Diviziyanın qərargahı nasional-sosialist partiyasının liderlərindən biri olan Hesin şəxsi malikanəsində yerləşmişdi. Minlərlə cinayət aktının imzalanmış olduğu bu binanın qarşısında dayanan sovet döyüşçüsü keçdiyi yola böyük iftixar və vüqarla baxırdı. Cəlladların ziyafət məclisləri keçirib ağızları köpüklənə-köpüklənə "Hayl Hitler" dedikləri, dünyanı qul etmək iddiası ilə





qışqırıq saldıqları böyük bir salonda əsir alman generalı ilə sovet zabitlərinin sorğu-sualı gedirdi. Uzun söhbətdən sonra faşist generalı zərli paqonlarını və xaç ordenlərini qoparıb çəkmələrinin altına saldı və çılğın qışqırıqla:

- İndi mən də bunlara nifrət edirəm- dedi.

- Ancaq gecdir, bunu müharibənin əvvəlində başa düşmək lazım idi- deyə polkovnik Kərimov faşistin qarşısına bir qutu siqaret qoydu. O, siqaretdən birini götürüb alışdırdı və tüstüsünü acgözlüklə ciyərlərinə doldurdu. Polkovnik nüfuzedici nəzərlərini alman generalının məkrli üzünə dikmişdi. General tüstünü bir nəfəsə sümürür, kabus kimi büzüşüb titrəyirdi. 4 il əvvəl yorğa yeriş, canavar iştahası, cəllad təbiəti ilə ölkəmizə soxulan faşistin indi yalnız acı tüstüdən təsəlli tapması polkovnikin xoşuna gəlirdi.

Nemət Hüseyn oğlu Kərimov 1911-ci ildə Naxçıvanda yoxsul bir kəndli ailəsində anadan olmuşdur. Nemətin uşaqlığı olduqca ağır bir şəraitdə keçmişdi. O, altı yaşında atasını, beş ildən sonra anası Məstanı da itirdi. Uşaq evində böyüyən Nemət səkkizinci sinfi bitirib Zaqafqaziya hazırlıq məktəbinə daxil olur. Üç illik təhsildən sonra Nemət hərbi təhsilini 1930-1932-ci illərdə Tbilisi hərbi məktəbində davam etdirir.

Nemət Kərimov leytenant rütbəsində dinc quruculuq illərində rota komandiri kimi Kolomnada, Odessada, Obruçda xidmət edir. Bir sıra hərbi təlim məşğələlərində müvəffəqiyyət qazanır.

Ağ fin quldurları sovet torpağını atəşə tutub Leninqrad şəhərini təhlükə altına aldıqları zaman kapitan rütbəsində olan Nemət Kərimov könüllü olaraq cəbhəyə gedir. 1939-1940-cı illərdə 58-ci atıcılıq diviziyasının tərkibində Nemət Kərimov qərbi Ukraynanın, Şimali Bukovinanın azad edilməsində iştirak edir.

1941-ci ilin aprelindən sentyabr ayınadək Nemət Kərimov Ali qərargah nəzdindəki xüsusi məktəbdə oxuyur. Təhsilini əla qiymətlərlə başa vuran Nemət Kərimov sentyabr

ayında cənub-qərb cəbhəsinin 38-ci ordusunda kəşfiyyat şöbə rəisinin köməkçisi vəzifəsinə təyin edilir. Onun döyüş məharəti, şəxsi igidliyi komandanlıq tərəfindən yüksək qiymətləndirilir və o, iki aydan sonra 61-ci Ordunun tərkibində olan 1176-cı atıcı polkuna qərargah rəisi təyin edilir.

Nemət Kərimov 1942-ci ilin aprelindən 1944-cü ilin yanvarınadək Moskva müdafiə xəttinin möhkəmləndirilmiş rayonunun qərargah rəisi vəzifəsini daşıdı. 1942-ci ildə hitlerçilərin əsas strateji niyyəti rus xalqının qədim tarixi və inqilabi ənənələr şəhəri Moskvanı tutmaq idi. Faşistlər dolama yol ilə paytaxtın arxasına keçmək istəyirdilər. Lakin Stalinqrad sarsılmaz bir qala olub düşmənin yolunu kəsdi.

İgid Naxçıvanlı balası Nemət Kərimovun Moskva cəbhəsində komandirlik istedadı xüsusilə parladı.

Moskvanın müdafiəsində Nemət Kərimovun igidliyi və komandanlığı dövlətimiz tərəfindən qiymətləndirildi. O, "Moskvanın müdafiəsi" üçün medalı ilə təltif olundu.

1942-ci ilin aprelində Nemət Kərimovun şəxsi işində general mayor Kudryaşovun, polkovnik Yamanovun aşağıdakı sözləri qeyd edildi:

"Xalis azərbaycanlıdır. Vətənini canından artıq sevir. Əsgərlər onu ata kimi sevirlər. Onun komandirlik məharətinə inanırlar".

Aprelin 30-da Berlin şəhərinin ətrafındakı müdafiə xətlərini yaran diviziya ordu qərargahından daha ciddi bir tapşırıq aldı. Diviziya Sudet dağlarını almalı, Çexoslovakiyanın azad edilməsi uğrunda qanlı döyüşlərə girməli idi.

Çex xalqı döyüşçülərimizi gül-çiçəklə qarşılayırdı. Xalqın iftixarı olan qədim Praqa şəhərini yerlə yeksan etmək istəyən düşmənin planları pozulmuşdu. Diviziyanın döyüşçüləri mayın 9-da Praqa yaxınlığındakı Ruzune kəndində çex partizanları ilə görüşdülər. Minlərlə çexoslovakiyalı həmin yerdə sovet döyüşçülərini qarşılayır, onların boynuna əlvan may çiçəklərindən hörülmüş çələng salırdı.





Bu vaxt polkovnik Nemət Kərimovun sinəsini Lenin ordeni, Qırmızı bayraq ordeni, I dərəcəli Vətən müharibəsi ordeni, "Qırmızı Ulduz" ordeni və çoxlu medal bəzəyirdi.

İstefaya çıxmış polkovnik N.Kərimov 1967-ci ildə vəfat etmişdir.

Böyük Vətən müharibəsi başlananda Əli Naxçıvan (Babək) rayonunun Nehrəm kənd orta məktəbinin son sinfində oxuyurdu. Vətənin üzərini alan qara buludlar, milyonlarla sovet gənci kimi Əlinin də təhsilini yarımçıq qoydu.

Vətənin müdafiəsi naminə doğma analarımızın, xalqımızın səsinə səs verən Əli könüllü surətdə orduya getmək istədiyini bildirdi. Arzusu yerinə yetdi. 1941-ci ilin iyul ayının əvvəllərində Əli İsmayılov döyüş cəbhələrinə yola salındı. Gənc döyüşçü Əli İsmayılovun ilk döyüş fəaliyyəti Kiyev uğrundakı vuruşmalardan başlayır. Geniş və bərəkətli Ukrayna torpaqlarında ölüm-dirim mübarizəsi alovdan mərdiiklə keçərək şəhər və kəndləri hitlerçilərdən təmizləmək üçün səylə vuruşurdular. Əli İsmayılov Kiyev, Sevastopol, Dnepr cəbhələrində vuruşduğu zaman hərbi komandanlığın bir sıra ciddi tapşırıqlarını layiqincə yerinə yetirir.

1942-ci ilin soyuq və şaxtalı yanvar axşamı idi. Düşmənlər strateji əhəmiyyəti olan Dnepr çayını ələ keçirmək istəyirdilər. Komandanlıq serjant Əli İsmayılovun başçılığı ilə bir neçə döyüşçünü kəşfiyyata göndərir. Onlar öyrənirlər ki, Dnepr çayından 30 kilometr aralıda hitlerçilərin böyük qoşun hissəsi, zirehli tankları və digər döyüş vasitələri vardır. Beləliklə, bizim qoşunlar hücuma keçib düşməni məğlub edirlər.

Mərd döyüşçü Əli İsmayılov bir neçə dəfə döyüşlərdə yaralanmışdır. Həkimlərin və tibb işçilərinin qayğısı sayəsində o tezliklə sağalıb cəbhəyə qayıtmışdır.



**Əli İsmayılov**

1944-cü ilin sentyabrında Əli İsmayılov Ukraynanın Staraya Sol kəndində düşmən əhatəsində komandanlığın çətin və məsul tapşırığını yerinə yetirib hissəyə qayıdırdı. Əli İsmayılov qarşıdan bir neçə alman zabitinin gəldiyini görüb yaxındakı divarın arxasına çəkilir. Atışma başlayır. Almanlardan 2 nəfəri ölür və üç nəfəri yaralanır. Bu döyüşdə Əli də ağır yaralanır. Kəndin qocaları onu tezliklə xəstəxanaya çatdırırlar. Bir neçə gün sonra igid əsgər gözlərini əbədilik yumub dünyadan köçür.

Faşist cəlladları ilə ölüm-dirim mübarizəsi gedirdi. Onlarla vuruşan sovet döyüşçüləri sırasında həmyerlimiz Əli Əliyev də var idi.

Əli Kərim oğlu Əliyev 1919-cu ildə Naxçıvanda doğulub. 1937-ci ildə əla qiymətlərlə orta məktəbi bitirib, elə həmin ildə Tbilisidə dəmiryol institutuna daxil olur. İnstitutu müvəffəqiyyətlə bitirib diplom alır. Lakin o, gəncliyin bu ilk arzusuna çatsa da, doğulduğu vətəninə əmək fəaliyyətinə qayıda bilmədi.

Müharibənin ən ağır illəri gəldi. Əli də milyonlarla gənclərdən biri kimi bacı-qardaşlarının şərəfini və namusunu qorumaq üçün cəbhəyə gedir. Anasına göndərdiyi ilk məktubunda ona dərin məhəbbətini, onun timsalında vətənimizə sonsuz eşqini bildirir. O, eyni zamanda həmin məktubla xalqın, vətənin sədaqətli oğlu kimi düşmənlə axıradək vuruşda bu yolda bir damla belə qanını əsirgəməyəcəyini göstərir.



**Əli Əliyev**

Ailə bu məktubu alıb oxuyarkən sevincindən ürəyi dağa dönür. Ata da, ana da övladının səbatlığına inanır.

Budur, müharibənin ən ağır ili olan 1942-ci il. Düşmən get-gedə vətənimizin içərilərinə soxulmaqdadır. Bununla belə sovet döyüşçüləri sinə gərir və öz müdafiə mövqelərini möh-





kəmləndirməyə başlayırlar.

Əli düşmənin qüvvəsini öyrənmək üçün çox mühüm bir kəşfiyyata göndərilmişdir. O, bir neçə cəbhə dostu ilə müəyyən edilmiş yerə yola düşür. Çox keçmir ki, öz hissəsinə bir alman zabiti gətirir. Zabit danışdırılarkən alman ordusunun əsasən harada yerləşdiyi və nə kimi qüvvəyə malik olduğu müəyyən edilir.

Bu hünərinə görə Əli Əliyev komandanlıq tərəfindən təşəkkür alır.

Buna baxmayaraq ailə intizardadır. Atası Kərim oğlundan məktub gözləyir, onun sağ-salamat olub-olmadığını bilmək istəyir. Kərim kişinin bu hisslə yaşaması, gecə-gündüz əsgər ailələri ilə maraqlanması və poçtalyon kimi onlara göndərilən məktublardakı xəbərlərdən mütəəssir olması təbiidir. Elə poçtalyon olduğuna görə o, poçtu təhvil aldığı zaman ən əvvəl öz ünvanına gələn məktub və teleqramları nəzərdən keçirir.

Budur, Kərim kişi yenə oğlundan məktub almışdır. Zərfin içərisinə kağızla bərabər, cəbhədə göstərdiyi hünər və rəşadət haqqında cəbhə qəzetində dərc edilmiş bir yazının mətni qoyulmuşdur.

1943-cü ilin iyun ayında "Sovet vətəni uğrunda" cəbhə qəzeti "Ən yaxşı komandirlərdən biri" başlığı altında naxçıvanlı Əli Kərim oğlu haqqında yazırdı: Leytenant Əli Kərim oğlu keçirilən döyüşlərdə düşmənə qarşı amansız və doğma vətənə hədsiz dərəcədə sədaqətli olduğunu dəfələrlə sübut etmişdir. Hücum döyüşlərindən birində düşmən qarşıdan qüvvətli pulemyot atəşi açır, bölüklərin irəliləməsini dayandırmağa çalışırdı. Düşmənin həmin atəş nöqtələrini məhv etmək işi Əli Kərim oğlunun hissəsinə tapşırılır. İgid leytenant başda olmaqla döyüşçülər avtomat silahlardan atəş açıb düşmən pulemyotçularını qırırdılar. Hissə irəlilədi və bir təkərli pulemyot ələ keçirdi.

Bu sənəddə biz həmyerlimiz Əli Əliyevin döyüş əməliyyatında göstərdiyi qəhrəmanlıqla tanış oluruq. Həm də onun

qayğıkeş bir insan kimi cəbhə dostlarına nə dərəcədə sədaqətli olduğunu görürük.

Kərim kişi yenə çantasına nəzər salır. Ünvanına göndərilən məktubu açıb oxuduqda sevincindən ürəyi dağa dönür. Burada oğlu Əli haqqında ordu hissəsindən verilən xasiyyətnaməni diqqətlə oxuyur. Fərəhli hər söz, hər sətir qəlbini riqqətə gətirir.

Xasiyyətnamədə qeyd edilir ki, Əli Kərim oğlu Əliyev Sovet ordusunun ən yaxşı döyüşçülərindən biridir. O, qabiliyyətinə görə dəstə komandiri rütbəsinə yüksəlmişdir. Siyasi və taktiki biliyi ilə dəstəyə məharətlə komandirlik edir. Əli Əliyev yoldaşın valideynlərinə komandanlıq adından təşəkkürümüzü bildiririk. Əli Əliyev cəbhədə çox mühüm əməliyyatlarda iştirak etmişdir. O, yoldaşları ilə birlikdə düşmən istehkamlarını yararaq işğal edilmiş bir çox şəhər və kəndlərimizin azad edilməsində iştirak etmişdir. Bir gün Əli qəfil bir gülldən ağır yaralanır, şəfqət bacısı tez özünü ona yetirib yarasına məlhəm qoyur. Bu məlhəm sanki onun yarasına deyil, məhəbbətlə çırpınan bir ürəyin ağrılarına qoyulan məlhəm idi.

Şəfqət bacısının hər cür nəvazişinə baxmayaraq Əli sağalmadı, amansız ölüm əbədi olaraq onun gözlərini yumdu.

Atası Kərim kişi yenə poçtu qəbul edir. Son məktub onu və ailənin bütün üzvlərini kədərləndirir. Əli artıq həyatda yoxdur. O, vətən uğrunda döyüşdə mərdliklə həlak olmuşdur.



Firuş Məmmədəliyeva

Müharibə qadınlarımızın kişilərlə birlikdə cəbhələrdə necə fəal iştirak etdiklərini, xüsusilə arxada öz atalarını, ərlərini və qardaşlarını necə fədakarlıqla əvəz etdiklərini, qələbəmizə misilsiz köməklik göstərdiklərini bariz şəkildə aşkar etdi.

Firuş Məmmədəliyeva 1940-cı ildə Naxçıvan şəhər tibb məktəbini bitirmişdir. Vətənimizin üstünü qara buludlar





alanda, qanlı-qadalı illərin ilk günləri başlayanda Firuşun əmək fəaliyyətinin birinci ili hələ tamam olmamışdı. Qəhrəman oğlanlarımız ana Vətəni faşizmin qanlı caynaqlarından qorumaq üçün silaha sarılanda Firuş da öz rəfiqələri Səfiyyə, Zərifə, Valiya və Fövqiyyə ilə birlikdə cəbhəyə yollandı. Cəbhədə olduğu illərdə tibb leytenantı Firuş Məmmədəliyeva Poltava, Belqorod, Xarkov, Stalinqrad yaxınlığındakı döyüşlərdə onlarla əsgər və zabitə ilk tibbi yardım göstərmiş, onların həyata qaytarılmasında əlindən gələni əsirgəməmişdir. Onun tibbi yardım göstərdiyi döyüşçülər sırasında həmyerlilərimizdən Tapdıq Hüseynov, Rauf Bəktaşi, Əsgər Əhmədov, Qasım Rəcəbli və başqaları da vardır.

Bu qorxmaz qız öz parlaq şücaətinə görə "İgidliyə görə" medalı ilə təltif olunmuşdur [16].

Müharibədən sonra Firuş Məmmədəliyeva V.Qnedkova adına Naxçıvan şəhər doğum evində işləmiş, yaxşı işinə görə əlaçı səhiyyə işçisi döş nişanı ilə təltif olunmuş və Naxçıvan MSSR Səhiyyə Nazirliyinin və hərbi komissarlığının fəxri fərmanları ilə təltif olunmuşdur.

Müharibə 19 yaşlı Baloğlanı da elindən-obasından ayırdı. Baloğlan Rüstəmov Bakı fabrik-zavod peşə məktəbini bitirdikdən sonra 1941-ci ilin sentyabrında ordu sıralarına yola düşdü. O, Orconikidze şəhərindəki hərbi hava dessant briqadasında qulluğa başladı. Baloğlan ilk dəfə 1942-ci ildə Tuapse uğrunda döyüşlərdə iştirak etmişdir. Faşistlərin şiddətli müqavimətinə baxmayaraq sovet qoşunlarının əks-zərbələri quduzları geri çəkilməyə məcbur etmiş, düşmən Tuapsedən uzaqlaşdırılmışdır.



Baloğlan Rüstəmov

Baloğlan Rüstəmov komandanlığın hər bir tapşırığını tam dəqiqliyi ilə yerinə yetirmişdi. Elə buna görə də hissədə hamı onu ən cəsur kəşfiyyatçı

kimi tanıyırdı. 1942-ci ildə hissə komandiri Muxin Əbrəqunus (Culfa) rayonunun Qazançı kənd sakini Baloğlanın əmisi olan Babaş kişinin ünvanına göndərdiyi məktubunda yazır: "Hörmətli yoldaş! Sizin böyüdüb tərbiyə etdiyiniz Baloğlan Rüstəmov doğma Vətən uğrunda alman-faşist işğalçılarına qarşı mübarizədə igidlik və fədakarlıqla vuruşur. B.Rüstəmov hissəmizdə böyük hörmətə malikdir. Onu hamı sevir. Rüstəmov düşmənə qarşı qorxu bilmədən vuruşduğu üçün komandanlığın təşəkkürünü almışdır. Qoy sizin rayonun zəhmətkeşləri öz doğma oğlu Rüstəmovla fəxr etsinlər və arxa cəbhədə ona layiq işləsinlər".

Baloğlan Rüstəmov Tuapsedən Berlinədək şərəfli bir döyüş yolu keçdi. Ukrayna torpağının almanlardan təmizlənməsində, Polşanın azad edilməsində, faşizmin yuvası Berlinin alınması əməliyyatlarında iştirak etdi.

1944-cü ildə Polşanın və Polşanın mərkəzi şəhəri olan Varşavanın azad edilməsində hünər və qəhrəmanlıq göstərdiyi üçün onun sinəsində 2-ci dərəcəli "Vətən müharibəsi" ordeni parıldayırdı.

Bir hadisə Baloğlanı ən yüksək şöhrət zirvəsinə qaldırdı. O, vətənin yüksək mükafatı olan Üçüncü dərəcəli "Şöhrət" ordeni ilə təltif olundu [72, v. 88].

Əhvalat belə baş vermişdi. Sandəmir şəhəri yaxınlığında, dəmiryolunun kənarında axarlı-baxarlı bir yerdə kiçik yaşayış məntəqəsi yerləşirdi. Almanlar orada möhkəm mövqe tutaraq qoşunlarımızın irəliləməsinə mane olurdular. Həmin məntəqə Baloğlanın xidmət etdiyi hissənin komandanlığını ciddi maraqlandırır, narahat edirdi. Necə olursa-olsun "dil" gətirmək, orada yerləşən canlı qüvvə və döyüş texnikası barədə dəqiq məlumat əldə etmək lazımdı. Bu iş Baloğlana və onun döyüş dostlarına həvalə edildi.

Kəşfiyyat dəstəsi üçün təcili surətdə əməliyyat planı hazırlandı. Onlar məntəqənin cənub tərəfi ilə bir neçə kilometr irəliləyərək, düz bucaq şəklində düşmənin arxasına keçdilər.





Münasib yer seçib almanlara göz qoydular. Düşmənin qüvvəsi tükənmişdi. Deməli, hücuma keçmək lazım idi. Ancaq bir daha yəqinlik hasil etmək vacib məsələ kimi qarşıda dururdu. Bunun üçünsə düşmənlərdən biri ələ keçirilməli idi. Baloğlangil pusquda duraraq gözləməyə başladılar. Su mənbəyinə yaxınlaşan alman əsgərini onlar səssizcə yaxaladılar.

Elə bu dəmdə yeni bir çətinlik meydana çıxdı. Durbinlə baxarkən uzaqdan gələn düşmən qatarı aydınca görünürdü. Döyüş dostları ani olaraq qərara gəldilər. Düşmənə kömək gətirən qatar dayandırılmalıdır. Əsgərlərimizdən biri alman zabitini hissəyə gətirdi. Baloğlangil isə balaca körpüyə yan aldılar. Oradakı iki keşikçi tezliklə susduruldu, körpü dağıdıldı. Qatar yoldan çıxdı. Bir azdan onun yerindən ancaq tüstü qalxırdı.

Sanki həmin gün bəxtləri döyüş dostlarının üzünə gülmüşdü. Onlar sağ-salamat hissəyə qayıtdılar.

Məntəqə hücumla alındı. Beləliklə, qoşunlarımız bir neçə kilometr irəlilədilər. Baloğlan və onun yoldaşları təltif edildilər. Onun sinəsinə ikinci orden sancıldı.

Polşanın Poznan şəhəri ətrafındakı kəşfiyyat əməliyyatını layiqincə yerinə yetirdiyinə görə o, ikinci dərəcəli "Şöhrət" ordeni ilə təltif edildi.

Almaniyadan vətənə qayıdarkən onun sinəsindəki üç ordenin yanına "Varşavanın azad edilməsi", "Berlinin alınması", "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbəyə görə" medalları da əlavə edilmişdi. Hətta 44630 №-li hərbi hissənin komandiri polkovnik Kazakov tərəfindən ona bir ədəd NSU markalı motosikl mükafat olaraq verilmişdi.

1946-cı ilin oktyabr ayında 44630 №-li hərbi hissənin komandiri Kazakov tərəfindən B.Rüstəmova verilmiş arayışda yazılmışdı: "Verilir qvardiya baş serjantı Rüstəmov Baloğlan Əmirxan oğluna ondan ötəri ki, sovet ordusunda xidmət etdiyi dövrdə hərbi hissədə siyasi hərbi təlimin əla mənimsədiyinə və döyüş cəbhələrində şücaətinə görə NSU markalı motoskillə mükafatlansın və dövlət sərhəddindən keçirmək üçün icazə

verilsin".

1947-ci ilin fevral ayından Baloğlan Rüstəmov döyüş cəbhəsindən əmək cəbhəsinə qayıtmış, dinc quruculuq sahələrində tükənməz enerji və həvəslə çalışmağa başlamışdır. O, Culfa və Naxçıvan rayonları komsomol komitələrinin birinci katibi vəzifələrində işləmişdir. Gənclərin xalq təsərrüfatının bərpa olunmasında fəal iştirakını təmin etdiyi üçün "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur.

Baloğlan Rüstəmov 1952-ci ildə ali partiya məktəbi bitirmiş, Muğan, Şirvan, Qarabağ torpaqlarında meliorasiya işlərinin həyata keçirilməsində var qüvvəsini əsirgəməmişdir. 1957-ci ildən başlayaraq Baloğlan Rüstəmov milis sistemində rəhbər vəzifələrdə çalışmış, ömrünün 10 ilini asayişi pozanlara qarşı mübarizəyə həsr etmişdir. Onun xidməti SSRİ Daxili İşlər Nazirliyinin iki medalı ilə qiymətləndirilmişdir. Həmçinin o, dörd dəfə Naxçıvan MSSR Ali Soveti Rəyasət heyətinin fəxri fərmanına layiq görülmüşdür. Baloğlan Rüstəmov respublika əhəmiyyətli fərdi təqaüdçü olmaqla Naxçıvan və Azərbaycan Respublika Veteranlar Şurasının sədri işləmişdir. O, 2009-cu ildə vəfat etmişdir.

Faşistlərin Sovet ölkəsinə xaincəsinə basqın etdiyi zaman Əkbər Musayev Korestele şəhərində 383-cü topçu alayının 193-cü atıcı diviziyasında qərargah rəisi idi.

1941-ci ilin sentyabrı idi. Düşmən quduzlaşmış canavar kimi vətənimizin içərilərinə doğru can atırdı. Lakin Sovet döyüşçüləri faşist işğalçılarının hücumları qarşısında qətiyyətlə sinə gərir, hər qarış torpaq uğrunda ölüm-dirim mübarizəsi aparırdılar. Növbəti döyüşlərin birində Əkbər Musayev öz diviziyasının döyüşçüləri ilə düşmən tərəfindən mühasirəyə alındı. Bu qeyri-bərabər döyüşdə faşistlərdən xeyli əsgər və zabit öldürüldü. Əkbər də döyüş



**Əkbər Musayev**





dostlarının çoxunu itirdi. Özü də ayağından və başından yaralandı. Bir müddət hərbi xəstəxanada müalicə olunduqdan sonra yenidən cəbhəyə qayıtmaq istədi. Lakin Poltava vilayətinin

Zolotovovşina stansiyası yaxınlığında faşistlər cəbhəyə gedən qatarı ələ keçirdilər. Bərabər olmayan döyüş xeyli çəkdi. Əkbər və bir neçə döyüşçü almanların əlinə keçdi. Onları Mariupol, indiki Jdanov şəhərinə gətirdilər. Xeyli işgəncə verdilər, güllələməklə hədələdilər. Əkbər zabit olduğunu məharətlə gizlədə bildi. Bir neçə gündən sonra gecə qaranlığında gözətçilərdən bir neçəsini öldürüb 18 nəfərlə birlikdə düşərgədən qaçdı.

1944-cü il... Faşist işğalçıları Sovet ordusunun güclü hücumları qarşısında ağır itki verə-verə geri çəkilirdilər. Vətənimizin şəhər və kəndləri bir-bir düşməndən təmizlənirdi. 1944-cü ilin mart ayında Əkbər Musayevi Ukrayna cəbhəsinin 55-ci topçu alayının atıcı diviziyasına batereya komandiri göndərdilər. Onun döyüş yolu uzandı. Faşist Almaniyası təslim olandan sonra bu yol Yaponiyaya qədər gedib çıxdı. Bu yollar qorxmaz komandirə baha başa gəlsə də, onun sinəsini çoxlu orden və medallar bəzədi. O, "Qırmızı Ulduz", "Qırmızı Bayraq" və iki dəfə I dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif olunmuşdur.

277-ci atıcı diviziyasının komandiri, qvardiyaçı general-mayor Qlaşev onun barəsində yazır: "Kapitan Musayev qorxmaz, igid komandirdir. Onun soyuqqanlılığına, çətin döyüşlərdən çıxış yolu tapmasına qibtə etmək olar. O, sözün əsl mənasında qorxmaz döyüşçüdür. Özünə tabe olan döyüşçüləri də belə tərbiyə edir".

Şərqi Prussiya ərazisində hücum döyüşlərinin birində kapitan Musayev əsl döyüşçü, sovet zabiti olduğunu bir daha nümayiş etdirdi. O, çətin döyüş şəraitində sərrast top atəşi ilə piyada qoşunlarımızın irəliləməsi üçün əlverişli imkan yaratdı. Hadisə belə oldu. Düşmən sovet ordusunun güclü hücumları

qarşısında geri çəkilirdi.

23 yanvar 1943-cü il. Bu tarixdə olan döyüş Musayevin döyüş yolunda yadda qalan izlərdəndir.

Posndorf ətrafında gedən döyüşlərdə kapitan Musayev şəxsi nümunə göstərərək piyada qoşunlarımızın irəliləməsinə maneçilik törədən düşmənin bir neçə atəş nöqtəsini sərrast top atəşi ilə darmadağın etdi. Bu döyüşlərdə göstərdiyi şücaətə və yüksək komandirlik məharətinə görə Musayev yüksək döyüş ordeni ilə təltif edildi.

Keniqsberq şəhərinin şimal qərbində və Zemlansk yarımadasının Prillaken məntəqəsində gərgin vuruşmalar gedirdi. Elə bu vaxt Musayev öz əsgərləri ilə birlikdə düşmənin toplardan və minomyotlardan atılan atəşi altına düşdü. Lakin atəş xəttində olan kapitan özünü itirmədi. O, soyuqqanlılıqla döyüşçülərə rəhbərlik etdi və şəxsi nümunə göstərərək sərrast top və pulemyot atəşləri ilə düşməni çaş-baş saldı. Bununla da o, qarşıdakı döyüş əməliyyatı üçün atəş xətti yaratdı. Bu əkshəmlənin qarşısında özünü itirən düşmən qaçmağa üz qoydu. Bəli, düşmən qaçırdı. Səs-küylə aldığı şəhər və kəndlərində onların meyidləri qalırdı. Sovet ordusu inamla Berlin üzərinə gedirdi. Böyük bir ordunun kiçik bir dəstəsi olan kapitan Musayevin atıcı batareyası da bu çətin, lakin şərəfli yolun yolçusu idi. Müharibə qurtardıqdan sonra kapitan Musayev ordudan tərxis olundu və əmək cəbhəsinə qayıtdı. Təəssüf ki, indi aramızda yoxdur. Lakin kapitan Əkbər Musayev unudulmamışdır. Xalqın qəlbində həmişə yaşayır.

Naxçıvan Tibb məktəbini bitirmiş Səfiyyə Sultanova könüllü olaraq cəbhəyə yollandı. Səfiyyə Sultanovanı 150-ci sanitar batalyonuna tibb bacısı göndərdilər. 1942-ci ildə alman-faşist təyyarələri Xarkovu bombardman edərkən tibb məntəqəsi yaralılarla dol-



**Səfiyyə Sultanova**





muşdur. Ardı kəsilmədən atəş altında həyatını təhlükə qarşısında qoyan Səfiyyə sürünərək bir yaralıdan digərinə tərəf keçir, onlara ilk yardım göstərirdi. Döyüşçülərimizin həyatı keşiyində mübarizə aparmış Səfiyyə Sultanova düşmənlə mübarizədə igidliyinə görə komandanlıq tərəfindən "Qələbə medalı", "İgidliyə görə" və başqa medallarla təltif olunmuşdur. 1942-ci il yanvar ayının 16-da həmyerlimiz Səfiyyə Sultanova anası Pakizə Əliyevaya göndərdiyi məktubda yazırdı: "Anacan, əvvəlcə cəbhə salamımı sizə yetirməyimlə bərabər sizin də sağsalamat olmağınızı arzu edirəm. Anacan, sizdən çox gec-gec məktub alıram. Bu da məni çox sıxır. Mənə tez-tez məktub yazın. Ancaq sən sıxılma. Şad ol ki, sənin qəhrəman qızın vətən uğrunda döyüşlərdə qan tökməklə bərabər, cəbhədə olan qızıl əsgərlərə də yardım göstərir. Məndən nigaran qalma. Öpürəm! Qızın Səfiyyə" [6, v. 13-24].

Səfiyyə Sultanova Stalinqrad, Poltava, Xarkov, Lepel, Molodoçenko, Polodski və s. şəhərlərin və yüzlərcə kənd və qəsəbələrin azad olunmasında iştirak etmiş, top atəşi, mərmi qəlpələri altında yaralı əsgər və komandirləri təhlükəsiz yerlərə aparıb, onlara tibbi yardım göstərmişdir.

76-cı diviziyanın zenit batereyasında vuruşan Azərbaycanın cəsur oğlanlarından biri də naxçıvanlı Cəlal Qurbanov idi. O, Poltava, Xarkov şəhərləri uğrunda qanlı döyüşlərin iştirakçısı olmuş və Xarkov ətrafındakı döyüşlərin birində ağır yaralanmışdır. Hərbi xəstəxanadan çıxdıqdan sonra onu Ukrayna cəbhəsinə, 93-cü atıcı diviziyasına göndərirlər. O, Şebekina, Volkansk kəndlərinin və digər yaşayış məntəqələrinin düşməndən təmizlənməsində yaxından iştirak etdi.

1942-ci ilin ortalarında alman-faşist qoşunları Kursk-Voronej istiqamətində hücuma keçdilər. Lakin burada Sovet qoşunlarının müdafiəsini yara bilməyib



**Cəlal Qurbanov**

cənuba, Stalinqrada istiqamət aldılar. Alman ordusunun piyada qoşunlarının üçdə bir hissəsi Stalinqrad cəbhəsinə toplanmışdı. Almanların ən seçmə ordularından biri olan 6-cı ordu nəyin bahasına olursa-olsun, şəhəri ələ keçirmək istəyirdi. Lakin Qızıl Ordu düşmənin bütün həmlələrinə mətanətlə sinə gərirdi. Belə bir vaxtda 93-cü diviziya Stalinqrada hərəkət etmək əmri aldı.

Noyabrın 19-da güclü top atəşindən sonra qoşunlarımız hücuma keçdilər. Noyabrın 23-də Cənub Qərb cəbhəsinin tank və mexanikləşdirilmiş hissələri Sovet rayonunda Stalinqrad cəbhəsinin hissələri ilə birləşdi. Bunun nəticəsində 22 alman diviziyası mühasirəyə alındı. Bu əməliyyatda göstərdiyi şücaət üçün Cəlal Qurbanov "İgidliyə görə" medalı ilə təltif edildi.

1943-cü ilin fevralında qoşunlarımız Stalinqradı düşmənlərdən təmizlədilər. Stalinqrad vuruşması Sovet İttifaqının faşist Almaniyası üzərindəki qələbəsində mühüm mərhələ oldu. Feldmarşal Paulyus başda olmaqla düşmənin 91 min nəfər əsgər və zabiti əsir alındı. Təkcə Cəlalgilin rotası 500-dən çox faşisti əsir götürdü.

Cəlal Qurbanov daha bir neçə şəhərin, habelə Rumıniyanın və Macarıstanın düşməndən azad edilməsində də igidliklə vuruşdu. Onun döyüş xidmətləri I dərəcəli "Vətən müharibəsi" ordeni, "Stalinqradın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə" və başqa medallarla qiymətləndirildi.

Müharibə Səkinə Quliyevanın da həyatında silinməz izlər buraxmışdır. 1941-ci ildə Naxçıvan rayonunun Nehrəm kəndində traktorçu işləyən Səkinə ərizə verib könüllü surətdə Sovet Ordusu sıralarına daxil oldu. 416-cı diviziyanın 74-cü polkunda tibb bacısı işləyir. Qələbəyədək bu diviziyadan ayrılmır. Melitopol və Taqanroq şəhərlərinin azad edilməsində, Dnepr və Dnestr çaylarının keçilməsi uğrunda döyüşlərdə, Yasnı-Kişinyev əməliyyatında iştirak edir. O ağır illərdə Səkinənin şəfalı əlləri neçə-neçə yaralıya şəfa vermiş, neçə igid döyüşçünü Səkinə Quliyeva yenidən həyata qaytarmışdır [26, v. 14-15].







**Dilbər Təhməzbəyova**

Ön cəbhə xəttində irəliləyən Dilbər qarşıdakı qaraltının yaralı olduğunu yəqinləşdirib sürətlə ona doğru sürünməyə başladı. Dilbər huşsuz yaralını qayışla dalına sarıyıb arxaya doğru süründü. Bu onun cəbhəyə gəldiyi gündən bəri döyüş xəttindən çıxardığı 12-ci yaralı idi. Amma onların heç birinin vəziyyəti belə ağır olmamışdı. Dan yerinin ilk şəfəqləri solğun bənizli gəncin çöhrəsini işıqlandıranda Dilbəri heyrət bürüdü. Bu onun həmyerlisi Əziz Abbasov idi. Dilbər yaralını sanitar batalyonun səyyar xəstəxanasına vaxtında çatdıra bildi. Cərrah Valeri İvanov həyatının son dəqiqələrini yaşayan Əziz Abbasovu yenidən həyata qaytardı. Mozdok yaxınlığındakı ağır vuruşmalardan sonra 402-ci atıcı diviziyası öz sıralarını möhkəmlətmək, döyüş sursatı toplamaq və yenidən cəbhəyə qayıtmaq üçün bir neçə günlüyə arxaya çəkilirdi. Onlar Mozdok Orconikidze arasındakı yolda ön cəbhə xəttinə getdi. Dilbər burada həmyerlilərimizdən bir neçə nəfər ilə rastlaşdı. Onlar Dilbərə qardaşı Cəmilin də həmin diviziyada olduğunu bildirdilər. Dilbər komandanlığa müraciət etdi. Onu qardaşı ilə bir batalyona saldılar. Vətənin dar günündə ürəyini məşəl edib cəbhədə fədakarlıq göstərən el qızının xidmətləri yüksək qiymətləndirilmişdir. Kiçik tibb leytenantı Dilbər Təhməzbəyovanın döşünü "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində qələbəyə görə", "Qafqazın müdafiəsinə görə", "İgidliyə görə" medalları ilə "Səhiyyə əlaçısı" döş nişanı bəzəyir [10].



**Baxşəli Rzayev**

Baxşəli Rzayev 77-ci Azərbaycan atıcı diviziyasının tərkibində Mozdokdan Tixoretskiyədək döyüş yolu keçmişdir. Novorossiyski yaxınlığında

gedən döyüşlərdə Baxşəli igid döyüşçü, əsl Sovet əsgəri olduğunu bir daha nümayiş etdirdi. Döyüşlərin birində Baxşəli 339-cu Taman atıcı və Qırmızı bayraqlı diviziyasının 137-ci Rostovatıcı polkundan təyyarə ilə desant kimi Krım yarımadasına salındı. Burada igid döyüşçü neçə-neçə dost, yoldaş itirdi. Lakin diviziya məğlubedilməzliyini düşmənə bir daha sübut etdirdi.

1944-cü ilin may ayının sonunda Krım Hitler işğalçılarından təmizləndi. Döyüş cəbhələrində göstərdiyi yüksək komandirlik məharətinə və igidliyinə görə komandanlıq Baxşəli Rzayevi III dərəcəli "Şöhrət" və "Qırmızı Ulduz" ordenləri ilə təltif etdi [73, v. 2-5].

Əli Qurbanovun döyüş yolu Şimali Qafqazdan, 77-ci diviziyanın 105-ci polkunda başladı. O, Taqanroq şəhərinin düşməndən azad edilməsində, Mariupol, Stalino və digər şəhərlərin alınmasında iştirak etdi.

1943-cü ilin ortaları idi. Mozdok ətrafında qızğın vuruşmalar gedirdi. Əligilin bölməsinə çətin bir tapşırıq verilmişdi. Onlar nəyin bahasına olursa-olsun düşmənin güclü atəş nöqtəsini susdurmalı idilər. Əli 12 nəfər pulemyotçu ilə iki saatlıq inadlı vuruşmadan sonra düşmənin istehkamını dağıtdı. Bu vuruşda göstərdiyi şücaətə görə o, "Qafqazın müdafiəsinə görə" medalı ilə təltif edildi. Mariupol şəhərinin azad edilməsində göstərdiyi döyüş xidməti isə "İgidliyə görə" medalı ilə təltif edildi [71, v. 14-16].


Əli Qurbanov

1941-ci il Poltava yaxınlığında döyüş meydanı. Müharibənin dəhşətlərini ilk dəfə burada görən 19 yaşlı Zərifə Camalbəyova bir anlığa sarsıldı. Bombardmançı təyyarələrin səsi yerdən-göyə ucalan alov burulğanları, səmanı bürümüş qara tüstü, hər addımda insan cəsədləri... Zərifəyə elə gəldi ki, yuxu görür. Qeyri-ixtiyari olaraq "Ana.." deyə





qışqırdı. Səsinə bir-birinin ardınca partlayan bombalar cavab verdi. O, yalnız bu zaman acı həqiqəti etiraf etməli oldu.

Deyirlər, insan çiçəkdən zərif, daşdan bərk olur. Yerin-göyün bir-birinə qarışdığı həmin anda Zərifənin qollarına sanki yeni qüvvə gəldi. Düşmənə hədsiz qəzəb hissindən doğan bu qüvvə onu cəsarətləndirdi. Qız sürətlə irəliləyib qarşısına çıxan ilk yaralını yaxınlıqdakı xəndəyə apardı. Yaralı sarındıqdan sonra əsgər səyyar xəstəxanasına getməkdən imtina etdi. Onun bu hərəkəti Zərifəni daha da ürəkləndirdi. Bu dəfə qız cəbhə xəttinin lap yaxınlığına süründü. Ağır yaralılardan birini qayışla dalına bağlayıb arxaya doğru üz qoydu. Bir qədər irəlilədikdən sonra kürəyinə qan sızdığını hiss etdi. Üç yerdən yaralanmış əsgərin vəziyyəti ağır idi. Onun qolundan axan qan Zərifəni bərk həyəcanlandırdı. Başları üstündən keçən mərmilərin vıyıltısı altında əsgərin qolunu yara yerindən bir qədər yuxarı boğdu. Onu məntəqəyə çatdırmağa tələsdi.

İki gün ardı arası kəsilmədən davam edən bu ağır vuruşmada Zərifə neçə-neçə yaralı əsgəri cəbhə xəttindən çıxarıb sanitar batalyonunun səyyar xəstəxanasına göndərdi. Sonra onun cəbhə yolu Xarkovdan, Belqoroddan, Minskidən, Voronejdən keçib Stalinqrad ətrafınadək çatdı. Stalinqrad ətrafında 200 gün, 200 gecə davam edən gərginliyinə və amansızlığına görə tarixdə misli görünməmiş bu qanlı döyüşdə Zərifə və həmkarı Lyuba yaralı əsgərlərin cəbhə xəttindən çıxarılması və onlara ilk yardım edilməsində böyük hünər göstərdilər. Düşmənin saysız-hesabsız tank, piyada polkları və diviziyaları darmadağın edilmişdisə də, o inadından dönmək istəmir, əks həmlələr hazırlamağa cəhd göstərirdi. Vuruşmalardan birində Zərifə yaralanmış komissar Anatoli Medvedyevi cəbhə xəttindən


Zərifə Camalbəyova

çıxararkən bombardmançı təyyarələr hücuma keçdilər, yer-göy bir-birinə qarışdı.

Qız gözlərini açanda özünü sanitar batalyonunun səyyar xəstəxanasında gördü. Bir neçə qəlpə yarası almış, beyni silkələnmişdi. Halı nisbətən yaxşılaşandan sonra onu sanitar qatarı ilə Saratova göndərdilər. 3 ay burada – hərbi xəstəxanada yatdıqdan sonra leytenant Zərifə Camalbəyova ordudan tərxis edildi.

Bu qorxmaz komsomolçu qız öz parlaq şücaətlərinə görə 3-cü dərəcəli "Şöhrət" ordeni, "İgidliyə görə" və "Döyüş xidmətlərinə görə" medalı ilə təltif edildi [111, s. 227-230].

1946-cı ildən bu günə kimi Babək rayonunun Böyükdüz kəndindəki feldşer-mama məntəqəsində müdir işləyir. O, Naxçıvan MR-nin əməkdar səhiyyə işçisi adını alıb [10].

416-cı Taqanroq atıcı diviziyasının hissələrində çoxlu azərbaycanlı qız qulluq edirdi. 76-cı atıcı diviziyasının rabitə batalyonunda şəfqət bacısı Lora Abdullayevanın qoçaqlığı hamını heyran etmişdi. O, düşmənin atəş-alovu içərisindən 100-dən çox yaralı çıxarmış və onlara ilk tibbi yardım göstərmişdir.

Böyük Vətən müharibəsi başlananda Lora "Qırmızı Aypara" Cəmiyyəti Naxçıvan Vilayət Təşkilatının tibb bacıları hazırlayan kursunu yenicə bitirmişdi. O da onlarla başqa həmyerli komsomolçu qızlarımız kimi komissarlığa gəlib könüllü olaraq ordu sırasına getmək istədiyini bildirdi. Loranı 76-cı atıcı diviziyasının rabitə batalyonuna şəfqət bacısı göndərdilər. O, hərbi sanitariya hazırlığı keçdikdən sonra cəbhəyə yollandı. Loranın döyüş yolu Poltava altındakı vuruşmalardan başlandı. Düşmənin aravermədən yağdırdığı atəş ilk dəfə Lora üçün çox dəhşətli göründü. Səhərə yaxın atışma bir qədər azaldı. Yalnız uzaqlarda tək-tək top səsləri eşidilir və havada işıqlandırıcı


Lora Abdullayeva





fişənglər görünürdü. Sanitar batalyonunun rəisi bütün tibb bacılarını toplayıb onlara belə bir tapşırıq verdi ki, döyüş sahəsini ciddi nəzarət altında saxlamalı, yaralı görən kimi təcili ona yaxınlaşıb ilk tibbi yardım göstərdikdən sonra cəbhə xəttindən çıxarmalı. Lora tapşırıq aldıqdan sonra müşahidə məntəqəsinə getdi. Bir azdan düşmən yenidən mərmi yağdırmağa başladı və hücuma keçdi. Vuruşma Loranın gözləri qarşısında getdikcə şiddətlənirdi. Əsgərlərimiz düşmən hücumunun qarşısını almaq və onları geriyə çəkilməyə məcbur etmək üçün gah da qaçaraq bu səngərdən o səngərə tullanır, "Ura" sədaları altında irəliləyirdilər.

Lora dərhal səngərdən qalxıb ön məntəqəyə, yaralı əsgər və zabitlərin yanına yollanır. O, çox çətinliklə yaralılardan birinə tərəf sürünür. Qarayanız, gövdəli əsgər ağır yaralanmışdır. Cəsur tibb bacısı yaralıya ilk yardım göstərərək onu çətinliklə döyüş meydanından çıxarıb məntəqəyə apardıqdan sonra təkrar geri qayıdır. İkinci yaralıya yardım göstərərək onu plaş üzərinə uzadır, sürünə-sürünə məntəqəyə tərəf çəkir. Elə bu vaxt yaxınlıqda mərmi partlayır. Torpaq göyə sovrulur... Lora gözlərini açanda özünü sahə xəstəxanasında, cərrahiyyə stolunun üstündə görür. Cərrahiyyə əməliyyatı 3 saatdan artıq davam etsə də, müvəffəqiyyətlə qurtarmışdı. Onun sanitar maşınında hərbi xəstəxanaya aparılması əmr edilmişdi. Maşın sahə xəstəxanasından təzəcə aralanmışdı ki, düşmən təyyarələri yolu bombalamağa başladı. Maşın dağıdılmış yolla hərəkət edərkən düşmən yenidən hücuma keçdi. Daha irəliləmək mümkün olmadı. Artıq maşın sıradan çıxmışdı. Yaralıların əksəriyyəti huşunu itirmişdi. Yaxınlıqdakı Kursovka kəndinin adamları köməyə gəldilər. Onlar yaralıları öz evlərinə apararaq qulluq etdilər. Lora Kursovka kəndində 2 aya yaxın yatdı. Sonra onu Tbilisi şəhərinə hərbi xəstəxanaya göndərdilər. O, tam sağalmasa da, yenidən cəbhəyə göndərilməsini xahiş etdi. Nəhayət, onu Kerçin azad edilməsi uğrunda vuruşan qoşun hissəsinin sanitariya bölməsinə göndərdilər. Cəsur tibb bacısı bu vuruşmalarda

da neçə-neçə yaralını amansız ölümün caynağından xilas etdi.

Lora Abdullayevanın döyüş fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, "İgidliyə görə", "Döyüş xidmətlərinə görə" və s. medallarla təltif edilmişdir. 1943-cü ildə cəbhədən qayıtdıqdan sonra öz sevimli peşəsini davam etdirmişdir. O, 2004-cü ildə Naxçıvan şəhərində vəfat etmişdir [10].

Kətan Kətanov 1944-cü il noyabr ayında Oder çayı uğrundakı vuruşmada düşmənin 4 ağır tankını yandıraraq hücum edən əsgərlərimizə yol açmışdır. O, bu döyüşlərdə "Qırmızı Ulduz" və "İkinci dərəcəli Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir [85, v. 5-7].



**Kətan Kətanov**

Əfsanəvi "Taqanroq" diviziyasının 1054-cü artelleriya polkunda vuruşan Aydın Dadaşov isə "İkinci dərəcəli Vətən müharibəsi" ordeni ilə təltif olunmuşdur [86, v. 7-12].

Azərbaycanın 416-cı diviziyası 1944-cü ilin avqustunda Moldoviyanın azad olunmasında iştirak etmişdir.

Qara Fərzəliyev 1923-cü ildə Naxçıvan şəhərində anadan olmuş, 18 yaşında Vətənin çağırışına səs verərək onun müdafiəsinə yollanmışdır. O, 402-ci Azərbaycan diviziyasının 678 saylı istehkamçı batalyonunda xidmətə başlayıb. Elə ilk döyüşdə ağır yaralanıb. Müalicə olunduqdan sonra yenidən cəbhə xəttinə yollanıb.



**Qara Fərzəliyev**

77-ci Azərbaycan diviziyasının 105-ci atıcı polkunda Krasnodar və Rostov vilayətlərində şəhər və kəndlərin düşməndən azad edilməsi uğrunda rəşadət nümunəsi göstərmiş Qara Fərzəliyev 1943-cü ildə zabitlər hazırlayan xüsusi kursa göndərilir. Kursu bitirən





Qara Fərzəliyev 417-ci diviziyanın 1372-ci alayında 5-ci bölüyün taqım komandiri kimi birinci Pribaltika cəbhəsində Litva, Latviya Respublikalarının şəhər və kəndlərinin faşistlərindən təmizlənməsində göstərdiyi şücaətə görə "İgidliyə görə", "Qırmızı Bayraq" ordenləri ilə təltif olunmuşdur. Sonralar o, Krımın Komel, Litvanın Skodas, Latviyanın Elgava şəhərlərinin azad edilməsində də iştirak etmiş və böyük igidlik göstərdiyinə görə iki dəfə "Birinci dərəcəli Vətən müharibəsi" ordeni və 15 medalla təltif edilmiş, dəfələrlə Ali Baş Komandanlığın təşəkkürünü almışdır [105,2005, 15 aprel].

1944-cü ilin payızında Pribaltikanın azad olunması uğrunda döyüşlərdə 77-ci atıcı diviziyasının şəxsi heyəti xüsusilə fərqlənmişdi. 1944-cü ilin avqustunda bu diviziya 51-ci ordunun tərkibində Debele ətrafında düşməni ciddi məğlubiyyətə uğratmışdı. İki həftəlik müdafiə döyüşləri müddətində diviziya hitlerçilərin 12 tank diviziyasının 31 əks-hücumunu dəf edərək, onun 178 tank və özüyeriyən topunu, 2 alayını sıradan çıxarmışdır. Rəşadətinə görə diviziyanın 587 əsgər və zabiti orden və medallarla təltif olunmuşdur.

Cəsur tibb xidməti daşıyanlardan biri də Səkinə Şəfiyevadır. Müharibədən əvvəl Naxçıvan rayonunun Cəhri və Nehrəm kəndlərində traktorçu işləmişdir. Böyük Vətən müharibəsi başlayan kimi o, könüllü olaraq cəbhəyə getmişdir. Şəfqət bacısı Səkinə Şəfiyeva ilk döyüş yoluna Şimali Qafqazdan başlamışdır. Böyük Vətən müharibəsində qəhrəmanlıqlar göstərmişdir. "İgidliyə görə", "Döyüş xidmətlərinə görə", "Qafqazın müdafiəsinə görə" medalları ilə təltif edilmişdir. 1939-cu ildə yeddiillik məktəbi bitirən Tamam Nəhəcirdən Naxçıvana gəlib sənədlərini tibb məktəbinə verir. Arzusu həkim olmaq, həmkəndlilərinin sağlamlığı



**Səkinə Şəfiyeva**

keşiyində durmaq idi. Lakin müharibə çoxları kimi, Tamamın da arzusunu ürəyində qoydu. O, məktəbin son kursunda olan vaxt vətən təhlükə qarşısında idi. Faşist Almaniyasının yırtıcı qoşun hissələri qəflətən ölkəmizə hücum etmişdi. Şiddətli vuruşmalarda qan su yerinə axırdı. Yaralıların sayı gündən-günə çoxalırdı. Cəbhələrdə yaralanmış sovet əsgər və zabitlərinə ilk tibbi yardım göstərənlər azlıq edirdi.

T.Hüseynova məktəbi qurtarmasına 3 ay qalmış dövlət imtahanlarını verib, könüllü cəbhəyə yola düşür. Gənc qız sinəsində gəzdirdiyi sevincin, qəhqəhəli gülüşlərin və şirin arzuların nə olduğunu bilmədi. Çünki müharibə, ölüm, dəhşətli anlar görməmiş Tamam od-alov içinə gəlmişdi. Yaralılara xidmət göstərmək ona hər şeyi unutdurmuş, qayğılarını çoxaltmışdı.

Mozdok ətrafındakı cəngəlliklərdə qızğın döyüşlər gedirdi. Atılan güllələr dolu kimi səpələnir, tank-top nərəsindən hər tərəf titrəyirdi. Yaralananları döyüş meydanından çıxarmaq əmri verilmişdi. Cəbhədə olan başqa tibb işçiləri kimi əldən zirək Tamam də verilmiş əmri can-başla yerinə yetirdi [70, v. 17].

Mozdok uğrundakı döyüşlərin birində 4 nəfər əsgəri düşmən pəncəsindən qurtaran Tamam ağır yaralanır. Onu hərbi xəstəxanaya aparırlar. Orada bir müddət müalicə olunan Tamam sağalır, öz xahişinə əsasən yenidən üzvü olduğu polka yollanır. Oradan isə ikinci Ukrayna cəbhəsinə göndərilir. Lvov uğrundakı döyüşlərdə iştirak edir.

1945-ci ilin mayında Tamamın tibb bacısı işlədiyi polk Vyana şəhərində qalmalı oldu. Vyanadakı hərbi xəstəxanada işləyən Tamam yorğunluq nə olduğunu bilməmişdir. Gecəni yuxusuz qalıb, xərəklə gətirilən xəstələri gözləyirdi.

İyun ayının axırında Tamamın işlədiyi xəstəxanada bombardman nəticəsində şiddətli yanğın baş verdi. Bu işdən xəbər tutan sovet hərbi qüvvələri yanğın yerinə gəlib yaralı əsgərləri xilas etdilər. Tamam yaralanıb bihuş halda uçuq divar-





lar arasında qalmışdı. Cavan bir qızın yerə sərilib od içində qaldığını görən döyüşçü Nikolay Kolyuçenko özünü divardan içəri ataraq xəstəni qolları arasına alıb tibb məntəqəsinə apardı. Orada müalicə edilən Tamam sağaldıqdan sonra tibb məntəqəsinə kim tərəfindən gətirildiyini öyrənir və polkda axtarıb tapır. Tamam dar gündə ona yardım edən Nikolay Kolyuçenkonu tapdıqdan sonra onunla ailə həyatı qurur. Ordudan tərxis edildikdən sonra Tamam həyat yoldaşı ilə birlikdə Kiyevə gəlir. Kiyev şəhərindən azca aralı Vorzel qəsəbəsində yaşamışdır.

Hüseyn Razi 1942-ci ilin sentyabr ayından 1943-cü ilin iyulun 23-nə qədər piyada atıcı alayının tərkibində Oryol uğrunda gedən döyüşlərdə fərqlənmiş və ağır yaralanmışdır. Burada yaralanan Hüseyn sonra kiçik təyyarə mütəxəssisləri hazırlayan məktəbi qurtarıb "Pribaltika cəbhəsinin uzaq hava kəşfiyyatı alayında PE-2 təyyarələri ilə düşmən obyektlərinin şəklini çəkir və əhəmiyyətli nöqtələrə zərbələr vurmuşdur. Onun xidmət etdiyi hərbi hissə müharibənin sonuna kimi II Pribaltika cəbhəsinin tərkibində qalır.

Almaniya üzərində qələbədən sonra Hüseyn Razinin xidmət etdiyi hərbi alay Yaponiyaya qarşı vuruşmaq üçün Uzaq Şərqə göndərilir. Ancaq alay bu müharibədə iştirak edə bilmir. İrkutsk yaxınlığında Yaponiyanın təslim olması xəbərini eşidirlər. Yenidən Sibirdən Moskvaya, oradan isə Kostromoya qayıdırlar.

Hüseyn Razinin döyüşdə göstərdiyi şücaət və igidliyinə görə I və II dərəcəli "Böyük Vətən müharibəsi" ordenləri ilə təltif olunmuşdur [105].


**Hüseyn Rzayev (Razi)**

1943-cü ilin martında 167-ci qvardiya atıcı alayının minaatanlar vzvodu komandirinin köməkçisi Rəhim Rəhimov Velikiye Luki və Vitebsk ətrafında faşistlərlə vuruşmada başçılıq etdiyi vzvod düşmənin 3 tankını və



**Rəhim Rəhimov**

başqa texnikasını məhv etmiş, 100-dən çox canlı qüvvəsini sıradan çıxarmış və əsir almışdılar. Bütün bunlara görə R.Rəhimov üçüncü dərəcəli "Şöhrət" ordeni ilə təltif olunmuşdur [103].

Vitebskidə ağır döyüşlərin birində yaralanan Rəhim Rəhimov Kalininqrad hərbi xəstəxanasında müalicə aldıqdan sonra onu 252-ci qvardiya atıcı alayının 82-ci minaatanlar vzvoduna komandir təyin edirlər.

1944-cü ilin fevralında Rəhimgilin hissəsinə Berezin çayının ətrafını və Borisov şəhərini azad etmək tapşırığı verilmişdi. Bu döyüşlərdə Rəhimgilin alayı düşmənin çoxlu döyüş texnikasını və canlı qüvvəsini sıradan çıxardı. Həmin vuruşda göstərdiyi şücaətə görə Rəhim Rəhimov ikinci dərəcəli "Şöhrət" ordeni ilə, 3 avqust 1944-cü ildə Şərqi Prussiyanın faşistlərdən azad olunmasında yaxından iştirak etdiyinə görə ikinci dəfə üçüncü dərəcəli "Şöhrət" ordeni ilə təltif olundu. Lakin bu ağır döyüşlərin yaratdığı anlaşılmazlıq idi.

9 aprel 1945-ci ildə Pillau şəhərinin və qalasının azad edilməsində fərqləndiyinə görə R.Rəhimov "Qırmızı Ulduz" ordeninə layiq görülür. Bundan on gün sonra isə Lenisberqin azad olunması uğurunda gedən döyüşlərdə fərqləndiyinə görə "Qırmızı Bayraq" ordeni ilə təltif olunur [105].

Naxçıvanın igid qızlarından olan Surə Allahverdiyeva da vətən uğrunda döyüşlərdə fərqlənmişdir. Müharibənin başlanmasından cəmi 3 gün sonra başqa qızlar kimi Surə də hərbi komissarlığa gəlib könüllü olaraq cəbhəyə göndərilməsini xahiş etmişdi. 3-cü Belarusiya cəbhəsinin 510-cu sanitar batalyonuna daxil edilən Surə Mozdok, Mineralnie Vodı, Armavir, Maykov, Vilnüs, Kensberq şəhərlərində vuruşmalarda olmuşdu. Maykop yaxınlığında vuruşmalarda atəş altında həyatını təhlükə





qarşısında qoyan Surə sürünərək bir yaralıdan digərinə keçib onlara ilk yardım göstərirdi. Mina partlayışı, qəlpə "yağışı" onu qorxutmurdu. Hər gün o, 20-25 nəfərdən çox yaralını döyüş xəttindən çıxarırdı. Surə Allahverdiyeva düşmənlə mübarizədə igidliyə görə komandanlıq tərəfindən "Qafqazın müdafiəsinə görə", "Keniqsberqin alınmasına görə", "Döyüş xidmətlərinə görə" habelə bir neçə döş nişanları ilə təltif edilmişdir. Surə Allahverdiyeva cəbhədən qayıtdıqdan sonra ali təhsil almış, bir həkim kimi insanların sağlamlığı keşiyində sayıq dayanmışdır. İki dəfə Naxçıvan MR Ali Soveti Rəyasət heyətinin fəxri fərmanına layiq görülmüşdür. Naxçıvan MR-nin əməkdar həkimi kimi yüksək ada layiq görülmüşdür [71, v. 14-16].

1942-ci ilin iyun ayı idi. Alman faşist işğalçıları ölkəmizin kənd və şəhərlərini viran qoyur, adamlarımıza vəhşicəsinə divan tuturdular. Bu vaxt Yengicə kəndində yaşayan Asiya Hüseynova adlı bir tibb bacısı da Şərur rayon hərbi komissarlığına gəlib cəbhəyə getmək, döyüşlərdə yaralanan vətən oğullarına yardım göstərmək istədiyini bildirdi. Komissarlıqda Asiyanın sözünü yerə salmadılar. O, əvvəlcə 402-ci diviziyanın tərkibində xidmətə başladı. Asiya cəbhəyə ilk dəfə Mozdok yaxınlığındakı vuruşmada düşdü. Ağır döyüşlərin birində yaralanan Asiya hərbi xəstəxanaya göndərildi. Sağaldıqdan sonra Asiya Hüseynova yenidən döyüşçülərin yanına qayıtdı. Taqanroq uğrundakı döyüşlərdə böyük hünər göstərən bu diviziyanın əsgər və komandirlərinə Ali Baş Komandanlıq tərəfindən təşəkkür elan edilir. Təşəkkür alanlar sırasında Asiya Hüseynova da var idi. 416-cı Taqanroq diviziyası düşməni ölkəmizin sərhədlərinə doğru qovduqca mübariz Azərbaycan qızı Asiya döyüşlərdə Vətən oğullarının dadına çatır, yaralarını sarıyır, onları tibb məntəqəsinə çatdırır, vuruşmalarda fəal iştirak edirdi. Döyüşlərdən birində sağ ayağından ağır yaralanan Asiya Hüseynovanı təyyarə ilə Taqanroq şəhərindəki xəstəxanaya gətirirlər. O, burada bir müddət müalicə olunduqdan sonra başqa xəstəxanaya göndərilir. Günlər keçdikcə

Asiyanın vəziyyəti də yaxşılaşır. O, müalicə olunduqdan sonra "yenidən cəbhəyə qayıdacağam"- deyə düşünürdü. Elə bu vaxt ölkəmizdə şad bir xəbər yayıldı ki, müharibə qurtarmış, faşist Almaniyası məğlub olmuşdur. Müharibədən sonra öz doğma yurduna-İliç rayonunun Yengicə kəndinə qayıdan Asiya Hüseynovanın döşünü "İgidliyə görə", "Döyüş xidmətlərinə görə", "Almaniya üzərində qələbəyə görə" medalları bəzəyirdi [70, v. 18-21].

Zinanın hələ 16 yaşı tamam olmamışdı. Naxçıvandakı hərbi xəstəxanada işə başladı. Həkimlə tibb bacılarına kömək etdi. Gecəli-gündüzlü xəstəxanada xəstələrin qayğısını çəkdi. Lakin bütün bunlar Zinanı o qədər də qane etmirdi. O, döyüşə atılmaq, müharibədə iştirak etmək arzusu ilə yaşayırdı. 1943-cü ilin yazında hərbi qatar Zina Şirzadovanı da başqa əsgərlərlə birlikdə müharibənin odları-alovları içərisində apardı. O, hərbi xəstəxanada işə başladı. Lakin bu gənc qız işini yalnız xəstəxananın divarları arasında görməklə bitmiş hesab etmədi. Döyüşçülər öz aralarında tez-tez qarayanız bir qız da görürdülər. O, məharət və cəldliklə yaralıya yaxınlaşır, dərhal tibbi yardım göstərir, çox vaxt yaralanmış əsgərləri böyük çətinliklə döyüş meydanından çıxararaq hərbi xəstəxanaya gətirirdi. Zina Şirzadova alman faşistləri və yapon millitaristləri üzərində qələbədən sonra əmək cəbhəsinə qayıtdı. "Almaniya üzərində qələbəyə görə" və "Yaponiya üzərində qələbəyə görə" medalları ilə təltif olundu [75, v. 20-28].

Müharibə başlananda Vera Abbasovanın 17 yaşı var idi. Vera cəbhəyə getmək üçün hərbi komissarlığa ərizə verdi. O, ilk dəfə cəbhəyə Mozdokda düşdü. VeraAbbasova zenitçi tibb bacısı təyin edildi. Leninqradın müdafiəsində göstərdiyi fədakarlığa görə o da Ali Baş Komandanlığın təşəkkürünü alanlar arasında idi. Vera Abbasova Kiyev, Xarkov, Sevastopol, Bryansk şəhərlərinin müdafiəsində əsl qəhrəmanlıq nümunəsi göstərmişdir. Böyük Vətən Müharibəsində göstərdikləri igidliklərə görə o, "Almaniya üzərində qələbəyə görə", "İgid-





liyə görə" medalları ilə təltif olunmuşdur.

416-cı "Taqanroq" diviziya Odessanı faşistlərdən təmizləyən hissələrin önündə gedirdi. Odessa üzərində döyüşlərdə 416-cı diviziyanın 325-ci atıcı alayının şəxsi heyəti və heyətin üzvü olan İsmayıl Hacıyev xüsusilə fərqləndi. 1944-cü ilin aprelin 10-da diviziya başqa hissələrlə birlikdə Odessanı düşməndən azad etdi. Döyüşdə düşmənin 2000-dən çox əsgər və zabiti məhv edildi.

Odessa şəhəri ətrafındakı döyüşlərdə İsmayıl Hacıyev igidlik nümünəsi göstərmiş və Birinci dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir.

SSRİ Ali Soveti Rəyasət heyətinin fərmanı ilə 416-cı Taqanroq diviziyası Odessa şəhərinin faşistlərdən azad edilməsindəki xidmətlərinə görə ikinci dərəcəli "suvorom" ordeni ilə, diviziyanın 500-dən çox döyüşçüsü isə orden və medallarla təltif edildi.

Ordubad rayonunun Vənəd kəndində 1911-ci ildə anadan olan İsmayıl səfərbərliyə alınanda Vənənd kəndində kolxoz sədri işləyirdi.

İ.Hacıyev Moskvanın, eləcədə Pribaltika ölkələrinin faşistlərdən azad edilməsində iştirak etmiş və göstərdiyi igidliyə görə bir çox medallar və Ali Baş Komandanın təşəkürləri ilə təltif olunmuşdur.

1945-ci ildə Ordudan Əmək cəbhəsinə qayıdan İsmayıl Hacıyev müxtəlif vəzifələrdə, o cümlədən uzun illər Naxçıvan MSSR Nazirlər Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1988-ci ildə Naxçıvan şəhərində vəfat etmişdir.


İsmayıl Hacıyev

Ön cəbhədə alman faşist işğalçılarına qarşı vuruşan mərd həmyerlilərimizdən biri də Ağa Həsən oğlu Ağayevdir. A.Ağayev 1906-cı ildə Naxçıvan şəhərində həkim ailəsində

anadan olmuş, uşaq ikən ata-anadan yetim qalaraq, 1917-1922-ci illərdə Naxçıvan şəhərində fəaliyyət göstərən "Sahibsiz cocuqlar yurdu" adlı uşaq evində tərbiyə almışdır. 1922-ci ildə Naxçıvan bir dərəcəli oğlan məktəbində ibtidai təhsil alaraq Bakıda iki il fəhlə fakültəsində oxumuşdur. 1928-1930-cu illərdə Azərbaycan diviziyasının ibtidai bölüyündə qulluq etmişdir.

Sonrakı illərdə A.Ağayev Azərneftdə və duz mədənində fəhlə, radioda və kinoda kamança çalan, diktor, "İşçi-kolxozçu" radio qəzetində müxbir, teatrda aktyor, Xalq Təsərrüfat İdarəsində statistik və sair vəzifələrdə çalışmışdır.

A.Ağayevin şəxsi arxivində mühafizə olunan bir sənəd, 1938-ci ildə Moskvaya (Kremliyə) Voroşilov yoldaşın adına vurulan bir teleqram diqqəti cəlb edir. Bu teleqram satirik-şairin vətənpərvərlik duyğularının ifadəsidir. Teleqramda deyilir: "Xahiş edirəm, Naxçıvan MSSR Hərbi Komissarlığına sərəncam verəsiniz ki, məni Vətənimizi Yapon işğalçılarından qorumaq üçün Uzaq Şərq ordusuna göndərsin".

Onun düşməni məhv etmək arzuları 1941-ci ildə faşist Almaniyasına qarşı orduya səfərbərliyə alınarkən daha da alovlandı. O, cəbhəyə gedərkən son iş yeri "Şərq qapısı" qəzeti redaksiyası olub. Bu redaksiyada o, uzun illər korrektor, texniki katib, xüsusi müxbir və ədəbi işçi işləmişdir.

Müharibənin ağır illərində Ağa Ağayev Poltava, Xarkov, Starabelski, Voronej, Kursk cəbhələrində vuruşmuş, üç dəfə yaralanmış, axırıncı dəfə ağır yaralandığı üçün xəstəliyinə görə 1943-cü ildə arxa cəbhəyə göndərilmişdir. Ağa Ağayevin cəbhədə olan dövrdə 7 mart 1942-ci ildə ailəsinə göndərdiyi barıt qoxulu məktubunda yazırdı:


Ağa Ağayev

"Əzizlərim! Hazırda mən şən və xoşbəxt həyatımızı əlimizdən almağa çalışan hitlerçi cəlladlara qarşı vuruşuram.





Onlar heç bir zaman istədiklərinə nail ola bilməyəcəklər! Gündəlik qəzetləri oxuyursunuzmu? Faşistlər doğma qızıl ordumuzun amansız zərbələri altında geri çəkilirlər.

Quduzlaşmış hitlerçilər geri çəkilərkən kəndləri yandırır, günahsız körpələri odlara atırlar. Sizin kimi uşaqları süngüdən keçirirlər. Onlar heyvanxanada gördüyünüz vəhşi heyvanlardan da pisdirlər.

Əzizim Fatma, uşaqlardan muğayat ol! Əvəzimdən Kamoşu, Əloşu və balacanı öpərsən. Onların dərslərinə həmişə özün bax. Məndən nigaran qalma. Son damla qanım qalanadək anamız vətənə sadiq qalacağıma and içirəm. Vətənin müdafiəsindən şərəfli nə var, əzizim? Məndən qohum-əqrəbaya salam söylə. Tezliklə görüşərik! Sizin Ağa Ağayev. 7 mart 1942-ci il" [72, v. 24-28].

Ordudan qayıdandan sonra da o, "Felyetonçu" və "Cəngavər" imzaları ilə hitlerçilərə qarşı mərd oğullarımızın qəhrəmanlıqları barədə, xalq təsərrüfatının müxtəlif sahələrində bəzi əliəyriliklәri ifşa edən şeirlərlə mətbuatda çıxış etmişdir. Xüsusən onun hitler Almaniyasının fitnələrini bir qayda olaraq hədəf tutan şeirləri müharibə illərində dillər əzbəri olmuşdur. Bu şeirlərin sayı 500-ə yaxındır. Onun şeirləri Sabiranə yazıldığından xalq çox tezliklə əzbərləyirdi. Belə şerlərdən "Partladı top mərmisi Berlində də", "Canın üçün", "Açıq məktub", "Zəhmət olmasa çəkil", "Gedib əldən" və s. kimi müharibə əleyhinə yazılmış felyetonlar çox maraqlıdır. Bürokrat və əliəyriləri ifşa edən "Qoy yatıb yatsın hələ", "Kəblə hesabdar kimi", "Ay Misaq", "Yubanmasın", "Bank bürokratı", "Küçələrə diqqət" kimi şeirləri dillər əzbəri idi.

Müharibə, onun əzab-əziyyətini görmüş adamlar haqqında düşünəndə istər-istəməz 1941-ci ilin 22 iyun gününü xatırlayırsan. Axı, müharibənin həmin gündən başlayan acı tarixi tufanlarla doludur, heç vaxt yaddan çıxmayan və neçə-neçə qurbanlar bahasına başa gələn qəhrəmanlıqlarla doludur. Bu günlərdə hamının qarşısında bir vəzifə dururdu: nəyin

bahasına olursa-olsun Vətən torpağını qorumaq.

Böyük Vətən müharibəsi başlayanda Adil Cəfərovun 21 yaşı var idi. Müharibə onun neçə-neçə arzularını gözündə qoydu. Minlərlə azəri oğlu kimi o da silaha sarıldı, cəbhəyə yola düşdü.

Qroznı şəhərindəki hərbi məktəbdə oxudu, sonra onu Orçonikidze şəhərində yerləşən 90-cı alaya göndərdilər. O, alayın 3-cü rotasında bölmə komandiri oldu. 1943-cü ildə onun başçılıq etdiyi bölmə Belqorod istiqamətində olan aşağı və Yuxarı Orlonod kəndləri ətrafında düşmənlə döyüşə girdi. Adil və onun döyüş yoldaşları Kirovqrad, Novqorod şəhərlərinin, Aleksandrovka rayonunun faşist işğalçılarından geri alınması uğrunda gedən döyüşlərdə rəşadətlə vuruşdu, hitlerçilərə ağır zərbələr endirdi. Adilə kiçik leytenant rütbəsi verildi. Onu kəşfiyyatçılar dəstəsinə keçirdilər.

1943-cü ilin noyabr ayında almanlar Yakovlevka qəsəbəsində möhkəm istehkam qurmuşdular. Düşmənin canlı qüvvəsi və texnikası haqda dəqiq məlumat əldə etmək lazım idi. Hissənin komandiri mayor Buşkov komandirləri öz ətrafına toplayıb bu barədə onlarla məsləhətləşdi. Bu iş olduqca çətin idi. Bayaqdan bəri söhbətə qulaq asan Adil ayağa qalxıb komandiri müraciət edərək dedi:

– Yoldaş mayor, icazə versəniz bu əməliyyata mən başçılıq edərdim. Arxayın ola bilərsiniz, hər şey yaxşı olacaq.

– Adil, elə mən də bu fikirdə idim. Bacarıqlı kəşfiyyatçılardan bir neçəsini seçib əməliyyata başlayın. Bir qədər ehtiyatlı olun.



**Adil Cəfərov**

Gecə yarıdan xeyli keçmiş əyinlərində ağ xalat olan kəşfiyyat dəstəsi düşmənin yerləşdiyi qəsəbəyə doğru yollandı. Luqan çayını çətinliklə keçən kəşfiyyatçılar birdən minalanmış sahəyə rast gəldilər. Onlar dərhal sahəni





zərərsizləşdirdilər. Elə bu zaman kimsə astadan dilləndi:

– Uşaqlar, ehtiyatlı olun, deyəsən gələn var.

Kəşfiyyatçılar silahlarını hazır vəziyyətdə tutdular. Ancaq düşmənin qüvvəsi sayca çox olduğundan silahları işə salmaq lazım gəlmədi. Əsgərlərimiz onlardan bir neçəsini dəstədən ayırmağı qərara aldılar. Xoşbəxtlikdən bu fənd baş tutdu. Bir anda kəşfiyyatçılar 3 nəfəri bıçaqla susdurub, 1 nəfəri əsir alıb geri qayıtdılar.

Hissəyə gətirilmiş alman əsgərindən lazımi məlumatlar alındı. Dan yeri söküləndə topçularımız düşməni qəfildən atəşə tutdular. Bir neçə saatlıq vuruşmadan sonra Yakovlevka qəsəbəsi düşməndən geri alındı. Bu əməliyyatda fərqlənən 9 nəfər kəşfiyyatçıya orden və medallar verildi. Adil "Qırmızı ulduz" ordeni ilə təltif olundu.

Xarkov, Poltava şəhərləri azad edildikdən sonra qarşıda Kirovqrad vilayətinin alman işğalçılarından təmizlənməsi vəzifəsi dururdu. Kiçik leytenant A.Cəfərovun xidmət etdiyi 97-ci kəşfiyyat rotasına Osotnayaşka, Lubaxirovka, Bolondino, Bonterova kəndlərindən keçməklə düşmən arxasına keçib "qara meşə"də yerləşən partizan dəstəsi ilə birləşib düşməni Zvinoqorodka-Şpola tərəfdən geri çəkilməyə imkan verməmək tapşırılırdı.

Həmin əməliyyata Bolondino kəndinin sakini Mikola bələdçilik etməli idi. Kəşfiyyatçılarımız qocanı tezliklə tapıb partizanlarla birləşərək işə başladılar. Partizan dəstəsinin komandiri Skirda vəziyyəti döyüşçülərimizə izah etdikdən sonra əməliyyatın icrasına başlandı. Kəşfiyyatçılar yol ilə gedərkən alman maşınına rast gəldilər. Onlar dərhal maşındakı baş leytenantı bir göz qırpımında əsir aldılar.

Alınan qiymətli məlumat dərhal qərargaha çatdırıldı. Şpola şəhərindəki dəmiryol ətrafında gedən vuruşmalarda bir neçə partizanla bərabər dəstənin adlı-sanlı kəşfiyyatçısı Saşa Tarannov da həlak oldu. Nəhayət, düşmən darmadağın edildi.

1944-cü ildə Kişinyov şəhəri ətrafında gedən vuruş-

malarda yaralanan Adil Cəfərovu Tiraspol xəstəxanasına göndərdilər. Sağaldıqdan sonra Adil yenidən öz hissəsinə qayıtdı.

Düşmən bir-birinin ardınca şəhər və kəndləri tərk edərək geri çəkilirdi. Artıq qoşunlarımız Rumıniya, Yuqoslaviya, Macarıstanın azad edilməsinə başlamışdılar. Buna baxmayaraq düşmən yenə də təslim olmaq istəmirdi. Macarıstanın Çeçe qəsəbəsini əldən verməməyə çalışan almanlar burada güclü müdafiə xətti yaratmışdılar.

Dəfələrlə sınaq meydanından mərdliklə çıxan bacarıqlı kəşfiyyatçı Adil Cəfərovun dəstəsi yenidən çətin bir tapşırıq aldı. Kəşfiyyatçılarımız düşmən toplarının necə yerləşdirilməsini öyrənə bildilər. Ertəsi gün düşmən geri oturduldu. Bu əməliyyata görə Adilin dəstəsinin bütün üzvləri Ali Baş Komandanın təşəkkürünü aldı.

1945-ci ilin yanvar ayında döyüşlərdə ağır yaralanan Adil yenidən xəstəxanaya düşdü. Sağaldıqdan sonra yenə də döyüşə göndərildi.

Oryol, Kursk, Belqorod, Tarnapol, Lvov, Drezden, Praqa, Budapeşt, Vena və başqa şəhərlərin azad edilməsində mərdliklə vuruşduğuna görə Ali Baş Komandanlıq tərəfindən çoxlu təşəkkür almışdır. O, bir sıra orden və medallarla təltif olunmuşdur [111, c.196-205].

Adil Cəfərov 1946-cı ildə ordudan tərxis olunub Naxçıvana qayıdır. Uzun müddət müxtəlif vəzifələrdə çalışan A.Cəfərov 1988-ci ildə Naxçıvan şəhərində vəfat edib.

19 noyabr 1943-cü ildə "N" diviziyasının ştab rəisi Morozov yoldaş "Şərq qapısı" qəzeti redaksiyasına göndərdiyi məktubunda yazır:

"Kazım Kazımov 1942-ci ilin axırlarında Qızıl Ordu sırasına alınaraq hərbi məktəbə göndərilmişdir. O, məktəbdə hərbi texnikanı tələb etdiyi kimi öyrənərək cənub-qərb cəbhəsində döyüşlərdə iştirak etmiş, sonra Şimali Qafqaz cəbhəsinə göndərilmişdir.





K.Kazımov Mozdokdan tutmuş Tomanadək Qızıl Ordunun hücumunda iştirak edir, düşmənin atəşi ilə sıradan çıxarılan topları, müşahidə alətlərini və başqa silahları gecikmədən təmir edir və döyüşə göndərirdi.

Temryuk ətrafında aparılan döyüşlərin birində düşmənin atəşi bir topun çox hissəsini ağır surətdə zədələmiş və top atəş aça bilməmişdir. Kazımov özünü təhlükə qarşısında qoyaraq şiddətli atəş altında özünü topun üzərinə atmış və az keçmədən onu saz hala salmışdır. Sonra Kazımov həmin topdan atəş açaraq piyadalarımızın hücumuna mane olan düşmənin iki topunu və bir minaatanını sıradan çıxarmışdır. Hissənin döyüşçüləri hücumu sürətləndirmiş və Temryuk şəhərinə hamıdan qabaq girmişlər. Məhz bu şücaətinə görə komandanlıq Kazımovu "Qırmızı Ulduz" ordeni ilə təltif etmişdir.

Kazımov bu yüksək mükafata cavab olaraq hissədə öz fəallığını daha da artırmışdır. Sonra o azərbaycanlı döyüşçülər arasında yüksək keyfiyyətli məşğələlər keçərək hərbi texnikanı onlara dərindən mənimsədirdi. Buna görə hissədəki azərbaycanlılar xüsusilə fərqlənirlər. Onlar Abid Mövsümov "İgidliyə görə" və "Döyüş xidmətlərinə görə" medalları, baş serjant H.Eldarov "İgidliyə görə" medalı, starşina Qafarov, Məmmədov, Ağaçanov, Hacıyev, Kərimov, Axundov, Hənifəyev və Əliyev kimiləri "İgidliyə görə" medalı ilə təltif edilmişlər. Bundan başqa 11 nəfər azərbaycanlı təltif edilmək üçün komandanlığa təqdim edilmişdir".

Naxçıvan (Babək) rayonunun Xalxal kənd sakini Əli İbad oğlu Abdullayev alman faşist işğalçıları vətənimizə xaincəsinə basqın edən zaman bir çox naxçıvanlılar kimi yola düşdü. İlk döyüşlərdə düşmənə qarşı mərdliklə vuruşdu. Sumı şəhərinin azad edilməsində Əligilin rotası böyük şücaət göstərdi. Bir sıra döyüşçülər orden və medalla təltif edildi. Əli də "İgidliyə görə" medalı ilə təltif edildi.

Bu münasibətlə 24 noyabr 1943-cü ildə Əli Abdullayev ata və anasına göndərdiyi məktubunda yazır:

"Əziz atam İbad və anam Xanım! İndi mən Siz görən Əli deyiləm. Qorxmaz və igid bir döyüşçüyəm. Bir dəfə komandanlığın tapşırığını yerinə yetirmək üçün sürünə-sürünə alman səngərinə tərəf getdim. Burada üç alman faşistini öldürdüm, altısını əsir alıb hissəmizə gətirdim. Bunun üçün komandanlıq məni "İgidliyə görə" medalı ilə təltif etmiş və "Qırmızı Ulduz" ordeni almağa təqdim etmişdir. Sumı şəhərinin alınmasında da iştirak etdim. Mən ordu sıralarında kommunist partiyasına daxil olmuşam. Vətənimin azadlığı uğrunda var qüvvəmlə vuruşuram. Son döyüşlərdə yüngülcə yaralanmışam. İndi hərbi xəstəxanada yatıram. Həkimlər yaramın on günəcən sağalacağını bildirmişlər. Mən sağalan kimi dərhal cəbhəyə gedəcəyəm. Qəddar düşmənimiz olan hitlerçilərin tamamilə darmadağın edilməsi üçün daha mərdlik və qoçaqlıqla vuruşacaq, yanınıza alnı açıq gələcəyəm".

17 iyun 1943-cü ildə bir qrup azərbaycanlı döyüşçü Naxçıvan MSSR zəhmətkeşlərinə göndərdikləri vətənə məhəbbət hissi ilə dolu məktubunda yazırlar:

"Hörmətli ata, ana, bacı və qardaşlarımız! Sizdən çox uzaq məsafədə yerləşən vətən müharibəsi cəbhələrindən göndərdiyimiz səmimi döyüşçü salamımızı qəbul edin. Azərbaycan xalqının bizə, öz istəkli balalarına yazdığı məktubunun hər bir kəlməsi düşməndən yeni və amansız intiqam almağa ruhlandırır. Doğma xalqımızın tapşırığını bir dəqiqə də olsun yaddan çıxarmır və çıxarmayacağıq. Bütün fikrimiz doğma sovet torpağını alman-faşistlərinin məzarına çevirmək və bu torpağı tezliklə onlardan təmizləmək yanındadır.

Əzizlərimiz, sizi inandırırıq ki, biz Azərbaycan oğulları ata-analarımızın, bacı-qardaşlarımızın və öz övladlarımızın yanında həmişə alnı açıq olacağıq. Vətən yolunda öldü var, döndü yoxdur!"

Məktubu naxçıvanlı Abbasəli Bayramov, Şərur rayonundan Təhməz Vəliyev, maştağalı Məstan Məstanov, naxçıvanlı Hüseyn Hüseynov və gəncəli İsgəndər İsgəndərov yoldaşlar imzalamışlar.





"Şərq qapısı" qəzeti redaksiyasının əməkdaşı, gənc şair Hacı Əsgərov ordu sırasına alındıqdan bir neçə vaxt sonra vətən müharibəsi cəbhələrində düşmənə qarşı mübarizə başlamışdır. O, arxada ikən özünün məzmunlu şeirləri ilə döyüşçülərimizi ruhlandırmaqda az iş görməmişdir.

Hacı Əsgərov 21 avqust 1943-cü ildə "Şərq qapısı" qəzeti redaksiyasının kollektivinə göndərdiyi məktubunda yazır:

"Siz fəxr etməlisiniz ki, fəlakət gətirən qanlı kabus-alman faşizminə qarşı qəhrəmancasına mübarizə aparan döyüşçülərin sırasında sizin də əməkdaşlarınızdan vardır. Bu sırada mən də tapşırıqları layiqincə yerinə yetirdiyim üçün komandirlərimin hörmətini qazanmışam.

Arxada olarkən öz ürək duyğularımı vətənə məhəbbətimi söz incilərimlə tərənnüm etdiyim kimi, indi əldə silah müqəddəs vətəni düşməndən müdafiə edirəm. Düşmənə qarşı sonadək amansız olaraq vuruşmaqda bir damcı qanımı belə əsirgəməyəcəyimə and içmişəm.

Hörmətli əməkdaşlarım! Düşmən məhv edilmək üzrədir. Ali Baş Komandanımız, Sovet İttifaqı Marşalı Stalin yoldaşın hər gün yeni qələbələrə gətirən komandası faşizmin çürüməkdə olan təməl daşını parçalamış və tarixin səhifəsinə qızıl sətirlərlə yazmışdır:

Bizik insanlığa səadət verən,
Bəşər karvanına yollar göstərən!
Bizik şən həyatı quran, yaradan.
Bizimdir bu həyat, bu şanlı dövran.
Sən ey qarı düşmən fikrindən əl çək,
Dara çəkməkdədir səni gələcək.
Sənsən, həyasızsan, sözün doğrusu.
Səadət oğrusu, vicdan oğrusu.
Bəsdir insanlığa vurduğun yara
Gömülsün varlığın qara torpağa!

Buludla örtülsə, dünyanın üzü
Tutulmaz günəşin bəşarət üzü.
Sən ey qara düşmən, ey qanlı kabus,
Yerişin, duruşun, əməlin mənhus.
Aldatma dünyanı murdar adınla
Sərt köpəklər kimi, hürmə bir sus!
Zaman da tüpürür üzünə utan,
Fəlakət yolçusu, dişi şarlatan.
Partiya adı ilə yazılan qərar
Qazıb küruhuna sonuncu məzar!...
Havada yellənən bir qızıl bayraq,
Odur insanlığa sevinc və dayaq.
Deyir, bu bayraqla gülən kainat!
Yaşasın partiya, yaşasın həyat!

Hörmətli əməkdaşlarım! Düşməni tezliklə darmadağın etmək hamımızın vahid məqsədimizdir. Buna görə də arxa cəbhə üçün sizin bütün varlığınızla çalışmağınızı arzu edirəm.

Hörmətlə: Sizin Hacı Əsgərov".

... "Şərq qapısı" qəzeti redaksiyasının sabiq fəal müxbiri Cəfər Məmmədov da (Sirablı) müharibənin ilk günlərindən Qızıl Ordu sıralarında alman faşist işğalçılarına qarşı vuruşurdu. Onun 12 avqust 1943-cü ildə cəbhədən redaksiyaya göndərdiyi məktubunda bütün Naxçıvan zəhmətkeşlərinə salam yetirməyi xahiş etmiş və azğın faşist işğalçılarına qarşı son damcı qanı qalana qədər vuruşacağına and içdiyini bildirmişdir. Məktubunda bu bayatıları da yazıb göndərmişdir:

Əzizlərim mərdanədi,
Mərd sözü mərdanadı,
Vətənə igid verən
Mərd ata, mərd anadır.

Əzizim varın sənin,
Namusun arın sənin,





İgid olub ad aldın,
Xoşbəxtdir yarın sənin.

Bu dava nə davadı!
Bilməyən binavadı.
Laçınları bəsləyən,
Bu yurddu, bu yuvadı.

Mən aşiq yandırsa da,
Düşmənim yan dursa da,

Qoy atım lülə qızsın
Əlimi yandırsa da.

Əzizim sağalmışam,
Sağ verib sağ almışam,
Ağlama gözəl yarım,
Durmuşam, sağalmışam

Əziziyəm qaldı bax,
Gözüm yolda qaldı bax,
Özü getdi gəlmədi
İgid adı qaldı bax.

Naxçıvan komsomol təşkilatının yetirməsi olan cəsur döyüşçümüz Əhməd Cəlilov haqqında 1942-ci ildə siyasi rəhbər A.Rutman Naxçıvan zəhmətkeşlərinə göndərdiyi məktubunda yazırdı: "Şimali-qərb cəbhəsində komsomolçu Ə.Cəlilov qolu qüvvətli və gözü iti bir döyüşçüdür.

Cəlilov qar üstündə uzanmış və tüfəngi döşünə elə sıxmışdır ki, sanki bunları bir-birindən ayırmaq mümkün olmaz. O, gözünü qıymışdır, üstü qarla örtülmüş xırda təpəciyin dalındakı başı, demək olar ki, görünmür. Düşməni qorxutmaq Cəlilovu kifayətləndirmirdi. O, öz yoldaşlarının axıdılmış qanını yerdə qoymaması üçün düşməndən intiqam almaq istəyir.

Alman avtomatçısı ehtiyatlı və təcrübəlidir. O, demək olar ki, gözə çarpmadan hərəkət edir. Lakin bir saniyə kollar arasında onun kirli xalatı göründü. Bu, kifayət idi. Cəlilovun tüfəngindən güllə açıldı və düşmən yuvarlanıb açıq bir yerə düşdü. Diri adam burada uzanmazdı.

İkinci alman avtomatçısı getdikcə yaxınlaşırdı. O, dərə arası ilə sürüşürdü, onu tapmaq çətin idi.

– Cəlilov, niyə qalxırsan, görmürsənmi ki, hər tərəfdən güllə yağır!

Cəlilovun sol çiynindən dəyən güllə onu yerə yıxdı. Lakin Cəlilov qalxarkən axtardığını tapmış idi. Bir daha qalxıb dalbadal iki güllə atdı: alman sıçradı və üzü üstə yıxıldı. Sağ adam belə yıxılmazdı.

Cəlilovun çiyni isti idi, isti qan döşünə və qarnına axırdı.

Cəlilov, sən yaralanmısan, gəl yaranı sarıyım, eşidirsənmi?

Yox, Cəlilov eşitmirdi. O, yenə tüfəngini döşünə sıxmışdı. O, üçüncü düşməni gördü. Gözləmək lazım idi: düşmən indi taladan yüyürə-yüyürə qaçmalı idi. Alman qaçmağa başlarkən güllə açıldı. Alman üzü üstə yıxıldı, başı qarın içinə batdı. Sağ adam yerə belə sərilməzdi.

Yalnız bu zaman Cəlilov hiss etdi ki, sol qolu keyləşmişdir, çiyni isə bərk ağrıyır. Axan qanı yol tapmış idi: qan ovcuna süzülür və barmaqlarından tökülürdü.

Qanı axdıqca özü də taqətdən düşürdü. Cəlilovun üzü ağarmışdı, dodaqlarını bir-birinə bərk basmışdı. Cəlilov yoldaş əlindəki əyri bıçaqla şinelin qolunu kəsdi, ehtiyatla yaralı çiynini yoxladı.

– Əzizim, qorxma, güllə sümüyü sındırmamışdır.

Vətənin şanlı oğlu, bacarıqlı və qoçaq döyüşçü, həmyerliniz, komsomolçu Əhməd Cəlilov yaşayacaq və düşmənə zərbələr endirəcəkdir".

12 dekabr 1942-ci ildə Qızıl əsgər Əli Hüseynov haqqında A.Dolqov öz məktubunda yazırdı: "Vasili yoldaşın bölməsi yürüşdə idi. Qəflətən təpənin arxasından 30-a yaxın alman tankı çıxdı. Tanklarla döyüşçülərimizin arası cəmi 150-200 metr olardı. Bir dəqiqə belə keçsə idi düşmən maşınları döyüşçülərimizi əzəcəkdi. Tankların qarşısını necə olursa-olsun saxlamaq lazım idi.

Nə cür saxlamaq? Sovet döyüşçüləri vuruşa hazırlaşana qədər zərbəni kim isə öz üzərinə almalı idi.

Baş serjant Əli Hüseynov bir düşmən tankına zirehdələn silahdan 2 güllə atdı. Maşın yerində durub qaldı. Döyüşçülərimizə də elə bu lazım idi. Onlar özlərini vuruşa hazırlayıb düşmənə atəş açdılar. Tanklar nizamsız şəkildə top və pulemyot atəşi açdılar.

Hər tərəfi alov bürümüşdü, göydən metal qırıntıları yağırdı. Ancaq heç kəs yerindən tərpənmirdi. Cinahda topçularımız öz qurğuşunlarını alman tanklarının üzərinə yağdırmağa başladılar. Qızıl əsgərlər tankdağıdan qumbaraları işə saldılar. Düşmən tanklarının biri, ikisi, üçü alovlanıb yanmağa başladı. Nəhayət, alman tankları geri çəkilməyə məcbur oldu.

Naxçıvandan buraya, Volqa sahilinə öz doğma vətənini müdafiə etməyə gəlmiş Əli Hüseynov Azərbaycan xalqının etimadını şərəflə doğrultdu. O, onlarca alman faşistini, o cümlədən bir zabiti öldürmüş, düşmənin iki avtomobilini və iki tankını məhv etmişdir.

Həmyerliniz Əli Hüseynov igidlərə məxsus cürət və qoçaqlıqla döyüşə girib həmişə qalib çıxır".

Əli Hüseynov Naxçıvan şəhərində anadan olmuşdur. Müharibəyə könüllü olaraq getmişdir. O, Stalinqrad uğrunda vuruşmalarda bir neçə düşmən tankını, avtomobilini, zabit və əsgərini məhv etmişdir. Mərd komsomolçu kimi vuruşduğuna görə komandanlığın hörmətini qazanmış və medallarla təltif olunmuşdur.

Cənub cəbhəsində vuruşan komsomolçu həmyerlilərimizdən Hacıyev Hüseyn İsmayıl oğlu və Cəfərov İmamqulu

Tağı oğlu 24 yanvar 1945-ci ildə Naxçıvan zəhmətkeşlərinə göndərdikləri məktubda yazırlar: "Biz ölkəmizin cənub cəbhəsində alman faşistlərinə qarşı yorulmadan vuruşaraq partiya və hökumətimiz tərəfindən verilən tapşırıq və əmrləri şərəflə yerinə yetiririk. Azərbaycan oğulları öz hərbi və siyasi biliyin yorulmadan yüksəltməyə çalışır. Biz öz respublikamızın adından and içirik ki, bir damla qanımız qalana qədər alman faşistlərlə vuruşacaq və onu məhv edəcəyik".

Qızıl ordu sıralarına alınmış həmyerlimiz Məmməd Əliyev atası Hüseyn Əliyevə 1942-ci ildə göndərdiyi məktubunda yazır: "Ürəyimdə bəslədiyim qızıl əsgər salamımı sizin kimi əzizlərimə təqdim etməklə çox şadam. Mən də sağ-salamat varam. Bu məktubu Qərb cəbhəsindən yazıram. Sağlıq olsa yenə də görüşərik, ölərəmsə vətən yolunda ölərəm.

Ata! Heç ürəyinizi sıxmayın, çünki faşist itlərini vətənimizdən təmizləyib qurtaracağıq. Mən sovet çörəyi yeyib böyümüşəm. Son damla qanım qalanadək sovet torpağımızın hər qarışı uğrunda vuruşacağam. Hamınızı öpür və əlinizi sıxıram. Anama, bacım Dilarəyə və Məsməyə çoxlu salamım var!...

Oğlunuz Məmməd"

Məmməd Əliyevin bacısı Dilarə 22 mart 1942-ci ildə qardaşı Məmmədə göndərdiyi cavab məktubunda yazır: "Sevimli qızıl əsgər qardaşım Məmməd! Əvvəla ürəyimin ən dərin güşəsində bəslədiyim gənclik salamımı sənin kimi istəkli Məmmədimə təqdim edirəm. Sevimli qardaşım, biz komsomol tərbiyəsi almışıq, biz gərək ana vətənimizi düşmənlərdən göz bəbəyi kimi qoruyaq. Sənin cəbhədə vətən uğrunda gözəl və yüksək hünər göstərməyin bizi sevindirir. Anamın südü sənə halal olsun. Böyük qəhrəman olasan, döşün ordenlə bəzənsin!

Sən bizdən arxayın ol, sağ-salamat olub gözəl yaşayırıq. Qardaşım mən də bu il Naxçıvan tibb məktəbini qurtarmışam. Lazım gəlsə bir tibb bacısı kimi vətən müdafiəsinə qalxmağa hazıram! Sizinlə cəbhədə vuruşan digər iki qardaşımla və





düşmənlə vuruşan bütün qardaş-bacılarımla fəxr edirəm. Mən onlarla birlikdə mənfur düşməni məhv etmək üçün həmişə hazıram. Öpürük sizi, sağ olun, düşməni daha bərk vurun.

Bacın Dilarə"

30 iyul 1942-ci ildə Qərb cəbhəsində düşmənə qarşı mətanət və rəşadətlə vuruşan həmyerlimiz Qasım Hacıyev atası Əbdülmənaf Hacıyevə göndərdiyi məktubunda yazır: "Hörmətli ata! Həyat və səadətimizə düşmən kəsilən qanlı alman faşizminə qarşı mərdlik və rəşadətlə vuruşan oğlunuzun salamlarını qəbul edin. Göndərdiyiniz hədiyyəni aldım.

Sizin bu hörmətinizə qarşı yalnız mən deyil, bütün yoldaşlarım təşəkkür edirlər.

Hörmətli ata və ana!

Vətən uğrunda, düşmənin həyatını susdurmağa doğru ardı-arası kəsilmədən vuruşanların içərisində sizin oğlunuzun da fəxri yeri vardır. Mən cəbhəyə atıldığım ilk gündən doğma vətənimə və sovet xalqıma sadiq qalacağıma and içmişdim. Bunu doğrultmağımın nümunəsini komandiri olduğum döyüşçülərin qəhrəmanlıqla, mərdliklə vuruşmağında görürəm.

Mən qətiyyətlə söz verirəm ki, nacins hitlerin istilaçı bandalarını bir nəfər qalıncaya qədər qırmaq uğrunda, həyat və səadətimizi, partiya və dövlətimizi, şəxsən düşmən üzərində qələbəmizin təşkilatçısı Stalin uğrunda vuruşmalarda canımı belə əsirgəməyəcəyəm. Bu partiya və dövlətimizin mənə verdiyi tərbiyədir ki, bunu ən qızğın döyüşlərdə doğruldur və son nəfəsimədək doğruldacağam".

Oğlunuz Qasım Hacıyev"

28 sentyabr 1943-cü ildə "N" hissəsinin komsomol təşkilat katibi Manqasarov Azərbaycan LKGİ Naxçıvan rayon komitəsi adına göndərdiyi məktubunda yazır: "Hörmətli katib. Döyüşən ordunun "N" hissəsi komsomolçularının alovlu döyüşçü salamını qəbul edin. Alman işğalçılarına qarşı apardığımız Böyük Vətən müharibəsində fədakarlıqla mübarizə edən komsomol fəalları sırasında sizin rayonun komsomolçularından

da vardır. Onlar Naxçıvan rayonunun Alagöz Məzrə kənd sakinləri olan Əli Zamanov və Hümmət Musayevdir. Bunlar cəbhədə döyüş tapşırıqlarını mətanətlə yerinə yetirir, igidlik və mərdlik nümunəsi göstərirlər.

Zamanovun və Musayevin igidliyi haqqında onların ailəsinə söhbət etməyinizi və onların ailəsinin vəziyyəti, həmçinin arxa cəbhədə Qızıl Ordunun ehtiyaclarını ödəmək uğrunda, necə çalışmanız haqqında bizə yazmağınızı çox xahiş edirik".

Səkinə Vəliyeva 1942-ci ildə cəbhəyə yola düşdü. O, 74-cü ordunun 416-cı hərbi hissəsində tibb bacısı işləməyə başladı. Səkinə Vəliyeva Rostov, Xarkov, Leninqrad uğrunda vuruşmalarda fədakarlıq göstərdi. O, Böyük Vətən müharibəsində göstərdiyi fədakarlıqlara görə "Almaniya üzərində qələbəyə görə", "İgidliyə görə", "30 illiyə görə" medalları ilə təltif edilmişdir.

Sura Kərbəlayi Paşa qızı Sadiqova 1917-ci ildə Naxçıvan MR Ordubad rayonun Kotam kəndində anadan olmuşdur. İlk təhsilini atası Kərbalayi Paşanın dostu ruhani axund Əlidən alsa da sonradan Ordubadda Yeddiillik məktəbdə təhsilini davam etdirmişdi.

1940-cı ildə 4 aylıq Naxçıvanda tibb məktəbini bitirən Sura 1940-cı ilin avqust ayında Naxçıvanda 116 nəfərlə ilə birlikdə xüsusi məktəbdə oxuyurlar. 1941-ci ilin noyabr ayında Sura könüllü olaraq cəbhəyə yola düşür. Qafqaz ordusu cəbhəsində döyüşlərə atılan Sura sonradan II Ukrayna cəbhəsində alman faşistlərinə qarşı həm döyüşçü, həm də tibb bacısı kimi fəaliyyət göstərir, fədakar bir ana kimi yaralı əsgərlərin qayğısına qalır. Dəfələrlə komandirin təşəkkür və təltiflərə layiq görülür. Siyasi rəhbər Şahbazovun dərin rəğbətini qazanan Sura



Sura Sadiqova





burda partiyaya qəbul olunur.

1943-cü ildə Mereta, Krasnoqrad, Kirov şəhərləri uğrunda döyüşlərdə fəal iştirak edən Sura kiçik serjant kimi səngərdən yaralıları çıxardıb, ilk tibbi yardım edir və yenidən irəli sürünərək almanlara atəş açır. Elə bu zaman həmyerlisi bir nəfərin ağır yaralı vəziyyətdə görüb onu arxasına alaraq geriyə sürünür. Xeyli gedəndən sonra onu tibb maşınına qoyub, familyasının Orduxanov olduğunu qeyd etdirir və yenidən geri qayıdır. Döyüşdən sonra komandir baş leytenant Orduxanova etdiyi köməyə görə və həmçinin 34 yaralını xilas etdiyi üçün təşəkkür edir. "İgidliyə görə" medalı ilə təltif edilir.

1944-cü ilin yayından 1945-ci ilin mart ayına qədər kiçik serjant Sura Sadiqova Sinfrepol diviziyası tərkibində Moldaviyanın Kut, Tiraspol, İzmail şəhərlərinin azad edilməsi əməliyyatlarında iştirak edir və döyüşlərin birində çiynindən, ayağından yaralanır [12, s. 204].

Rostov hərbi xəstəxanasında müalicə olunandan sonra 1946-cı ilin fevralında vətənə qayıdır. Müharibədən sonra Naxçıvanda özü kimi müharibənin odlu-alovlu illərin sınağından çıxmış və sonradan Naxçıvanda hüquq mühafizə orqanlarında işləyən Mustafa Mustafayevlə ailə həyatı qurmuşdur. O, 1990-cı ildə vəfat etmişdir [12, s. 204].

1906-cı ildə Naxçıvan Muxtar Respublikasının Sədərək kəndində anadan olan Cəfər Məmməd oğlu Cəfərov da Böyük Vətən müharibəsində fəal iştirak etmişdir. O, müharibənin ilk günlərindən son günlərinədək ön cəbhədə olmuş, şərəfli bir döyüş yolu keçmiş, 1945-ci il may ayının 9-da Qələbə bayramını Berlində qarşılamışdır. Müharibənin ilk günlərindən sonuna qədər ön cəbhədə, topçular alayında xidmət edən Cəfər Cəfərov əvvəlcə 444-cü "Qvardiya" polkunun tərkibində Xarkov şəhəri uğrunda gedən döyüşlərdə,



Cəfər Cəfərov

sonralar isə Kursk, Oryol, Boronej, Stalinqrad, Kişinyov, Taqanroq, Odessa və s. şəhərlər uğrunda gedən döyüşlərdə iştirak etmiş, böyük şücaətlər göstərmişdir.

C.M.Cəfərov Berlin uğrunda gedən döyüşlərdə fəal iştirakına görə "Qırmızı Ulduz" ordeni, "İgidliyə görə" medalı, "Qafqazın müdafiəsinə görə" medalı, Polşanın, Çexoslovakiyanın, Rumıniyanın faşizm zülmündən azad olunmasında iştirakına görə müxtəlif medallar, SSRİ Silahlı Qüvvələrinin Ali Baş Komandanı adından hərbi hissə komandiri Sokolovun imzası ilə verilən Odessa şəhərinin azad olunmasında fərqləndiyinə görə (10/IV-1944-cü il), Kişinyov şəhərinin azad olunmasında göstərdiyi şücaətlərə görə (23/VIII-1944-cü il), Visla çayı ətrafında gedən döyüşlərdəki qəhrəmanlığına görə (16/I-1945-ci il), əla döyüş hazırlığına görə (29/I-1945-ci il), Kyustrin şəhərinin azad olunmasında xidmətlərinə görə (12/III-1945-ci il), Berlin uğrunda gedən döyüşlərdə fərqləndiyinə görə (23/IV-1945-ci il), Berlinə daxil olan ilk polkun tərkibində göstərdiyi şücaətinə görə (2/V-1945-ci il) və Jukov, Rokkosovski kimi görkəmli sərkərdələrin imzası ilə təşəkkürlər almışdır.

Cəfər Məmməd oğlu Cəfərov 1990-cı il fevralın 28-də Sədərək kəndində vəfat etmişdir.

Əsrlər keçəcək, lakin şərəfimiz, azadlığımız və istiqlaliyyətimiz uğrunda mübarizədə qadınlarımızın göstərdikləri qəhrəmanlıq nümunələri xalqımızın xatirəsindən silinməyəcəkdir, xalqın xatirində əbədi yaşayacaqdır.





## NAXÇIVANLILARIN PARTİZAN DÖYÜŞLƏRİNDƏ VƏ ANTİFAŞİST MÜQAVİMƏT HƏRƏKATINDA İŞTİRAKI

İkinci dünya müharibəsinin ilk dövrü 1941-ci il iyulun 22-dən noyabrın 18-dək davam etdi. Bu dövr Sovet ordusu və xalqları üçün ən ağır dövr idi. Faşist işğalçılarının böyük ümidləri tezliklə boşa çıxdı. Ucsuz-bucaqsız SSRİ-nin bütün xalqları bir nəfər kimi amansız düşmənlə mübarizəyə qalxdılar. Bu mübarizədə Azərbaycanın on minlərlə oğul və qızları hitlerçilərlə vuruşlarda böyük rəşadət və qəhramanlıqlar göstərmişdilər. Sovet İttifaqı Qəhramanları Həzi Aslanov, İsrafil Məmmədov, Qafur Məmmədov və bir çox qəhramanlar kimi həmyerlilərimiz (naxçıvanlılardan) olan Qəzənfər Əkbərovun, Nəcəfqulu Rəfiyevin və Abbas Quliyevin adları şanlı tariximizdə qızıl hərflərlə yazılmışdır.

Bu illərdə Naxçıvan Muxtar Respublikası daxil olmaqla, Azərbaycan SSR-dən səfərbər olan 700 min nəfərdən 300 min nəfəri geri qaytarmamışdır [21, s. 6]. Azərbaycan xalqının qəhraman övladları olan Mehdi Hüseynzadə, Cavad Həkimli, Əhmədiyyə Cəbrayılov, Sadiq Nadirli, İsmayıl Əliyev, Məmməd Axundov, Hümmət Namazov, Cəlil Rəfiyev, Cəmil İsmayılov, Yunis Mirzəyev, Ələsgər Əliyev, Səlim Səttarov, Əli Babayev, İzzətulla Nəsurullayev, Hilal Cavadov, Zəfər Qədimov, Firudin Hüseynov, Sara İbrahimova vəbaşqalarının doğma vətən torpaqlarından uzaqlarda – Çexoslovakiya, Polşa İtaliya, Yuqosloviya, Fransa Avstriya və başqa yerlərdə mövcud olan partizan və hərəkatı sıralarında cəsarətlə vuruşmuşlar.

1942-1944-cü illərdə azərbaycanlı əsirlər tərəfindən Polşanın Yedilka, Almaniyanın Hoyhamer-Etrans, Fransanın Rodez, İtaliyanın Ydina və Triyestin Opçina şəhərlərində və yaşayış məntəqələrində yaradılmış gizli antifaşist təşkilatlar böyük üstünlüklərə malik idi. 1942-ci ilin yazında Polşanın

Yedlinə şəhərində yaradılmış təşkilata Hadı Qiyasbəyov, Mirzəxan Məmmədov, Əşrəf Süleymanov, İsmayıl Heydərov, Yunus Mirzəyev, Hüseyinrza Məmmədov, Feyzulla Qurbanov, Xələf Hacıyev və başqaları rəhbərlik edirdilər. Gizli təşkilat "zəncir üsulu" fəaliyyət göstərirdi. Burada bir təşkilat üzvü ancaq bir və ya iki nəfəri tanıyırdı. Gizli təşkilat hərbi əsirlər arasında geniş təbliğat işi aparırdı. Təşkilat 1942-ci ildəəsirlər arasında faşistlərin əleyhinə 300-dən çox vərəqə yaymışdır [94, s. 13].

İkinci Dünya müharibəsi illərində partizan hərəkatında iştirak etmiş naxçıvanlı partizanlardan Zəfər Qədimovu, Bəşir Qaziyevi, Əlipaşa Rəcəbovu, Yunis Mirzəyevi, Əli Babayevi, Məmmədhüseyn Əliyevi, Məmməd Kərimovu, Sadiq Nadirlini, Firudun Hüseynovu, Rüstəm Hüseynovu, Qafar Cəfərovu, Cəlil Rəfiyevi, Abış Dünyamalıyevi, Buhenvald ölüm düşərgəsinin əfsanəvi qəhrəmanı Əkbər Atayevi, Zeynal Zeynalovu, Həşim Novruzovu, və başqa cəsurlarımızın adlarını qeyd etmək olar.

Vətəndən uzaqda olan cəsur Azərbaycan oğullarını faşistlər tərəfindən salınmış Buhenvald, Osvensim, Maydanek, Treblinkan, Dahay, Maythazen və bu kimi ölüm düşərgələri sarsıda bilməmişdi.

Qeyd etdiyimiz kimi, partizan dəstəsində faşistlərlə qarşı mübarizə aparanlardan biri Şərur rayonunun Sədərək kəndindən (Sədərək rayonu) olan Zəfər Qədimov idi. O, 1942-ci il iyul ayının 8-də Belarusiyanın Baranoviç vilayətində fəaliyyət göstərən "Pobeda" partizan dəstəsinə qoşulmuş və bir il faşist işğalçılarına qarşı mübarizə aparmışdır. 1942-ci ilin noyabrında "Pobeda" partizan dəstəsinin bölmə komandiri olan Z.M.Qədimovun döyüşçüləri Kazloviç kəndi yaxınlığında pusqu zamanı faşistlərin 5 qatarını qəzaya uğratmışdı. Qəza nəticəsində düşmənin 4 paravozu, əsgər və hərbi sursat olan 60 vaqonu məhv edilmiş, 900 hitlerçi ölmüş və yaralanmışdı.

Cəsur partizan 1943-cü ilin iyun ayının 25-də Zelvo rayonundakı Ostrov kəndi uğrunda döyüşlərdə qəhrəmancasına





həlak olmuşdur. Ölümündən sonra Zəfər Qədimov "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuşdur [105].

İtaliyan partizan hərəkatında özünə görə görkəmli yerlərdən birini tutmuş həmyerlilərimizdən biri də 10 sentyabr 1920-ci ildə Naxçıvan MSSR-nin Ordubad şəhərində Ştürlən məhəlləsində anadan olmuş Cəlil Rəfiyev Sovet İtifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevin qardaşı idi.

1933-cü ildə Ordubadda 7 illik məktəbi bitirən gənc Cəlil Naxçıvanda Tibb texnikumuna daxil olur və oranı bitirəndən sonra tibb işçisi, kontorda həkim köməkçisi, tibb məntəqəsinin müavini və rayon xəstəxanasında rəhbər vəzifələrdə çalışmışdı.

1939-cu ilin sentyabrında böyük qardaşı Nəcəfqulunun dəvəti ilə Ukraynanın Jitomir vilayətinin Berdiçev şəhərinə gedir və orada xəstəxanada baş tibb işçisi vəzifəsində işləyir [14, s. 15].

Cəlil Rəfiyev tərcümeyi halında yazır ki, Böyük Vətən müharibəsi başlananda artıq mən baş leytenat rütbəsindəydim... Lvor, Broda, Kiyev şəhərləri uğrundakı vuruşmalarda iştirak etdim. Sonra məni 26-cı ordunun 159-cu atıcı diviziyanın 491-ci alayını ikinci batalyonuna keçirdilər. Burada batolyon səhiyyə hissəsinin rəisi oldum. O vaxt hissəmiz Ukraynanın Qaviiyev şəhəri ilə üzbəüz, Dnepr çayının sağ sahilində müdafiədə dayanmışdı [80, v. 1-4].

1941-ci ilin sentyabr ayıydı, hissələrimiz böyük Kiyev mühasirəsinə düşmüşdü. Bu vaxt biz Poltava vilayətinin Belousovka kəndindəydik. Təyyarədən tökülmüş düşmən paraşütçüləri ilə vuruşuruq. Mən bir qədər aralıda yaralılara tibb yardımı göstərirdim. Başımın arxasından qəlpə yarası almışdım. Cəbhəni yaran faşistlər hücuma keçib səhiyyə hissəsində açıq səma altında qalmış ağır yaralıları nizə ilə vurub öldürür, bununla kifayətlənməyib əl qumbarası da atırdılar. Onlar məni də sağ çiynimdən xəncərlə vurub ikinci dəfə yaraladılar. Qonşularımız düşməni müvəqqəti olsa da geri atdı və bu

fürsətdən istifadə edib sağ qalmış yaralıları mülki evlərə payladıq. Mən isə yaralarım ağır olsa da, irəli getdim. Fikirimiz mühasirədən çıxmaq idi. Ancaq mümkün olmadı. Bir tərəfdən yaralarımdan axan qan məni taqətdən salmışdı, digər tərəfdən mühasirə halqası get-gedə daralırdı, həm də hər yer keçilməz bataqlıq idi. Sentyabrın 24-də faşistlər bizi əsir aldılar. Əvvəlcə Kremençuq ölüm düşərgəsinə göndərdilər. Gündə bizə bir stəkan tum verməyə başladılar. Sonra onu da kəsdilər. Tum qabığının qarışığından balanda bişirirdilər. Onu yeyən əsirlərin mədə-bağırsaqları tutulur və beləliklədə sıradan çıxırdılar. Burada bizə heç bir tibbi yardım göstərilmirdi. Digər tərəfdən də açıq səma altında, qarın üstündə, çovğunda gecələyən əsirlərin sayı gündən-günə azalırdı. Bu vəziyyətdə bizi sıraya düzüb, piyada Kirovqrada aparırdılar. Burada da ölüm düşərgəsi yaradılmışdı.

Bizim əvvəlcə şəhərdəki köhnə dustaqxana binasında yerləşdirdilər. Divar o qədər hündür idi ki, səmadan başqa heç yer görünmürdü. Burada da işgəncələrə məruz qalırdıq. Bəli, hitlerçilər bizi müxtəlif yollara tələf edirdilər. Onu da birinci Sovet xəstəxanası adlandırmışdılar. Burada vəziyyət o dərəcəyə gəlib çıxmışdı ki, xəstəlik heç kəsə baxmırdı, hətta tibb işçiləri də ona düçar olurdular. O cümlədən mən də əvvəlcə tifə, sonra dizenteriyaya tutuldum. Sağ olsun xəstəxananın baş həkimi Çuvarlinski. O, olmasaydı yəqin ki, indi mən də yoxdum. Milliyətcə Polşalı olan bu həkim əslində Kirovqradlıdır, Şəhər Sovetinin Deputatı olmuşdur. Həddindən artıq qoca olduğundan almanlar ona toxunmurdular. Doğrusu, Çuvarlinski həqiqi Sovet adamıydı.

Qızıl Ordu faşistləri müvəqqəti işğal etdikləri Sovet torpaqlarından sıxışdırıb Qərbə tərəf qovduqları bir vaxt hitlerçilər bizi Ukraynanın Beloçerkb hərb düşərgəsinə atdılar. 13 mart 1943-cü ildə mən düşərgədən qaçmışdım, ancaq yenidən ələ keçirib geri qaytardılar. Əsirləri bir yerə toplayıb onların gözləri önündə sağ qıçımı hərbi itə tutdurdular, heç bir tibb





yardımı göstərmədən qaranlıq qarçerə saldılar.

Hitlerçilər sovet cəbhələrində vəziyyətin xeyli pisləşdiyini görüb bizi Fransaya aparmağa başladılar. Həmin ilin oktyabr ayının 3-də Tuluz şəhərinə gəlib çatdıq. Burada mən yenidən xəstələndim və mülki xəstəxanada yatmalı oldum. Həmin dövrdə Fransada partizan hərəkatı şiddətlənirdi. Faşistlər qorxurdular ki, biz də qaçıb onların sıralarına qoşularıq. Buna görə də 1944-cü ilin fevral ayında İtaliyaya apardılar. Lakin burada da partizan hərakatı başlamışdı. Fürsətdən istifadə edib qaçmağı qərara aldım. Bəli, mayın 5-də, 1944-cü ildə özümü partizanların yanlarına saldım və beləliklə Matteati adına partizan birqadasında müharibənin sonuna kimi ümumi düşmənə qarşı mübarizəni davam etdirdim. 1945-ci ilin may ayının 10-da İtaliya komunistləri məni öz sıralarına qəbul etdilər, mənə 2996 nömrəli müvəqqəti partiya bileti verdilər. Həmin il aprelin 26-da İtaliya Respublikası elan edildi. Mussolini və onun başçılıq etdiyi kabinetin üzvləri tutulub öldürüldükdən sonra Milan şəhərində, dəmiryol körpüsünün altında başı aşağı asırdılar. Bu mərasimdə mən də vardım. İyunun 17-də partizan hissəsindən Milan şəhərindəki Sovet düşərgəsinə, sonra Modenə şəhərindəki düşərgəyə, ordan isə Avstriyadakı, Rumıniyadakı düşərgələrə gedib çıxdım. 1945-ci ilin oktyabrında artıq Bakıdaydım. Çaparidze rayon təşkilatları məni lazımi sənədlərlə təmin etdilər, yenidən qardaşım Nəcəfqulunun ailəsində, bacılarımın yanında yaşamağa başladım [80, v. 1-5].

Polşa vətənpərvərləri arasında ümumi düşmənə qarşı mübarizədə azərbaycanlılar da çox idi. Fransa kominstləri ilə yaxından əlaqə yaratmış və əsirlər arasında gizli fəaliyyət göstərənlərdən biri də həmyerlimiz Yunis Mirzəyev idi. Yunis Naxçıvan (Babək) rayonunun Zeynəddin kəndində anadan olmuşdur. Ordu sıralarına çağırılanda onun 19 yaşı var idi. Döyüşlərin birindəYunis yaralanaraq əsir alınır. Onu 1942-ci ilin yazında Polşanın Yedilin hərbi düşərgəsinə gətirirlər. Burada əsirlərin vəziyyəti çox ağır idi. Ağır işgəncələrə məruz

qalan əsirlərdən hər gün 25-30 adam ölürdü. Bu düşərgədə əsirlərdən olan mayor Hadi Qiyasbəyli, Mirzəxan Məmmədov və Yunis Mirzəyev gizli təşkilat yaradırlar. Bu təşkilat "Zəncir üsulu" ilə fəaliyyət göstərir. Təşkilatın əsas məqsədi Polşa partizanları ilə əlaqə yaratmaq və qaçıb onlara qoşulmaq idi [21, s. 20].

Təşkilat bir neçə dəfə əsirləri təşkili surətdə partizanlara qoşulmasına nail olur. Lakin 1943-cü ilin əvvəllərində təşkilatın fəaliyyəti satqınlar tərəfindən almanlara çatdırılır. Bunu bilən Hadi Qiyasbəyli 12 nəfər azərbaycanlı ilə qaçıb cəbbə xəttini keçərək Sovet ordusuna qoşulur. Yunis Mirzəyevin dəstəsi imkan tapa bilmir. Dəstənin üzvləri həbs edilərək Lvon şəhərindəki ölüm düşərgəsinə göndərilir. Yunis Mirzəyev əvvəl ölüm cəzasına məhkum edilir və sonra cəzasını sürgün ilə əvəz edib Avstriyaya göndərirlər. Yolda cəsur partizan Yunis Mirzəyev 3 nəfər azərbaycanlı ilə qaçıb Vyanaya gəlir. Burada yenidən həbs edilir. 1944-cü ilin payızında Şimali İtaliyaya gətirilir. Yunis elə ilk ayda qaçıb İtaliya partizanlarına qoşulur və çox ciddi fəaliyyətə başlayır. Onlar İtaliyanın Sandro şəhəri ətrafında tam 3 ay faşistlərlə vuruşur, xeyli dəmiryolu dağıdır və çoxlu döyüş sursatı ələ keçirirlər. Milan şəhərinin faşistlərdən azad olunmasında Yunisin də fəaliyyəti olur. Vətənə qayıdan Yunis Mirzəyev uzun illər Naxçıvanda müxtəlif təşkilat və tikinti idarəsində başçılıq etmişdir [21, s. 21].

Partizan dəstəsində qəhrəmancasına vuruşan həmyerlilərimizdən biri də Ordubad rayonunun Xanağa kəndində anadan olmuş Zeynal Zeynalov idi. Zeynal Böyük Vətən müharibəsi başlananda boylu-buxunlu bir gənc idi. Evlənib ailə həyatı qurmuş, oğullu-qızlı olmuşdu. Dəstə kəndinə axan dağ çayının sağ sahilində özünə gözəl bir ev tikdirmişdir. Həyətyanı bağçasını güllüyə, yaşıllığa çevirmişdir.

Zeynal səfərbərliyə alınacaq günü gözləmədi. Rayon hərbi komissarlığına getdi və bir neçə gündən sonra iki yüz nəfər həmyerlisi ilə birbaşa Tiblisi yaxınlığındakı Avçalaya yol





döşdü. Burada üç ay ərzində keçdiyi hərbi təlimlər ona çox şey öyrətdi. Onu 39-cu qvardiyaçı diviziyanın tərkibinə daxil etdilər. Əlinə tankvuran silah aldı. Hücuma keçən düşmən tanklarına divan tutdu [95, s. 84-103].

Zeynal Xarkov ətrafında Samidav meşəliyi rayonunda tank vuruşmaları zamanı o, sinəsindən yara aldısa da, cəbhədən həmişəlik aralanmadı. Bir qədər hərbi xəstəxanada qaldıqdan sonra, 320-ci atıcı diviziyasının nəzdindəki hissəyə bir nömrəli pulemyotçu göndərildi. Buradakı vuruşmalarda da o, sağ qıçından bir neçə yerdən güllə və qəlpə yarası aldı, ancaq bu dəfə Zeynal arxaya, hərbi xəstəxanaya getməkdən imtina etdi.

1944-cü ilin mart ayı idi. Zeynal kəşfiyyata getməyə hazırlaşırdı. Ona iki nəfər döyüşçü də qoşdular. Biri Ukraynalı Moloşenko, digəri Belarus Vasili idi. Onlar düşmən arxasına keçməli və lazımi sənədlər həm də "dil" ilə qayıtmalı idilər. Lakin cəsuslar üçün bu əməliyyat uğursuz oldu. Faşist qərargahının yaxınlığında saxlanılan itlər iy bilən kimi hürüşməyə başladılar. Bundan duyuq düşən hitlerçilər dərhal səmaya bir-birinin ardınca bir neçə fişəng atıb həyacan qaldırırdılar. Dostlardan ötrü indi bircə çıxış yolu qalmışdı. Bacardıqca daha çox hitlerçi məhv etmək.

Onlar qərargah yerləşən binanın yanındakı ot tayasının arxasına keçib daldalanmaq və buradan atəş açmaq istəyirdilər. Belə də oldu. Lakin dostların patron ehtiyatı qurtarmaq üzrəydi. Elə bu an faşistlər işıq saçan güllə ilə ot tayasını nişan alıb yandırdılar. Zeynal yenə qıçından yaralandı. Dostların üçü də əsir düşdü [95, s. 88-89].

Bessarabiyanın Reyn, Ruminyanın Qalaç şəhərlərindəki ölüm düşərgələrin atılan Z.Zeynalovu bir azdan tikanlı məftillə dövrəyə alınmış vaqonlarda Fransaya yola saldılar.

Əsirlər hələ faşistlərin ölüm düşərgələrində olarkən eşitmişdilər ki, Fransada güclü partizan hərəkatı başlamışdır və onlar bir tərəfdən daxili düşmənlə – millətçilərlə digər tərəfdən hitlerçilərlə ölüm-dirim mübarizəsinə girişmişlər.

Fransa torpağına getdiklərini qət edən əsirlər nəhayət fikirlərini cəmləşdirib qaçmağı qərarlaşdırdılar.

Əsirləri Fransaya aparan qatar gəlib kimsəsiz çöllükdə dayanır. Alman avtomatçıları əsirləri vaqonlardan düşürüb qarşısına salıb bir qədər kənara apardı və onlara tualet təklif etdi. Əsirlər qaçmaq ümidinə düşməsinlər deyə hitlerçilər avtomatların lülələrini yuxarıya qaldırıb tez-tez yaylım atəşi açırdılar. Elə bu vaxt Zeynal Zeynalovun gözləri bir qədər aralıda, zibillər altında dəmir parçasına sataşdı. Zeynal durub ətrafına ani bir nəzər saldı. Hitlerçilərin ona tərəf baxmadıqlarını yəqin etdikdən sonra bir-iki addım irəli atıb dayandı. Sonra yerə oturub dəmiri götürdü və sırıxlısının altında gizlətdi, feldfebelin əmrini gözləmədən bir baş vaqona tərəf getdi [95, s. 85].

İndi qərarın hökmünə əməl etmək olardı. Zeynal dəmir parçası ilə qapının həncama salınan yerdə bir deşik açaraq qapını açıb Fransanın Narban şəhəri yaxınlığından yollandı. Arxasınca daha bir neçə nəfər azadlığa qovuşdu. Bir azdan vaqonda ancaq yeriməyə taqəti olmayanlar qaldı. Ancaq Zeynal ondan sonra vaqondan kimlərin atıldıqlarını bilmədi və onlarla da bir daha rastlaşmadı [95, s. 86].

Bu hadisə 1944-cü ilin avqust ayının 19-da baş vermişdir. Bir sutkadan çox idi ki, Zeynal tək-tənha qalmışdı. O, dağ vədərəliklərlə çox getdi. Çox gəzib çox dolandı, nəhayət bir antifaşist ailəsinə rast gəlir. Onların vasitəsi ilə partizanlara qoşulur və müharibənin sonuna kimi faşistlərə qarşı qəhrəmanlıqla vuruşmuşdur.

9 May 1945-ci il. Fransanın Marsel şəhəri. Transparantlarla, şüarlarla bəzədilmiş geniş meydan. Əllərdə gəzdirilən qırmızı bayraqların üstündə oraq və çəkic nişanları dalğalanırdı. Partizan komandirləri tribunaya qalxan kimi ura nidaları pərdə-pərdə ətrafa yayılırdı. Hamının üzü gülür, qəlbi sevinirdi.

Parad başlanır. Partizanlar dəstə-dəstə gəlib tribunanın önündən keçirlər. Aralarında Fransanın azadlığı uğrunda mübarizə aparan sovet adamları da az deyildi. Zeynal Zeynalov da





buradadır. Xalq onları böyük hərarətlə, təntənə ilə qarşılayır, əzizləyir, başlarına gül-çiçək səpirdi [80, s. 102].

Faşistlərə qarşı fədakarcasına mübarizə aparanlardan İtaliya torpağında “Qaribaldi” adına partizan birləşmələrinin cəsur döyüşçülərindən biri də Babək rayonunun Xalxal kəndindən cəbhəyə yola düşən Əlipaşa Rəcəbov idi. Əlipaşa Rostov uğrunda gedən döyüşlərdə ağır yaralanmış, faşistlər tərəfindən əsir alınmışdır. Sağaldıqdan sonra o, qaçmağa səy edərək Bolqar kəndindəki bir sığınacaqda gizlənir. Lakin faşistlər onu tapıb “düşərgəyə salırlar”. Sonra Əlipaşanı digər əsirlərlə birlikdə Şimali İtaliyaya gətirirlər.

Faşistlər əsirlərdən Şimali İtaliya və Lombardiya ovalığında yeni istehkamlar tikilməsində yollar, körpülər, keçidlər və meşələri minalanmaqda istifadə edirdilər. Əlipaşa “Qaribaldi” adına partizan birləşməsi ilə əlaqə yaratmağa nail olur.

Onun verdiyi məlumatlar nəticəsində “Qaribaldi” partizanları onlarca hərbi müəssisələri dağıtmışdı. Əlipaşanın İtaliyada əsir olduğu iki il ərzində onun bilavasitə köməkliyi ilə Manto meşələrində, Liquriya, Apenin dağlarının ətəklərində, Pao çayı hövzəsində, Adriatik dənizi sahillərində, Padova, Boloniya, Roviqa əyalətində faşistlərin hərbi obyektləri partizanlar tərəfindən dağıdılmışdır.

Əlipaşa partizanlarla Elina adlı qız vasitəsilə əlaqə saxlayırdı. Növbəti görüşdə Elina Əlipaşaya bildirdi ki, faşistlərin partizanların izinə düşdüyünə görə, partizan batalyonunun komandiri Bruno Ballan sizin qaçmağınızı və partizanlara qoşulmağınızı əmr etmişdir. Faşistlər nəzarəti gücləndirdiyinə görə Əlipaşa partizanların düşərgəsinə 56 günə gəlib çata bilmişdi.

“Qaribaldi” adına partizan birləşmələrinə daxil olan Əlipaşa 10 çətin əməliyyatda iştirak edir. Milli Azadlıq Komitəsinin Padova əyaləti üzrə prezidenti E.Praturlan Ə.Rəcəbova verdiyi xasiyyətnamədə yazmışdır ki, o həmişə özünü ən yaxşı antifaşist kimi aparmış, partizan dəstələrinə kömək göstərmişdir. Onun faşistlərə qarşı apardığı barışmaz mübarizəsi “Spar-

niedo" adına altıncı partizan batalyonun komandiri Franko de Kasperi, "Franko" adına briqadanın batalyon komandiri Bruno Ballan, rota komandiri Korrado Lubyan tərəfindən imzalanmış sənədlərdə özünün ən gözəl əksini tapır. Böyük Vətən müharibəsindən sonra doğma kəndinə qayıdan Əlipaşa Rəcəbov müharibə illərində göstərdiyi xidmətlərinə görə iki medal da almışdır [7, 1988, 9 may].

Şimali İtaliya və Yuqoslaviya partizanları ilə çiyin-çiyinə bir ildən artıq faşistlərlə vuruşmuş, "Çapayev" adına beynəlmiləl partizan batalyonunun komandiri, həmyerlimiz, naxçıvanlı müəllim Əli Baba oğlu Babayevdir. Cəsur partizan vətənpərvər, mübariz, ölümün gözünə dik baxan Əli Babayev haqqında Azərbaycan Sovet Enskilopediyasının birinci cildində oxuyuruq: "İtaliyada partizan hərəkatının iştirakçılarından biri, 1940-cı ildə Sovet Ordusuna çağrılmışdır". 1944-1945-ci illərdə "Qaribaldi" briqadasında batalyon komandiri olmuşdur. Babayevin batolyonu vuruşlarda igidlik göstərdiyi üçün on dəfə partizan briqadası komandanlığının təşəkkürünə layiq görülmüşdür. Babayev İtaliyanın yüksək əsgəri mükafatı "Hərbi şücaətinə görə" gümüş medalı ilə təltif edilmişdir [21, s. 25].

Faşist komandanlığı hərbi əsirlərdən istifadə etmək üçün 1943-cü ilin ortalarında azərbaycanlı əsgərlərin böyük bir dəstəsini İtaliyanın Udine şəhərinə gətirib "Matmofka" əsir düşərgəsində yerləşdirmişdilər. Əsas məsələ bu əsirləri silahlandırıb yerli cəza dəstələrinə və partizanlara qarşı mübarizədə istifadə etmək idi. Belə bir şəraitdə yerli antifaşistlərlə əlaqə yaratmaq və fürsət düşən kimi qaçıb partizanlara qoşulmaq çox vacib məsələ idi. Bu mühüm vəzifə vətənin şanlı oğlu, igid zabit Əli Babayevin rəhbərliyi altında Tağı Əliyevə, Rəşid Həsənova, Həsən Cabbarova, Məmməd Hacıyevə, Rüstəm Hüseynova və başqalarına tapşırılmışdı. Əli Babayevin fəal iştirakı ilə gizli təşkilat yaradılmışdı. Təşkilat Azərbaycan və İtaliya dillərində vərəqələr tərtib edib onları mətbəədə çap etdirir və əsirlər arasında geniş yayırdılar.





1943-cü ilin oktyabrında Remonzako qəsəbəsindən 35 əsir qaçıb "Qaribaldi" adına partizan dəstələrinə qoşulmuşlar. Qaçan əsgərlərin işərisində Əli Babayev də var idi. Əvvəllər Ə.Babayevi italyan Romaninin batalyonuna sıravi partizan kimi göndərmişdilər. Bütün yoxlamalardan müvəffəqiyyətlə çıxan Əlinin ilk xidməti partizanlar arasına soxulmağa çalışan 8 nəfər casusun ifşa edilməsi olur. Sonra o, yaxın qəsəbədə italyan adı ilə yaşayan və partizanları ələ verən 2 nəfər alman zabitinin öldürmək haqqında tapşırığı da layiqincə yerinə yetirir. Bu əməliyyatlardan sonra Əli batalyonda çox məhşurlaşır. "Qaribaldi" adına partizan briqadası komandanlığının hörmətini qazanır.

"Piotto" ləqəbi almış Əliyə ruslardan ibarət batalyon yaratmaq tapşırılır. Həmin batalyonda 50 nəfər ukraynalı, 15 nəfər azərbaycanlı, ləzgi, özbək, rumın və başqa millətlərin nümayəndələri var idi. Bu batalyonun tərkibində Bərdəli Yusif, Şəkili Mahmud, Şəmkirli Oruc Əliyev, Şərur rayonundan Mirzəli Abdullayev və başqaları da var idi. Qısa müddətdə "Piotto"nun başçılıq etdiyi batalyonun şöhrəti Udine şəhəri və onun ətrafına yayılır.

Əli Babayevin xatirəsindən aydın olur ki, o, hələ Almaniyada əsir düşərgəsində Cavad Həkimli, M.Seyidov, T.Əliyev, Ə.Məmmədov, M.Hüseynzadə, K.Məmmədov və başqaları ilə tanış imiş. Lakin Şimali İtaliyada onlar görüşə bilməmişdilər. Udine stansiyasında onları vaqonlardan düşürüb Trestə aparırdılar. Buna baxmayaraq Əli Babayevin komandanlıq etdiyi batalyon Mehdi (Mixaylo) və onun qəhrəmanlığı haqqında tez-tez məlumatlar alırdılar.

Əsirlərin kütləvi şəkildə qaçmasını təşkil etmək üçün Ə.Babayevin qrupu Kontevolla kəndindəki əsir düşərgəsinə göndərilir. 1944-cü ilin yanvar ayında Əli Babayevin qrupu faşist gözətçisinin məhv edib düşərgədəki silahları ələ keçirmiş və 300 nəfərdən çox əsir qaçaraq partizan dəstələrinə qoşulmuşdu. Faşistlərin Udine şəhərindəki həbs düşərgəsində

saxladıqları 700 nəfər məhbusu məhv etmək istədikləri xəbərini alanda "Qaribaldi" partizan diviziyası çox narahat olur. Qərargahda vətənpərvər məhbusları xilas etmək üçün təcili planlar hazırlanır. Planda sovet partizanlarının azad olması işində Ə.Babayev nəzərdə tutulur. Diviziya komandiri Luici-Lonqo bu planı bəyənir və əməliyyata rəhbərlik etməyi Ə.Babayevə tapşırır. 1945-ci il mart ayının 25-də gecə yarısından az keçmiş Əli Babayevin başçılıq etdiyi 14 nəfər kəşfiyyatçı Udine şəhərinin Bia-Spalatda küçəsində yerləşən faşist həbsxanasına basqın edirlər. Alman mayoru libası geyinmiş Əli Babayev hiylə işlədib keşikçini tərksilah edir, onun qrupu partizanları və digər məhbusları azad edirlər. Əməliyyat uğurla həyata keçirilir. 700 məhbus, o cümlədən 147 sovet vətənpərvəri ölümdən xilas olur. Faşistlər ertəsi gün yazırdılar ki, guya Udine şəhərinə 3 minlik partizan diviziyası və xüsusi sovet desantlar batalyona hücum etmişdir.

1944-cü ilin yazında "Qaribaldi" diviziyasının tərkibində vuruşan sovet partizanları Şimali İtaliyada fəaliyyət göstərən "Çapayev" adına partizan batalyonunda birləşmişdilər. Batalyon komandiri Əli Babayev, komissarı İvan Aleksandrov idi. Bu batalyon 14 ay düşmənlə vuruşmuş, bu müddətdə 30 dəfə faşist ordularına hücum etmiş,1500 faşist əsgəri və zabiti məhv olmuş, 400 nəfər əsir alınmış, çoxlu qənimətlər ələ keçirilmişdi. Döyüş xidmətlərinə görə batalyonun şəxsi heyəti 10 dəfə Şimali İtalya partizan birləşməsi komandanlığının təşəkkürünü və 5 dəfə Luici-Lonqo və Pyotto Sekkyanın şəxsi təşəkkürünü almışdı. 100 partizan qiymətli hədiyyə və başqa mükafatlarla təltif edilmişdi.

Azərbaycan xalqının şanlı oğlu, igid zabit Əli Babayev partizan əməliyyatlarına bacarıqla rəhbərlik etdiyinə, döyüşlərdə şəxsi igidlik və qəhrəmanlıq göstərdiyinə görə İtaliya Respublikasının "Gümüş medal" mükafatı ilə təltif edilmişdir [105, 2005,7 may].

İkinci Dünya müharibəsindən sonra doğma yurda,





Naxçıvana qayıdan Əli Babayev uzun illər gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuşdur.

Ümumiyyətlə, İkinci Dünya müharibəsində tək Əli Babayev deyil, onlarla naxçıvanlı cəsur oğlanlar vətənimizdən uzaqlarda partizan və müqavimət hərəkatında fəal iştirak edərək xalqımızın adını uca tutmuşlar.

İtaliyadakı partizan hərəkatı iştirakçılarından biri də Sadıq Nadirli (Nadirov) idi. Sadıq Qasım oğlu Nadirov 1915-ci ildə Naxçıvan rayonunun Zeynəddin kəndində anadan olmuş, uşaqlıq və gənclik illərini orada keçirmiş, ilk təhsilini də bu kənddə natamam orta məktəbdə almışdır. Sonra Bakı şəhərindəki sənaye pedoqoji texnikumuna daxil olmuş, 1939-cu ildə həmin texnikumu və bir qədər sonra zabitlər hazırlayan xüsusi məktəbi bitirərək leytenant rütbəsi almışdır. Naxçıvana qayıdan gənc leytenant "SSRİ-nin müdafiəsinə və kimya aviasiya quruculuğuna yardım cəmiyyəti"nin "Osoaviaxim" şəhər təşkilatında uçot informasiya üzrə təlimatçı vəzifəsində işə başlamışdır. Sadiq Nadirli həm də 1940-1941-ci illərdə Naxçıvan şəhər pedoqoji texnikumunda, tibb məktəbində hərbi hazırlıq dərslərini demişdir.

1941-ci ilin iyununda alman faşist işğalçılarının ölkəmizə xaincəsinə basqın etdiyi gündən leytenant Nadirli ordu sırasına daxil olur və dağ atıcı diviziyasının süvari eskadronuna komandir təyin edilir. 1942-ci ilin əvvəlində həmin diviziya Şimali Qafqaz uğrunda gedən qızğın döyüşlərdə iştirak edir.

Faşistlərin hücum planında Qafqaza xüsusi əhəmiyyət verilirdi. 1942-ci ilin aprel ayında Hitlerin imzaladığı dekretdə göstərilir ki, cənub istiqamətində hərbi əməliyyatın əsas məqsədi Qafqazın neft rayonlarını ələ keçirmək, Qafqaz aşırımından keçib Rusiyanın içərilərinə soxulmaqdır. Qafqaz uğurunda qanlı döyüşlər keçdiyi bir vaxtda Krımda və Kerçdə hər qarış torpaq uğrunda ölüm-dirim müharibəsi gedirdi. Sadiq Nadirovun Şimali Qafqaz cəbhəsindən Krıma göndərdilər. Ailəsinə son məktub Krmdan gəlir.

Döyüşlərin birində çiynindən yaralanan baş leytenant Nadirli düşmən tərəfindən əsir alınır. Əsirin qeyd etdiyi kimi "Ölümdən min dəfə pis olan əzablı günlər" bundan sonra başlayır. 1943-cü ilin fevralında Priluki vağzalında əsirləri qatarla Çonkaya, ordan da Ştrans şəhərindəki hərbi əsir düşərgəsinə aparırlar. Əsirlər arasında Sadiq Nadirov xalqının qəhrəman oğlu Mehdi Hüseynzadə, Cavad Həkimli, Rza Ağazadə, Mirdamət Seyidov, Mikayıl Qulubəyov, Cəmil İsmayılov, həmyerlimiz Firudin Hüseynov və başqaları ilə tanış olur. Bu tanışlıq sonradan səmimi dostluğa çevrilir. Dostlar gizli təşkilat yaradır və antifaşistlərlə əlaqə yaratmağa səy göstərirlər.

1943-cü ilin avqust ayında əsirlər Avstriyanın paytaxtı Vyana şəhərinə, ordan da Şimali İtaliyanın Uden şəhəri yaxınlığındakı Remonzakka əsir düşərgəsinə aparırlar. Burda əsirlərdən ibarət legionlar yaradıldı. Hər bir legionun üzərinə bir neçə alman əsgəri nəzarətçi təyin edirlər. Oktyabr ayında Nadirli Triessin şimalına gətirilir, Nadirlinin başçılıq etdiyi taqım Kontavella kəndində yerləşirdi.

Gizli təşkilat 1943-cü ilin axrı, 1944-cü ilin əvvəllərində əsirlərin tək-tək və dəstə-dəstə qaçıb partizanlara qoşulmasını təşkil edir. Gizli təşkilatın rəhbərləri arasında aparılan vəzifə bölgüsünə görə Nadirli düşərgədə qalmalı, azərbaycanlı əsirlərin qaçmasını təşkil etməli, almanların hərəkətləri barədə partizanlara məlumat verməli idi. 1944-cü ilin fevralında Nadirlinin köməyi ilə M.Hüseynzadə, C.Həkimli, Ə.Qurbanov və başqaları partizanların tərəfinə keçirlər.

Bundan sonra partizanlar, xüsusən alman zabiti forması geymiş Mehdi bir neçə dəfə Nadirli, hərbi həkim Rza Ağazadə, M.Qulubəyov və başqaları ilə görüşmüş, lazımi məlumat və köməklik almışdır.

Almanlar içərisində gizli iş aparan takım komandiri kimi etibar qazanmış Nadirlinin əsas işi əsirlərin qaçıb partizanlara qoşulmasını təşkil etmək, alman komandanlığının hərəkət planlarını, döyüşçü və hərbi sursat daşıyan qatarların, avtomobillərin hərəkət cədvəli haqqında əvvəlcədən partizanlara məlumat vermək idi. O, bu vəzifənin öhdəsindən şərəflə gəlirdi. Nadirli partizanların buraxdığı vərəqələri inandığı əsirlər arasında yayırdı. Bu vərəqələr partizanların yanına getmək üçün buraxılış rolunu oynayırdı.





1944-cü ilin yazında Nadirli rəhbərlik etdiyi taqımla birlikdə partizanların tərəfinə keçmək üçün tədbirlər hazırlayır. Taqımın partizanlarla görüşəcəyi yeri və vaxtı dəqiq müəyyən etmək üçün tez-tez rabitəçilərlə, partizan komandanlığı ilə əlaqə saxlayır, bəzən görüşlərdə iştirak edirdi. Budur, belə görüşlərdən biri: "Dəhlizdə gəzişən növbətçi alman əsgəri salam verib zabiti Nadirin otağına ötürür. Bu zabit M.Hüseynzadə idi. Bir qədər sonra növbətçi eyni qayda ilə zabiti yola salır. Lakin çox diqqətlə onun sifət cizgilərini və hərəkətlərini süzsə də, səsini çıxarmır, növbəni təhvil verdikdən sonra alay komandiri Pollenin yanına gedib Nadirlinin yanına gəlmiş zabitdən şübhələndiyini bildirir. Pollenin çağırışı ilə onun kabinetinə girən Nadirli işin nə yerdə olduğunu duyur. Nadirli müxtəlif bəhanələrlə vəziyyətdən çıxıb alman zabitini tanımadığını bildirsə də, bu hadisədən sonra hər an izləndiyini hiss edir. Belə vəziyyətin uzun sürməyəcəyini başa düşərək partizanlara qoşulmağı sürətləndirmək üçün tələsik plan hazırlayır".

1944-cü ilin mart ayının 14-də Nadirli rəhbərlik etdiyi takımla birlikdə partizanların tərəfinə keçmək üçün hazırladığı planı əvvəlcə müavini, Dəvəçi rayonundan olan Məmmədağa Nəzirova, sonra isə öz yaxın adamlarına bildirir. Dostlar bu planı bəyənirlər. Plana əsasən, martın 16-da səhərə yaxın Nadirli məşq etmək adı altında hissəyə həyəcan siqnalı verməli idi. Döyüşçülər silahlanıb partizanlar olan tərəfə hücuma keçməli və özləri ilə alman keşikçilərini də aparmalı idilər. Almanlar başa düşsə, vuruşa-vuruşa, başa düşməsə, sakitcə partizanların tərəfinə keçməli idilər.

Mart ayının 15-dən 16-na keçən gecə Nadirli rabitəçi ilə görüşüb lazımi sənədləri və buraxılış vərəqələrini alıb geriyə

qayıdarkən düşərgədə yaxalanır. Axtarış zamanı hərbi çantanın içərisindən çıxan sənədlər Nadirilinin partizanlar tərəfinə keçmək istəyini aydınlaşdırır, lakin bu cəsur insan dostlarını satmır, yalnız özünün partizanlar tərəfinə keçmək istədiyini, başqalarının bundan xəbərsiz olduğunu bildirir. Alman komandanlığı Nadirli və Məmmədağa haqqında ölüm hökmü çıxarır. Günorta çağı bütün əsirlərin və döyüşçülərin qarşısında onu güllələyirlər [21, s. 36-38].

Partizan dəstələrinin məşhur komandirlərindən biri olmuş Cavad Həkimli öz xatirələrində Sadıq Nadirlinin qorxmazlığından, qoçaqlığından, təşkilatçılıq qabiliyyətindən geniş söhbət açır. Sadığa partizanlara qoşulmaq nəsib olmamışdır. O, ancaq düşərgədə olmaqla "Mixaylo"nun və Cavad Həkimlinin tapşırıqlarını yerinə yetirir: əsirlərin qaçmasını təşkil edir, onlara silah, partlayıcı maddələr tədarük edib çatdırır və alman qərargahının sirrlərini, əməliyyat planlarını müxtəlif yollarla öyrənib partizanlara xəbər verir [7, s. 23-24].

Vətəndən çox-çox uzaqlarda, Polşa torpaqlarında faşist işğalçılarına qarşı amansız mübarizə aparmış igid partizanlardan biri də 1923-cü ildə Ordubad rayonunun Tivi kəndində anadan olmuş Məmmədhüseyn Kərimov idi.

Məmmədhüseynin böyük qardaşı Məmmədhəsən müharibənin ilk günlərində səfərbərliyə alınmış, böyük leytenant kimi düşmənə qarşı cəsarət və igidliklə vuruşmuş, 1944-cü ilin noyabr ayının 22-də Çexoslovakiya torpağı uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuş və Krayna Olyaka kəndində dəfn edilmişdir.

1942-ci ildə ordu sıralarına çağrılan Məmmədhüseyn Kərimov elə ilk döyüşlərdə mərdlik və igidliyinə görə hərbi hissə komandanlığı tərəfindən leytenant rütbəsi almış və bölük komandiri təyin edilmişdir. Məmmədhüseyn Kərimovun bölüyü hər döyüşdə düşmənə böyük itkilər verməklə faşistlərin çox sayda döyüşlərinin birində düşmənin çoxlu hərbi texnikasını və canlı qüvvəsini sıradan çıxarmışdır. Lakin qanlı döyüşlərin





birində top qəlpəsindən ağır yaralanıb huşunu itirən M.Kərimov alman əsgərləri tərəfindən bir neçə döyüşçü yoldaşları ilə birgə əsir götürülür. Onlar Polşa ərazisində yerləşən hərbi əsir düşərgəsinə gətirilir. Leytenant Kərimov və onun döyüşçü dostlarının burada gördükləri ağır və dözülməz işgəncələr onların alman faşistlərinə olan nifrətlərini daha da coşdurur. Və onlar hər an bu ölüm düşərgəsindən qaçıb qurtarmaq, partizan dəstələri ilə birləşərək qisas almaq ümidi ilə yaşayırlar. Ancaq düşərgədə qoyulmuş ciddi nəzarət onlara qaçmaq imkanı verməyir. Günlərin birində bəxtləri üzlərinə gülür. Alman zabitləri həbsxanadakı hərbi əsirlər içərisindəki qeyri-rus millətlərindən olan, öz ölkəsinə "dönük çıxmış" hesab etdikləri hərbçiləri seçərək Polşanın Vodzislav qəsəbəsində yerləşən alman qarnizonuna gətiriblər. Bu qarnizonda yüzədək alman əsgər və zabiti Mozqava çayı üzərindəki körpülərə, şose yoluna və yaxınlıqda yerləşən gizli hərbi aerodroma nəzarət edirdilər. Azərbaycanlılardan ibarət olan 19 nəfər gənc hərbçini də bu məqsədlə buraya gətirmişlər. Alman əsgər və zabitlərinə məxsus hərbi paltar geyən gənc azərbaycanlı döyüşçülər qrupu burada "ober leytenant" Kərimovun komandirliyi ilə "xidmətə" başlayıblar. Və hər an da bu canavar yuvasından qaçıb qurtarmaq, yaxınlıqdakı meşələrdə faşistlərə qarşı mübarizə aparan sovet "Avanqard" və Polşa hərbçi və vətənpərvərlərindən ibarət "Yadmiqa" partizan dəstələrindən birinə qoşulmaq üçün fürsət axtarırlar. Çox çəkmir ki, leytenant M.Kərimov döyüşçü dostlarının ciddi səyi nəticəsində "Avanqard" partizan dəstəsi ilə əlaqə yarada bilir.

Əvvəlcədən əməliyyat planı hazırlayan leytenant Kərimov və onun döyüşçü dostları günlərin birində gecəyarısı alman keşikçilərini susdurub yuxuda olan qarnizon əsgərlərini məhv edirlər. Qənimət olaraq ələ keçirdikləri silah və hərbi sursatı maşına yükləyərək "Avanqard" partizan dəstəsinə qoşulmaq üçün Sansiqnyovsk meşəsi istiqamətində yola düşürlər və partizanlarla birləşirlər.

"Avanqard" partizan dəstəsinin tərkibində leytenant M.Kərimov qrup komandiri təyin edilir və öz dəstəsi ilə alman faşistlərinə qarşı partizanlıq mübarizəsinə başlayır. Onlar dəfələrlə Vodzislav, Sansiqnyovsk, Tşonuvek, Tşonuv və Zarişin meşələri ətrafında yerləşən alman hərbi hissələrinə hücum əməliyyatları təşkil edərək düşmənə sarsıdıcı zərbələr endirirlər. Həmin döyüşlərdə leytenant Kərimovun döyüşçü dostları: Əli Qarabala, Daşqınoğlu, Zülfüqar Zülfüqarov, Əhmədov və digər yoldaşları dəfələrlə döyüş meydanlarında yenilməz cəsarət və qəhrəmanlıqlar göstərirlər. 1944-cü il dekabrın 13-də almanlar böyük qüvvə ilə partizanlara qarşı hücuma keçirlər. Hərbi texnikanın köməyi ilə hər tərəfdən şiddətli atəşə tutulan partizanlar qeyri-bərabər döyüşdə mühasirə vəziyyətinə düşürlər. Bu döyüşün ağır zərbəsini öz üzərinə götürən leytenant Kərimovun dəstəsi əfsanəvi qəhrəmanlıq göstərərək partizan dəstəsinin mühasirədən çıxmasına şərait yaradır. Lakin bu döyüş 19 azərbaycanlının son vuruşu olur. Onların hamısı partizan dəstəsinin xilası naminə qəhrəmancasına həlak olurlar [105].

Böyük Vətən müharibəsi dövründə alman faşistlərinə qarşı partizan hərəkatında iştirak etmiş naxçıvanlı partizanlardan biri və qəhrəmanlığına görə "İvan Sport" ləqəbi ilə tanınan Ordubadlı Əkbər Ağayev olmuşdur. O, 1941-ci ildə cəbhəyə çağırılmış, ancaq döyüşlərin birində yaralanaraq düşmən tərəfindən əsir götürülərək Buhenvald həbs düşərgəsinə aparılmışdır.

Əkbər Ağayev Buhenvald ölüm düşərgəsinə düşdüyü gündən mühüm tapşırıqları yerinə yetirirdi. "İvan Sport" ləqəbi ilə tanınmış Ə.Ağayev bir neçə dəfə ölüm düşərgəsindən qaçmaq istəmişdi. Lakin o buna nail ola bilməmişdi. Buhenvald qəhrəmanı Əkbər Ağayevin həyatı və mübarizəsi alovlu vətənpərvərliyin, beynəlmiləlçiliyin, mətinliyin gözəl nümunəsi olmuşdur. O, burada qurulan gizli təşkilatın fəal üzvlərindən olan keçmiş hərbi əsirlərindən Nikolay, Yermey Tarverzə və başqaları ilə birlikdə bir sıra tapşırıqların yerinə yetirilməsində





iştirak etmişdir. Hətta onlar Ertut şəhərində rus dilində gizli mətbəə təşkil edib orada "Xatirələrim", "Verymar" nəşrinin ilk nüxsələrini nəşr etdirmişlər [105].

Faşist cəlladları vətənpərvər Ə.Ağayevi 1945-ci ildə dəhşətli işgəncə ilə öldürmüşdülər.

1943-cü ildən başlayaraq faşist komandanlığı sovet hərbi əsirlərindən və onlardan təşkil olunmuş hissələrdən Avropanın müxtəlif ölkələrində partizanlara qarşı mübarizədə istifadə etməyə çalışırdı. Bu məqsədlə 1943-cü ilin ortalarında onların bir hissəsi Şimal-Şərqi İtaliya ilə Triestin şəhərinə gətirildi.

Azərbaycanlılar, əsasən Triest şəhərinin yaxınlığında Onçina yaşayış məntəqəsində yerləşmişdilər. Bu isə onlara qaçmaq üçün yaxşı imkan verirdi. Məşhur partizan komandiri olmuş Cavad Həşimli öz xatirələrində yazır ki, qaçmaq üçün yoldaşlarımızı qruplara böldük. Hər qrup 6-8 nəfərdən ibarət idi. Onlara Mikayıl Qulubəyov, Sabir Aslanov, Şamil Süleymanov, Firudin Hüseynov və başqaları başçılıq edirdilər.

Beləliklə, hərbi əsirlər qısa müddət ərzində qaçıb İtaliya və Yuqoslaviya partizanlarına qoşuldular. Yuqoslaviya xalq azadlıq ordusu IX korpusu nəzdində əvvəllər azərbaycanlılardan ibarət olan rota təşkil edilir. Cavad Həkimli rotanın komandiri təyin olunur. Bir qədər sonra həmin rota məşhur partizan komandiri Anatoli İqnateviç Dyaçenkonun başçılıq etdiyi rus batolyonunun tərkibinə daxil olur.

Cavad Həkimli "İntiqam" adlı kitabında partizanların həyatı və qəhrəmanlıqları haqqında söhbət açaraq göstərir ki, bizim ən cəsur partizanlardan biri naxçıvanlı Firudin Hüseynov idi. Firudin Hüseynov müharibəyə qədər Naxçıvan MSSR Kənd Təsərrüfatı Nazirliyində toxumçuluq stansiyasında aqronom vəzifəsində işləyirdi. Cəbhəyə getmək üçün ilk gündən könüllü ərizə verənlərdən biri olmuşdu. O, müharibənin əvvəllərində Smolensk şəhəri uğrunda vuruşlarda ağır yaralanıb əsir alınmışdır. İlk əvvəl Firudin öz yaxın dostu Mehdi Hüseynzadədən aldığı tapşırıq əsasında əsirlərin qaçırılıb partizanlara

qoşulmasını təşkil etməli idi. O, bu tapşırığı şərəflə yerinə yetirir. Özü də partizanlara qoşulur.

Partizan qərargahında F.Hüseynova istehkam bölməsini təşkil etmək tapşırılır. Onun bölməsinin partizan dəstəsində çox böyük fəaliyyəti olur. Doqquzuncu korpusun komandanlığı rus batalyonuna Avça faşist düşərgəsini dağıtmağı tapşırır. Bunun üçün ən əvvəl Triestlə Avstriyanı birləşdirən dəmiryol korpusu partladılmalı idi. Dyaçenko və Həkimli bu ağır işi ancaq Firudinin bölməsinə tapşırmağı məsləhət bilirlər. Çünki bir neçə gün əvvəl F.Hüseynovun bölməsi Qoritsa-Adyuşina yolunda öz tərəflərindən heç bir tələfat vermədən düşmən avtomaşınlarını partlatmışdılar.

Tapşırığı aldıqdan sonra Firudin öz bölməsi ilə körpüyə yaxınlaşır. Yoldaşlarını pusquda qoyub rus Vanya ilə körpünün lap yaxınlığına gəlir. Onlar keşikçiləri səssizcə aradan götürürlər. Körpünü partladıb batalyonun hücuma keçməsinə şərait yaradırlar. Rus batalyonu faşist düşərgəsini darmadağın edir.

Firudinin şücaəti bununla bitmir. 1944-cü ilin sentyabrı ayında almanlar çox böyük qüvvə ilə tank, artileriya və təyyarələrdən istifadə edərək bu ərazidə yerləşən partizanları tamamilə məhv etmək istəyirlər. Finano vadisində ölüm-dirim vuruşması başlayır. Çox böyük canlı qüvvəyə malik olan faşistlər ağır tələfata uğrasalar da, hücumu aramsız olaraq davam etdirirlər. Bu vaxt məşhur partizan başçılarından biri Mikayıl Qulubəyova Firudinin ağır yaralanması xəbərini verir. Mikayıl dərhal yaralılar yığılan kazarmaya gəlir. Firudininn yarası çox ağır olsa da huşunu itirməmişdir. Döyüşün gedişini soruşur, Vətəni yada salırdı. Gözlərindən yanaqlarına iki damla yaş axırdı. Cəsur partizanın son nəfəsində yurdunu, Vətənini xatırlaması onun hansı amala görə canını qurban verdiyini parlaq şəkildə göstrir. O, Vətən uğrunda sinəsini düşmən gülləsinə sipər etmişdi. Onu ölümün pəncəsindən xilas etmək mümkün olmur. Firudin Hüseynovun gözləri əbədi yumulur [21, s. 43-45].

Dan yeri söküldükdə Solla kəndi qəbiristanlığında böyük izdiham var idi. Hamı Firudinlə vidalaşmağa gəlmişdi. Batalyonun komandiri Dyaçenko böyük nitq söyləyir. Dostları Firudinin tabutu qarşısında and içirlər ki, onun intiqamını alacaqlar.





Azərbaycan oğulları partizan hərəkatında Sovet xalqlarının nümayəndələri ilə çiyin-çiyinə vuruşur, gündən-günə öz döyüş qabiliyyətlərini artırır, sovet silahının şöhrətini yüksəklərə qaldırırdılar. Minsk vilayətində fəaliyyət göstərən "Qvardeyest" partizan dəstəsinin vzvod komandiri Mahmud Mahmudov 1943-cü ildə iki düşmən qarnizonunun darmadağın edilməsində fərqlənmiş, Jitkov, Zaçaste, Osovo, Drozı və başqa yaşayış məntəqələrindəki faşist hissələri ilə vuruşmada özünü mətanətli və dözümlü xalq intiqamçısı kimi tanıtmışdı. 1944-cü ilin yazında Krupski rayonunda düşmənin soyğunçu dəstələri tərəfindən mühasirəyə alınan partizan dəstəsi məhz M.Mahmudovun soyuqqanlılığı və cəsarəti nəticəsində mühasirədən çıxmışdı. M.Mahmudov şəxsi igidliyinə və komandirlik fəaliyyətinə görə komandanlıqdan 10 dəfə təşəkkür almışdır. 1944-cü ilin iyununda M.Mahmudov Napalo kəndi yaxınlığında faşist qarnizonu ilə döyüşə girən partizan dəstəsinin əməliyyatına rəhbərlik etmişdir. Partizan dəstəsi məharətlə manevr edərək, faşistləri öz mövqeyindən çıxartmış, 60 düşmən əsgər və zabitini məhv etmiş və 20-si yaralamışdı. Bu döyüşdə xüsusilə fərqlənən M.Mahmudov ikinci dərəcəli "Vətən müharibəsi partizanı" medalı ilə təltif edilmişdi [3, s. 147].

İkinci Dünya müharibəsi illərində Azərbaycan SSR-dən və onun tərkib hissəsi olan Naxçıvan MSSR-dən olan hərbi əsirlər Almaniya, İtaliya, Avstriya, Yuqoslaviya, Fransa, Polşa və digər ökələrin ərazilərində yerləşən hərbi düşərgələrdə faşizmə qarşı müxtəlif formalardan istifadə edərək mübarizə aparmışdılar. Onlar gizli təşkilatlar yaradıb faşistlərlə işləyən müxtəlif hərbi obyektlərdə təxribat işləri aparır və əsirlərin qaçıb antifaşist müqavimət hərəkatına qoşulmasını təşkil edirdilər.

Bu gün Avropa xalqları faşizmə qarşı vuruşan vətənpərvərlərin adlarını böyük hörmət və ehtiram hissləri ilə yad edirlər. Öz Vətənindən uzaqlarda-Avropa ölkələrində faşizmə qarşı cəsarətlə mübarizə aparan azərbaycanlıların kütləvi qəhrəmanlığı antifaşist və partizan hərəkatı tarixində parlaq səhifə təşkil edir.





## NAXÇIVANLILAR ARXA CƏBHƏDƏ

Ön cəbhədə oğul və qızlarımızın qəhrəmanlıqla vuruşmalarından ruhlanan Naxçıvan zəhmətkeşləri muxtar respublikamızda xalq təsərrüfatının ayrı-ayrı sahələrində görülən işləri bir an belə zəiflətməmişlər. Həmin dövrdə digər xalqlar kimi Naxçıvan zəhmətkeşləri də var qüvvələri ilə cəbhəyə köməklik göstərmişlər.

Naxçıvan zəhmətkeşlərinin vətənpərvərliyi arxa cəbhəni hər vasitə ilə möhkəmləndirməkdə, orduya hərtərəfli kömək etməkdə, döyüşçülərə sovqat və hədiyyələr göndərməkdə, müdafiə fonduna pul və qiymətli şeylər verməkdə, azad olunmuş rayonların sakinlərinə qardaşlıq köməyində öz parlaq ifadəsini tapırdı.

Naxçıvan MR Dövlət arxivində olan sənədlərdən aydın olur ki, 1941-ci ilin iyul ayında muxtar respublika üzrə rəhbər işçiləri, kolxoz sədrlərinin, idarə və müəssisə başçılarının müşavirəsi keçirilmişdir. Bu müşavirədə faşist işğalçılarına qarşı qəhrəmanlıqla vuruşan döyüşçülərimizin ailələrinə yardım göstərmək məqsədilə yardım fondlarının təşkil edilməsi və ön cəbhədə vətənimizin müdafiəsində qəhrəmanlıqla vuruşan əsgərlərə hədiyyələr göndərilməsi müzakirə edilmişdir. Dövlət tərəfindən ayrılmış komissiyaların və həmçinin zəhmətkeşlərin təşəbbüsü ilə cəmi 4 ay ərzində muxtar respublika üzrə müdafiə fonduna 120.800 manat nəğd pul, 1.727.000 manatlıq istiqraz vərəqəsi, 7 kq. 700 qram qızıl-gümüş toplanaraq dövlət bankına verilmiş, tədarük məntəqələrinə 66,1 ton taxıl, 64,3 ton ət, 2155 kq. yun, 897 kq yağ, 10,6 ton tərəvəz, 3634 cüt yun corab, 1461 cüt yun əlcək, xeyli alt-üst geyimləri toplanılıb cəbhəyə göndərilmişdir [53, v. 8].

Şərur rayonundan olan cəbhəçi anası K.Əliyeva 1941-ci ilin oktyabrında şəxsi bağlama hazırlayıb Moskvanın müdafiəçilərinə ana məhəbbətilə dolu məktubunda yazırdı:

"Qoy mənim bu balaca ana sovqatım sizin düşməni məhv edən əllərinizi qızdırsın. Düşmənə qəzəbinizi artırsın, qələbənizi yaxınlaşdırsın" [53, v. 9].

2 sentyabr 1941-ci il tarixdə "Şərq qapısı" qəzeti "Naxçıvan qadınları Azərbaycanın qabaqcıl qadınlarının müraciətinə qoşulurlar" başlıqlı məqalədə yazırdı:

"Azərbaycanın qabaqcıl qadınlarının, Azərbaycanın bütün qadınlarına olan müraciətini müzakirə edən biz Nazçıvan şəhərinin bir qrup qadını ölkəmizin müdafiə fondunu daha da möhkəmləndirməyə yönəldilmiş bu vaxtlı müraciəti bəyənir və çox böyük həvəslə ona qoşuluruq.

Bu müraciətnamə doğma vətənini canından da artıq sevən biz Naxçıvan qadınlarının fikrini dəxi ifadə edir.

Sizin dediyiniz kimi, vətən müharibəsi cəbhələrində cəllad hitler faşizminə qarşı qəhrəmanlıqla vuruşan qardaşlarımıza ana qayğısı və nəvazişi göstərmək vaxtıdır. Bəli, bacılarımız, igid döyüşçülərimizə daha çox hədiyyələr vermək, hünər və təşəbbüslər göstərmək vaxtıdır!

Başımızın üstünü böyük qorxu aldığı bir zamanda, vətən müharibəsinin bu ciddi vaxtında artıq nəyimiz varsa, hər nə – qızıl, gümüş və başqa qiymətli şeylərimiz varsa, hamısı vətən yolunda qurbandır!

Biz, sizin müraciətinizdən bütün nəticələri çıxararaq aşağıda göstərilən ən qiymətli şeylərimizi vətəni müdafiə fonduna verməyi layiq bilirik:

Talıbova Rübabə – qızıl qol saatı, 300 manat pul, 800 manatlıq istiqraz və mis; Protçenko – qızıl qol saatı, 1.000 manat pul, 1 qızıl üzük; Quliyeva Leylan (evdar qadın) – 3 misqal ağırlığında qızıl boğazaltı, 2 mis qazan və 300 manatlıq istiqraz; Abbasova Siddiqə – 1 qızıl üzük, mis və 300 manatlıq istiqraz; Həsənova Qumru – 650 manat pul, 1.000 manat istiqraz vərəqəsi; Abbasova Züleyxa – qızıl üzük, mis; Abbasova Vasilə – qızıl sırğa; Fətullayeva Əqiyyə – bir misqal qızıl, 1.500 manatlıq istiqraz vərəqəsi; Səfiyeva Pəri – bir qızıl





bacaxlı, 900 manatlıq istiqraz; Qədimova Simuzər – qızıl üzük, 2 gümüş qaşıq, 800 manat pul və 1.000 manatlıq istiqraz; Aslanova Məryəm – 600 manat pul, müharibə qurtaranadək ayda 350 manat pul, 2.000 manatlıq istiqraz və mis; Abbasova Anna – qızıl cib saatı, 2 gümüş qaşıq, 2.000 istiqraz və mis; Vəliyeva Güllü – 600 manat nağd pul; Məmmədova Səkinə – bir misqal ağırlığında qızıl qarabatdağ, 1.000 manatlıq istiqraz; Qədimova Lida – 2 qızıl üzük, 1.500 manatlıq istiqraz və müharibə qurtaranadək hər ay 2 günlük əmək haqqı, Həkim Knıtkova – 1.500 manatlıq istiqraz; Xəlilova Təyyiba–8 parça qızıl, 300 manat pul, qızıl sırğa, müharibə qurtaranadək ayda 3 günlük əmək haqqı və mis; Kazımova Güllü – 1 qızıl üzük, 500 manatlıq istiqraz, mis; Əliyeva Xavər – 300 manat pul, 500 manatlıq istiqraz və mis; Behbudova Gülabə – 1 qızıl üzük, 1.000 manatlıq istiqraz; Həsənova Bəni – qızıl sırğa, 1.000 manatlıq istiqraz; Səkinə Rzalı – 6 q qızıl, 300 manat pul, 500 manatlıq istiqraz, 10 kq mis və müharibə qurtarınca hər ay 3 günlük əmək haqqı".

Şərur rayon zəhməkkeşləri ön cəbhədəki döyüşçülərimizə 1 noyabrdan 20 noyabr 1941-ci il tarixə kimi əşya və isti paltarlar: 411 ədəd yarım şuba, 740 yun əlcək, 49 ədəd isti papaq, 80 ədəd pambıq cılıkka, 11 ədəd şalvar, 40 ədəd isti köynək, 16 ədəd isti tuman, 625 cüt yun corab, 92 ədəd sırıxlı, 3 ədəd kürk, 19 ədəd adyal, 3ədəd balınc üzü, 216 ədəd cib dəsmalı, 99 ədəd üz dəsmalı, 117 ədəd əl-üz sabunu, 66 ədəd paltar sabunu, 9 kq tütün və s. toplayıb göndərmişlər [64, v. 80-81].

20 noyabr 1941-ci ilə kimi Naxçıvan Muxtar Respublikası üzrə vətəndaşlardan və təşkilatlardan ölkənin müdafiəsi üçün dövlət müdafiə fonduna 1.251000 manat nəğd pul, 1.738000 manatlıq istiqraz vərəqəsi, 1 kq 217 q qızıl, 6 kq 388 q gümüş dövlət bankına təhvil verilmişdir. Bundan başqa müdafiə fonduna 66. 432 kq taxıl, 64.318 kq ət, 888 kq yağ, 2.155 kq yun, 797 kq pendir, 42.5 kq bal, 7.138 kq üzüm, 3894

kq tərəvəz və b. kənd təsərrüfatı məhsulları vermişdilər [41, v. 89-90].

1 yanvar 1942-ci ildən 31 dekabr 1942-ci ilə kimi Naxçıvan Respublikasının zəhmətkeşləri müharibədə döyüşən əsgərlərə isti paltarların alınması üçün 167222 manat pul və 10556 ədəd müxtəlif əşyalar, "Azərbaycan kolxozu" tank koloniyasının tikintisi üçün 6 milyon 780 min manat, təyyarə eskadrasının tikilməsi üçün 1 milyon 935 min manat və tibbi təyyarə tikilməsi üçün 20.450 manat vermişlər [41, v. 89-90].

Bundan başqa 137 manat 380 kq taxıl, 151 baş iri və xırda buynuzlu heyvan, Qızıl Ordunun əsgərləri üçün 6520 ədəd bağlama, 61 qoyun və 67.048 manat pul toplayaraq göndərmişlər.

"Azərbaycan kolxozu" tank koloniyasının tikilməsi üçün Şərur rayonunun Engels adına kolxozun sədri Məmməd Əliyev 350 min manat, "Sosializm" adına kolxozun sədri Hüseyn Əliyev 100 min manat və Allahverdiyev 80 min manat pul vermişlər [41, v. 11].

1941-ci ildə və 1942-ci ilin birinci və ikinci rüblərində Naxçıvan (Babək) rayon zəhmətkeşləri müdafiə fonduna və qızıl əsgərlərə 230 sırıxlı, pencək, 1.980 cüt yun əlcək və yun corab, 940 dəst isti alt paltarları, 2.200 ədəd dəri, 413 kq yun, 1 kq 112 qram qızıl, 6 kq 961 qram gümüş, 872.000 manat pul, 1.255.000 manat istiqraz vərəqəsi və sahibsiz uşaqlar üçün 11.467 manat pul vermişlər [105].

25 iyul 1942-ci ildə Naxçıvan MSSR gənclərinin Naxçıvan şəhər parkında birinci antifaşist mitinqi keçirilmişdir. Azərbaycan gənclərinin birinci antifaşist mitinqinin yekunlarına həsr edilmiş yığıncaqda 5000 nəfər gənc arxa cəbhədə çalışaraq iməcilik yolu ilə müdafiə fonduna 324 min 422 manat nəğd pul, döyüşçülərimizə 10 min ədəddən çox müxtəlif isti paltar və Qara Dəniz Donanmaçılarına 12 min manatlıq hədiyyələrin göndərilməsini qərara almışlar [105.1942. 28 iyul].

Həmin mitinqdə çıxış edən Staxanovçu Səkinə





Mustafayeva, kolxozçu gənclərdən Sənəm Allahverdiyeva, Fatma Kərimova, Fatma Ramazanova hər hektardan 7 sentner əvəzinə 40 sentner gənəgərçək məhsulu verməyi qət etmişlər. Keçirilən bu mitinqdə komsomolçu gənclərdən Fəqiyə Cəfərova, Leyla Qəhrəmanova və başqaları çıxış edərək müdafiə fondunun güclənməsi, arxa cəbhənin gücləndirilməsi və s. işlərdən danışmışlar [105].

Müdafiə fondunun möhkəmləndirilməsi haqqındakı göstərişlərini alqışlayan evdar qadınlar qiymətli hədiyyələrini müdafiə fonduna vermişlər. Bunlardan Səkinə Məmmədova 3 qızıl üzük, Rübabə Talıbova 9 qram qızıl, Leyla Rzayeva 9 qram qızıl, Şura Bəktaşi 3 qızıl üzük, Səkinə Rzalı 6 qızıl üzük göndərmişdir [53, v. 8].

Muxtar respublikamızın bütün komsomolçu və gənclərini, fəhlə qadınlarını, kolxozçularını, kolxozçu qadınlarını və ziyalılarını Moskva avtomobil zavodu gənclərinin çağırışına qoşularaq öhdələrinə götürdükləri təəhhüdləri şərəflə yerinə yetirməkdə bütün qüvvələri ilə çalışmağa çağırırıq. Qoy bizim fədakar əməyimiz və cəbhəyə köməyi hər gün artırmağımız şanlı Qızıl Ordumuzun düşmən üzərindəki qələbələrini getdikcə daha da möhkəmləndirsin.

Hər şey cəbhə üçün! Hər şey düşmənin darmadağın edilməsinə!" [105.1942.8 fevral].

1942-ci ilin oktyabr ayında şanlı Qızıl Ordunun döyüşçülərinə bayram hədiyyələri göndərmək və ölkənin müdafiəsini mühkəmləndirmək sahəsində Əbrəqunus (Culfa) rayon zəhmətkeşlərinin də böyük köməyi olmuşdur.

Rayonun Paradaş kənd kolxozunun əməkçiləri 5 gün ərzində döyüşçülərə müxtəlif quru meyvələrdən 30 bağlama göndərmiş və ölkənin müdafiəsi fonduna 2000 manat pul vermişlər [105.1942. 21 oktyabr].

Şurut kənd kolxozun üzvləri bir qoyun, 300 manat pul, Ortakənddəki "Kirov" adına kolxozun sədri Məmməd Ağayev 8.5 kq bal, Başkənd kolxozunun sədri Hilal Hacıyev bir qoyun,

300 manat pul, Gal kənd kolxozun üzvləri 42 bağlama, 200 manat pul, Əbrəqunus kənd kolxozun üzvləri 23 bağlama, 200 manat pul vermişlər [105.1942. 21 oktyabr].

Naxçıvan MSSR zəhmətkeşləri Qızıl Ordumuzun döyüşçülərinə bayram hədiyyələri və isti paltarlar göndərməklə ölkənin müdafiəsi fonduna xeyli vəsait toplayıb vermişlər. Onlar 1942-ci ilin sentyabr-oktyabr aylarında qəhrəman döyüşçülərə və ölkənin müdafiəsi fonduna 60 kürk, 45 isti köynək, 25 dəst alt paltarı, 1033 cüt yun corab, 79 cüt keçə çəkmə, 127 yun ələk, 30 ədəd qulaqlı papaq, 20 sırıxlı pencək, 10 jilet, 35 qoyun, 2625 qutu sovqat, 13.719 manat nəğd pul vermişlər [105].

Müharibənin birinci günündən 1943-cü ilin oktyabr ayına kimi Naxçıvan Muxtar Respublikasının zəhmətkeşləri müdafiə fonduna 1.080.085 manat pul, 244.000 manat istiqraz vərəqəsi, 1 kq 233 q qızıl, 10 kq 283 q gümüş, bunlardan əlavə 38.811 cüt əlcək, corab, qızıl ordu əsgərlərinə 6520 sovqat qutusu, 99 baş qoyun 4452 pud taxıl, 4046 pud ət, 1118 kq yağ, 692 pud tərəvəz, 786 kq pendir, 43 kq bal, 742 ədəd dəri və 2135 kq yun toplayaraq göndərmişlər [32, v. 4].

Yerli sovetliklərin və partiya təşkilatlarının səyi nəticəsində 7142 cəbhəçi ailəsinə 12.462 manat məbləğində yardım və 374.047 manat məbləğində müavinət verilmişdir [32, v. 4].

Müharibə dövründə arxa cəbhədə göstərilən əmək qəhrəmanlıqlarında qadınların böyük rolu olmuşdur. Belə ki, bu zaman sənayedə və kənd təsərrüfatında çalışan zəhmətkeşlərin əksəriyyəti qadınlar olmuşdur. 1943-1945- ci illərdə kənd təsərrüfatının cəbhənin ehtiyacını ödəmək səviyyəsində yüksəltmək ölkəmizin fəhlə sinfindən, kolxozçu kəndlilərindən və ziyalılarından böyük səy göstərməyi tələb edirdi. Müharibə illərində Naxçıvanlı qızlar kənd təsərrüfatı texnikasını idarə edən əsas qüvvəyə çevrilmişdilər. Belə ki, müharibədən əvvəl qadınlar mexanizator kadrların cüzi bir hissəsinin təşkil etdikləri halda, 1943-cü ildə mexanizatorların yarıya qədəri qızlar idi.

1943-cü ildə Naxçıvan MSSR zəhmətkeşləri fədakar-





casına çalışaraq kənd təssərüfatı məhsulları istehsalını artırmaq sahəsində ciddi müvəffəqiyyətlər əldə etmişlər. Respublikanın kolxozları böyük hərbi təsərrüfat əhəmiyyəti olan gənəgərçək bitkisinin əkilib-becərilməsini mənimsəmişdilər.

1942-1943-cü illərdə Naxçıvan Muxtar Respublikasının kolxozçuları dövlətə 13179 pud yun, 677613 pud taxıl, 165970 pud ət, 6760 pud yağ təhvil vermişdilər.

Naxçıvan zəhmətkeşləri qısa müddət ərzində tank və təyyarə dəstələri yaratmaq fonduna 800107 manat nəğd pul vermişdir [105.1975.9 may].

"Azərbaycan kolxozçusu" tank koloniyasının yaradılmasına və qırıcı təyyarələrin artırılması fonduna yardım edilməsi haqqında Azərbaycan KP Naxçıvan rayon Komitəsinin 8 mart 1943-cü il tarixli qərarını əldə rəhbər tutan Naxçıvan (Babək) rayon kolxozçu və kolxozçu qadınları ölkəmizin müdafiə qüdrətinin möhkəmlətmək və alman faşist quldur dəstələrinin darmadağın edilməsi və bütün xalqların gələcək dinc yaşaması uğrunda özlərinin vətənə olan sədaqətini bir daha əməli işlə sübut edərək qısa müddətdə rayon üzrə tank dəstəsi yaradılması fonduna 2.087,463 manat, təyyarə hazırlanması fonduna isə 492 497781 manat pul ödəmişlər [45, v. 1].

"Azərbaycan kolxozçusu" tank dəstəsi yaradılması və təyyarə fonduna yardım edilməsi işində qabaqcıl kolxozlardan Cəhri kənd kolxozunun kolxozçu qadınları tərəfindən 263300 manat, Didivar kənd kolxozunun kolxozçu və kolxozçu qadınları tərəfindən 135500 manat, Nehrəm kənd kolxozçu və kolxozçu qadınları tərəfindən 130000 min manat, Əznəbürt kənd kolxozunun kolxozçu və kolxozçu qadınları tərəfindən 97000 manat pul yardım edilmişdir [45, v. 1].

Müharibə dövründə 2.889 komsomolçu ümumməcburi hərbi təlim proqramını keçərək müxtəlif hərbi peşələrə yiyələnmişlər.

1943-cü ildə muxtar respublika komsomolçuları tərəfindən müdafiə fonduna 300 q. qızıl, 1.561q. gümüş, 15qızıl üzük,

2 ədəd qolbaq, 5 qızıl saat və bir çox şeylər vermişdir. Komsomolçular "Azərbaycan kolxozçusu" tank dəstəsi fonduna 1.369.709 manat vəsait vermişlər. Müharibə dövründə komsomolçuların qüvvəsilə 6.631 ədəd isti geyim şeyləri toplanaraq Qızıl Ordu döyüşçülərinə göndərilmişdir. Bundan əlavə, Qızıl Ordu döyüşçülərinə və qəhrəman sovet partizanlarına 436.708 manatlıq hədiyyə göndərilmişdir.

1943-cü ilin yaz əkininə hazırlaşarkən, respublikanın komsomolçularının və gənclərinin qüvvəsilə 40.000 ton yerli gübrə toplanmış və tarlalara daşınmış, 95000 metr uzunluğunda su kanalı təmizlənmiş və qaydaya salınmışdır. Təkcə komsomolçuların qüvvəsilə 6.000 hektar sahə şumlanmışdır. Komsomolçuların təşəbbüsü ilə plandan artıq 500 hektar sahədə dənli bitki, ot, tütün və başqa bitkilər əkilmişdir. Komsomolçuların və gənclərin qüvvəsilə 25 traktor, 2 toxumsəpən, 15 taxıl döyən maşın və s. təmir edilmişdir.

Məhsul toplanışı zaman respublikanın 4.850 nəfər komsomolçusu kolxoz təsərrüfatında işləmişdir. Kolxoz komsomolçularının qüvvəsilə 25.000 hektardan artıq sahənin taxılı biçilmişdir [105.1943. 29 oktyabr].

Mal-qaranın qışlamasına hazırlıq işində də komsomolçular az iş görməmişlər. Ancaq komsomolçuların qüvvəsilə 1.000 hektar sahənin otu biçilmiş, 400 sentner silos basdırılmışdır [45, v. 2].

Müharibə illərində cəbhəyə kömək üçün Ordubad rayon zəhmətkeşləri "Azərbaycan kolxozçusu" tank koloniyasına və təyyarə hazırlanması üçün 1.950.250 manat istiqraz vərəqəsi, 77 ton rəngli və qara metal, 4500-ə qədər bağlama, 2.500q qədər qızıl, gümüş və çoxlu miqdarda isti paltar və ərzaq məhsulları toplayıb göndəmişlər [58, v. 1].

Bundan başqa qızıl əsgər ailələrinə kömək məqsədi ilə 61860 kq taxıl, 16533 kq müxtəlif ərzaq məhsulları, 2436 cüt ayaqqabı, 1620 ədəd paltar, 3873 sentner yanacaq (odun), 2375 sentner yem ( heyvanların ehtiyatı üçün), 179000 manat nəğd





pul, 2862 ədəd cürbəcür sənaye malları toplanıb verilmişdir [58, v. 2].

Qızıl əsgər ailələrindən 183 nəfərinin evi təmir edilmiş, 37 nəfərə isə yeni yaşayış evləri, 428 nəfər isə dirrik yerləri verilmişdir. Bu müddət ərzində Ordubad rayonunun qızıl əsgər ailələrinə 3229677 manat yardım edilmiş və hərbi ailələrə 228.494 manat pensiya verilmişdir [39, v. 2].

Böyük Vətən müharibəsi illərində sahibsiz uşaqların tərbiyə edilməsinə xüsusi diqqət yetirilirdi. 1942-ci ildə 2 uşaq evində 200 uşağın tərbiyə edilməsinə 583.800 manat pul sərf edilmişdirsə, 1943-cü ildə 400 uşağı əhatə edən 3 uşaq evinə 1.056.300 manat, 1944-cü ildə isə 1.108.900 manat pul buraxılmışdır [54, v. 9].

16 yanvar 1943-cü ilə qədər Naxçıvan Muxtar Respublikasının rayonları üzrə komsomolçuların və pionerlərin "Azərbaycan kolxozçusu" tank dəstəsinə yığılan vəsait rayonlar üzrə aşağıdakı kimi olmuşdur.

1. Naxçıvan (Babək) rayonu üzrə - 230000 manat
2. Şərur rayonu üzrə - 381.645 manat
3. Ordubad rayonu üzrə - 50.433 manat
4. Şahbuz rayonu üzrə - 41.718 manat
5. Əbrəqunus rayonu üzrə - 35000 manat
6. Culfa rayonu üzrə - 10. 000 manat

Cəmi: 748.796 manat [30, v. 1].

" Azərbaycanın gənc pioneri" tank dəstəsinə rayonlar üzrə aşağıdakı kimi olmuşdur:

1. Naxçıvan ( Babək) rayonu üzrə - 78000 manat
2. Şərur rayonu üzrə - 318.000 manat
3. Ordubad rayonu üzrə - 9897 manat
4. Şahbuz payonu üzrə - 4000 manat
5. Əbrəqunus rayonu üzrə - 500 manat

Cəmi: 410.447 manata

"Azərbaycanın gənc pionerləri" hərbi təyyarənin inşası üçün rayonlar üzrə aşağıdakı kimi olmuşdur.

1. Naxçıvan (Babək) rayonu üzrə - 24710 manat
2. Şərur rayonu üzrə - 72720 manat
3. Ordubad rayonu üzrə - 11504 manat
4. Şahbuz rayonu üzrə- 3.180 manat
5. Əbrəqunus rayonu üzrə - 2000 manat
6. Culfa rayonu üzrə - 6000 manat

Cəmi: 120. 114 manat [30, v. 3].

Naxçıvan zəhmətkeşləri, o cümlədən respublika komsomolçuları və pionerləri xüsusilə Tambov kolxozçularının təşəbbüsünə cavab olaraq "Daha çox tank verək" tank dəstələrinin yaradılması fonduna 1.279.357 manat pul toplayıb keçirmişlər.

12 yanvar 1943-cü ildə muxtar respublikanın komsomolçu və pionerləri əlavə olaraq 20.000 manat pul və 20 qoyun toplayaraq həmin fonda keçirmişlər.

Naxçıvan MSSR üzrə 1943-cü ildə "Azərbaycan kolxozçusu" tank koloniyasına 6.779.771 manat və hərbi təyyarələrin tikintisi üçün 2.326.406 manat yığılıb göndərilmişdir [32, v. 8].

1941-ci ilin iyun ayından 1943-cü ilin oktyabr ayına kimi Naxçıvan (Babək) rayonu üzrə Qızıl Orduya və alman faşist işğalçıları zülmündən azad olunmuş rayonlara aşağıdakı köməkliklər edilmişdir: Müdafiə fonduna: 1 kq 12 q qızıl, 2 kq 961 q 343690 manat pul, 1200.055 manat istiqraz vərəqəsi, 172600 kq qara metal, 7918 kq rəngli metal, 40 min kq taxıl və 81 baş qoyun; müdafiə hektarlarına: 1169 kq taxıl və 833 kq noxud; tank koloniyası inşası üçün 2880203 manat nəğd pul və gənc pionerlər adına hərbi təyyarələrin inşası üçün 329.000 manat nəğd pul; döyüşən orduya 3823 ədəd bağlama, çəkisi 13133 kq və 34 baş heyvan, 6582 cüt yun corab və əlcək, 273 ədəd sırıxlı, 150 cüt valinka, 2558 ədəd dəri, 946 dəst alt tuman-köynəyi, 124 ədəd jilet, 98 ədəd isti papaq və paltar alınması üçün 31.633 manat pul [83, v. 108].

Alman-faşist işğalçılarından azad olunmuş rayonların əhalisinə 29672 manat nəğd pul, 309 baş xırda və iribuynuzlu





heyvan, 23177 kq taxıl, 1097 ədəd dəri, 150 kq yağ, 1257 ev əşyaları və s. göndərilmişdir [70, v. 109].

Şərur rayonunun zəhmətkeşləri, xüsusən komsomolçu gənclər daima vətənimizi yırtıcı düşməndən mərdliklə təmizləməkdə olan şanlı Qızıl Ordumuzun 416-cı Taqanroq diviziyasının qorxmaz döyüşçülərinə 1943-cü ilin sentyabr ayında 21 kq yağ, 560 yumurta, 200 dəftər, 70 qələm, 53 paket, 275 iynə, 29 sap,101 spirtli içki və başqa şeylər toplayıb göndərmişlər. Rayonun Mahmud kəndindəki "Telman" adına kolxozun üzvləri bu sahədə daha yaxşı iştirak etmişdir. Onlar 3 kq yağ, 50 yumurta, 60 iynə, 12 sap, 15 paket və bir baş qoyun toplayaraq göndərmişlər [105.1943.28 sentyabr].

Naxçıvan (Babək) rayon zəhmətkeşləri müharibənin ilk günlərindən cəbhəyə yekdilliklə böyük yardımlar etmişlər. Belə ki, 1 kq 12 q qızıl, 6 kq 965 q gümüş, 556.602 manat pul, 1.541.055 manat istiqraz 47.000 kq taxıl, 414 kq yağ, 1700 kq noxud, 100 baş donuz, 106 baş iri və xırdabuynuzlu heyvan, 300 kq kartof, 179.618 kq qara rəngli metal, tank koloniyası üçün 2.918.458 manat və təyyarə dəstələri yaradılmasına 329.000 manat nəğd pul vermişlər [47, v. 13-16].

Əkilmiş müdafiə hektarlarından 839 kq noxud, 50.139 kq taxıl, Qızıl Ordu döyüşçülərinə 4.523 bağlama (16.136 kq) 50 baş heyvan, 30.600 manat pul, 500 l araq və şərab, 7.250 cüt yun corab və əlcək, 273 teleqreyka, 2553 ədəd dəri, 940 dəst alt paltarı, 372 ədəd müxtəlif geyim paltarı göndərilmişdir [47, v. 20].

Döyüşçülərə isə paltar alınması üçün Naxçıvan dövlət bankına 31.663 manat nəğd pul verilmişdir. Bunlardan əlavə kolxoz və kolxozçuların artıq olan taxıllarından dövlət qiyməti ilə 500 ton taxıl satılmışdır [47, v. 24].

Naxçıvan (Babək) rayonunun kolxozçuları, fəhlə və qulluqçuları cəbhəçi ailələrinə xüsusi qayğı göstərərək birdəfəlik 48.037 kq taxıl, 22.400 manat nəğd pul, heyvanların saxlanması üçün 125 ton yem, 236 kq ət, 100 kq yağ, 6.000

müxtəlif yeyinti şeyləri, südündən istifadə etmək üçün 96 qoyun və keçi, 5 ton yanacaq və bunlardan başqa süd, pendir, üzüm və s. ərzaqla yardım etmişdir [47, v. 30].

23 fevral 1943-cü ildə Qızıl Ordunun 25-ci ildönümü münasibətilə Şərur rayon zəhmətkeşləri, kolxozçu və kolxozçu qadınları azad edilmiş ölkələrin əhalisinə yardım olaraq 110 baş qoyun, keçi, 645 pud buğda, 244 pud arpa, 11 pud çəltik, 49 pud noxud, 11 min ədəd yumurta, 4 baş iribuynuzlu mal, 205 cüt əlcək, 389 cüt corab, 62 alt paltarı, 118 köynək, 4 şalvar, 11 sırıxlı, 161 dəri, 104188 manat pul, 99 kq yun, 11 ədəd adyal, 16 dəsmal, 131 qaşıq və fincan, 27 mayka, 14 döşək, 42 balınc, 100 ədəd mis qab, 85 boşqab, 5 kürk, 8 palaz və cecim, 15 kq tütün toplayaraq göndərmişlər [40, v. 3].

Atalar yaxşı demişlər: "Aslanın erkəyi, dişisi olmaz". Bu hikmətli sözlər tarixin sınaqlarından çıxıb, həyati təcrübədə özünü doğruldub. Bu ağır günlərində yadelli işğalçılara qarşı mübarizədə qadınlarımız həmişə öz ataları, qardaşları, oğulları, ərləri, ilə birlikdə misilsiz igidlik və rəşadət göstərmişlər. Bu müharibədə sovet qadınlarının vətənpərvərliyi özünü parlaq şəkildə büruzə verdi. 1943-cü il martın 8-də "Pravda" qəzeti yazırdı: "Bütün keçmiş boyu hələ heç zaman qadın öz vətəninin müdafiəsində, sovet xalqının Vətən müharibəsi günlərində olduğu kimi bu cür fədakarlıqla iştirak etməmişdir" [9].

Müharibə dövründə Naxçıvan MSSR-də qadınların rəhbər işə irəli çəkilməsi, onların xüsusi ilə kənd təsərrüfatı sahəsində manqa, briqada, ferma, kolxozlara başçılıq etməsi genişlənirdi. İstehsalata rəhbərlik üçün ayrı-ayrı sahələr üzrə kurslar yaradılır, onlarda məşğələ keçmək üçün təcrübəli təsərrüfatçılar cəlb olunurdular. Məqsəd tez bir zamanda müharibəyə getmiş istehsal komandirlərinə layiqli əvəzedicilər hazırlamaq idi.

Müharibə illərində Naxçıvan MSSR-də qadınların sovet aparatı işinə irəli çəkilməsi, onların şəhər, rayon, kənd Sovetlərinə rəhbərlik etməsi halları artmışdı. Ümumiyyətlə, bu işdə 120-dən artıq qadın çalışırdı. Onların əksəriyyəti müharibə





dövründəki sözün əsl mənasında qəhrəman işlərinə görə orden və medallarla təltif edilmişdilər [19, s. 58-59; 75].

26 fevral 1944-cü ilə kimi Naxçıvan Muxtar Respublikasının zəhmətkeşləri tərəfindən dövlət müdafiə fonduna 10.800.689 manat nəğd pul, 24.400000 manat istiqraz vərəqəsi, 1 kq 233 q qızıl və 10.115.283 q gümüş verilmişdir [42, v. 24].

Ümumiyyətlə, muxtar respublikamızın zəhmətkeşləri faşist işğalçılarını darmadağın etmək üçün müharibə illərində müdafiə fonduna 180 milyon 89 min manat nəğd pul, 12 kq qızıl və gümüş, yarım milyon pud taxıl, 150 mindən çox isti paltar, 10 mindən çox bağlama göndərmişlər. O vaxt hamı qələbə ruhu ilə yaşayır, işləyirdi.

Vətənə məhəbbət, torpağa bağlılıq hissi bir an belə arxa cəbhə qəhrəmanlarını tərk etmirdi. Odur ki, 1943-cü ildəkinə nisbətən 1944-cü ildə respublikamızda kolxozçuların gəliri 80 faiz artmış, hər əmək gününün dəyəri xeyli çoxalmışdır. Təkcə Cəhri (Babək rayonu) kəndindəki kolxozda 1944-cü ildə 1941-ci ildəkinə nisbətən 60 sentner çox taxıl istehsal edilmiş, dövlətə məhsul satımı planları üç qat artıqlaması ilə yerinə yetirilmişdir [9].

Əlbəttə, bu vəziyyətləri araşdıranda aydın olur ki, arxa cəbhəmiz möhkəm olmasa idi ön cəbhədə də qələbəni çox çətinliklə əldə etmək mümkün olardı.

Böyük Vətən müharibəsi illərində Naxçıvan Muxtar Respublikasının kolxozçuları və kolxozçu qadınları yüksək vətənpərvərlik nümunələri göstərmişdilər. Əgər 1940-cı ildə Naxçıvan MSSR üzrə dövlətə 2899 ton taxıl verilmişdisə, 1944-cü ildə 3861 ton taxıl verilmişdir ki, bu da 1940-cı ildə nisbətən 962 ton çoxdur, yaxud 133.8 % təşkil edir.

Bu faktlar Böyük Vətən müharibəsi illərində, ağır imtahan günlərində Naxçıvan zəhmətkeşlərinin hədsiz sədaqətini parlaq şəkildə nümayiş etdirir. Bu faktlar göstərir ki, cəbhə ilə arxanın birliyi alman faşizm üzərində tarixi qələbəmizin həlledici amili olmuşdur.

## NAXÇIVANLILARIN İŞĞALDAN AZAD OLUNMUŞ RAYONLARA KÖMƏYİ

Müharibə illərində SSRİ-nin işğaldan azad olunmuş rayon və vilayətlərinə kömək hərəkatı çox geniş yayılmışdı. Bu məqsədlə 1941-ci ilin dekabrından başlayaraq müxtəlif təşəbbüslər irəli sürülür və müraciətlər edilirdi. Hətta həmin təşəbbüs və müraciətlərə cavab olaraq Azərbaycan hökuməti 1942-ci ilin aprelində xüsusi qərar qəbul etmiş, respublika əhalisini azad olunmuş rayonlara yardım fondu yaratmağa çağırmışdı.

Muxtar respublikanın zəhmətkeşləri də Azərbaycan hökumətinin çağırışına ürəkdən qoşulmuş və işğaldan azad edilmiş rayonlara yardım edilməsi işinə öz layiqli töhfələrini vermişdilər. 1941-ci ilin iyun ayından 1943-cü ilin 27 oktyabr ayına kimi Babək (Naxçıvan) rayonu üzrə alman faþist iþðalýndan azad olunmuþ rayonlara 29672 manat pul, 309 baþ iri və xýrdabuynuzlu heyvan, 23177 ton taxýl, 1097 ədəd dəri, 150 kq yað, 1257 ev əþya þeyləri və s. köməkliklər olunmu°dur [69, v. 16; 276].

1943-cü ilin fevral ayında Noraşen (Şərur) rayon zəhmətkeşləri Qızıl Ordu tərəfindən alman faşist işğalçılarının zülmündən azad edilmiş ölkələrin əhalisinə yardım olaraq 110 baş qoyun-keçi, 645 pud buğda, 244 pud arpa, 11 pud çəltik, 49 pud noxud, 11min ədəd yumurta, 4 baş iribuynuzlu mal, 205 cüt əlcək, 389 cüt corab, 62 alt paltarı, 118 köynək, 4 şalvar, 11 sırıxlı, 161 ədəd dəri, 104.188 manat pul, 99 kq yun, 11 ədəd adyal, 16 dəsmal, 131qaşıq, 14 döşək, 42 balınc,100 ədəd mis qab, 85 ədəd boşqab, 5 ədəd kürk, 5 ədəd cemper, 8 ədəd palaz və cecim, 15 kq tütün və s. toplayaraq göndərmişlər [40, v. 25].

Tibb işçiləri də əllərindən gələni əsirgəməmişlər. Çərkəs vilayətində tibb müəssisələrinin bərpa edilməsi üçün şəxsi yardımdan başqa çoxlu inventarların da göndərilməsi qərara alınmışdır. 36 yerlik bir bağça üçün bütün inventarlar, bir aptek





təşkilində hər cür material və dərman, bir rentgen aparatı, 4 ədəd "Raxmanov kravatı" göndərilməsi və Çərkəs vilayətinin hər hansı bir yerində açılacaq xəstəxanasına Naxçıvandan 20 çarpayı, 20 mələfə, 20 balınc, 9 dəst döşək, 10 adyal, 1 şkaf, 20 nəfərlik geyim və xalat, 1 palto, 3 üst geyimi, 15 köynək, 20 müxtəlif uşaq əsgisi verilməsi qərara alınmışdır [105.1943.28 sentyabr].

"Şərq qapısı" qəzetinin 28 sentyabr 1943-cü il tarixli sayından aydın olur ki, Sənaye İttifaqın əhatə etdiyi Naxçıvan şəhərindəki artellərdə Çerkassklılara yardım edilməsi haqqında yığıncaq keçirilmiş, İsmayıl Allahverdiyev və ilk partiya təşkilatının katibi Cəlil Qurbanov yoldaşların bu ətrafdakı izahatından sonra 3 arteldən 7000 manatadək pul toplanılmışdır. İ. Allahverdiyev və C.Qurbanov hər biri 300 manat pul, corab və s. vermişlər. Metal artelinin sədri Fərman Hüseynov 200 manat, sex müdiri 300 manat pul vermiş, başqalarından 3000 manat miqdarında pul yığılmışdır. Artelin hesabından isə 200 ədəd fincan, 50 maşa və s. ayrılmışdır.

Əli Bayramov adına artelin işçiləri bir ton duz, 5 cüt corab, 1200 manat pul ayırmışlar. Sex müdiri Namaz Quliyev tərəfindən 250 manat pul verilmişdir. Bunlarla yanaşı başmaqçılar 2.000 manat pul toplayaraq 30 cüt də çust tikib göndərəcəklərini vəd etmişlər [105.1943.28 sentyabr].

Şahbuz rayonunun zəhmətkeşləri 1943-cü ilin ilk 9 ayında alman-faşist işğalçılarından azad edilmiş Çərkəs vilayətinə 20800 manat pul, 1112 kq buğda, 109 parça müxtəlif ev şeyi, 31 baş qoyun, 15 baş donuz, 50 kq yağ, 405 kq pendir, 441 kq kartof, 133 kq quru meyvə, 93 kq yun, 52 ədəd dəri, 15 kq bal, 57 cüt corab, və sair göndərmişdilər [105.1943.28 sentyabr].

Çərkəs vilayətinin xilas edilmiş əhalisinə yardım edilməsi haqqında Naxçıvan (Babək) rayonunun Köhnəhacıvar kəndindəki kolxozda kolxozçuların və kolxozçu qadınların yığıncağı olmuşdur. Təsərrüfat sahəsində çalışan kolxozçular

və kolxozçu qadınlar böyük ruh yüksəkliyi ilə 400 kq taxıl və xeyli miqdarda yun, dəri, qab-qacaq, balınc və s. toplamışlar [105.1943.28 sentyabr].

29 sentyabr 1943-cü ildə Naxçıvan şəhər və rayon müəllimlərinin yığıncağı keçirilmişdir. Yığıncaqda müəllimlər Çərkəs vilayətinin bərpa edilməsində zəhmətkeşlərə kömək göstərməkdə fəal iştirak edəcəyini bildirmişlər. Yığıncaqda iştirak edənlər Naxçıvan MSSR-in bütün müəllimlərinə məktub qəbul etmiş, onları da Çərkəslilərə yardım etməyə çağırmışlar. Həmin məktubda deyilir:

"Alman-faşist quldurları qəhrəman Qızıl Ordumuzun zərbələrini Tivin, Moskva, Rostov, məğrur Stalinqrad ətraflarında və Oryol, Kursk, Belqorod, Xarkov istiqamətlərində yaxşıca dadmışlar. İndi Hitlerin "Məğlubedilməz" şərəfli diviziyaları Dnepr sahillərində dalbadal məhv edilir və onlar sürətlə qərbə doğru qaçırlar. Hər gün yüzlərlə şəhər və kəndlərimiz həyasız düşməndən təmizlənir. İndi bizim əsas vəzifəmiz alçaq faşist köpəklərinin müvəqqəti ağalıq etdikləri yerlərdə dağıdılmış, külə döndərilmiş kəndləri və şəhərləri bərpa etməkdən, zəhmətkeşlərə qardaşlıq köməyini genişləndirməkdən ibarətdi. Biz bu vəzifəni yerinə yetirməyə başlayaraq ikinci növbədə 25.000 manat pul, 500 dəftər, 500 ədəd müxtəlif kitab və s. verməyi öhdəmizə almışıq .Həmin yığıncaqda müəllimə Xanım İmanova yoldaş avqust ayı maaşını 480 manat, bir çarpayı, bir balınc, Yevgeniya İbrahimova 450 manat pul, bir yorğan, Fatma Məmmədova 300 manat pul, bir adyal , İdris Səlimov 594 manat, Hüseyn Mirzəyev (Şıxmahmud kəndindəki məktəbin müəllimi) 650 manat pul vermişlər [105.1943.1 oktyabr].

Þahbuz rayonunun kolxozçularý arasýnda Çərkəs vilayətinin bərpa edilməsinə kömək i°i günü-gündən geni°ləndirilmiþdir. Cýðazýr kəndindəki kolxozda bir gündə 4 baþ qoyun, 6 baþ donuz, 1 sentner darý, 20 kq pendir və 17 dəri toplanmýþdýr. Gömür kəndindəki kolxoz 4 sentner taxýl, 22 kq kartof, 5000 manat pul, 2 baþ donuz, 10 dəri ayýrmýþdýr.





Kolxozun üzvləri 1350 manat pul, 48 kq kələm, müxtəlif ev þeyləri və s.vermi°lər. Sələsüz kəndindəki kolxozun üzvləri ev °eyləri ilə daha çox kömək etmiþlər. Onlar 22 ədəd mis qab, 1 çarpayý, 2 ədəd qazan, 6 ədəd çini qab, 1 palaz və bunlardan əlavə 650 manat pul, 8 kq quru meyvə, 8 kq noxud və 8 kq pendir vermiþlər. Rayonun müəllimləri kömək üçün 5000 manat pul toplamýþlar. Rayon maarif þöbəsinin müdiri Əqil Miriþli 500, müəllim Ýsgəndər Alalaverdiyev 450 manat vermiþlər [105.1943.1 oktyabr].

Naxçývan (Babək) rayonunun Cəhri kəndindəki kolxozun üzvləri Çərkəs vilayətinin bərpa edilməsində böyük ruh yüksəkliyi ilə kömək etmi°lər. Kolxozçular və kolxozçu qadýnlar 1.220 kq buðda, 840 kq arpa, 10 cüt yun corab, 20 cüt corab, 3 cüt çəkmə, 12 cüt əlcək, yorðan, döþək və baþqa ev þeyləri toplamýþdýlar [105.1943.5 oktyabr].

Naxçývan (Babək) rayon gəncləri Çərkəs vilayətinə qardaþlýq yardým əlini uzatmaqda aktiv i°tirak etmi°lər. Komsomolçu və gənclər keçirdikləri ümumi yýðýncaqlarda alman faþist iþðalçýlarýndan azad edilmiþ Çərkəs vilayətinin yenidən abad edilməsində aktiv iþtirak edəcəklərini bildirmiþ və ilk yardýmlarýný göstərmiþlər. Gənclər hələlik 201 kq taxýl, 4 kq yað, 5 kq bal, 30 kq ərik, 7380 manat pul, 2 samovar, 5 balýnc, 50 boþqab, 1 döþək, 2 yorðan və s þeylər vermiþlər [105.1943.5 oktyabr].

Çərkəs vilayətinin yenidən bərpa edilməsi üçün ªahbuz rayon zəhmətke°ləri 25 min manat pul, 130 kq quru meyvə, 100 dəri, 15 kq bal, 20 sentner taxýl, 150 kq pendir, 99 kq yun, 105 müxtəlif ev əþyasý, 25 donuz, 50 qoyun və keçi vermiþlər [106.1943.7 oktyabr].

Naxçývan rayon Ýctimai Təminat Komissarlýðýnýn iþçiləri də alman faþist iþðalçýlarýndan azad edilmiþ Çerkassk vilayətinin yenidən bərpa edilməsi üçün yardýmetmə iþində aktiv iþtirak etmiþlər. Bu münasibətlə keçirilən yýðýncaqda 1625 manat nəðd pul toplanýlmýþdýr. Bundan baþqa iþçilər 1

çarpayý, 2 samovar, 56 parça ev þeyi, müxtəlif əyin paltarlarý və s. verməyi öhdələrinə almýþlar. Sabir adýna artelin sədri Taðýyev 300 manat pul, bir saat, bir su qrafinkasý və s vermiþlər [105.1943.9 oktyabr].

Naxçıvan MSSR-in zəhmətkeşləri alman faşist işğalçılarından azad edilmiş Çərkəs vilayətinin zəhmətkeşlərinə və bu vilayətin bərpa edilməsinə 1943-cü ildə 394.478 manat pul, 611 sentner taxıl, 994 kq noxud, 1662 kq darı, 1978 kq quru meyvə toplamış və göndərmişlər. Kolxozçular və kolzxozçu qadınlar öz şəxsi mal-qaraları hesabına 701 baş qoyun, keçi, 16 baş inək, 44 baş donuz, 329 kq yağ və 935 kq yun vermişlər. Bundan başqa 8 kq bal, 512 kq pendir, 35 toyuq, 10 pud duz vermişlər.

Muxtar respublikamızın zəhmətkeşləri çoxlu miqdarda geyim və ev şeyləri, o cümlədən, 1.831 müxtəlif qab-qacaq, 206 yataq paltarı, 472 geyim paltarı, 260 cüt corab, 138 cüt əlcək, 15 palaz, 30 uşaq çarpayısı, 9 stol və stul toplayaraq göndərmiş, kənd təsərrüfatı, rabitəyə səhiyyə işlərində istifadə etmək üçün 5 kotan, 2 dəyirman daşı, 93 müxtəlif tibb alətləri və 128 ayrı-ayrı rabitə materialları toplayaraq göndərmişlər [105.1943.24 noyabr].

Naxçıvan MSSR zəhəmətkeşləri alman faşist işğalçılarından azad olunmuş Stalinqrad vilayətinə isə 1943-cü ildə 132.795 manat pul, 881 pud taxıl, 2741 kq quru meyvə, 1134 baş iribuynuzlu və xırdabuynuzlu heyvan, 946 cüt corab, 521 cüt əlcək, 836 kq yun, 305 ədəd alt paltarı, 994 kq noxud, 1556 kq kartof, 6972 kq çəltik, 44 baş donuz, 314 kq yağ, 38 kq bal, 512 kq pendir, 35 ədəd quş, 10 pud duz, 1743 ədəd ev əşyaları, 189 ədəd mələfə, 15 ədəd palaz və 30 ədəd uşaq çarpayısı toplayaraq göndərmişlər [31.v.8].

Stavropol ölkəsinin əməkçilərinə isə 423.840 manat pul, 8.348 pud buğda, 4.168 pud arpa,429 pud düyü, 700 pud noxud, 901 pud meyvə qurusu, 450 baş qaramal, 226 baş davar, çoxlu paltar və müxtəlif ev əşyaları göndərmişlər [105.1975. 6 may].





Ordubad rayonunun zəhmətkeþləri də Çərkəs vilayətinin bərpasý üçün 54 baþ xýrdabuynuzlu, 8 baþ iribuynuzlu heyvan, 965 kq buðda, 275 kq arpa, 273 kq kartof, 469 kq quru meyvə və 8.996 manat pul toplamýþlar [105.1943. 18 dekabr].

Alman faþist iþðalçýlarýndan azad olunmuþ Çərkəs vilayətinin əhalisinə Naxçývan (Babək) rayonunun idarə, müəssisə, kolxoz, kolxozçularý, fəhlə və qulluqçularý üçün 297.927 manat nəğd pul, 26.579 kq. taxıl, 686 baş iri və xırdabuynuzlu heyvan, 82 kq yağ, 508 ədəd dəri 574 kq yun, 3953 ədəd müxtəlif ev əşyaları, geyim şeyləri və idarə ləvazimatı toplanıb göndərilmişdir [47, v. 46].

## SOSİAL-İQTİSADİ HƏYAT

Müharibə illərində naxçıvanlı oğul və qızların ön cəbhədə mərdliklə vuruşmalarından ruhlanan muxtar respublikanın zəhmətkeşləri arxa cəbhədə mətanətlə çalışaraq xalq təsərrüfatının ayrı-ayrı sahələrində görülən işləri bir an belə zəiflətməmişdir.

Naxçıvan (Babək) rayon zəhmətkeşləri də işini hərbi qaydada quraraq cəbhəyə və ölkəyə sənaye və kənd təsərrüfatı məhsulları verməkdə əllərindən gələn hər şeyi etmişlər. 1942-1943-cü illər dövründə kolxoz və kolxozçularımız ölkəyə 3603 ton taxıl, 595 ton ət, 169 sentner yağ, 351279 ədəd yumurta, 25 minə yaxın dəri və başqa kənd təsərrüfatı məhsulları vermişlər.

1942-ci ilin fevral ayında Ordubad ipək fabrikinin komsomolçu gəncləri Naxçıvan MSSR-nin bütün komsomolçularına və gənclərinə göndərdikləri məktubda yazırdılar: "Ordubad ipək fabrikinin biz komsomolçuları və gəncləri Moskva avtomobil zavodu gənc fəhlələrinin çağırışını müzakirə edərək vətən müharibəsi günlərində əldə etdiyimiz müvəffəqiyyətlərə yekun vurduq və yeni öhdəliklər qəbul etdik. Fabrikimiz 1941-ci ilin istehsalat planını 134,3 faiz yerinə yetirmişdir. Fabrikin fəhlə kollektivinin 90 faizini təşkil edən komsomolçu gənclərimizin gücü ilə 1942-ci ilin yanvar ayında məhsul buraxılışı planı 20 gün müddətində 101,3 faiz yerinə yetirilmişdir. Fabrikimiz 160.000 manatlıq xammala və 20.300 manatlıq yanacağa qənaət etmişdir. Fabrikamızın komsomol təşkilatı katibi Məmmədhüseyn Cahanov keçən il öz istehsalat tapşırığını 116 faiz yerinə yetirmiş, xammal və yanacaqdan xeyli miqdarda qənaət etmişdir.

Biz öhdəmizə aldığımız bütün öhdəlikləri vaxtında və müvəffəqiyyətlə yerinə yetirmək üçün fabrikimizdə olan bütün resursları aşkara çıxaracaq və onlardan səmərəli istifadə edəcəyik".





1943-cü ilin məhsul planında 17200 hektara qarşı 17305 hektar əkilmişdir. Bundan 12700 hektarı payızlıq, 4605 hektarı yazlıq bitkilər olmuşdur. 1942-ci ilə nisbətən 1943-cu ildə kolxozlarda dənli bitkilərin sahəsi 2.517 hektar artmışdır.

1943-cü ildə tarla işində 3.152 nəfər qadın, 1.861 nəfər kişi, 1.768 nəfər yeniyetmə çalışaraq yüksək vətənpərvərlik nümunələri göstərmişlər [47, v. 38-39].

1943-cü ildə rayonda rəhbər partiya, sovet, komsomol və təsərrüfat işlərinə 308 nəfər irəli çəkilmişdir. Bunlardan 47 nəfəri rəhbər işlərə irəli çəkilmişdir. Kadrların irəli çəkilməsinə, xüsusi ilə cəbhəçi ailə üzvlərinin irəli çəkilməsinə çox diqqət edilmişdir. 1943-cü il ərzində 127 nəfər qadın partiya, sovet, ticarət, kolxoz işlərinə irəli çəkilmişdir ki, bunlardan 117 nəfəri cəbhəçilərdən və cəbhəçi ailəsi üzvlərindən ibarət olmuşdur. Bir çox ixtisaslı fəhlə və qulluqçu, kənd təsərrüfat işçiləri qızıl ordu sıralarına getdiyindən 1942-43-cü illərdə yeni kadrların hazırlanması işinə dair bir sıra tədbirlər görülmüşdür. 1942-43-cü illərdə müxtəlif ixtisaslara aid qısa müddətli kurslarda 245 nəfər hazırlanmışdır ki, bunlardan 81 nəfəri qadınlar idi. O cümlədən, kənd təsərrüfatı üçün traktorçu, baytar, feldşer, kolxoz hesabdarı, briqadir, ferma işçiləri və s. 158 nəfər hazırlanmışdır. Bunlardan 50 nəfəri qadınlar olmuşdur [47, v. 43].

1940-cı ildə Naxçıvan (Babək) rayonunda olan 46 fermada 5.300 iribuynuzlu və 21.125 qoyun-keçi var idisə, 1943-cü ilində iribuynuzluların sayı artaraq 7.131, qoyun-keçi isə 31535 olmuşdur. 1940-cı ildə rayonda olan 5 atçılıq fermasındakı atların sayı 48 idisə, 1943-cü ildə fermaların miqdarı artaraq 12, atların sayı isə artaraq 155 olmuşdur. 1940-cı ildə 30 quşçuluq fermasında olan quşların miqdarı 2.530 idisə, 1943-cü ildə quşçuluq fermaların miqdarı artaraq 45-ə, quşların miqdarı isə 3.657 çatmışdır. Mal-qaranın sayca artması ilə bərabər, yem bazası sahələri də artmışdır. 1940-cı ildə yem bazasının ümumi həcmi 1165 hektar idisə, 1943-cü ildə bu sahə 1430 hektara çatmışdır ki, bu da 265 hektar artıq olmuşdur.

Bundan 480 hektarı tibbi otlar sahəsi olmuşdur [47, v. 40-41].

Müharibə dövründə arxa cəbhədə göstərilən əmək qəhrəmanlıqlarında qadınların böyük rolu olmuşdur. Belə ki, bu zaman sənayedə və kənd təsərrüfatında çalışan zəhmətkeşlərin əksəriyyəti qadınlar olmuşdur. 1943-1945- ci illərdə kənd təsərrüfatını cəbhənin ehtiyacını ödəmək səviyyəsində yüksəltmək ölkəmizin fəhlə sinfindən, kolxozçu kəndlilərindən və zəhmətkeşlərdən böyük səy göstərməyi tələb edirdi. Müharibə illərində Naxçıvanlı qızlar kənd təsərrüfatı texnikasının idarə edən əsas qüvvəyə çevrilmişdilər. Belə ki, müharibədən əvvəl qadınlar mexanizator kadrların cüzi bir hissəsinin təşkil etdikləri halda, 1943-cü ildə mexanizatorların yarıya qədəri qızlar idi.

1943-cü ildə Naxçıvan MSSR zəhmətkeşləri fədakarcasına çalışaraq kənd təssərüfatı məhsulları istehsalını artırmaq sahəsində ciddi müvəffəqiyyətlər əldə etmişlər. Respublikanın kolxozları böyük hərbi təsərrüfat əhəmiyyəti olan gənəgərçək bitkisinin əkilib becərilməsini mənimsəmişdilər.

1942-1943-cü illərdə Naxçıvan Muxtar Respublikasının kolxozçuları dövlətə 13179 pud yun, 677613 pud taxıl, 165970 pud ət, 6760 pud yağ təhvil vermişdilər [105.1975. 9 may].

Mal-qaranın qışlamasına hazırlıq işində də komsomolçular az iş görməmişlər. Ancaq komsomolçuların qüvvəsilə 1.000 hektar sahənin otu biçilmiş, 400 sentner silos basdırılmışdır [45, v. 14].

1943-cü ildə 4300 nəfər məktəbli gənc komsomol təşkilatının rəhbərliyi ilə kolxoz təsərrüfatında və xalq təsərrüfatının başqa sahələrində işləməyə səfərbərliyə alınmışdır. Naxçıvan rayonunun Təzəkənd kolxozunda işləməyə çıxan kənd orta məktəbinin 50-55 nəfər komsomolçusu Sənəm Sadıqovanın başçılığı ilə komsomolçu gənclər briqadası təşkil etmişdir. Həmin kolxozda işə çıxan məktəblilərin qüvvəsi ilə 1 ton 700 kq sünbül toplanmış və kolxoza təhvil verilmişdir [44, v. 17].

Vətənə məhəbbət, torpağa bağlılıq hissi bir an belə arxa





cəbhə qəhrəmanlarını tərk etmirdi. Odur ki, 1943-cü ildəkinə nisbətən 1944-cü ildə respublikamızda kolxozçuların gəliri 80 faiz artmış, hər əmək gününün dəyəri xeyli çoxalmışdır. Təkcə Cəhri (Babək rayonu) kəndindəki kolxozda 1944-cü ildə 1941-ci ildəkinə nisbətən 60 sentner çox taxıl istehsal edilmiş, dövlətə məhsul satımı planları üç qat artıqlaması ilə yerinə yetirilmişdir [8].

Böyük Vətən müharibəsi illərində Naxçıvan Muxtar Respublikasının kolxozçuları və kolxozçu qadınları yüksək vətənpərvərlik nümunələri göstərmişdilər.

1944-cü ildə dövlətə 1310 ton ət təhvil verilmişdir ki, bu da 1940-cı ildəkindən 202 ton, yaxud 18.3% artıqdır. 1940-ci ildə dövlətə 40 ton kartof təhvil verilmişdirsə, 1944-cü ildə 148 ton olmuşdur ki, bu da 1940-cı ilə nisbətən 370 % təşkil edir. Muxtar respublikamızda 1940-cı ildə dövlətə 1 kq olsun tərəvəz verilməmişdir, lakin müharibənin ən çətin ili olan 1944-cü ildə vətənpərvər kolxozçularımız və kolxozçu qadınlarımız dövlətə 641 ton tərəvəz vermişdir. Dövlətə yumurta təhvili 1942-ci ildə, 1940-cı ilə nisbətən 215 % yaxud 467000 ədəd olmuşdur. Müharibə illərinə qədər muxtar respublikamızda gənəgərçək əkilmişdir, əməksevən kolxozçularımız və kolxozçu qadınlarımız böyük müdafiə əhəmiyyəti olan bu bitkini çox həvəslə və sevə-sevə əkir və becərirdilər. 1944-cü ildə muxtar respublikamızın zəhmətkeşləri dövlətə 860 ton gənəgərçək təhvil vermişdir, bu da 1940-cı ilə nisbətən 122% artıdır [82, v. 2].

Müharibənin törətdiyi ciddi çətinliklərə baxmayaraq muxtar respublikanın təsərrüfat təşkilatları bu ağır illərdə məhsul istehsalını artırmaq, məhsuldarığı yüksəltmək və daxili imkanlarını tam səfərbərliyə almaq sahəsində çox iş gördülər. Bütün bu əmək fəallığına və yüksək məhsul əldə edildiyinə görə Naxçıvan MSSR Azərbaycan K/b/P MK-nın və Azərbaycan Xalq Komissarlar Sovetinin keçici qırmızı bayrağı və birinci dərəcəli pul mükafatını almışdır [38, v. 2].

Naxçıvan MSSR-in vətənpərvər kolxozçuları cəbhəyə

daha çox kənd təsərrüfat məhsulları vermək, müharibənin törətdiyi çətinliklərə baxmayaraq daxildə, arxada əhalinin korluq çəkməməsi naminə durmadan çalışıb bol məhsul istehsalını öhdələrinə alırdılar. Bu öhdəliklərin parlaq əlamətini Şərur rayonunun Qarabağlar kənd kolxozçularının 1943-cü ildə respublikanın bütün kolxozlarına etdiyi müraciətdə görmək olar.

Kolxozçuların müraciətində deyilir: "Bizim kolxozda heyvandarlıqdan alınan gəlir ümumi gəlirin 65 % təşkil edir, fermada 544 baş qaramal, 2000-dən artıq qoyun, 41 at və s. heyvanlar vardı. Dövlətə 19 pud ət, 50 pud yağ, 64 pud pendir, 110 pud yun və başqa kənd təsərrüfat məhsulları verməklə əvəzsiz surətdə 1944-cü il təsərrüfat hesabına 19 baş iribuynuzlu, 25 baş xırdabuynuzlu heyvan vermişik: 100 inəkdən 85bala, 100 qoyundan 98 bala, 100 madyan atdan 80 dayça alınıb saxlanılır. Bu işdə ferma müdiri Manaf Cəlilov, baş çoban Hüseynov, çoban Süleymanov Fərman, sağıcı Babayeva Xanım, Həsənova Telli xüsusilə fərqlənmişlər" [61, v. 6].

Qeyd etmək lazımdır ki, bütün zəhmətkeşlərin qəlbi bir şey üçün döyünürdü: düşmən üzərində qələbə, alman-faşist təcavüzkarlarını darmadağın etmək.. Qarabağlar kənd zəhmətkeş kolxozçularının, kolxozun sadə adamlarının nəcib əməlləri respublika kolxozçularını daha da ruhlandırdı və cəbhənin mənafeyinə, düşmənin darmadağın edilməsi naminə böyük öhdəliklər götürüb və namusla yerinə yetirmiş bu nəcib çağırışa qoşulan Şərur və Naxçıvan rayonlarının kolxozçuları yüksək əmək fəallığı göstərərək bol məhsul yetişdirib yüksək təsərrüfat göstəricilərinə nail oldular.

Müharibənin tələbinə uyğun olaraq qızıl ordu fonduna külli miqdarda mal qara verilməsinə baxmayaraq, kolxoz fermaları və onlardakı heyvanların miqdarı xeyli artmışdı. Kiçik miqdar olsa da, respublika kolxozlarında olan 201 fermanın 124789 baş heyvanı var idi. Bunlardan ən çoxu Naxçıvan (Babək 34462 baş), Şərur (32802 baş) və Şahbuz (22695 baş) rayonlarında saxlanırdı [52, v. 12.].





Kənd təsərrüfatının başqa sahələrində olduğu kimi, ferma işçiləri də böyük vətənpərvərlik hissilə çalışaraq ölkəyə və orduya çoxlu heyvandarlıq məhsulları vermişlər. Yüksək vətənpərvərlik hissinin nəticəsi olaraq Qızıl Ordu fonduna verilən ət 1944-cü ildə 845 sentnerdən 1945-ci ildə 2423 sentnerə çatdırılmışdır.

Qızıl Orduya ət fondu yaradılmasında Şərur, Şahbuz və Əbrəqunus (Culfa) rayonunun kolxozçuları daha fəal iştirak etmişlər. Onun nəticəsi olaraq Qızıl Orduya ət fondu Naxçıvan (Babək) rayonunda 1944-cü ildəki 335 sentnerdən 1945-ci ildə 752 sentnerə, Şərur rayonunda 150 sentnerdən 540 sentnerə, Şahbuz rayonunda 42 sentnerdən 492 sentnerə, Əbrəqunus rayonunda 180 sentnerdən 400 sentnerə çatdırılmışdır. Bu yalnız kolxoz quruluşu şəraitində, istehsal vasitələri üzərində ümumxalq mülkiyyətin hökm sürdüyü şəraitdə mümkün olmuşdur [52, v. 13.].

Müharibə illərində muxtar respublikanın kolxozçuları dövlətə 1940-cı ildə 2899 ton taxıl vermişlərsə, 1944-cü ildə 3861 ton taxıl vermişlər ki, bu da 133 % təşkil edirdi. 1944-cü ildə dövlətə 1310 ton ət (1940-cı ildəkindən 202 ton artıq), 143 ton kartof (1940-cı ildəkindən 108 ton artıq), 641 ton tərəvəz (1940-cı ildə verilməmişdir), 8000 min kq artıq yağ, 860 ton gənəgərçək yağı təhvil verilmişdir. Müharibənin 4 ilində kolxozlar dövlətə 1114000 pud taxıl, 3554000 pud ət, 10800 pud yağ təhvil vermişlər. 1940-cı ilə nisbətən kolxozların gəliri 1944-cü ildə 80 % artmışdır. Kolxozçular 1940-cı ildə 448843 əmək günü əvəzinə 1944-cü ildə 4591335 əmək günü qazanaraq hər əməyə 3 kq əvəzinə 4 kq taxıl almışlar [52, v. 14].

Azərbaycan KP Naxçıvan vilayət komitəsinin IV plenum Əbrəqunus (Culfa) rayon Komitəsinin 4 oktyabr 1944-cü il tarixli hesabat məruzəsindən aydın olur ki, Əbrəqunus rayonunun kolxozçu, kolxozçu qadınları və ziyalıları müharibə dövrünün bir sıra çətinliklərinə baxmayaraq fədakar əməklə işləmələri nəticəsində 1944-cü təsərrüfat ilinin 9 ayı ərzində

daha çox müvəffəqiyyət əldə etməyə nail ola bilmişlər. 1944-cü ildə rayonun əhatəsində 25 kolxoz fəaliyyət göstərirdi.

1944-cü təsərrüfat ilində komsomolçular da rayonda az işlər görməmiş, kolxozlarda 16 yüksək məhsulçu briqada və manqa təşkil etmişlər. Taxıl yığımı dövründə komsomolçuların köməyi ilə kolxoz tarlalarındakı 745 sentner tökülən sünbüllər toplanaraq kolxoz xırmanlarına toplanmışdır. 1944-cü ildə rayonun kolxozlarında əkilmiş 5810 hektar dənli bitki sahələrinin yığılması işi sentyabr ayının 25-ə qədər yekunlaşmışdır.

Rayon kolxozlarında 1945-ci ilin məhsulu üçün əkiləsi 4250 hektar payızlıq taxıl əkinindən 30.09.1944-cü il tarixə kimi 3108 hektar şum edilərək 74%, 628,5 hektar isə əkilərək plan 15% yerinə yetirilmişdir.

Əbrəqunus (Culfa) rayonunda 1944-cü il tədarükat planlarının yerinə yetirilməsi 01 oktyabr 1944-cü il tarixə qədər aşağıdakı qayda üzrə yerinə yetirilmişdir. Planda nəzərdə tutulmuş 90649 kq məcburi ət 100 %, 29313 kq qızıl ordu fondu üçün ət 103%, 3935 kq məcburi yağ 100%, 9864 kq məcburi yun 100%, 79470 ədəd məcburi yumurta 100% və 81347 kq məcburi taxıl 100% yerinə yetirilmişdir [35, v. 12, 14, 15, 20].

1944-cü ilin 9 ayı ərzində 972 nəfər qızıl əsgər ailəsinə və 117 nəfər məzuniyyətə gəlmiş döyüşçülərə tibbi yardım göstərilmişdir [35, v. 23, 24, 25, 26, 29].

Böyük Vətən müharibəsi illərində muxtar respublikada ittifaq əhəmiyyətli sənaye müəssisələri də fəaliyyət göstərmişdir. Belə sənaye müəssisələrindən Ordubad konserv, barama toxumu zavodlarını, Ordubad ipək fabrikini,Parağaçay dağ kəşfiyyat partiyasını, duz mədənini, pambıq təmizləmə, çörək zavodlarını göstərmək olar [105.2005. 7 may ].

Böyük Vətən müharibəsi illərində müvəqqəti olaraq öz işlərini dayandırmış tikintilər, o cümlədən mərmər, kərpic zavodları, mexaniki emalatxana, elektrik stansiyasının bərpası və başqa sənaye ocaqlarının istifadəyə verilməsinə başlanılmışdı.





Naxçıvan Muxtar Respublikasında zəngin yataqlar, xüsusilə Ordubad və Şərur ərazilərində olan mərmər və başqa yataqlardan istifadə olunması xalqın ehtiyacına müsbət təsir göstərmişdi.

Yerli sənaye kombinatı 1945-ci ildə dövlət tərəfindən qarşıya qoyulmuş vəzifələrin yerinə yetirmək üçün ciddi çalışmışdı. Bununda nəticəsində muxtar respublikada 1945-ci ildə 620 min ədəd kərpic, 260 ton əhəng, 120 ton gəc, 500 ton əhəng daşı, 18 ton zəy,100 ton mərmər, 8000 pud ayaqqabı, 10.000 d/m dəri, 150 ədəd dəyirman daşı, 12.000 saxsı qab, 5 ton duz hasil edilmişdir. 1945-ci ilin sonlarında Badamlı mədən suyu zavodu istifadəyə verilmişdir [105. 2005, 7 may].

Müharibə dövründə Qızıl əsgər ailələrinə yardımlar bütün rayonlar üzrə aparılırdı. Həmin dövrdə Naxçıvan rayon ZDS icraiyyə komiteti yanında hərbi qulluqçu ailələrinin dövlət təminatı və yaşayış quruluşu şöbəsinin təşkilindən sonra Naxçıvan rayonunun ayrı-ayrı kəndlərində də hərbi qulluqçu ailələrinin vəziyyəti xeyli yaxşılaşmışdı.

Təkcə 1942-ci ildə qızıl əsgər ailələrinə 5523837 manat dövlət yardımı verilmişdi. Qızıl əsgər ailəsi üzvlərindən 4179 nəfəri müxtəlif işə cəlb olunmuşdu. Həmin ailələrin uşaqlarından 1265 nəfəri körpələr evinə və 3519 nəfəri bağçaya qoyulmuşdu. Kolxoz kassalarında 891 nəfər qızıl əsgər ailəsinə 33745 manat yardım edilmişdi. Bundan başqa Naxçıvan ASSR Xalq İctimai Təminat Komissiantı qızıl əsgər ailələrinə və vətən müharibəsi əlillərinə 5000 manat yardım etmişdi [105. 1942. 29 sentyabr].

1942-ci ilin əvvəllərində Ordubad rayonunda qızıl ordu sıralarına səfərbərliyə alınmış yoldaşların ailələrinə kömək işi yaxşı təşkil edilmişdi. Bu iş rayonun Dırnıs, Əylis, Vənənd, Dəstə və s. sovetliklərində daha çox nəzərə çarpmışdır. Yuxarı və Aşağı Əylis kənd kolxozlarında qızıl əsgər ailələrinə 450 kq yanacaq (odun və s.) verilmişdir. 14 nəfər qızıl əsgər ailəsinin üzvü kənddəki trikotaj toxuyan arteldə, məktəbdə və uşaq

bağçasında işə qəbul edilmişdir. 15 nəfər qızıl əsgər uşağı uşaq bağçasına qəbul edilmişdir.

Dırnıs sovetliyinin Danağırd, Kələki, Dırnıs kəndlərində olan kolxozlar tərəfindən qızıl əsgər ailələrinə 560 kq taxıl, 1.550 kq odun, onların mallarına 1.000 kq yem verilmişdir. Həmin sovetlikdə qızıl əsgər ailələrinin üzvlərindən 11 nəfəri müxtəlif işlərə qəbul edilmişdir.

Vənənd kəndindəki qızıl əsgər ailələrinə kolxoz tərəfindən 478 kq taxıl və 570 kq odun verilmişdir. Dəstə kənd kolxozunda qızıl əsgər ailələrinə bir tondan yuxarı taxıl verilmişdir [105. 1942, 8 fevral].

"Şərq qapısı" qəzetinin 8 fevral 1942-ci il sayındakı "Yardımı genişləndirirlər" başlıqlı yazıdan aydın olur ki, Naxçıvan Dövlət Müəllimlər İnstitutunda yığıncaq keçirilmiş və yığıncaqda institutdan Qızıl Ordu sıralarına səfərbərliyə alınmış müəllimlərin ailələrinə yardım haqqında məsələ müzakirə edilmişdir. Ümumi yığıncaqda qızıl ordu sıralarına səfərbərliyə alınmış müəllimlərin ailələrinə yardım işlərinə rəhbərlik üçün daimi komissiya seçilmişdir. Müəllimlərdən və texniki işçilərdən Əli Hüseynov 100, Abbas Əsgərov 100, Cəlal Hüseynov 50, Murad Tutayuk 30, Qazıyev 30, Rzayev və Hacıyev yoldaşların hər biri 20 manat pul Qızıl Ordu sıralarına səfərbərliyə alınmışların ailələrinin xeyrinə vermişlər.

Bundan əlavə, birinci yarımilin yekunları ilə əlaqədar olaraq hazırlıq kurslarında çağırılmış ümumi yığıncaqda tələbələrdən Adil Seyidov, Sabirə Novruzova, Cəfərov və başqaları yun corab, isti paltar və vəsait vermişlər. Həmçinin qəzetdə müəllimlərin, texniki işçilərin və tələbələrin topladığı 850 manat pul və çoxlu isti paltarın daimi komissiya vasitəsilə Qızıl ordu sıralarına səfərbərliyə alınmışların ailələrinə veriləcəyi də qeyd edilmişdir [105. 1942. 8 fevral].

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1942-ci il 26 iyul tarixli fərmanından sonra Naxçıvan MSSR İctimai Təminat Komissarlığı üzrə 1943-cü ilin aprelinədək əsgər ailələrinə





6.712.760 manat dövlət yardımı verilmişdir. 4875 nəfər müxtəlif peşələr üzrə işə düzəldilmiş 64430 nəfər qızıl əsgər bağça və körpələr evinə qoyulmuş, komissarlığın fondundan 4000 manat, kolxoz yardım kassalarından isə bir dəfəlik olaraq əsgər ailələrinə 35690 manat pul yardımı edilmişdir [105. 1943. 12 aprel].

Böyük Vətən müharibəsi illərində və vətən yolunda həlak olmuş şəxslərin ailə üzvlərinə 429.400 manat dövlət yardımı verilmişdir. 7174 nəfər əsgər ailəsi kolxoz, sovxoz, fabrik, zavod, idarə, müəssisə və təşkilatlarda işə düzəldilmiş, 1901 ailəyə isə 148.970 manat birdəfəlik pul yardımı olmuşdur.

Ümumilikdə 1941-ci ilin birinci yarısından 1943-cü ilin birinci yarısına kimi 1338 nəfər Qızıl əsgər ailəsinə dövlət tərəfindən 1820872 manat maddi yardım edilmişdi. 2968 nəfər Qızıl əsgər ailəsinin maddi vəziyyətinin yaxşılaşdırılması üçün 1242 hektar torpaq sahəsi verilmişdi ki, bundan da tamamilə istifadə edilərək, həmin sahədə dənli və başqa bitkilər əkilmişdi. Həmin yerlərin pulsuz olaraq sürülməsi və əkilməsi bilavasitə kolxozların köməkliyi ilə başa çatdırılmışdı.

Müharibənin ilk günlərindən 1943-cü ilin birinci yarısına kimi Qızıl Ordu sıralarına alınmış 140 nəfərin materialları hazırlanmış və çatacaq pullarını almışdılar. 1943-cü ildə 1260 nəfər Qızıl əsgər ailəsinin hərbi vergidən, 70 nəfər kənd təsərrüfatı məhsulları vergisindən güzəştlər edilmişdi. Təkcə 1943-cü ilin aprel ayı içərisində 15 nəfər hərbi vergidən azad edilmişdi. 1943-cü ildə Qızıl əsgər ailələrinə kolxozlar və kolxozçular tərəfindən 17200 manat nəğd pul, 115 metr parça, 507 cüt ayaqqabı, 52 dəst patlar, 26400 litr süd, 197 kq sabun, 29 baş süd malı, 603 sentner yem üçün ot məhsulu köməkliyi edilmişdi. Daha sonra 1 ton ərzaq məhsulu, 75 ton 215 kq taxıl kolxoz yardım kasalarından və ayrı-ayrı kolxozçular tərəfindən könüllü surətdə əsgər ailələrinə yardım fondu vasitəsilə 35 ton 618 kq yardım edilmişdi [46.v.54].

Naxçıvan rayon ZDS İcraiyyə Komitəsi yanında hərbi

qulluqçu ailələrinin dövlət təminatı və yaşayış quruluşu şöbəsi 1943-cü ilin ikinci yarısından 1944-cü illin sonuna kimi Naxçıvan rayonunda yaşayan hərbi qulluqçu ailələrinə kolxozçular və kooperativ təşkilatlar tərəfindən aşağıdakı kimi yardımlar edilmişdi: 1435 ailəyə 9 ton 150 kq taxıl; 345 ailəyə 450 kq ət; 1250 ailəyə 11 ton 850 kq yanacaq materialı; mallarının yemi olmayan 862 ailəyə 450 sentner saman; 1320 ailəyə 1350 cüt uşaq və qadın ayaqqabısı; 32 ailəyə 85 kq süd;1640 ailəyə 13 ton ağ neft; 325 ailəyə 14000 manatlıq müxtəlif trikotaj malları; 9.5 ailəyə yeni bina və 44 ailənin evinin təmiri edilmişdir [65, s. 147].

Təkcə dövlət tərəfindən deyil, həmçinin ayrı-ayrı kolxozlar və kolxozçular tərəfindən də qızıl əsgər ailələrinə yardımlar edilmişdi. 1943-cü ilin 9 ayında kolxozçular və kolxozçu qadınların yardımı ilə cəbhəçi ailələrin uşaqları üçün Naxçıvan rayonunda (Babək) 38380 manat pul, 3000 kq taxıl, xeyli miqdarda yağ və pendir verilmişdi. Daha sonra Xalxal kəndi kolkozda cəbhəçi ailələrin uşaqlarına 400 kq taxıl, 3000 manat pul və 3 kq yağ verilmişdi. Həmin ildə Cəhri kənd kolkozda yardım fonduna 12000 manat pul toplanmışdı. Şıxmahmud kəndindən də yardım fonduna 1000 kq taxıl verilmişdi. Naxtorqun xidmətçiləri 5700, rayon müəllimləri 4500 manat toplamışdılar [105. 1944. 10 sentyabr].

1943-cü ildə Naxçıvan (Babək) rayonunda Qızıl Ordu sıralarına səfərbərliyə alınmış döyüşçü ailələrinə 2.465.600 manat dövlət təqaüdü və 17200 manat əlavə yardım verilmişdi. Bundan başqa döyüşçü ailələrinə 25500 kq buğda, 6500 kq arpa, 35 kq yağ, 585 kq pendir, 3506 kq ət verilmiş və onların mal-qarası üçün 603 sentner ot,1.500 sentner saman və sair verilmişdir [105. 1944. 19 yanvar].

Müharibə dövründə general və zabit ailələrinə yardım edilməsi haqqında bir sıra mühüm qərarlar qəbul edilmişdi. Buna misal üçün Naxçıvan MSSR Xalq Komissarlar Sovetinin və Az. K/B/P Nax. Vilayət Komitəsinin Bürosunun "Qızıl





Ordunun ölmüş, vuruşmalarda həlak olmuş və cəbhədə itkin düşmüş generalların və Baş naçalnik heyətindən olan şəxslərin ailələrini təmin etmək haqqında" 8 iyun 1943-cü il №165 qərarını göstərmək olar. Həmin qərara əsasən generalların ailələrinə 50000 manat, Baş rəislərinin ailələrinə isə 10.000 manat dəyərində pul verilmişdi. Bundan başqa həmin şəxslərin ailələrinə pensiya almaq hüququ, onların məktəblərdə oxuyan bütün uşaqları yaşından asılı olmayaraq təhsil alıb qurtarana kimi maddi yardım almaq hüququ da verilmişdi [33, v. 169].

1 yanvar 1943-cü ilə kimi müharibə əlillərinə və hərbi qulluqçulardan 8302 nəfərə – ailəyə 7.674.552 manat pensiya və yardım verilmişdir [51, v. 34].

Əsgər ailələri uşaqlarından 1943-cü ildə yaşlılara 2514, bağçalara 9398, uşaq evlərinə 309 nəfər cəlb edilmişdir. Ata-anasını itirən uşaqlardan 98 nəfəri zəhmətkeşlər tərəfindən oğulluğa və qızlığa götürülmüşdür. 1931 nəfər əsgər ailəsinə xəstəxanada və 20000 nəfərdən yuxarı isə poliklinikalarda və evlərində tibbi yardım göstərilmişdir [83, v. 36].

Təəhhüdlü kənd təsərrüfatı məhsulları istər dövlət tədarükü, istərsə də mənzil kommunal xidmətləri üzrə əldə olan qanunlara əsasən, Qızıl əsgər ailələrinə 1943-cü ildə aşağıdakı güzəştlər verilmişdir: 3134 ailəyə 141 ton 440 kq ət; 668 ailəyə 1 ton 146 kq yağ; 806 ailəyə 1 ton 439 kq pendir; 3301 ailəyə 712115 ədəd yumurta; 3068 ailəyə 6186 ədəddəri; 772 ailəyə 1ton 142 kq yun [51, v. 37]..

Təəhhüdlü kənd təssərüfatı məhsulları dövlət tədarükünün bütün növləri üzrə 7765 qızıl əsgər ailəsi təsərrüfatına güzəşt verilmişdir ki, bu da muxtar respublikada olan ümumi əsgər ailələri təsərrüfatının 74 %-ni təşkil edirdi [51, v. 37-38].

Muxtar respublika üzrə 1943-cü ildə əsgər ailələrinə 36000 manat güzəşt verilmiş, 165 nəfər əsgər ailəsi yaşayış mənzili ilə təmin edilmiş və 706 ailənin evi təmir edilmişdir.

1943-cü ildə sağın heyvanı olmayan əsgər ailələrə 471 baş sağmal heyvan təhkim edilmişdir ki, südündən istifadə

etsinlər. Bundan başqa kolxoz yardım kassaları tərəfindən ehtiyacı olan kolxozun əsgər ailələrinə 72.026 manat pul və 39 ton 40 kq taxıl yardım edilmişdir.

Naxçıvan Kooperativlər İttifaqının yerli istehlak cəmiyyətləri vasitəsilə əsgər ailələrinə 1943-cü ildə 2130 cüt çust, 218.994 manat dəyərində tikili mallar, 698 kq sabun, 33.800 manatlıq müxtəlif mallar verilmişdir.

Həyətyanı torpağı olmayan qızıl əsgər ailələrindən 4163 ailəyə 923 hektar torpaq verilmiş, 9 ton 356 kq isə toxum köməklik olunmuşdur. Həyətyanı torpağı olub əkməyə imkanı olmayan şikəst və qoca ailələrdən 326 ailənin 22 hektar yeri kolxozun və koxozçuların qüvvəsi ilə əkilmişdir [51, v. 37-38].

1943-cü ilin 9 ayı ərzində çox uşağı olan hərbi qulluqçu ailələrinə və vətən müharibəsi əlillərinə hərbi mağaza vasitəsilə 12 tondan artıq qənnadı məhsulları, 1260 metr parça, 1 ton 629 kq sabun, 1000 dəst alt və üst paltarı, 1000 metrdən çox bez, tənzif, 183 ədəd baş yaylığı, 648 cüt ayaqqabı və s. verilmişdir [32, v. 4].

Şahbuz rayon təminat şöbəsinin xətti ilə 1943-cü ilin üçüncü rübündə müharibə əlilərinə 351 ədəd müxtəlif sənaye malı, 95 kq yağ, 65 kq yumurta paraşoku, 160 kq qənd, 94 kq krupa-makaron, 50 cüt əlcək, 100 cüt corab və başqa şeylər yardım edilmişdir [98].

Naxçıvan MSSR Xalq İctimai Təminat komissarlığının 7 dekabr 1943-cü il tarixli əmrindən məlum olur ki, hərbi əlillərdən idarə, müəssisə və kənd təsərrüfatı işlərində 204 nəfər rəhbər vəzifələrdə işləyir, bunlardan 19 nəfəri isə kolxoz sədri vəzifəsində çalışır. Vətən müharibəsi əlilərinə kolxoz yardım kassaları və təşkilatlar tərəfindən xeyli köməklik göstərilmişdir. Noraşen (Şərur) rayonunda 97 nəfər hərbi əlilə 2896 kq taxıl, 4750 manat pul, 29 nəfərin evinin xırda və böyük təmiri aparılmış və s. kənd məhsulları ilə köməklik edilmişdir. Naxçıvan (Babək) rayonunda 141 nəfərə 7000 kq taxıl, 60 cüt corab, 100 cüt ayaqqabı 16 ədəd cemper, 29 köynək, 4 pencək,





5 yaylıq, 12 kq sabun, 7 ton saman, 10 nəfərə dirrik yeri və s.köməklik edilmişdir. Şəhər kolxoz kassalarından 14 nəfərə müxtəlif köməkliklər edilmiş, 363 kq buğda, 500 kq ağırlığında ətlik qoyun, 5 nəfərin yeri əkilib və toxum verilmiş və s. kənd təsərrüfatı məhsulu köməkliyi edilmişdir.

Əbrəqunus (Culfa) rayonunun yardım kassalarından 6 pud taxıl, südündən istifadə üçün 4 qoyun-keçi verilmişdir. Ordubad rayonunda ehtiyacı olan 10 nəfər müharibə əlilinə 160 kq taxıl köməklik olub və başqa kənd təsərüffatı məhsulu köməklik edilmişdir.

Böyükdüz kəndindəki kolxozda da qızıl əsgər ailələrinə yaxşı yardım göstərilirdi. Kolxoz sədri Əli Məmmədov və ilk partiya təşkilatı katibi Leylan Əhmədovanın ciddi diqqət etməsi nəticəsində qızıl əsgər ailələrinə kolxozdan 60 sentner odun, 500 kq buğda, 300 kq darı, 2 qoyun, 6 sağmal keçi verilmişdir. Qızıl əsgər ailələrinə yardım məqsədilə fond ayrılmış və bu fonda 1000 manat pul keçirilmişdir. Kolxozçular və kolxozçu qadınlar həmin fonda 150 kq taxıl vermişlər [105. 1943. 23 dekabr].

Yerli partiya, sovet və həmkarlar təşkilatının, kolxoz heyət idarələrinin yaxşı işləmələri sahəsində Naxçıvan (Babək) rayonunda 01.04.1943-cü ildən 01.04.1944-cü il tarixə kimi mühüm işlər görülmüşdür. Belə ki, hərbi qulluqçu ailələri və vətən müharibəsi əlilərinə 59.686 kq taxıl, 970 kq ət, 134 kq yağ, 4068 kq üzüm, 1602 litr süd, 354 kq meviz, 28570 manat nəğd pul, 375 kq pendir, 85 kq odun, 213 ton saman, ayrı-ayrı kolxoz və kolxozçular tərəfindən yardım edilmişdir. Bundan başqa 1435 nəfər hərbçi ailəsi tədarükat, 1838 nəfəri isə maliyyə vergilərindən azad edilmişdir. 1944-cü ilin yaz əkini dövründə 565 nəfər hərbi qulluqçu ailəsinin dirrik yeri kolxozun çəkici qüvvəsinin köməkliyi ilə sürülüb əkilmişdir. Sol polar tərəfindən hərbi qulluqçu ailələrinə 350 min manatlıq trikotaj, 2200 cüt ayaqqabı, 650 metr parça, 200 kq sabun verilmişdir. 1125 nəfər hərbi qulluqçu ailəsinin uşaqları bağça,

yaslılara cəlb edilmişdir ki, dövlət tərəfindən 2.831.776 manat yardım edilmişdir [48, v. 18].

Azərbaycan KP Naxçıvan vilayət komitəsinin IV plenum Əbrəqunus (Culfa) rayon Komitəsinin 4 oktyabr 1944-cü il tarixli hesabat məruzəsindən aydın olur ki, Əbrəqunus (Culfa) rayonunda vətən müharibəsi əlili pensiya alan cəmi 112 nəfər, hərbi qulluqçu ailəsi 760 nəfər olmuşdur. Onlara aşağıdakı yardım və köməkliklər edilmişdir. Bir dəfəlik 10700 manat pul ilə yardım olmuş, 31489 kiloqram taxıl, 41nəfər sahibsiz uşaq uşaq evinə göndərilib, 162 nəfərə 3500 kiloqram yanacaq verilmiş, 115 nəfərə 4500 kiloqram mallar üçün saman, 261 nəfərə 704 ədəd paltar, 104 nəfərə 480 metr parça, 309 nəfərə 2750 metr ipək və 196 nəfərə 196 cüt ayaqqabı verilmişdir. 112 nəfər vətən əlilinə 1944-cü ilin 9 ayı içərisində 104307 manat pensiya, 510 kq yağ, 346 kq şirniyyat, 1500 ədəd yumurta, 45 kq süd paroşoku, 40 nəfərə geyim paltarı və 3 nəfərə isə 38 kq taxıl kolxozlar vasitəsi ilə köməklik edilmişdir.

Cəbhədə faşist işğalçılarına qarşı qəhramancasına vuruşan əsgər ailələrinə yardım etmək məqsədilə Naxçıvan Vilayət Partiya Komitəsinin katibi Nəcəfov və XKS sədri Gözəlovun 28.08.1944-cü il tarixli 6№-li teleqramlarına əsasən döyüşçü ailələrinə yardım etmək üçün 12692 kq taxıl və 13100 manat zəhmətkeşlərdən pul toplanmışdır [52, v. 26, 27].

Həmin dövrdə Əbrəqunus (Culfa) rayonunda vətən müharibəsi əlillərindən 120 nəfərdən 60 nəfəri məsul vəzifələrə irəli çəkilmişdir, əsgər ailələrinə gəldikdə ayrı-ayrı müəssisələrdə, klub, qiraətxanalarda, bağça, yaslı və s. işlərdə 85 nəfər işləmişdir [52, v. 29].

Şahbuz rayonunda da döyüşçü ailələrinin qayğısına qalmaq işinə hər cür köməkliklər az olmamışdır. Belə ki, 1944-cü ilin 10 ayı içərisində döyüşçü ailələrinə 42.920 kq taxıl, 25.880 manat nəğd pul, 8.118 litr süd, südündən müvəqqəti istifadə etmək üçün 192 baş qoyun-keçi, bundan əlavə 653 nəfərin dirrik yeri kolxozun qoşqu qüvvəsi ilə əkilmiş, 41





nəfərə yeni ev verilmiş, 268 nəfərin yaşayış evi təmir edilmiş, 718 cüt ayaqqabı, 1.392 müxtəlif geyim paltarı verilmiş, mal-qaranın yeməsi üçün 310 sentner ot-saman, yandırmaq üçün 4 tona qədər odun verilmişdir. Sahibsiz uşaqlardan 123 nəfər uşaq evlərinə verilmiş, 18 nəfər ixtisas məktəblərinə göndərilmiş, 93 nəfər bacarıqlarına görə kolxozlarda və müəssisələrdə işə düzəldilmişdir [98.1944. 16 dekabr].

1944-cü ildə Qızıl Ordu döyüşçülərinin uşaqlarına yardım işi Naxçıvan (Babək) rayonu kolxozlarında böyük ruh yüksəkliyi ilə keçirilmişdir. Kolxozçuların və kolxozçu qadınların yardımı ilə cəbhəçi ailələrin uşaqları üçün 1944-cü il sentyabrın 5-dək rayon üzrə 38.380 manat pul, 3000 kq taxıl, xeyli miqdarda yağ və pendir verilmişdir. Xalxal kənd kolxozçuları tərəfindən cəbhəçi ailələrin uşaqlarına 400 kq taxıl, 3000 manat pul və 3 kq yağ, yardım fonduna Cəhri kəndindəki kolxozdan 12.000 manat pul, Şıxmahmud kənd zəhmətkeşləri tərəfindən 1000 kq taxıl, Qoşadizə və Yuxarı Uzunoba kənd kolxozlarından isə xeyli taxıl və pul köməklikləri edilmişdir [104. 2014. 9 may].

Müharibə illərində Ordubad rayonunda qızıl əsgər ailələrinə kömək məqsədi ilə aşağıdakılar toplanıb verilmişdir: Ərzaq və taxıl 78393 kiloqram, o cümlədən taxıl 61860 kiloqram, 2436 cüt ayaqqabı, 1620 ədəd paltar, 3873 sentner yanacaq (odun), 2375 sentner yem (heyvanların ehtiyacı üçün), 179000 manat nəğd pul, 2862 ədəd müxtəlif sənaye malları toplanıb verilmişdir.

Qızıl əsgər ailələrindən 183 nəfərin evi təmir edilmiş, 37 nəfərə isə yeni yaşayış evləri, 428 nəfərə isə dirrik yerləri verilmişdir. Bu müddət ərzində rayonun qızıl əsgər ailələrinə 3229672 manat yardım, hərbi ailələrə isə 228494 manat pensiya verilmişdir [58, v. 63, 64, 74].

Müharibə illərində respublikada vətən müharibəsi əlillərinə geniş miqyasda tibbi yardım təşkil edilmişdi. Onlara dövlət pensiyası, pulsuz protez verilir, yüksək dərəcədə tibbi

yardım göstərilirdi, xüsusi əlillər evi yaradılmışdı. Sanatoriya, istirahət evləri və sağlamlıq ocaqlarının geniş şəbəkəsi onlara xidmət göstərirdi [26, s. 83].

Şahbuz rayonunda olan qızıl əsgər ailələrinə köməklik və yardım edilmiş, onlar üçün hər cür şərait yaradılmışdır. Təkcə 1945-ci ilin 10 ayında qızıl əsgər ailələrinə 469 ədəd geyim paltarı, 425 cüt çust, 5.573 kq taxıl, 15 kq yağ, 156 kq pendir, 156 litr süd və mal-qaranın yeməsi üçün 245 sentner yem yardım edilmişdir. Bundan başqa 10 nəfərə yeni ev verilmiş, 58 nəfər bacarığına görə işə düzəldilmiş, 150 nəfər uşaq evinə verilmişdir. Birdəfəlik 4.000 manat pul yardımı edilmişdir [98.1945.7 noyabr].

1945-ci ilin noyabr ayının 1-nə kimi Naxçıvan rayon (Babək) və şəhər üzrə cəmi 293 nəfər ordudan qayıdanlardan 257 nəfəri işə düzəldilmişdir. Ən çox ehtiyacı olanlara 1213 ədəd müxtəlif sənaye malları verilmişdir. 32 nəfərin evi təmir edilib, 16 nəfərə isə yeni ev verilmişdir. Naxçıvan (Babək) rayonunun ayrı-ayrı kəndlərində yaşayan ordudan buraxılanlara 5900 kq taxılyardım edilmişdir [49, v. 125].

Culfa rayonunda hərbi qulluçu ailələrinin vəziyyətini yaxşılaşdırılmaq məqsədi ilə 1943-1944 və 1945-ci illərdə 488683 manat maddi yardım, 285311 manat təqaüd və 34050 manat birdəfəlik yardım edilmişdir. Bundan əlavə hərbi qulluqçu ailələrinə 500 ədəd paltar, 200 metr parça və s.yeyinti şeyləri ilə köməklik edilmişdir. 3 nəfər hərbi qulluqçu ailəsinin evi təmir edilmiş, 160 nəfəri işə düzəlmiş və 85 nəfərin dirrik yeri sürülüb əkilmişdir. 60 nəfər hərbi qulluqçu ailəsinin uşağı bağça və yaslılara verilmişdir. Hərbi qulluqçu ailələrindən 231 nəfəri dövlət tədarükatlarından və vergilərdən azad edilmişdir. Vətən müharibəsi əlilləri tamamilə işə düzəldilmişdir [57, v. 31].

Müharibə illəri ərzində Naxçıvan MSSR-də sovet, partiya və ictimai təşkilatlar və rayon hərbi komissarlıqları tərəfindən hərbi qulluqçu ailələrinə cəbhəçilərə və vətən





müharibəsi əlillərinə aşağıda göstərilən maddi yardımlar edilmişdir: 23126 ailəyə 2895 sentner ərzaq məhsulu, 20412 ailəyə 2447 sentner taxıl verilmişdir. 5164 nəfər 5243 ədəd geyimlə, 4305 ailə 7698 ədəd sənaye malları ilə, 8968 nəfər isə 10168 cüt ayaqqabı ilə təmin edilib. 7546 sentner odun, 629 ailəyə 781 baş mal-qara, 10240 sentner mal-qara üçün yem, 4197 ailə 930 hektar bostan üçün torpaq sahəsi ilə, 740 ailə 9387 kq toxumla təmin edilmiş və 982 ailəyə 33 hektar bostan üçün yer şumlanmışdır. 892 ailəyə 172.778 rubl birdəfəlik pul yardımı edilmiş, 214 ailə mənzil sahəsi ilə təmin olunmuş və 820 ailənin mənzili təmir edilmişdir. 7852 nəfər müxtəlif peşələri öyrənmiş, 17039893 rubl dövlət yardımı və pensiya verilmişdir. Vətən müharibəsi əlili 1178 nəfər işlə təmin edilmişlər [36, v. 9].

## MƏDƏNİYYƏT

**Təhsil.** Müharibənin başlanması ilə əlaqədar muxtar respublikanın başqa sahələrində olduğu kimi təhsil sistemi də çətinliklərə rast gəlir. Çoxlu ailə başsız qalır. Muxtar respublikanın məktəblərində çalışan 771 nəfər müəllimdən 570-dən çoxu döyüş cəbhələrinə gedir. Orduya gedən müəllimlər qısa müddətli kurs qurtaranlarla əvəz olunurdu ki, bu da dərslərin keyfiyyətinə təsir etməyə bilməzdi.

Sənədlərdən məlum olur ki, 1942-ci ilin fevral ayına olan məlumata görə Naxçıvan şəhəri üzrə 116 nəfər, Culfa rayonu üzrə 14 nəfər, Ordubad rayonu üzrə 11 nəfər, Əbrəqunus (Culfa) rayonu üzrə 40 nəfər, Şahbuz rayonu üzrə 60 nəfər, Şərur rayonu üzrə 177 nəfər və Naxçıvan (Babək) rayonu üzrə 52 nəfər müəllim hərbi komissarlığa ərizə verərək cəbhələrdə vuruşmaq üçün göndərilmələrini xahiş etmişdilər [37, v. 19].

Müharibənin ilk günlərindən Naxçıvan şəhərindən: Cəfər İmanov, Məmməd Məmmədov, Əsgər Axundov, Məmməd Ramazanov, Əqil Mirişli, Rüstəm Rüstəmov, Kamil Sadiqov, Qasım Qasımov, Heydər Məmmədov, Yunus Qasımov, İmamqulu İmamquliyev, Əkbər Məmmədov, Məmməd Bektaşi, Tağı Tağıyev, Qəzənfər Əkbərov, Əkbər Əliyarov, Hüseyn Tağıyev, Məmməd Əliquliyev və başqaları, Culfa rayonundan: Qurban Əliyev, Hacı Kətanov, Novruz Novruzov, Qurban Abbasov, Əli Əliyev, Hüseyn Cəfərov, İbrahim İbrahimov, Rza Məmmədov və başqaları, Ordubad rayonundan: İsmayıl Əsgərov, Baba Hacıyev, Nağı Babayev, Salman Süleymanov, Qurban Rəfiyev, Rza Tahirov, Məmməd Hacıyev, Yunis Mirzəyev, Nəcəfqulu Nəcəfov, Həmid Rzayev və başqaları, Naxçıvan (Babək) rayonundan: Hacı Rzayev, Ələkbər Səfərov, Müzəffər Məmmədov, Sultan Hüseynov, Cəlal Rəcəbov, Abdulla Abdullayev, Əsgər Axundov, Əli Müslümov, Əkbər Məmmədov, Yusif Əliyev, Əli Quliyev, Həsən Bayramov,





Səməd Seyidov, İsrafil Rəhimov, Cəlal Məhərrəmov, Əli Nəcəfov, Yadulla Kərimov, Həsən Həsənov, Əli Əlizadə, Məmməd Nəcəfov, Əlixan Nağıyev, Sərdar Quliyev, Vəliyəddin Əliyev, Əşrəf Zalov, Kərəm Mehdiyev, Hüseyn Bayramov, Adil Seyidov, Əzim Əliyev, Yunis İsmayılov, Veysəl Quliyev, Məhərrəm Məmmədov, Əliqulu Əkbərov, Qurban Qurbanov, Əli Cabbarov, Vəli Əliyev, Əbrəqunus (Culfa) rayonu üzrə: Əlixan Məmmədov, İsmayıl İsmayılov, Əşrəf Əliyev, Hüseyn Rzayev, Səfər Səfərov, Həsənqulu Əsgərov, Abbas Məmiyev, Yaqub Məmmədov, Həsən Qasımov, Yəhya Seyidov, Cəfər İmanov, Ənvər Abbasov, Hüseyn Abbasov, Şərur rayonu üzrə: Əliheydər Rəhimov, Məmməd Quliyev, Abdulla Abdullayev, Rəhim Rəhimov, Əhməd Əliyev, Salman Hacıyev, Abdulla Qəhrəmanov, Mamed İbrahimov, Əkbər Əkbərov, Məhərrəm Xəlilov, Qurban Əliyev, İsmayıl Bayramov, Əbülfəz Hüseynov, Həbib Babayev, Yunis Həsənov, Qənbər Qurbanov, Əziz Həsənov, Hüseyn Tağıyev, Əziz Orucov, Bilal Hüseynov, Nağı Nağıyev, Həbib Məmmədov, Cəfər Mehdiyev, Əsgər Əsgərov, Məmməd İsmayılov, Məmməd Seyidov, Əhməd Axundov, Əyyub Talıbov, Vəli Salmanov, Əzim Seyidov, Məmmədəli Cəlilov, İsmayıl Quliyev, Mirabbas Seyidov və başqaları 22 iyun 1941-ci ildən 1 sentyabr 1942-ci ilə kimi Qızıl Ordu sıralarında döyüş cəbhələrində iştirak etmişdilər.

Böyük Vətən müharibəsi illərində Naxçıvanın mərd oğlu və qızları alman faşist işğalçılarına qarşı rəşadətlə vuruşaraq ölkəmizin istiqlaliyyəti və azadlığı uğrunda şücaət göstərmiş və saysız-hesabsız qurbanlar vermişlər.

Döyüşdə fərqlənən, orden və medal alanların sırasında muxtar respublikanın yüzlərlə müəllimləri də var idi [155, v. 12].

Bunlardan şəhər üzrə aşağıdakı müəllimləri göstərmək olar: Vəliyev Kərəm "Qafqazın müdafiəsi" və "Qələbə" medalı ilə, Qurbanov İsfəndiyar "Qələbə" medalı ilə, Rəcəbli Qasım "Hərbi xidmətə", "Stalinqradın müdafiəsinə", "Qələbə" və

"Varşavanın alınmasına" görə, Seyidli Səməd "Hərbi xidmətə görə", "Qafqazın müdafiəsi" və "Qələbə" medalı ilə, Axundov Abdulla "Şərəf" ordeni ilə, Cəfərli Əsəd, İmanov Cəfər, Abdullayev Məhəmmədəli, Məmmədov Əkbər "Qələbə" medalı ilə, Əsgərov Abbas "Qələbə" və "Qafqazın müdafiəsinə görə", Eminov Ağa "Şərəf" ordeni ilə, Abdullayev Qəzənfər "Qələbə" medalı ilə təltif olunmuşlar.

Naxçıvan (Babək) rayonu üzrə: Məmmədov Müzəffər "Qələbə" medalı ilə, İmanov Səyyad "İgidliyə görə" medalı ilə, Əliyev Əkbər "Stalinqradın müdafiəsinə" görə, Həsənov İbadulla "Qələbə" medalı ilə, Allahverdiyev Yaqub "İgidliyə görə", Nəcəfov Məmmədbağır "Şərəf" medalı ilə, Məmmədov Allahverdi "Qələbə" və "Kensberqin alınmasına görə" medalları ilə, Məmmədov Qulam "Şərəf" ordeninin 2-ci və 3-cü dərəcəli, "Qələbə" və "Praqanın alınmasına görə" medalı ilə, Kələntərli Süleyman "İgidliyə görə", "Qafqazın müdafiəsinə" və "Qələbə" medalları ilə, Teymurov Əli "Qafqazın müdafiəsinə görə" medalı ilə, Səfərov Adil "Qələbə" medalı ilə, Əliyev Bəhlul "Stalinqradın müdafiəsinə görə", Qasımov Həsən "Qafqazın müdafiəsinə görə", Sultanov Tarxan "Şərəf ordusunun igidliyə görə" və "Qafqazın müdafiəsinə" görə medalları ilə, Məmmədov Əkbər, Məmmədov Hüseyn, Məmmədov Hidayət "Qafqazın müdafiəsinə görə" medalı ilə, Abbasov Nəcəf "Qələbə" medalı ilə mükafatlandırılmışlar.

Şərur rayonu üzrə: Camalov Məmməd "Boqdan Xmelinski" orden və "Qafqazın müdafiəsi" medalı ilə, Abdullayev Abdulla "Şərəf" ordeni ilə, İsmayılov Məmməd "Qafqazın müdafiəsi" medalı ilə, Həsənov Əziz "Qırmızı Ulduz" ordeni ilə, Həsənov Abdulla "Qırmızı Ulduz" ordeni və "İgidliyə görə" medalı ilə, Məmmədov Qulam "İgidliyə görə" medalı və "Qırmızı Ulduz" ordeni ilə, Rəhimov Əli "Qırmızı Ulduz" ordeni, "İgidliyə görə", "Qələbə" və "Qafqazın müdafiəsi" medalları ilə, Nəcəfov Nəcəf "Qafqazın müdafiəsi" və "Qələbə" medalları ilə, Tağıyev Həsən "İgidliyə görə",





"Qafqazın müdafiəsi" medalları ilə, Ağayev Həsən "Aleksandr Nevski" ordeni, "Qafqazın müdafiəsi" və "Qələbə" medalları ilə, Məmmədov Məhərrəm "Qələbə" medalı ilə, Məmmədov Həbib "İgidliyə görə" medalı ilə, Qafarov Əli "İgidliyə görə" və "Qələbə" medalları ilə, Qafarov Kamil "Qırmızı Ulduz" ordeni və "Qələbə" medalı ilə, Əliyev Həsənalı "İgidliyə görə" və "Qafqazın müdafiəsi" medalı ilə, Mərdanov Əhməd "Qırmızı Ulduz" ordeni və "İgidliyə görə", "Qafqazın müdafiəsi" medalları ilə, Rzayeva Asiya "Qafqazın müdafiəsi" medalı ilə, Əbdülhüseynov Hüseyn "İgidliyə görə" və "Qələbə" medalları ilə, Əliyev Əli "İgidliyə görə" və "Qafqazın müdafiəsi" medalları ilə, Məmmədov İbrahim "Qələbə" ordeni və "İgidliyə görə" medalı ilə və s. təltif olunmuşlar.

Ordubad rayonu üzrə: Bayramov Sadıq "İgidliyə görə" medalı ilə, Abbasov Nadir "Qafqazın müdafiəsi" medalı ilə, Səfərov Səfər "Qafqazın müdafiəsi" medalı ilə, Əbrəqunus (Culfa) rayonu üzrə: Mirzəyev Məmmədəli "Qırmızı Ulduz" ordeni və 2-ci dərəcəli "Şöhrət" ordeni, "Stalinqradın müdafiəsi" və "Qələbə" medalı ilə, Fərəcov Yusif "İgidliyə görə" və "Qələbə" medalları ilə, Nəsirov Hüseyn "Qırmızı Ulduz" ordeni, "Stalinqradın müdafiəsinə görə", "Hərbi xidmətə görə" və "Qələbə" medalları ilə, Əliyev Zellabdın "Hərbi xidmətə görə" və "Qələbə" medalları ilə, Əliyev Abbasqulu "Qırmızı Ulduz" ordeni və "Qələbə" medalı ilə, Səfərov Səfər "Qafqazın müdafiəsinə görə" medalı ilə, Məmmədov İmran "Qələbə" medalı ilə təltif olunmuşlar.

Şahbuz rayonu üzrə: Rüstəmov Seyfulla "Qırmızı Ulduz" ordeninə, Hacıyev Əşrəf "Qələbə" və "Qafqazın müdafiəsinə" görə medalına layiq görülmüşlər.

Həmçinin Böyük Vətən müharibəsi illərində arxa cəbhədə əmək rəşadətləri göstərmiş onlarca müəllimlərimiz dövlətimiz tərəfindən orden və medallarla təltif edilmişdir ki, bunlardan Əliyev Əli ibrahim oğlu "Qırmızı Əmək Bayrağı" ordeni ilə, Vəlibəyov Hüseyn "Lenin" ordeni ilə, Abdullayev

Cavad "Qırmızı Əmək Bayrağı" ordeni ilə, Qənbərli Əli "Əməkdə Fərqlənmə" medalı ilə, Əliyev Bəhlul "Əməkdə Fərqlənmə" medalı və başqalarının adlarını çəkmək olar.

Bunlarla yanaşı, müharibə illərində muxtar respublikada xalq maarifinin inkişafında və şagirdlərə elmi biliklərin öyrənilməsində və tərbiyəsində böyük əmək sərf etmiş bir çox müəllimlərimizə "Azərbaycan Respublikasının əməkdar müəllimi" və "Naxçıvan MR əməkdar müəllimi" kimi fəxri adlar verilmişdir.

Müharibə illərində 13 nəfər müəllimə "Azərbaycan Respublikasının Əməkdar müəllimi" və 35 nəfər müəllimə "Naxçıvan MR əməkdar müəllimi" adı verilmişdir ki, bunlardan Lətif Hüseynzadə, Həsən Qazıyev, Hüseyn Bağırov, Şura Cəfərova, Əsgər Əsgərov, Əlimərdan Əlizadə və başqalarının, "Azərbaycanın əməkdar müəllimi" fəxri adı verilmiş Mircəfər Mirişli, Xurşud Zamanova, Rəhim Qazıbəyov, Əsəd Məfərli, İdris Səlimov, Əkbər Əkbərov, Əli Məmmədov, Mənsurə Abbasova, Ramazan Əliyev, Tovuz Sadıqzadə və başqalarını qeyd etmək olar [55, v. 21].

1941-ci il avqust ayının 1-də Naxçıvan şəhər müəllimlərinin müşavirəsi olur. Müşavirədə ölkə müdafiəsini möhkəmləndirmək məqsədilə müəllimlərin öz əmək haqqlarından Qızıl Orduya müəyyən miqdarda verməladmin haqda XMTŞ- nin müdiri H. Məmmədov çıxış edir və şəhər müəllimləri öz əmək haqlarından 5 günlük miqdarında dövlət müdafiə fonduna verilməsini qərara alırlar.

Muxtar respublikamızın məktəbləri tank dəstəsinin yaradılması fonduna 1942-ci ilin yanvarına kimi 1.279.357 manat pul toplayıb keçirmişlər. Bundan başqa Dəmirçi məktəbinin pionerləri bir gün ərzində 25836 manat toplayıb həmin fonda keçirmişlər.

Şərur rayonunun Maxta kənd məktəbinin komsomolçusu və pionerləri "Azərbaycanın gənc pionerləri" tank dəstəsinin yaradılması üçün 13.550 manat toplayıb keçirmişlər.





Qarabağlar kənd məktəbinin komsomolçu və pionerləri bu işə daha böyük təşəbbüslə qoşulmuşlar. VII sinif şagirdi Mədətov Qaraş Məmməd oğlu 31 dekabr 1942-ci ildə kəndin gənclərinin yığıncağında çıxış edərək, tətildə qazandıqları 10.000 manat pulu tank dəstəsinin fonduna vermişdir [78, v. 3-4].

Q.Mədətovun çıxışından sonra muxtar respublikanın bir çox kənd və şəhər məktəblərinin şagirdləri bu təşəbbüsə qoşulmuşlar. Məsələn, Naxçıvan MR Babək rayonunun Qaraxanbəyli kənd məktəbinin komsomolçusu Cəfərov Rza Qara oğlu tətil zamanı qazandığı 20000 manatı, Məzrə kənd məktəbinin komsomolçusu Hüseynəliyeva Zeynəb İbrahim qızı 10000 manat, Naxçıvan şəhər 1 №-li məktəbin pioneri Əliyeva Maral Bayram qızı tətil zamanı Orax kolxozunda qazandığı 10000 manatı, Xalxal kənd məktəbinin komsomolçuları 10000 manat, Bulqan kənd məktəbinin şagirdləri 8000 manat, Qaraçuq kənd məktəbinin komsomolçusu və pionerləri 35000 manat pul və 2000 kq buğda toplayaraq "Azərbaycan gənc kolxozçusu" tank dəstəsinin inşasına keçirmişlər [55, v. 41-49].

1942-ci ilin avqustun 26-da Ordubad rayon müəllimlərinin müşavirəsi olmuşdur. Müşavirədə Ordubad rayon XMŞ-in müdiri Əsgərov yoldaş çıxış edərək demişdir ki, 1941-1942-ci ilin dərs ili xalqımızın Hitler və onun quldur dəstələrinə qarşı apardığı vətən müharibəsi şəraitində keçirilmişdir. Vətən müharibəsinin ağır günləri məktəb həyatında öz təsirini göstərmişdir. Rayonun müəllimləri və məktəbliləri vətənimizin başının üstünü alan ciddi təhlükəni başa düşürlər. Bunların bütün fikri düşməni darmadağın etmək üçün cəbhəyə və vətənə kömək etməkdir. Bu işdə müəllimlər və məktəblilər öz qüvvə və bacarıqlarını əsirgəmirlər. Onlar istirahətlərini təxirə salmışlar. Yay günlərində rayon kolxozlarında 61 müəllim və 726 şagird işləyərək yay müddətində 19155 əmək günü qazanmışlar. Xüsusilə Dəstə məktəbinin 103 nəfər şagird və müəllimi 4537 əmək günü, Parağa orta məktəbindən 87 nəfər 875 əmək günü, Nurs məktəbindən 21 nəfər 764 əmək günü, Dırnısdan 39 nəfər

875 əmək günü qazanmışlar. Rayon müəllimləri və məktəblərinin gördükləri işlər təkcə bundan ibarət deyildi. Rayon məktəbləri keçən dərs ili ərzində 295 ton metal qırıntısı, 143 sovqat, 21469 manat nəğd pul, 25000 istiqraz vərəqəsi, 121 dəst isti paltar və sairə toplayıb ölkənin müdafiə fonduna vermişlər [74, v. 66].

Naxçıvan rayon: (Babək) XMTŞ-in müdiri H.Məmmədov yoldaş 1941-1942-ci il dərs ilinin II yarısı haqda məruzəsində qeyd edirdi: "Vətənimizin müdafiəsində Azərbaycan xalqının fəxr etdiyi qəhrəman oğullarından Kamal Qasımov, İlyas İsmayılov, Hüseynbala Əliyev, İsrafil Məmmədov cəbhə qarşısında öz qəhrəmanlıqlarını göstərdiyi kimi, müəllimlər də arxa cəbhədə öz işlərində var qüvvələri ilə çalışaraq 1941-ci ilin noyabr ayına kimi rayon məktəblərimizin müəllim və şagirdləri tərəfindən qızıl ordu döyüşlərinə və müdafiə fonduna 1 ədəd qızıl sırğa, 26696 manat istiqraz vərəqəsi, 10087 manat nəğd pul, 120 kq mis, 700 ədəd dəri, 190 cüt yun corab, 170 cüt əlcək, 150 ədəd sabun, 55 ədəd sovqat bağlaması, 50 ton dəmir və şagirdlərimizin yay tətili zamanı kolxozda qazandıqları əmək günü hesabına 54564 manat pulu müdafiə fonduna vermişlər.

21 sentyabr 1943-cü il tarixli "Şərq qapısı" qəzeti yazırdı: Şərur rayonunun zəhmetkeşləri, xüsusən komsomolçu gənclər doğma vətənimizi yırtıcı düşməndən mərdliklə təmizləməkdə olan şanlı Qızıl Ordumuzun 416-cı Taqanroq diviziyasının qorxmaz döyüşçülərinə böyük sevinclə hədiyyə toplayırlar [105.1943.21 sentyabr].

Başlanan işin ilk günlərində 21 kiloqram yağ, 560 yumurta, 200 dəftər, 70 qələm, 53 paket, 275 iynə, 29 sap, 10 litr spirtli içki və başqa əşyalar toplamışlar. Mahmudkənddəki Telman adına kolxozun üzvləri bu sahədə daha yaxşı iştirak edirlər. Onlar 3 kiloqram yağ, 50 yumurta, 60 iynə, 12 sap, 15 paket toplamış və bir baş qoyun vermişlər. Bu kolxozda Çerkask oblastının bərpa edilməsinə kömək də böyük





müvvəfəqiyyətlə nəticələnir" [74, v. 1-6].

1 iyul 1943-cü ildə Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin fərmanı ilə Xalq maarifi sahəsindəki xidmətlərinə və fədakarlıqla işlədiklərinə görə bir qrup müəllimə "Əməkdar müəllim adı" verilmişdir. Bu müəllimlərin sırasına muxtar respublikamızdan aşağıdakı yoldaşlar: Ordubad şəhərindəki Pedaqoji texnikumun rektoru Əli Həsənli oğlu Qənbərliyə, Naxçıvan şəhərindəki ikiillik Dövlət Müəllimlər İnstitutunun müəllimi Lətif Talıb oğlu Hüseynzadə və həmin institutun müəllimi Həsən Xəlil oğlu Qazıyevə verilmişdir" [74, v. 66].

1940-1941-ci ildə 144 məktəb vardı və bu məktəblərdə 18000 şagird oxuyurdusa, 1941-1942-ci il dərs ilində müəllimlərin sayı 153-ə, onlarda oxuyan şagirdlərin sayı isə 18850-ə çatdırılır. Müharibə başlamazdan əvvəl muxtar respublikada 27 orta məktəb vardısa, 1943-1944-cü dərs ilində 36 orta məktəb fəaliyyət göstərirdi [75, v. 1-6].

1943-1944-cü dərs ilində muxtar respublikada məktəblərin sayı 180-da çatdırılır. Həmin məktəblərdə 25201 nəfər zəhmətkeş balası təhsil alırdı.

Muxtar respublikada 1941-ci ildə 575 nəfər uşağı əhatə edən 23 uşaq bağçası, 1942-ci ildə 625 nəfər uşağı əhatə edən 25 uşaq bağçası, 1943-cü ildə 675 nəfər uşağı əhatə edən 27 uşaq bağçası, 1944-cü ildə isə 850 nəfər uşağı əhatə edən 32 uşaq bağçası fəaliyyət göstərmişdir [ 74, v. 110].

Əgər 1944-1945-ci dərs ilində muxtar respublikada müəllimlərin sayı 978 nəfər, bunlardan 27 ali təhsilli, 169 nəfəri ali-orta, 693 nəfəri orta və 89 nəfəri natamam orta təhsilli idi [75, v. 1-6].

Muxtar respublikanın məktəblərində pedaqoji kadrlara olan ehtiyacı nəzərə alaraq Naxçıvan MSSR Xalq Komissarları Soveti 2 fevral 1945-ci il tarixli qərarı ilə Naxçıvan şəhərində yenidən pedoqoji texnikumunun açılması haqda qərar qəbul edir. Həmin qərarda yazılır: "Naxçıvan MSSR-in məktəblərində pedaqoji kadrlara olan ehtiyacı nəzərə alaraq 1945-ci il

sentyabrın 1-dən Naxçıvan şəhərində iki fakültədən ibarət 60 nəfərlik pedoqoji texnikumunun açılması üçün Naxçıvan MSSR Xalq Maarif Komissarlığına icazə verilməsi AZ.SSR XMŞ-dən xahiş edilsin" [ 75, v. 6].

Əgər 1942-ci ildə Xalq Təhsil Nazirliyinə 5.597.000 vəsait ayrılmışdırsa, 1944-cü ildə 16.611.100 manat vəsait ayrılmışdır ki, buda respublika büdcəsinin 55%-ni təşkil edirdi [ 75, v. 111].

Muxtar respublikamızın mərd oğulları, o cümlədən müəllimləri alman-faşist işğalçılarına qarşı apardığı azadlıq mübarizəsində yüksək adlar qazanmışdır. Naxçıvan müəllimlərindən Qəzənfər Əkbərov yoldaş "Sovet İttifaqı Qəhrəmanı" adı almışdır. Müəllimlərimizdən Məhərəm Məmmədov "Aleksandr Nevski", Məmməd Camalov "Boqdan Xmelinski", Cəlal Hüseynov "Qırmızı Ulduz", Məmmədbağır Bağırov "Slova" ordenləri və başqa medallar almışlar. Beləliklə Naxçıvan müəllimlərinin cəbhələrdəki rolu az olmamışdır [70, v. 28].

Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında 1942-ci ilin birinci rübündə 1888 təşviqatçını birləşdirən 208 təşviqat məntəqəsi var idi. Kənd ziyalılarından ibarət olan bu təşviqatçıların qüvvəsi ilə respublikanın ən uzaq yaşayış məntəqələrində belə bolşevik təşviqatının kəsərli sözləri kolxozçu kəndlilərin şüuruna çatdırılırdı.

Naxçıvan dövlət teatrının artistləri də təşviqat kollektivlərinin işində fəal iştirak edirdilər. Təkcə 1942-ci ilin birinci rübündə teatr kollektivinin 7438 nəfəri əhatə edən 184 çıxışı olmuşdur.

Azərbaycan SSR və Naxçıvan MSSR-in məktəblərində pedaqoji kadrlara olan ehtiyacı nəzərə alaraq Azərbaycan SSR Xalq Komissarları Sovetinin 23 iyul 1939-cu il 3041 nömrəli qərarına əsasən Naxçıvan MSSR Xalq Komissarları Sovetinin 14 avqust 1939-cu il tarixli 450 nömrəli qərarı ilə yaradılan Naxçıvan Dövlət Müəllimlər İnstitutu 1939-cu il sentyabrın 15-də cəmi iki fakültə ilə (dil-ədəbiyyat, fizika-riyaziyyat)





fəaliyyətə başlamışdır [32, v. 80].

Naxçıvan Dövlət Müəllimlər İnstitutunun ilkin fəaliyyət illəri çox ağır dövrə, 1941-1945-ci illərə təsadüf etsə də, tələbə kontingenti və digər sahələrdə yaranmış bir sıra çətinliklər və ciddi problemlər institutun pedaqoji heyətinin əzmini qıra bilmədi. Onların gərgin və fədakar əməyi sayəsində müharibə illərində institut öz fəaliyyətini dayandırmadı və həmin illərdə əyani şöbənin 4 fakültəsi (dil-ədəbiyyat, fizika-riyaziyyat, tarix, təbiət-coğrafiya) üzrə institutu 166 nəfər bitirə bildi [68, v. 24-25].

Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin 17 dekabr 1943-cü il tarixli fərmanı ilə Naxçıvan Dövlət Müəllimlər İnstitutuna böyük mütəfəkkir Cəlil Məmmədquluzadənin adı verilmişdir [105, 1943, 23 dekabr].

Burada qiyabi təhsilə də xüsusi diqqət verilmiş, həmin dövrdə qiyabi təhsil sistemi ön plana çəkilməklə, həm də pedaqoji kadrların seçilib təhsilə cəlb olunmasında müəyyən uğurlara şərait yaradıldı.

SSRİ XKS-nin 18 dekabr 1943-cü il tarixli 1398 nömrəli, Azərbaycan XKS-nin 8 yanvar 1944-cü il tarixli "Qiyabi pedaqoji təhsil sistemini möhkəmləndirmək tədbirləri haqqında" qərarlarına uyğun olaraq Azərbaycan SSR Xalq Maarif komissarı Mirzə İbrahimovun imzaladığı 15 yanvar 1944-cü il tarixli 9 №-li 14 maddədən ibarət əmrin 1-ci bəndində deyilirdi: "1 və 2 №-li əlavələrə əsasən kontingent üzrə 80%-dən az olmayaraq azərbaycanlı qəbul etmək şərtilə, pedaqoji məktəblər, müəllimlər institutu və pedaqoji institutlar yanında qiyabi təhsil şöbələri şəbəkəsi təsdiq edilsin" [80, v. 1-3].

Qeyd olunan qərarın icrası ilə əlaqədar Naxçıvan Dövlət Müəllimlər İnstitutunda 1943-1944-cü tədris ilində 42 nəfər, 1944-1945-ci tədris ilində 86 nəfər [67, v. 3], 1945-1946-cı tədris ilində 147 nəfər qiyabi təhsilə cəlb edir [67, v. 33-37].

Müharibənin ilk günlərindən Naxçıvan Dövlət Müəllimlər İnstitutunun müəllim və tələbələrinin də xeyli hissəsi

səfərbər edilərək döyüş cəbhələrinə göndərilmişdi. Müharibə illərində müxtəlif cəbhələrdə vuruşan həmin döyüşçülərin keçdiyi döyüş yoluna nəzər salınarkən onların həqiqi mənada, əsl vətənpərvər kimi şanlı bir yol keçdikləri və Vətən qarşısında öz borclarını ləyaqətlə yerinə yetirdikləri məlum olur.

İnstitutun müəllim, tələbə və məzunlarından Yunis Məmmədəli oğlu Qasımovun, Əsgər Yusif oğlu Əhmədovun zabit kimi cəbhədə böyük şücaətlər göstərməsi, Əli Abdulla oğlu Talıbovun müharibənin ilk günlərindən Leninqrad cəbhəsində qəhrəmanlıqla vuruşaraq 1-ci və 2-ci dərəcəli Vətən müharibəsi, "Qırmızı Ulduz" ordeni ilə təltif olunması, Əli Həsən oğlu Babayevin Oryol və Kursk döyüşlərindəki qəhrəmanlıqlarına görə bir neçə orden və medalla təltif olunması, Kamil Alcəfər oğlu Qafarovun 1941-ci ildən Berlinin alınmasına qədər ağır bir döyüş yolu keçməsi, Həbib Allahverdi oğlu Rzayevin, Sultan Məşədi Əzizbəyov oğlu Zeynalovun, Abbasqulu Məmmədqulu oğlu Quliyevin və onlarla digərlərinin şücaətləri Naxçıvan Dövlət Müəllimlər İnstitutunun qələbə uğrunda mübarizəyə köməyinin təcəssümü idi.

İnstitut tələbələrindən və məzunlarından Qəzənfər Əkbərovun (1917-1944), Nəcəfqulu Rəfiyevin (1912-1972) və Abbas Quliyevin (1916-1998) "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülmələri Naxçıvan Dövlət Müəllimlər İnstitutunda vətənpərvərlik tərbiyəsinin yüksək səviyyədə aşılanmasını göstərir və qələbənin qazanılmasında institutun mühüm rol oynadığını sübut edir [28, s. 31].

İnstitutun müəllim və tələbələri arxa cəbhədə də böyük fədakarlıqlar göstərirdilər. Müharibə illərində Naxçıvanda əməkdar müəllim adına layiq görülənlərdən 4 nəfəri (Əsəd Cəfərli, Abbas Əsgərov, Həsən Qazıyev, Nəsir Məmmədov) Naxçıvan Dövlət Müəllimlər İnstitutunun əməkdaşları idi.

Müəllim və tələbələrin cəbhəyə göndərilməsi mövcud tələbə kontingentini xeyli aşağı saldığı kimi, 1941-1942-ci tədris ilindən etibarən tələbə qəbulunda da xeyli çətinliklər





yaratdı. Belə ki, 1941-1942-ci tədris ilindən 1944-1945-ci tədris ilinə qədər institutun bütün fakültələri üzrə (dil-ədəbiyyat, tarix, fizika-riyaziyyat, təbiət-coğrafiya) tələbə qəbulu ciddi kəsirlə yerinə yetirilməklə yanaşı qəbul olunanların da xeyli hissəsi müharibə şəraitində obyektiv səbəblər üzündən institutu bitirə bilmədi [28, s. 31-32].

İnstitutun müəllimləri rayonlara gedərək qiyabiçi tələbələr üçün müxtəlif mövzulu məruzələr oxuyur, mətbuatda və yerli radioda elanlar verilir, qəbulun şərtləri və qiyabiçilərə verilən güzəştlər haqda məlumatlar rayonlara çatdırılırdı. Arxiv sənədlərində müharibə illərində müəllimlərdən rayonlara 16 briqada göndərildiyi, həmçinin Əli Sultanlının "Homer və onun epoxası", Müzəffər Nəsirlinin "Qorkinin həyat və yaradıcılığı", Lətif Hüseynzadənin "Sabirin həyat və fəaliyyəti" mövzularında maraqlı məruzələr oxumaları qeyd olunmuşdur.

Ziyalıların yaradıcı qüvvələrini azğın düşmənin darmadağın edilməsinə doğru yönəltmək üçün partiya-kütləvi işin əsas formalarından biri də mitinq və yığıncaqlar keçirilməsi idi. Naxçıvanda keçirilən mitinqdə tibb elmləri namizədi Hacı Qasımov sanki bütün sovet ziyalılarının fikir və iradəsini ifadə edərək demişdi: "Biz, sovet həkimləri qudurmuş Hitleri və onun alçaq dəstəsini tamamilə darmadağın etmək üçün bolşevik partiyamızın, qüdrətli Sovet hökumətimizin hər bir göstərişini dərhal yerinə yetirməyə hazırıq" [12, s. 29-31].

Kiçildilmiş formada deyilən bu faktlar Böyük Vətən müharibəsi illərində, ağır imtahan günlərində Naxçıvan maarif ordusunun vətənə hədsiz sədaqətini parlaq şəkildə nümayiş etdirir. Bu faktlar göstərir ki, xalqın sarsılmaz dostluğu və qardaşlığı, qarşılıqlı yardımın cəbhə ilə arxanın birliyi alman faşizmi üzərində tarixi qələbəmizin həlledici amili olmuşdur.

1945-ci ildə Naxçıvan Dövlət Müəllimlər İnstitutunun elmi şurasının iclas protokolundan aydın olur ki, institutun baş müəllimləri Hüseynov Əli Məmməd oğlunun "Hadinin ictimai və siyasi baxışları", baş müəllim Nəsirli Müzəffər Qasım

oğlunun "Azərbaycan şeirinin texniki və poetik xüsusiyyətləri", baş müəllim Tutayuk Murad Xaspolad oğlunun "Naxçıvan MSSR-də Xalq təhsilinin inkişafı" mövzularında namizədlik dissertasiya mövzuları təsdiq edilmişdir [68, v. 3-26].

Ümumiyyətlə, belə nəticəyə gəlmək olar ki, müharibə illərində kollektivin əzmkarlığı və gərgin fəaliyyəti institutun iş tempinin zəifləməsinə imkan vermədi. Bu, həm də Azərbaycanda elmin, ictimai-siyasi fikrin və xalq təhsilinin inkişafında mühüm rol oynayan Naxçıvan Dövlət Müəllimlər İnstitutunun müharibə illərində qələbə uğrunda mübarizəyə köməyi idi [28, s. 30-35].

***Elm.*** Naxçıvan diyarı qədimdən Azərbaycanın mühüm elm mərkəzlərindən olmuşdur. XX əsrin 20-ci illərindən Naxçıvan MSSR müasir elmin əksər sahələrində böyük inkişaf yoluna qədəm qoydu. "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin Naxçıvan şöbəsinin yaradılması (1925) diyarın zəngin təbii sərvətlərinin aşkara çıxarılmasında, tarix, elm və mədəni irsinin öyrənilməsində əhəmiyyətli rol oynadı. Azərbaycan EA-nın yaradılması (1945) muxtar respublikada da elmin inkişafına güclü təkan verdi. Muxtar respublikada elmi idarələr, o cümlədən Araz (Naxçıvan) Kompleks-Zona Təcrübə Stansiyası, Naxçıvan Elmi-Tədqiqat Baytarlıq Stansiyası, Elm və Texnika Mərkəzi, Şamaxı Astrofizika Rəsədxanasının Günəşi Müşahidə Stansiyası yaradıldı.

Bu dövrdə Naxçıvan Dövlət Müəllimlər İnstitunda aparılan elmi-tədqiqat işləri diqqəti cəlb edirdi. SSRİ XKS yanında Ümumittifaq Ali Məktəb İşləri Komitəsinin "Ali məktəblərdə aspirantlar hazırlanmasını yaxşılaşdırmaq tədbirləri haqqında" 2 yanvar 1944-cü il tarixli əmrinə müvafiq olaraq C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutu da həmin sahəyə diqqəti artırdı. Azərbaycan XMK Ali və Pedaqoji Məktəblər İdarəsinin məsul işçisi Mustafayevin imzaladığı 30 iyun 1945-ci il tarixli geniş arayışda Naxçıvan Dövlət Müəllimlər İnstitutunda iki nəfərin namizədlik dissertasiyasını





tamamlaması (Əli Əliyevin dissertasiyasının Moskvada resenziyada olması, Nəsir Məmmədovun "M.F. Axundovun dramaturgiya dili" mövzusunda dissertasiyasının resenziyadan qayıdaraq üzərində axırıncı iş getdiyi) və əlavə olaraq 6 nəfərin namizədlik imtahanlarına hazırlaşdıqları qeyd olunmuşdur.

Həmin arayışda 1945-ci il iyunun 26-dək institut Elmi şurasının 8 iclasının keçirildiyi 6 kafedrada (hərbi, pedaqogika, dil-ədəbiyyat, təbiət-coğrafiya, fizika-riyaziyyat, Marksizm-Leninizm əsasları) təkcə 1945-ci il ərzində 3 elmi konfrans, 2 tələbə elmi konfransı keçirildiyi, hərbi, siyasi və elmi mövzuda 28 mühazirə oxunduğu, tələbələrin vətənə məhəbbət ruhunda, qələbəyə inam ruhunda tərbiyə olunmalarına xüsusi fikir verildiyi göstərilmişdir.

28 sentyabr 1944-cü ildə Azərbaycan K(b)P Naxçıvan Vilayət Partiya Komitəsinin büro iclasında "Naxçıvan MSSR-də Azərbaycan Elmlər Akademiyasının elmi bazasının təşkili haqqında" məsələ müzakirə edilərək qərar qəbul edilmişdir. Qərarda göstərilir: Azərbaycan SSR Xalq Komissarları Soveti və Azərbaycan K(b)P MK-nin "Naxçıvan MSSR-də Elmlər Akademiyası filialının elmi bazasının təşkili haqqında" 4 noyabr 1943-cü il tarixli qərarına əsasən Naxçıvan MSSR Xalq Komissarlar Soveti və Azərbaycan K(b)P Naxçıvan Vilayət Partiya Komitəsi bürosu qərara alır:

1. 1 sentyabr 1944-cü ildən Naxçıvan şəhərində Elmlər Akademiyası filialının

Elmi bazası təşkil edilsin.

2. Naxçıvan şəhər sovetinə (Hüseynov yoldaşa) 2 ay müddətində elmi işlərin

aparılması üçün yararlı 10-12 otaqdan ibarət yer seçməsi və Azərbaycan Elmlər Akademiyası filialının Elmi bazasına təqdim etməyi tapşırılsın.

3. Naxçıvan MSSR Xalq Komissarlar Sovetinin nəzdində Dövlət Plan Komitəsinə (Vəkilov yoldaşa) Elmi baza üçün zəruri avadanlıqlar və materiallar ayrılması

tapşırılsın.

4. Elmi baza işçilərinin aşağıdakı tərkibi təsdiq edilsin:
   1) Məmmədov Ş.N - bazanın rəhbəri, texnika elmləri namizədi.
   2) İmanov D - baza rəhbərinin əvəzedicisi, Müəllimlər İnstitutunun dekanı.
   3) Tutayuk M.N - bazanın elmi katibi, Müəllimlər İnstitutunun baş müəllimi.
   4) Məmmədov M.N - bazanın baş elmi işçisi, Müəllimlər İnstitutunun direktoru.
5. Bazanın rəhbəri Ş.Məmmədov yoldaşa elmi tədqiqat işləri üzrə tədbirin

müvafiq profilinin müəyyən edilməsi tapşırılsın [36, v. 57-58].

Azərbaycan elmində böyük xidmətləri olmuş, Azərbaycan Elmlər Akademiyasının prezidenti olmuş, naxçıvanlı Yusif Məmmədəliyev 1931-ci ildə Moskva Dövlət Universitetinin kimya fakültəsini bitirib vətənə qayıdır. 1936-cı ildə yazdığı "Azərbaycan təbii qazları və onların emalı" adlı ilk kitabında ölkəmizdə üzvi kimyanın geniş perspektivlərini müəyyənləşdirir. 1938-ci ildə Moskva Dövlət Universitetinin elmi şurası ona kimya elmləri namizədi alimlik dərəcəsi verir.

Müharibə dövrünün ən böyük elmi işlərindən biri də o idi ki, 1942-ci ildə Y.Məmmədəliyev "Aromatik karbohidrogenlərin alkilləşməsi və dialkilləşməsi yolu ilə toluolun sintezi" adlı doktorluq dissertasiyası müdafiə edərək kimya elmləri doktoru elmi dərəcəsi alır. Müharibə illərində böyük alim cəbhə aviasiyası üçün yüksək keyfiyyətli benzin, eləcə də müdafiə sənayesinin "çörəyi" sayılan toluolunun alınması və sənaye miqyasında istehsalı sahəsində müstəsna əhəmiyyəti olan işlər gördü. Y.Məmmədəliyev II Dünya müharibəsi cəbhələrində alman faşizmi üzərindəki qələbədə bir ordudan da çox xidmətlər göstərdi. Məhz buna görə də 1943-cü ildə Stalin mükafatına layiq görüldü [20, s. 122-123].

XX əsr Azərbaycan elminin korifeylərindən biri olan





akademik Həsən Məmmədbağır oğlu Abdullayev 1941-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsini bitirmiş və üç ilə yaxın Ordubad şəhərində müəllimlik etmiş, 1944-cü ildə Bakıya köçmüş H.Abdullayev SSRİ EA Azərbaycan filialının fizika-riyaziyyat bölməsində elmi fəaliyyətə başlamış, bir il sonra aspiranturaya daxil olmuşdur. Məhz həmin dövrdən H.Abdullayev bütün ömrünü fizika elminin çox aktual və maraqlı bir sahəsinə - yarımkeçiricilər fizikasına həsr etmişdir [20, s. 125-126].

AMEA Naxçıvan bölməsinin yaradılmasına həsr olunmuş (2002) müşavirədə Ulu Öndərimiz Heydər Əliyev qeyd etdi ki, "...Vaxtilə Azərbaycanda ilk dəfə 1945-ci ildə Elmlər Akademiyası təşkil ediləndə onun bir neçə bölgədə şöbələri, yaxud təşkilatları yaradılmışdı. Bildiyimə görə, ilk dəfə Akademiyanın Naxçıvan şöbəsinə bizim hörmətli, qocaman müəllimimiz Lətif Hüseynzadə başçılıq etmişdir...".

Elmi mərkəz öz fəaliyyəti dövründə, xüsusən Böyük Vətən müharibəsi ərəfəsində və müharibə illərində respublikada elmin daha da tərəqqisində mühüm rol oynamış, respublikamızda elmi tədqiqatın böyük mərkəzinə çevrilmişdir. Bu dövrdə elmi idarələrin və elmi işçilərin əməyi alman faşizminin darmadağın edilməsində öz bəhrəsini verdi. Yalnız kimya sahəsində Y.Məmmədəliyevin ixtiraları mühüm əhəmiyyətə malik olmuşdur [93, s. 143].

***Ədəbiyyat.*** Xalqın dinc həyat sürdüyü, yaradıcı əməklə məşğul olduğu dövrdə ədəbiyyatın əhəmiyyəti nə qədər böyükdürsə müharibə günlərində, bütün xalq silaha sarılaraq öz vətənini düşməndən qorumağa qalxdığı zaman bu əhəmiyyət daha da artır.

Şairin bir misrası, yazıçının bir cümləsi, qanlı döyüşlərdə vuruşan döyüşçüyə çatarkən onun ruhunu təzələyir, qoluna qüvvət, gözünə nur verir, qəlbindəki vətən eşqini artırır, düşmənə qarşı kinini daha da kəskinləşdirir. Bədii ədəbiyyatın hər bir sözü döyüşçü üçün ana laylasından şirin olur. Çünki

ədəbiyyatın səsi vətən səsidir, xalqın səsidir, onun səsində ananın da, atanın da, yarın da səsləri birləşir, doğma yurddan uzaq düşmüş döyüşçünün qulaqlarını ahəngdar bir musiqi kimi oxşayır. Müharibə dövründə Naxçıvanda bir sıra yazıçılar və şairlər fəaliyyət göstərirdilər. Onların bir neçəsi hələ 1928-ci ildə Naxçıvanda yaradılmış Azərbaycan Yazıçıları Birliyinin Naxçıvan filialının üzvü idilər. Həmin üzvlərə Nəsirli Müzəffər, Hüseynqulu Əzimov, Əkbər Əkbərov kimi yazıçıları misal göstərmək olardı. Müharibə dövründə bu birliyə daxil olmayan lakin onun fəaliyyətində yaxından iştirak etmiş şair və yazıçılar da var idi. Buraya Nağı Nağıyevi, İslam Səfərli, Məmmədəli Tarverdiyev, Əbilfəz Abbasquluyev, Əhməd Mahmudlu, Əsgər Səfərov, Ruqiyyə Nadirova, Rəfiqə Bağırova, Hüseyn Əzim, Əli Kazımov, Cavad Cavadov, Yusif Zeynalov, Hüseyn İbrahimov, Hüseyn Razi, Əli Hüseynov, Nehrəmli Həsən (Sultanov), İzzət Tağıyeva, Yəhya Seyidov və başqaları daxil idi. Həmin dövrlərdə yazılan əsərlər əsasən Naxçıvanda o dövrdə fəaliyyət göstərən qəzet və jurnallarda nəşr etdirilirdi. Bunlara "Şərq qapısı" qəzetini, "Ədəbiyyat" qəzetini, "Vətən uğrunda" jurnalını göstərmək olar.

Müharibə dövrünün daha gənc və öz yaradıcılığı ilə tanınan yazıçısı Nağı Nağıyev bir sıra əsərlərin müəllifi idi. N.Nağıyev müharibədən qayıtdıqdan sonra Azərbaycan K/B/P-nın Naxçıvan Vilayət Komitəsinin informasiya şöbəsinin müdiri vəzifəsində işləmiş və həmçinin də Yazıçılar Birliyinin Naxçıvan Filialında da işləmişdir. O, öz yaradıcılığında əsərlərini xalqı düşmənlə barışmazlığa və fədakar əməyə ruhlandırmağa yönəltmişdir. Bunlardan "Polat", "Səadət" və başqa əsərlərini göstərmək olar. O, "Polat" 5 pərdəli dram əsərini 1944-cü ildə yazmış və həmin əsər Naxçıvan Dövlət Dram Teatrında oynanılmışdır. Bundan başqa o həmin dövrlərdə "Zərifə və Qəhrəman", "Həkim" povestini, 7 şəkildə olan "Hal əhliləri" komediyasını və bir neçə hekayələr yazmışdı. Nağı Nağıyev həmçinin rəssamlıqla da məşğul olmuşdur [105.1945, 3 iyul].





Müharibə dövrünün vətənpərvər şairlərindən biri də İslam Səfərli olmuşdur. İ.Səfərli "Şərq qapısı" qəzetinin redaksiyasında işləmiş və 1938-ci ildə ədəbi yaradıcılığa başlamış və əsasən şeirlər yazmışdı. Şair ədəbi yaradıcılığa başlayanda onun 17 yaşı vardı və ilk şerini də "Ədəbiyyat qəzeti"ndə çap etdirmişdir. Şair böyük vətən müharibəsi dövründə Şimali Qafqazda, Kırımda, Ukrayna, Pribaltika cəbhələrində döyüşmüşdür. O istər müharibənin əvvəlindən cəbhəyə gedənə kimi və istərsə də, cəbhədə olduğu zaman özünün coşğun və alovlu şeirləri ilə döyüşçüləri və arxadakıları vətənpərvərliyə çağırmış və onları partiya və dövlət qərarlarının yerinə yetirilməsində ruhlandırmışdır [81, v. 2].

"Şərq qapısı" qəzetinin 25 iyun 1941-ci il tarixli nömrəsində ilk dəfə qələmə sarılaraq öz münasibətini ifadə edən Səməd Vurğunun "Bilsin ana torpaq, eşitsin vətən, müsəlləh əsgərəm mən də bu gündən" misraları ilə başlayan şeiri təqdim olunur. Azərbaycan şairinin ilk təqdimatı yerli qələm sahiblərinə bir çağırış olur. Elə həmin nömrədən başlayaraq naxçıvanlı şairlər mübariz ruhlu bədii nümunələrlə mətbuatda çıxış etməyə başlayırlar. Sözü qılıncdan kəsərli sayan görkəmli ədəbiyyatşünas Əziz Şərifin "Kəskin silah" adlı məqaləsində oxuyuruq: "Qoy, bizim də bədii sözümüz cəbhədəki igid döyüşçülərimizi, arxadakı yorulmaq bilməyən fəhlə və kolxozçularımızı, gözünü həsrət və ümidlə döyüş cəbhəsinə dikən ana və bacılarımızı ruhlandırsın, onlardan cəllad hitlerçilərə qarşı sarsılmaz ədavət yaratsın, onları qarı düşmənə qarşı mübarizə üçün istər cəbhədə, istərsə də arxada səfərbərliyə alsın". Ədib öz məqaləsində Azərbaycan söz ustalarının kəskin silahdan səmərəli istifadə etməyi bacardığını, yaratdıqları əsərlərlə xalqı səfərbərliyə alaraq onun qoluna qüvvət, gözünə nur verdiyini Süleyman Rüstəmdən gətirdiyi misalla əsaslandırır:

Yer üzündə nə vardır ki,
əziz olsun vətəndən?
İnsan necə yaşar deyin,
can ayrılsa bədəndən?
Onsuz nədir bu dünyada
Yaşamağın mənası?
Odur bizim gözümüzün nuru,
Ağı, qarası.

"Şərq qapısı" qəzetinin 22 mart 1942-ci il sayında Hacı Əsgərovun minaatıcı Cəboş Şıxəliyevə ithaf etdiyi "Alqış vətənimin sadiq oğluna" başlıqlı şeiri dərc edilmişdir [105. 1942, 22 mart].

Qəzetin 3 aprel 1942-ci il tarixli nömrəsində müəllifi Həsən Fətullayev olan "Azərbaycan fəxr edir" başlıqlı bir şeir çap olunmuşdur.

Həmin şeirində həmyerlimiz Naxçıvan (Babək) rayonunun Şıxmahmud kəndində anadan olmuş Bəxtiyar Oruc oğlu Kərimovun Böyük Vətən müharibəsi cəbhələrindəki qəhrəmanlığı haqqında söhbət açmışdır: [105. 1942, 3 aprel]

Bu gün tarix aç sinəni, keçmişlərə göz vuraq,
Hər misrandan bir ölməyən dastan yazıb söz quraq.

Mənim məğrur laləzarlı ana yurdum bu gülşən,
Ömür boyu bir can kimi baş qaldırıb möhtəşəm

O, qoynunda böyütmüşdür aslan güclü övladın
Tarixlərə igidliklə yazmış onun şən adın.

Babəkinə süd verərkən öz döşündən anatək
Gül üzündə səadətlə qanad açmış gələcək.





Qoç Koroğlu at belində uçar ikən göylərə
Bu diyarın hər hünəri dastan olmuş dillərə

Düşmənə baş əyməmiş, baş əydirmiş həmişə
Qılıncından çarpan alov nur olmuşdur günəşə

Dinlə tarix, Babəkini, Koroğlunu dinlə bir
Getmişlərmi bu həyatdan o ölməyən pələng-şir?

Yox, getməmiş bu gün onlar baxın yenə yaşayır.
O ölməyən qüdrətləri mərd Kamallar daşıyır.

Cəbhələrdə bir dağ kimi çəkilmədən dayanıb
Səslənərək körpüləri yerə-göyə səs saldı,

Onun ölməz hünərilə günəş kimi boyanıb
Ana yurdun məğrur başı səmalara ucaldı,

Bu dik başlı anasına öz təmiz, tünd qanını
Söyləyərək, gənc Bəxtiyar qurban verdi canını

Hər igidin gözlərində şanlı zəfər güləcək
Onun büllur güzgüsündə əks edəcək gələcək.

Həyat minmiş kəhərinə gələcəyə yol gedir
Hər gərdişdə bir əməllə Azərbaycan fəxr edir.

8 avqust 1942-ci il buraxılışında isə müəllifi Zeynal Xəlil olan "Danışan sünbüllər" başlıqlı şeir dərc edilmişdir [105. 1942, 8 avqust].

1942-ci il avqustun 21-də yazıçı Məmməd Səid Ordubadi öz doğma şəhəri Ordubada gəlmişdir. Yerli sovet partiya və ictimai təşkilat nümayəndələri Azərbaycan SSR Baş Soveti deputatı, ordenli yazıçı M.S.Ordubadini səmimiyyətlə qarşıla-

mışlar. Həmin gün axşam M.S.Ordubadinin 70 illiyi və ədəbi fəaliyyətinin 50 illiyi münasibəti ilə respublika fəallarının nümayəndələrinin iştirakı ilə Ordubad rayon Mədəniyyət evində ədəbi – bədii gecə keçirilmiş və yazıçı ilə səmimi görüş təşkil olunmuşdur. Gənc şairlərdən olan H.Əzimov M.S.Ordubadiyə yazmış olduğu şeirini oxumuşdur [105. 1942, 23 avqust].

Yazıçı M.S.Ordubadinin anadan olmasının 70 illiyi və ədəbi fəaliyyətinin 50 illiyi ilə əlaqədar olaraq Ordubad şəhər xəstəxanası ilə mədəniyyət parkına M.S.Ordubadinin adı verilmişdir [105. 1942, 9 oktyabr].

M.S.Ordubadi adına muzeyin direktoru T.İbrahimovun "El həyatı" qəzetinin 25 iyul 2005-ci il tarixli nömrəsində "M.S.Ordubadi yaradıcılığı Böyük Vətən müharibəsi illərində" məqaləsində yazır: "Böyük Vətən müharibəsi illərində M.S.Ordubadi xalqımızın tarixini nəzərdən keçirərək mili istiqaliyyət və azadlıq uğrunda vuruşmuş qəhrəmanları seçmiş, onlar haqqında oçerk-məqalələr yazmışdır.

Şah İsmayıl Xətayidən və başqa vətənpərvərlərdən bəhs etdiyi "Tarix və qələbə" məqaləsində müharibə illərində xalqımızın keçmiş qəhrəmanlıq səhifələrini nəzərdən keçirməyin böyük əhəmiyyəti olduğunu izah edərək deyir ki, indi Azərbaycan xalqı öz qəhrəmanlıq tarixini bir daha nəzərdən keçirməlidir.

Bu illərdən Ordubadi yenə də satirik şeir-felyetonlar yazmağa başladı. Bu mənzum felyetonlarda o, faşist işğalçılarını ifşa edir, onların iddia etdikləri kimi "Yenilməz" olmadıqlarını xalqa və xüsusilə döyüşçülərə izah edir, faşist rejiminin qanlı siyasətinin ölüm və taunlar üzərində qurulduğunu başa salırdı. Müharibənin ilk aylarında faşizmin bütün vəhşiliyini, qeyri-insani sifətlərini hələ lazımınca bilməyən geniş kütlələrə onu lazımınca tanıtmaq, xalqın nifrətini çatdırmaq üçün şair bir sıra felyetonlar yazmışdır. Bunlardan "Canavarsan, canavar", "Hitlerin siqəxanasında", "Hitler cənnətində" və





s. göstərmək olar.

Bu illər Ordubadi "Serjant İvanov adına körpələr evi" və "Xəstəxana" hekayələrini yazır. Bu hekayələr ədibin müharibə illərində yazdığı ən səmimi və təsirli əsərlərindəndir. "Serjant İvanov adına körpələr evi" hekayəsində Sovet döyüşçülərinin böyük humanizmi, odlar alovlar içərisində belə insana, xüsusən körpələrə qayğı və məhəbbəti gözəl vermişdir.

"Gənc çekistlər" romanını ədib müharibənin birinci ilində yazmış və çapa vermişdir. Roman müharibə dövrü üçün əhəmiyyətli olan bir mövzudan bəhs edir. Burada ədib döyüş cəbhələrinə can atan gənclərin, komsomolçuların onların arxa cəbhədə fədakarlıqla çalışan ata-analarının, yoldaşlarının işini maraqlı tərzdə işıqlandıran bədii surətlər yaratmışdır. Eyni zamanda yazıçı faşist quldurlarının açıq və gizli vəhşiliklərindən bəhs edir, onların gizli fəaliyyətinə xalqın diqqətini cəlb etmək istəyir [16. 2005, 28 iyul].

Əziz Şərif qəzetin növbəti, 10 oktyabr 1942-ci il tarixli nömrəsində "Naxçıvanlı gənc şairlər Böyük Vətən müharibəsi günlərində" adlı məqalədə ötən nömrədə toxunduğu mövzunu davam etdirərək yerli şairlərdən Hüseyn Əzim, Hacı Əsgərov, Əsgər Səfərov, müəllim Əli Məmmədov yaradıcılığındakı vətənpərvərlik motivlərinə toxunur, bəzi nümunələri oxuculara təqdim edir.

Əziz Şərif məqaləsində yazır ki, Azərbaycan yazıçıları ailəsinin üzvü olan Naxçıvanın gənc şairləri də ana yurdun döyüş cəbhəsindən çox uzaqda olduğuna baxmayaraq, vətən müharibəsinin ilk günündən vətən qarşısında öz müqəddəs vəzifəsini düzgün anlayaraq, qələmini qalibiyyət uğrunda işlətmiş, əsərlərini sovet xalqının tarixində görünməmiş qəhrəman mübarizəsinə həsr etmişdir.

Şair üçün vətən hər şeydən şirin, hər şeydən əzizdir. Çünki vətən bizə həm anadır həm də bala, çünki bu vətəni hər bir sovet adamı öz qanı, öz təri, öz əməyi və hünəri ilə bəsləmiş, böyütmüşdür. Sovet vətəninin bu xüsusiyyətini gənc Nax-

çıvan şairi Əsgər Səfərov bir ananın dilindən bu cur tərənnüm edir:

Tərimizlə becərmişik axı biz bu torpağı
Qoyarıqmı heç toxunsun ona cəllad ayağı?

Öz təri ilə becərdiyi ana torpağa sovet xalqı qırılmaz tellərlə bağlıdır. "Vətən" adlı yüksək bədii qiymətə malik olan şeirində Əsgərov Hacı yoldaş bu coşğun misralarda vətənə müraciət edib deyir:

Sən ey qəlbim, sən ey hissim, vəfədarım ey vətən!..
Yaşadırsan yaşadıqca öz qoynunda bizi sən!..
Səhər-səhər könlüm quşu havalanır havada,
Vətən deyə qəlbim evi bəzənmişdir dünyada!..
Körpə könlüm bülbül kimi nəğmə oxur çəməndə.
Vətən adlı bir gözəlin məhəbbəti sinəmdə.

Vətənini bu cür qızğın məhəbbətlə sevən xalq söz yox ki, onu hər bir bəladan qorumağa, öz həyatını belə onun uğrunda verməyə hazırdır.

Xain hitlerçilər, sovet ölkəsinə hücum edərkən, onu bir-iki ayın ərzində diz çökdürmək xəyalı ilə yaşayırdılar, lakin mərdlik və vətənpərvərlik ruhunda tərbiyə alıb böyümüş qəhrəman Sovet xalqı köksünü düşmən qarşısında keçilməz bir qaya kimi gərib, onunla amansız mübarizə edir, hər qarış sovet torpağını düşmən qanına boyayır. Şair Əzimin dediyi kimi:

Bu vətən düşmənə əyməmiş başın.
İgidlər qoruyur hər kiçik daşın.

Bu vətəndə hər kəs özünü bir döyüşçü kimi hiss edir. Hər kəs yırtıcı faşistlərlə əlbəyaxa olmaq üçün can atır. Hüseyn Əzim bu fikri ifadə edərək yazır:

Mərd odur qatlaşa hər işgəncəyə,
Düşmənlə çırpışa pəncə-pəncəyə
Biz ki, mərd olmağı bildik əzəldən.
Qarşımda söhbət aç sən də hünərdən.

Lakin vətənini müdafiə edən qəhrəmanlar ordusu yalnız kişilərdən ibarət deyildi. Minlərlə sovet qadını əsgər şineli





geyib əlinə tüfəng alıb döyüş cəbhəsinə atılır və son damcı qanınadək vətən uğrunda mübarizə aparır. Sovet qadınının bu fədakarlığı haqqında ehtiraslı misralara biz Əsgər Səfərovun şerində rast gəlirik:

Görünməyir qorxu, kədər bizim qızda, qadında
Qüvvət yaşar, qüdrət yaşar mətin ana adında.

Hüseyn Əzim "Cəbhədən məktub" adlı şeirində bir qızıl döyüşçünün nişanlısına yazdığı sətirlərdə arxa ilə cəbhənin dostluğunu və möhkəmliyini belə göstərir:

Əsla incitməsin fəra qızım səni,
Köməyə çağırmış vətən məni.
Onda bir analıq məhəbbəti var,
Ana məhəbbətin kimlər unudar.

Döyüşçü rəfiqinin bu ehtiraslı məktubuna cavab olaraq sovet qızı belə düşünür:

Bildim ki, vətənin keşiyindəsən.
Düşmən min olsa da geri dönməzsən,
Vur! Alsın əlindən min yara düşmən,
Yadlara qalmasın bu əziz vətən
Məndə qış paltarı tikirəm sənə
Qışın şaxtasında geyin əyninə.
İncitməsin səni qarlar, küləklər,
Düşməsin qüvvədən sağlam biləklər.
Vur! Alsın əlindən min yara düşmən
Qələbə qazansın bu əziz vətən!

Ümumiyyətlə, 1930-cu ildən ədəbi fəaliyyətə başlayan Hüseyn Əzim Böyük Vətən müharibəsi illərində "Yadigar", "Terek Sahilində", "Vətən", "Gözü yolda qalan yar" kimi dolğun və təsirli şeirlərində öz həmyerlilərinin igidliklərini böyük məhəbbətlə təsvir edirdi. O, şeirlərinin birində vətən eşqini döyüşçünün əsas xüsusiyyəti kimi təqdim edir, vətən oğullarını cəbhələrdə qəhrəmanlıqla vuruşmağa çağırırdı:

Döyüşdə yüksəlir igidin adı.
Ana da çox sevir igid övladı

Azadlıq istəyən versin gərək qan,
Gərək ad qazansın hər işdə insan.
Hər kimin qəlbində vətən eşqi var,
Onun mərd əlləri dağı parçalar [2, s. 71-72].

Qəzetin 16 iyun 1942-ci il tarixli 139-cu sayında "Şəlalə" adlı romanın III hissədən bir parçasında partizan Telman haqda yazır:

"Qalın bir meşədir, ala qaranlıq
Ulduzlar parlayır səmada sıq-sıq
Oturmuş ağacın dalında İlham
Dinləyir onu bir qoca partizan
Şirin nəvazişlə ötür sözləri,
Süzülür qocanın iri gözləri.
Danışdıqca İlham, ötür kəlmələr:"
Yağıya baş əyməz bu azad əllər
Aslan yatağıdır hər dağın başı.
Sığınmış dağlara vətən qardaşı.
Bu el baş əyməmiş, əyməyəcəkdir,
Xalqımız əyilməz, yüksələcəkdir.
Ey kitablar! Yaranan qan dənizləri
Boğacaq əlilə siz həqsizləri.
İntiqam hökmünü verir bu ellər.
Qocalar, cavanlar, dilsiz körpələr.
Vəhşət gətirdiniz ellərimizə
Tarix baxacaqdır məhkəmənizə!
Hamı bir ağızdan dilə gələcək
Hitler boğazından asılsın gərək!
Dedikcə sözlərin Vüqarla İlham!
Parlayır gözündə qanlı intiqam
[105. 1942, 16 iyun].

Naxçıvanın tanınmış yazarlarından sayılan, 1949-cu ildən "Şərq qapısı" qəzetində əməkdaşlıq edən Hüseyn Razinin ilk yaradıcılıq məhsulu sayılan şeirləri məhz Böyük Vətən müharibəsi illərində qələmə alınmış və mütəmadi olaraq "Şərq





qapısı" qəzetində nəşr olunmuşdur. Qəzetin 10 oktyabr 1941-ci il tarixli 183-cü sayında dərc olunmuş "Partizanın andı" şerində gənc şair qəlbinin harayı hiss olunur:

Dünyalar baş əysin bu həqiqətə,
Xoş həyat yaradaq bəşəriyyətə,
Qıraq zəncirləri, daş qəfəsləri,
Ucalsın göylərə zəfər səsləri
Bizik məzlumlara böyük xilaskar,
Parlasın Berlində həqiqət, bahar!
[105. 1941, 10oktyabr]

Böyük vətən müharibəsi ərəfəsində və sonra Naxçıvanda ədəbi yaradıcılıqları ilə fərqlənən və yerli qəzetdə müntəzəm çıxış edən şairlərimizdən Ənvər Əylislinin şeirləri də doğma Vətənin tərənnümü və alman faşistlərinə qarşı nifrət hissinin ifadəsi baxımından maraq doğurur:

Sabah mən cəbhədən dostum tüfənglə
İki qardaş kimi verib əl-ələ,
İntiqam hissilə girib döyüşə
Şir kimi çarpışıb qıy vuram gərək
Düşməni söykəyib orda leş-leşə
Murdar cəsədindən dağ quram gərək!
Fikirim, düşüncəm, xəyalım budur,
Bu mənim qəlbimin ilk arzusudur!

1941-1945-ci illərdə kəsərli silah olan sözdən məharətlə istifadə etmək bacarığı olan şairlərdən Adil Babayev və Hacı Əsgərov yaradıcılığı da diqqətəlayiq nümunələrlə zəngindir. Yaradıcılığa yeni başlayan Adil Babayev nəzmindəki kəsərlilik sözün təsirini artırmaqla yanaşı, oxucuya çatdırmaq istədiyi qayəni daha aydın təqdim etməyə imkan verir:

Əzminlə yerləri, göyləri titrət,
Söylə ki, bitməzdir məndəki qüdrət,
Çəkil qabağımdan, ey cani düşmən!
Günəşi örtərmi bir qara zülmət?!

Hacı Əsgərov isə vətənpərvərlik ruhunda yazılmış şeir-

lərində daha çox müharibədə qəhrəmanlıq və şücaət göstərən döyüşçülərdən bəhs edir, onların timsalında Azərbaycan gənclərinə müraciət etməklə insanları döyüşə, düşmənlə vuruşa səsləyirdi. Şair Noraşen (Şərur) rayon Qıvraq kəndinin "Qırmızı Oktyabr" kolxozundan ordu sıralarına getmiş, Cənub-Qərb cəbhəsində alman işğalçılarına qarşı döyüşlərdə ən yaxşı minaatıcı kimi mərdlik və qəhrəmanlıq nümunəsi göstərərək "İgidliyə görə" medalı ilə təltif olunan Cəboş Şıxəliyevə ithaf etdiyi "Alqış vətənimin şanlı oğluna" şeirində qəhrəmanın keçdiyi döyüş yoluna nəzər salır, igidliyindən bəhs edir:

Gecədir səmada ulduzlar, aylar,
Görünür kənddə odlar, alovlar.
Bürüyür ətrafı atəşlər səsi,
Körpə uşaqların qəm və qüssəsi,
Kəndin sinəsində od qalananda,
Analar, bacılar tapdalananda,
Bir şimşəkli gözlə görərək sən də,
Vətənin, xalqının eşqi sinəndə.
Gəzirdi qəlbində acı bir xəyal,
Sığmırdı köksünə o alovlu hal…
Sən bu alovlara sinə gərərək,
İntiqam eşqiylə döyündü ürək.
Dedim: irəliyə əziz yoldaşlar!
Bu kənd köməyini bizlərdən umar.
Vurun zərbənizlə əzilsin düşmən,
Qoymayın odlara qalansın vətən….
[105. 1942, 22 mart].

Ədiblərimiz öz arzu və düşüncələrini nəzmlə yanaşı, nəsrlə də ifadə edərək oçerk, hekayə, pyes, dram janrlarda qəhrəmanlıq tarixini canlandıran və mətbuat səhifələrində yaşadan nümunələrlə çıxış edirdilər.

Böyük Vətən müharibəsi illərində məsul partiya işində çalışan jurnalist-yazıçı Məmmədəli Tarverdiyev döyüşlərdə iştirak etmiş həmyerlilərimiz haqqında bir sıra oçerklər qələmə





almışdır. Bundan başqa o, müharibə dövründə arxa cəbhə ilə atəş xətti arasındakı sarsılmaz əlaqəni əks etdirən "Zaman" pyesini yazmış və həmin pyes "Şərq qapısı" qəzetinin 1945-ci il iyul tarixli nömrələrində hissə-hissə oxuculara təqdim olunmuşdur.

Müharibə dövründə Nağı Nağıyevin də xidməti diqqətəlayiqdir. O, müharibə illərində ciddi ədəbi yaradıcılıqla məşğul olub "Polad" adlı pyes yazmışdır. Pyesdə sovet ordusunun qəhrəman və mübariz döyüşçülərinin sovet vətəninin azadlıq və istiqlaliyyəti uğrundakı misilsiz hünəri, Azərbaycan xalqının igid oğlu Poladın cəbhədəki qəhrəmanlığı öz əksini tapmışdır.

Nağı Nağıyevin vətənpərvərlik ruhunda yazılmış bu pyesi 1945-ci ildə Naxçıvan Dövlət Dram Teatrında müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur.

Müharibəyə kimi və müharibə dövründə Naxçıvanda yaşayıb-yaradan şairlərdən biri də Əkbər Məftun idi. O, hələ tələbə ikən ədəbi yaradıcılığa başlayaraq bir sıra şeirlərlə mətbuatda çıxış etmişdir. Onun uşaqlar üçün yazdığı "Kiçik heykəltaraş" adlı şeir kitabı Bakıda "Uşaq və gənclər" nəşriyyatı tərəfindən çap olunmuşdur.

Əkbər Məftun müharibə dövründə öz yaradıcılığını davam etdirərək Azərbaycan oğullarını qəhrəmanlığa çağıran şeirlər yazmışdır. Bunlardan Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevə həsr etdiyi "Sən könül mülkünün iftixarısan", "Xilaskar Ordu", "Ey vətən" kimi lirik şerlərini göstərmək olar.

Əkbər Məftun özünün vətənə sədaqətini, alman faşist işğalçılarına qarşı apardığı mübarizəsini "Partizanın hekayəsi" adlı şeirində ifadə etmişdir.

Beləliklə, qəzet səhifələrində dərc olunan materiallardan aydın olur ki, böyük vətən müharibəsi gətirdiyi ağrı-acılarla bərabər, gənclərdə yazıb-yaratmaq həvəsi oyatdı, ədəbiyyata yeni poetik nəfəsi olan gənclər gətirdi. İslam Səfərli, Davud Ordubadlı, Hüseyn İbrahimov, Əbülfəz Abbasquluyev kimiləri həmin dövrdən ədəbi yaradıcılığa başladılar.

Müharibə qələbə ilə qurtardı, bu böyük tarixi hadisə xalqın sevincinə, yaradıcı gənclərin coşğun ilhamına səbəb oldu. Cəbhəyə getmiş şairlər Müzəffər Nəsirli, İslam Səfərli və başqaları vətənə qayıtdılar. İstər gənclər, istərsə də yaşlı nəslin nümayəndələri yeni yaradıcılıq yoluna qədəm qoydular. Onlar böyük vətən müharibəsində xalqımızın mərdlik və şücaətini əks etdirən nikbin əhval-ruhiyyəli əsərlərlə bərabər quruculuq məsələlərinə aid hekayə, şeir və oçerklərlə mətbuatda çıxış etdilər.

***Mətbuat.*** Vətənin işğalçılardan azadlığı uğrunda mübarizədə sözün, xüsusən mətbuatın təsiri əvəzsizdir. Bu baxımdan XX əsrin ən dəhşətli mübarizəsi sayılan Dünya müharibəsi illərində Naxçıvan Muxtar Respublikasında bir sıra qəzetlər və jurnallar fəaliyyət göstərirdi.

Yarandığı gündən muxtar respublikamızın tarixini öz səhifələrində əks etdirən "Şərq qapısı" qəzeti Böyük Vətən müharibəsi illərində cəbhə qəhrəmanları ilə daim əlaqə saxlamış, onların qəhrəmanlıqlarından, muxtar respublika əməkçilərinin ön cəbhələrdə döyüşən oğul və qızlarımıza göndərdikləri hədiyyə və sovqatlardan, müdafiə fonduna və faşist işğalçılarından azad edilmiş şəhər və vilayətlərin sakinlərinə edilən yardımlardan geniş bəhs etmişdir. Qəzet eləcə də həmyerlilərimizin göstərdikləri igidliklərə görə aldıqları dövlət mükafatları haqqında, həmyerlilərimizin və komandirlərinin onların valideynlərinə, Naxçıvan Vilayət Partiya Komitəsinə, işlədikləri idarə, müəssisə və təşkilat rəhbərlərinə göndərdikləri məktubları dərc etmiş və eyni zamanda bu illərdə muxtar respublikanın ictimai-siyasi həyatında baş verən məlumatları vaxtaşırı öz səhifələrində işıqlandırmışdır.

Müharibənin başlanması haqqında ilk məlumat "Şərq qapısı" qəzetinin 25 iyun tarixli sayında dərc olunmuş Sovet Sosialist Respublikaları İttifaqı Xalq Komissarları Soveti sədrinin müavini və Xarici İşlər Komissarı V.M.Molotovun 22 iyun 1941-ci ildə radio ilə çıxışının tam mətnində verilir [100, s. 98-99].





"Şərq qapısı" qəzetinin 27 iyun 1941-ci il tarixli nömrəsində Noraşen (Şərur) rayonunun Yengicə kəndindən Zöhrəbanunun oğluna məktubu dərc edilir: "Əziz oğlum! Vətənimizin parlaq və dünya tarixi əhəmiyyəti olan nailiyyətləri faşist barbarların gözünə bıçaq kimi batır... Sənin hər bir möhkəm zərbən mənim üçün yüksək fəxrdir. Unutma ki, sənin qələbən mənim tarlamın daha da gözəlləşməsinə səbəb olacaq, müvəffəqiyyət vədimin doğrulmasına şərait yaradacaqdır. Bol məhsul əldə etməyimiz isə Vətənin müdafiəsi, şən həyat deməkdir" [105.1941, 27 iyun].

Qəzetin 22 oktyabr 1941-ci il nömrəsi faşist işğalçılarına qarşı qəhrəmanlıqla vuruşan döyüşçülərimizin ailələrinə yardım fondlarının təşkil edilməsi və ön cəbhədə vuruşan əsgərlərə hədiyyələr göndərilməsindən bəhs edərək qeyd edir ki, partiya və sovet təşkilatları tərəfindən ayrılmış komissiyaların və həmçinin əməkçilərin təşəbbüsü ilə 4 ay ərzində muxtar respublika müdafiə fonduna 120800 manat nəğd pul, 1 milyon 727 min manatlıq istiqraz vərəqəsi, 7 kq 700 qram qızıl-gümüş toplanaraq dövlət bankına verilmiş, tədarükat məntəqələrinə 66 ton taxıl, 64 ton ət, 2155 kq yun, 897 kq yağ, 10,6 ton tərəvəz, 3634 cüt yun corab, 1461 cüt yun əlcək və müxtəlif geyimləri toplanıb cəbhəyə göndərilmişdir [105.1941, 22 oktyabr].

2 fevral 1942-ci il tarixli nömrədə Naxçıvan (Babək) rayonunun Sirab, Cəhri, Əznəbürd və Xıncab kəndlərindəki kolxozlarda əsgər ailələrinə 2520 kq buğda, 1260 kq odun, mal-qara üçün 2700 kq saman, 332 kq arpa verilməsi qeyd edilmişdir [105.1942, 2fevral].

1942-ci il 6-22 və 26 mart nömrələrində Cənub-Qərb cəbhəsində alman-faşist işğalçılarına qarşı böyük mərdlik və qəhrəmanlıq göstərən həmyerlimiz, Şərur rayonunun Qıvraq kənd kolxozunun üzvü Cəboş Həsənoğlu Şıxəliyev haqqında geniş materiallar verilmişdir. 26 mart nömrəsində isə alman

faşist işğalçılarına qarşı döyüşdə fərqləndiyinə görə Cəboş Şıxəliyevin "İgidliyə görə" medalı ilə təltif edilməsi barədə məlumat və gənc şair Ə.Hacının (Əsgərov) Cəboş Şıxəliyevə ithaf etdiyi "Alqış vətənin sadiq oğluna" şeiri dərc edilmişdir [105.1942, 6,26 mart].

Həmin nömrədə minaatıcı Cəboş Şıxəliyevin üzv olduğu Qıvraq kənd "Qırmızı Oktyabr kolxozu"nun əməkçiləri 1941-ci ilin dövlət planlarını hər növ üzrə yerinə yetirməklə 8538 kq ət, 6280 kq yağ, 536 kq yun, 24 ədəd gön, 170 ədəd dəri, 5000 ədəd yumurta, 585 kq pendir və 22 ton taxıl verdikləri barədə məlumat dərc olunub [105. 1942, 26 mart].

7 mart 1942-ci il tarixli nömrədə dərc edilmiş "Gənclərin səsi" adlı yazıda Şərur rayonunda keçirilən mitinqdə qabaqcıl kolxozçu Səkinə Mustafayevanın çıxışı verilmişdir. Həmin çıxışda Səkinə deyir ki, "lazım gələrsə biz traktorçu qızlar da öz traktorumuzu böyük tanklar ilə əvəz edərək düşmən üzərinə gedəcəyik... Mən sizi bol məhsul uğrunda mübarizəyə çağırıram. Çünki bol məhsul düşmən üzərində qələbəmiz deməkdir" [105.1942, 7mart].

Həmçinin qəzetdə SSRİ Ali Soveti Rəyasət Heyətinin 1942-ci il 26 iyun tarixli fərmanından sonra Naxçıvan MSSR Xalq İctimai Təminat Komissarlığı üzrə qızıl əsgər ailələrinə 6 milyon 612 min 760 manat, cəbhədə döyüşən əsgərlərin ailə üzvlərinə 429 min 400 manat dövlət yardımı verilməsindən danışılır [105. 1942, 26 iyun].

Naxçıvan zəhmətkeşlərinin təşəbbüsü ilə əlaqədar olaraq SSRİ Xalq Komissarları Soveti və ÜİK(B) P Mərkəzi Komitəsi birgə qərar qəbul etmişlər. Bu qərar qəzetin 12 iyul 1942-ci il tarixli nömrəsində dərc olunmuşdur [105. 1942, 12 iyul].

Qəzetin 17 iyul 1942-ci il tarixli nömrəsində bir qrup naxçıvanlı döyüşçünün məktubu dərc edilmişdir. Onlar yazırdı:

"Hörmətli ata, ana, bacı və qardaşlarımız! Sizdən uzaq məsafədə yerləşən Vətən müharibəsi cəbhələrindən göndər-





diyimiz səmimi döyüş salamımızı qəbul edin. Sizi inandırırıq ki, biz Azərbaycan oğulları bu borcu sonadək namusla yerinə yetirəcəyik. Vətən yolunda öldü var, döndü yoxdur" [105. 1942, 17 iyul].

Qəzetin 28 iyul 1942-ci il tarixli nömrəsində gənclərin Naxçıvan şəhərindəki parkda keçirilən mitinqindən, həmçinin gənclərin arxa cəbhədə əməyindən, onların iməcilik yolu ilə müdafiə fonduna 329 min 422 manat pul verməsindən, döyüşçülərimizə müxtəlif isti geyim əşyalarının, Qara Dəniz Donanmasının qəhrəman döyüşçülərinə 12 min manatlıq hədiyyələr göndərmələrindən bəhs edilir.

Qəzetin 2 avqust, 12 sentyabr 1942-ci il tarixli nömrələrində Nehrəm və Ordubad rayon kənd məktəbinin müəllimləri və şagirdləri tərəfindən də taxıl yığımı və başqa təsərrüfat işlərində kolxozçulara yaxından kömək etmələri, Naxçıvan şəhər 1 nömrəli orta məktəbin müəllim və şagirdlərinin Qızıl Ordunun qəhrəman döyüşçülərinə bayram sovqatı olaraq 1400 manat dəyərində 10 bağlama, bundan başqa 7 dəri, 4 yun əlcək, 2 şarf, 1 şal, 2 portiyanka, 12 cüt yun corab və sairə göndərilməsi göstərilmişdir.

Qəzetin 23 avqust 1942-ci il tarixli nömrəsində cəbhədə vuruşan naxçıvanlı komsomolçu-gənclərdən baş serjant Məmməd Bağırovun, serjant Zeynalabdın Kazımovun, starşina Ağoş Mirişlinin, baş serjant həmid Mürsəlovun, serjant Əli Şeyxovun, serjant Əli Əliyevin, serjant Yunis Əliyevin, sürücü Qəşi Abbasovun, baş serjant İsmayıl İsmayılovun, kiçik leytenant Qocayevin və kiçik siyasi rəhbər İslam Səfərlinin Azərbaycan LKGİ Naxçıvan Vilayət Komitəsinə göndərdikləri məktub dərc olunmuşdur. Məktubda deyilir: "Naxçıvanın bütün zəhmətkeşlərinə, kolxozçularına, kolxozçu qadınlarına, fəhlələrinə, fəhlə qadınlarına, ziyalılarına bizdən alovlu qızıl əsgər salamı! Biz əlimizə silah alaraq əziz vətənimizin müdafiəsinə qalxmışıq. Vətən uğrunda son damla qanımız qalana qədər vuruşacağımıza və azğın düşmənə sarsıdıcı zərbələr vuracağımıza and içmişik.

Qoy qoca tarix bizim qəhrəmanlıq traditsiyalarımızı bir rübab kimi tərənnüm etdirsin: Biz cəbhələr aslanıyıq eşit tarix, eşit ana!

Silah tutub çarpışırıq ana vətən uğrunda.

İşimizin haqq olduğunu biz yaxşı bilirik. Qoy bütün atalarımız, analarımız, qohum, qardaşlarımız bilsinlər ki, biz haqq işi uğrunda vuruşuruq.

Naxçıvan gəncləri! Biz özümüzün və sizin alçaq alman faşistlərinə olan kinimizi süngümüzə yığaraq əclaf düşmənlərimizin köksünə sancacağıq. Biz düşmənlə mərdcəsinə vuruşduğumuz kimi siz də təsərrüfatla, dəzgah başında namusla çalışın. Cəbhəni vəölkəni hər cür namusla bol-bol təmin edin. Siz bunu yaxşı bilin ki, həyat mərdlərin, qoçaqların və həqiqət uğrunda mübarizə edənlərindir. Biz sizi əmin edirik ki, alçaq faşizmin məhv edilməsində qəhrəmanlıqla vuruşanların ilk sırasında olacağıq" [103. 1981, 26 dekabr].

Qəzet özünün 26 sentyabr 1942-ci il tarixli nömrəsində Naxçıvan rayon zəhmətkeşlərinin müdafiə fonduna və qızıl əsgərlərə 230 sırıqlı pencək, 1980 əlcək və yun corab, 940 dəst isti paltar, 2 min 200 ədəd dəri, 413 kiloqram yun, 1 kiloqram 112 qram qızıl, 6 kiloqram 961 qram gümüş, 872 min manat pul, 1 milyon 255 min manatlıq istiqraz vərəqəsi və sahibsiz uşaqlar üçün 11 min 467 manat pul verdiklərini bildirir [105. 1942, 26 sentyabr].

Qəzetin 10 oktyabr 1942-ci il tarixli nömrəsində Azərbaycan SSRİ xalq artisti Sidqi Ruhullanın Naxçıvana gəlməsi və Naxçıvan Dövlət Dram teatrında tamaşaya qoyulan "Vaqif" əsərində Qacar rolunda çıxış etməsi və teatrın kollektivi ilə söhbətlər aparması xəbər verilir, vətən müharibəsi günlərində aktyorların qarşısında duran vəzifələrdən bəhs olunur.

Böyük Vətən müharibəsi illərində qəzet gənc şairlərin vətənin müdafiəsində qəhrəmanlıqla vuruşanlar, arxa cəbhədə yorulmadan çalışanlara həsr olunmuş şeirləri də dərc edilmişdir.





Böyük Vətən müharibəsi illərində gənc şairlərimizlə bərabər ana-ataların övladlarına yazdıqları məsləhətli məktublar və şeirlər də dərc edilmişdir. Qəzetin 19 avqust 1943-cü il tarixli nömrəsində Naxçıvan şəhərinin Vorovski küçəsindəki 16 nömrəli evdə yaşayan Nərgiz Məmmədəliyevanın ön cəbhədə vuruşan oğlu Əliyə yazdığı şeiri dərc olunmuşdur:

Başına döndüyüm mərd oğlum Əli,  
Ananın yaqutu, incisi, ləli.  
Könlümün arzusu, dilim əzbəri,  
Var böyük ümidim yenə görüşək  
Bəslədim qoynumda bir aslan səni,  
Çək düşmən üstünə oğul, dəstəni.  
Qəlbində bərk saxla əziz Vətəni,  
Var, ölməz ümidim yenə görüşək.  
Patronu, tüfəngi götür dəstinə  
Şimşək kimi şığa düşmən üstünə.  
İgidlik yaraşır sənin şəstinə.  
Buna var ümidim yenə görüşək  
Ürəkli ol ürəyimin dayağı,  
Qəhrəman adını eşitsin yağı,  
Kəsilsin ölkədən düşmən ayağı  
Onda da var ümidim yenə görüşək.

Qəzetin 1942-44-cü ildə çıxmış nömrələrində Sovet İttifaqı Qəhrəmanları Abbas Quliyev, Qəzənfər Əkbərov, Nəcəfqulu Rəfiyev, cəsur komandirlərdən Akim Abbasov, Əsgər Əhmədov, Nemət Kərimov, Əli Məmmədov, Allahverdi Kərimov, Mehdi Mahmudov, İsmayıl Sayılov, Əsgər Hüseynov, Cəfər Məmmədov və onlarla başqalarının Böyük Vətən müharibəsindəki qəhrəmanlıqlarından danışılır [103. 1981, 26 dekabr].

Qəzetin 7 noyabr 1942-ci il tarixli nömrəsində muxtar respublika gənclərinin həmyerlimiz mayor Akim Abbasova göndərdikləri məktubu da maraqlıdır. Məktubda deyilir: "Əziz dostumuz və həmyerlimiz. Sən ümumi iş dairəsində həmişə bizimləsən. Sizin, eləcə də ölkədə arxa ilə cəbhənin əlaqəsi və

dostluğu getdikcə möhkəmlənir və artır. Biz çox yaxşı başa düşürük ki, yaxşı işləməyimiz sizin qəlbinizi təmin edir. Düşmənin tamamilə darmadağın və məhv olmasını yaxınlaşdırır.

Hörmətli Abbasov yoldaş! Biz Naxçıvan gəncləri sənin adına yeni bayram sovqatları göndərməklə öz məhəbbət və hörmətimizi sizə bildirir, vətən uğrunda, xalqımızın şərəfi və namusu uğrunda sonadək sönməz bir qüvvə ilə mübarizə etməyinizi arzu edirik. Bu yalnız bizim deyil, bütün ölkənin və xalqımızın arzusudur".

Qəzetin 8 iyun, 17 iyul, 10 avqust, 14 sentyabr tarixli nömrələrində dövlət yardımının verilməsi, əlilliyə görə hissədən azad edilmiş əsgər və komandirlərə dövlət fondundan yardım olması, onların işə düzəlməsi və sair məsələlərdən danışılır [103.1981, 26 dekabr].

Qəzetin 1, 18, və 23 sentyabr 1943-cü il tarixli nömrələrdə azərbaycanlı döyüşçülərdən təşkil olunmuş 416-cı Taqanroq diviziyasının döyüş şücaətindən və onun qorxmaz döyüşçülərinə hədiyyələrin göndərilməsindən danışılır.

Şərur rayon əməkçilərinin, xüsusən komsomolçu gənclərin 416-cı Taqanroq diviziyasının cəsur döyüşçülərinə 1943-cü ilin sentyabr ayında 21 kq yağ, 560 yumurta, 200 dəftər, 70 qələm, 53 paket, 275 iynə, 29 sap, 10 litr spirtli içki və başqa şeylər toplayıb göndərdikləri haqqında yazı 28 sentyabr 1943-cü il tarixli nömrədə verilmişdir.

Qəzetin özünün 26 sentyabr 1942-ci il tarixli nömrəsində Naxçıvan rayon zəhmətkeşlərinin müdafiə fonduna və qızıl əsgərlərə 230 sırıqlı pencək, 1980 əlcək və yun corab, 940 dəst isti paltar, 2 min 200 ədəd dəri, 413 kiloqram yun, 1 kiloqram 112 qram qızıl, 6 kiloqram 961 qram gümüş, 872 min manat pul, 1 milyon 255 min manatlıq istiqraz vərəqəsi və sahibsiz uşaqlar üçün 11 min 467 manat pul verdiklərini bildirir [103.1981, 26 dekabr].

Kənd təsərrüfatını və heyvandarlığı inkişaf etdirmək





haqqında hökumət tapşırıqlarını yerinə yetirdiklərinə görə Azərbaycan SSR-in 4585 nəfər qabaqcıl kolxozçusu, kənd təsərrüfat işçisinin orden və medalları ilə təltif edilməsi və bunların sırasında Naxçıvan MSSR-dən Yusif Həmzə oğlu Hüseynovun, Allahverdi Hüseynovun "Lenin ordeni" ilə, Şəmil Əlirza oğlu Rəsulzadənin "Qırmızı Əmək Bayrağı" ordeni ilə, İmamalı Nəcəfalı oğlu Hacıyev, Heydər Talıb oğlu Qənbərov və Mirzəmməd Cümşüd oğlu Yaqubovun "Əmək igidliyinə görə" medalı ilə, Hüseynqulu Pirqulu oğlu Əliyev, Səhər Ələsgərova, Səfərəli Zeynalabdın oğlu Cəfərov, Qurbanəli Zeynalabdın oğlu Pənahov və Məmməd İbrahimovun "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif olunmaları haqda yazı qəzetin 30 noyabr 1943-cü il tarixli nömrəsində öz əksini tapmışdır.

"Şərq qapısı"nın 6 dekabr 1943-cü il tarixli nömrəsində H.İbrahimovun "Qorxmaz kapitan" adlı məqaləsində cəsur komandir İsmayıl Sayılovun qəhrəmanlıqla vuruşmasından danışılır.

Böyük Vətən müharibəsi illərində qəzetlə yanaşı, gündəlik məlumatlar və Ali baş komandanlığın əmrləri vərəqə halında çap olunaraq zəhmətkeşlərə çatdırılırdı. Bu iş heç bir əmək haqqı almadan redaksiyanın əməkdaşı Əli Mirzəyev tərəfindən aparılırdı.

Qəzetin 10 yanvar 1944-cü il tarixli nömrəsində "Qızıl əsgər ailələrinə qayğı" sərlövhəli yazıda Naxçıvan rayonundan Qızıl ordu sıralarına alınmış döyüşçü ailələrinə 1943-cü il müddətində 2 milyon 465 min 600 manat dövlət təqaüdü, 17200 manat əlavə yardım, bundan başqa rayonun kolxozları tərəfindən döyüşçü ailələrinə 25500 kq buğda, 6500 kq arpa, 35 kq yağ, 585 kq pendir, 3506 kq ət verilməsi haqqında danışılır. Bu yazıda qəzetin 10 yanvar 1944-cü ildə Əbrəqunus (Culfa) rayonunun Noraşen kəndindəki 68 yaşlı Alı Bayramovun Böyük Vətən müharibəsi günlərində kolxozda böyük hünərlə çalışması göstərilir. "Vətənpərvər Alı

kişi" başlıqlı yazıda oxuyuruq: "Alı kişi gözünün ağı-qarası olan öz oğlunu qızıl ordu sıralarına yola salarkən "Arxayın ol, oğlum, mən təsərrüfatda səni əvəz edəcəyəm. Ancaq sən də Vətən qarşısında və qoca atanın qarşısında üzü qara çıxma"-deyə xeyir-dua verdikdən sonra oğlundan ayrılmışdır" [105. 1944, 10 yanvar].

Qəzetin 17 oktyabr 1944-cü il tarixli nömrəsində bir çox yazılarla yanaşı, Azərbaycan Yazıçılar İttifaqının Naxçıvan filialı, Naxçıvan Vilayət Partiya Komitəsinin təbliğat-təşviqat şöbəsi ilə birlikdə keçirilən Naxçıvanın gənc yazıçılarının yığıncağından danışılır. Yığıncaqda gənc yazıçı Hüseyn İbrahimov yazmış olduğu "Baloğlan" adlı pyesini oxumuşdur. Sonra Lətif Hüseynov, Əli Hüseynov, Əsgər Axundov, Əsəd Cəfərli, Kamil Bektaşi, Pəri İbrahimova, İsa Musayev, Məmmədəli Tarverdiyev çıxış edərək əsər haqqında öz fikirlərini söyləmiş və müəyyən məsləhətlər vermişlər [105. 1944, 17 oktyabr].

Yığıncağın sonunda H.İbrahimov çıxış edərək tənqidçilərə öz razılığını bildirmiş və əsər üzərində yenidən ətraflı işləyəcəyini qeyd etmişdir.

Qəzetin 7 fevral 1945-ci il tarixli nömrəsində muxtar respublikada tarlaçılıq və heyvandarlığı inkişaf etdirmək sahəsində yüksək göstəricilərə görə Şərur və Şahbuz rayonlarına Naxçıvan MSSR Xalq Komissarları Soveti və Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin keçici Qırmızı bayraqlarının verilməsi qeyd olunmuşdur [105. 1945, 7 fevral].

Mətbuat işi təkcə Naxçıvanda deyil, həmçinin də Şərur, Şahbuz, Ordubad və Əbrəqunus (indiki Culfa) rayonlarında da fəaliyyət göstərirdi.

Müharibə dövründə Noraşen (Şərur) rayonunda "Pambığa doğru" (1931-ci ildən), Şahbuz rayonunda "Sosializm maldarlığı" (1937), Ordubad rayonunda "Ordubad fəhləsi" (1937) və Əbrəqunus (indiki Culfa) rayonunda "Zərbəçi





heyvandar" (1938) qəzetləri nəşr olunurdu. Bu qəzetlərdə müharibə dövründə rayon zəhmətkeşlərinin düşmənlə mübarizə aparmağı, arxa cəbhədə görülən işləri işıqlandırılır, cəbhədən təzə xəbərlər, həmyerlilərimizin şücaətindən bəhs edən materiallar və foto-şəkillər dərc edilirdi.

Böyük Vətən müharibəsi illərində qəzet kollektiv təbliğatçı, kollektiv təşviqatçı və kollektiv təşkilatçı rolunu bacarıqla yerinə yetirmişdir.

***İncəsənət.*** Böyük Vətən müharibəsinin başlanması nəticəsində Azərbaycanda olduğu kimi, Naxçıvan teatrının yaradıcılığında da xeyli dəyişikliklər baş verdi. Əllərinə silah alaraq cəbhəyə yollananlar arasında Naxçıvan teatrının da kolektivindən var idi. 26 iyun 1941-ci il tarixli Naxçıvan Dövlət Dram Teatrının 140 №-li əmrindən məlum olur ki, müharibənin ilk günündən teatrın aşağıdakı işçiləri orduya yollanmışlar: Abbas Quliyev, Ə.Abbasov, Rza Məmmədov, Ə.H.Həsənov, M.Cəfərov, Ə.İmanov, F.Zalov, R.Qulubəyov, A.Hüseynov, Vəli Muxtarov, Tələt Nəcəfov, Musa Qasımov, Əziz Hüseynov [63, v. 30].

Ön cəbhədə vuruşan teatrın əməkdaşlarından biri Naxçıvan zəhmətkeşlərinin fəxr etdikləri Sovet İttifaqı Qəhrəmanı Abbas Şahbaz oğlu Quliyev idi. Onun komandir olduğu topçu bölüyü Visla çayının sahilində gedən ağır vuruşmalarda 5 gün fasiləsiz olaraq düşmənə sinə gərmiş, faşistlərin çoxlu texnikasını və canlı qüvvəsini sıradan çıxarmışdır. Bu döyüşdən ağır yaralı halda çıxarılan Abbas Quliyevə "Sovet İttifaq Qəhrəmanı" adı verilmişdir [79, v. 2].

O zamanlar "İzvestiya" qəzeti bu münasibətlə yazmışdı: "Naxçıvan teatrı A. Quliyevin şəxsində müvəqqəti də olsa, səhnə xadimini itirsə də, Sovet Ordusu onun simasında bacarıqlı və fədakar zabit əldə etmişdi" [103, s. 77].

Naxçıvan MR Dövlət Arxivində mühafizə olunan teatrın əmr kitablarından və "Şərq qapısı" qəzetlərindən məlum olur ki, 1941-ci ilin 6 ayında cəmi üç əsər tamaşaya

qoyulmuşdur. Bunlar C.Cabbarlının "Od gəlini" (30 yanvar 1941-ci ildə), M.H.Təhmasibin "Bahar" (fevral 1941-ci ildə), S.Rüstəmin "Qaçaq Nəbi" (8 aprel 1941-ci ildə) olmuşdur [63, v. 7, 13].

M.H.Təhmasibin 1941-ci ilin fevralında tamaşaya qoyulan "Bahar" pyesində rollarda: Rza Məmmədov və Əyyub Abbasov (Qaya), Mirhəsən Mirişli və Abbas Quliyev (Veyzəl Mirzə), Xədicə Qazıyeva və R.Ağayeva (Bahar), Ə. Hüseynov və Ə.İmanov (Qüdrət), Firuzə Əlixanova (Qumru), Telli Əkbərova (Laçın), Əyyub Haqverdiyev və Rza Tumbullu (Kərim Əmi), İbrahim Həmzəyev (Tərlan), T.Nəcəfov (Ədhəm), İ.Xəlilov (Vəli), Kazım Hüseynov (Professor) və başqaları oynamışdır [63, v. 3, 8].

1941-ci il mart ayının 21-də Naxçıvan Muxtar Respublikasında ümumi şəhər çalğıçılarının yığıncağı keçirilir. Yığıncaqda iştirak edən şəhər çalğıçıları belə bir qərar qəbul edirlər ki, gələcəkdə muxtar respublikada açılacaq filarmoniyaya hazırlıq üçün ansambl yaradılsın. Yaradılacaq ansamblın məşğələsi isə musiqi məktəbi binasında ayda 8 dəfə olaraq, şənbə və bazar günləri aparılacaqdır. Bu ansamblın rəhbəri Tapdıq Hüseynov seçilmişdir [60, v. 24].

Naxçıvan teatrının aktyorları tərəfindən 1941-ci il 20 sentyabrda Ə.Haqverdiyevin "Pəri cadu", 5 oktyabrda S.Rəhmanın "Toy", 17 sentyabrda isə O.Sarıvəllinin "Babək" əsərləri tamaşaya qoyulmuşdur [63, v. 53-54].

1942-ci ildə İncəsənət İdarəsi, Teatr və Musiqi məktəbində plan üzrə 91 nəfər ştat olmalı idisə, yalnız bunlardan 78 nəfəri fəaliyyət göstərmişdir. 1942-ci ildə teatr kolxozçulara və qızıl əsgərlərə bir sıra müxtəlif konsert tamaşaları vermək məqsədi ilə zərbəçi briqadalar təşkil edərək onlara işdən kənar olaraq böyük həvəslə xidmət etmişdir.

1942-ci ildə Böyük Vətən müharibəsi döyüşçüləri üçün teatrın kollektivi tərəfindən 12 ədəd bağlama, 3633 manat 50 qəpik nəğd pul, 88 ədəd yunlu dəri və 107 ədəd isti alt paltarı





göndərilmişdir. Musiqi məktəbinin kollektivi tərəfindən isə 2 yeşik bağlama, 15 ədəd qoyun dərisi, 2 ədəd teleqrelka və 1000 manat nəğd pul Qızıl Ordu döyüşçülərinə göndərilmişdir [59, v. 29].

Teatrın əmrlərində 1942-ci ilin əvvəllərində Naxçıvan Dövlət Dram teatrının aktyorları tərəfindən Osman Sarıvəllinin "Babək" (13 fevralda), Ü.Hacıbəyovun "Leyli və Məcnun" (15 fevral və 6 mayda), "Əsli və Kərəm" (28 fevral), Abdulla Şaiqin "Vətən oğlu", M.İbrahimovun "Məhəbbət" və s. əsərlərin hazırlanıb göstərilməsi haqda məlumat verilmişdir [63, v. 75; 78, v. 12].

14 fevral 1942-ci il tarixli 27 nömrəli əmrdə M.İbrahimovun "Məhəbbət" əsərinin ilk dəfə tamaşaya qoyulması göstərilir və həmin əsərdə rollar aşağıdakı aktyorlara verilir: Zəroş Həmzəyeva Məhəbbət, Əyyub Haqverdiyev Mahir, Yusif Haqverdiyev Qulamhəsən, Xədicə Qazıyeva Hürrü, Telli Əkbərova Fatma, Tamara Məmmədova Zəhra, Pakizə Məmmədova Zeynəb, M.Rza Əliyev Aslan, İbrahim Həmzəyev Yusif, Əşrəf Rüstəmov Kərim, Mirhəsən Mirişli Məmişov, Səməd Mövləvi Əhməd Biqəm, Firuzə Əlixanova Töhvə, Rza İsfəndiyarlı İsgəndər, Ağarza Rzayev Mənaf, Kazım Hüseynov Murtuz ağa, Əli Qurbanov və Əsgər Rüstəmov Məmiş, Adil Bağırov Heydərov rollarını oynamışlar. Əmrə əsasən "Məhəbbət" əsərinin quruluşçu rejissoru İbrahim Həmzəyev, bədii tərtibatçısı rəssam Şəmil Qazıyev olmuşdur [63, v. 25].

21 iyul 1942-ci il tarixli "Şərq qapısı" qəzeti "Naxçıvan Dövlət Dram Teatrının qastrolları" başlıqlı məqalədə yazır: "M.F.Axundov adına Naxçıvan Dövlət Dram Teatrının kollektivi iyun ayının 20-dən qastrola çıxmışdır. Kollektiv qastrolda olduğu müddətdə iyunun 20-dən iyulun 15-dək Culfa və Ordubad rayonunun zəhmətkeşləri tərəfindən böyük məhəbbət və şadlıq hissi ilə qarşılanmışdır. Həmin rayonun kolxozçuları, fəhlələri və ziyalıları "Arşın mal alan", "Əsli və Kərəm", "Aşıq Qərib", "Leyli və Məcnun", "5 manatlıq gəlin",

"Bu toy kimindir", "Babək" və "Aslan yatağı" pyeslərinə tamaşa etmişlər. Tamaşalar böyük müvəffəqiyyətlə keçmişdir.

Ordubad şəhərində "Aslan yatağı"nın tamaşasından əldə edilən 1500 manatı, Culfada isə "Aşıq Qərib" tamaşasından əldə edilən məbləği kollektiv Ordubad və Culfa klublarının mənfəətinə vermişdir. Kollektiv iyulun 15-də Naxçıvana qayıtmış bu günlərdə Şahbuz və Əbrəqunus rayonlarına gedəcəkdir [105. 1942, 21 iyul].

Böyük Vətən müharibəsi illərində Naxçıvan teatrının yaradıcı kolektivi müntəzəm olaraq muxtar respublikanın rayon və kəndlərində maraqlı tamaşa və konsert proqramı ilə çıxış edirdi. "Şərq qapısı" qəzetinin 1942-ci il 26 iyul tarixli nömrəsində dərc olunmuş "Konsert briqadası Noraşendə" başlıqlı xəbərində deyilir ki, M.F Axundov adına Naxçıvan Dövlət Dram Teatrının konsert briqadası Noraşen (Şərur F.C) rayonunda olmuşdur. Briqada rayonun Yengicə, Baş Noraşen (Cəlilkənd F.C), Təzəkənd və Kərimbəyli kəndlərində geniş konsert proqramı ilə çıxış etmişdir. M.H.Mirişlinin, Zina Budaqovanın, Firuzə Əliyarovanın çıxışları səmimiyyətlə qarşılanmışdır. Ümumiyyətlə, demək olar ki, bu cür xəbərlərə "Şərq qapısı" qəzetinin səhifələrində müntəzəm rast gəlmək olar [105. 1942, 26 iyul].

Naxçıvan teatrı 1942-ci il mövsümünü Zülfüqar Hacıbəyovun "Evliykən subay" musiqili komediyası ilə başlamışdır. 19 senyabr 1942-ci il tarixli "Şərq qapısı" qəzetində teatrın rejissoru Səməd Mövləvi yoldaşın müsahibəsində yazılır: Mirzə Fətəli Axundov adına Naxçıvan Dövlət Dram Teatrı ciddi hazırlıqdan sonra bu gün 1942-ci il mövsümünə başlayır.

Bu il teatrda keyfiyyətli təmir işləri aparılmaqla səhnə və foye genişləndirilmişdir. Yeni mövsümə Zülfüqar Hacıbəyovun "Evliykən subay" musiqili komediyası ilə başlanılır. Teatrın repertuarı xeyli zənginləşdirilmiş və artırılmışdır. Ordenli şair S.Vurğunun "Fərhad və Şirin", şair Zeynal Xəlilin





"İntiqam", N.B.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük", M.H.Təhmasibin "Aslan Yatağı", Osman Sarıvəllinin "Babək", M.S.Ordubadinin "5 manatlıq gəlin", Məhərrəm Əlizadənin "Toy kimindir", Zülfüqar Hacıbəyovun "Aşıq Qərib", SSRİ xalq artisti ordenli bəstəkar Üzeyir Hacıbəyovun "Arşın mal alan", "Leyli və Məcnun", "Əsli və Kərəm" əsərləri repertuara daxil edilmişdir.

Teatra bir çox yeni gənc kadrlar cəlb edilmişdir. Rejissor Səfər Neymətov, M.İ.Həmzəyev və s.yoldaşlar tamaşaların quruluşunu, rəssam Şəmil Qazıyev və Əyyub Hüseynov yoldaşlar bədii tərtibatını verəcəklər. Teatrın kollektivi bu il yayda muxtar respublikamızın bütün rayonlarını və bir sıra hərbi hissələri əhatə etmişdir. Bu yerlərdə 200-dən artıq teatr və konsert tamaşaları verilmişdir. Teatrın kollektivi Oktyabr Sosialist İnqilabının 25-ci il dönümü günündə tamaşaya qoymaq üçün Zeynal Xəlil yoldaşın "İntiqam" əsərini hazırlayacaqlar [105. 1942, 19 sentyabr].

Müharibə dövründə teatrla yanaşı incəsənətin bir digər sahəsi olan kinomatoqrafiya idarəsidə fəaliyyətini davam etdirmişdir. Bu dövrlərdə Naxçıvan ASSR XKS yanında Kinofikaçiya idarəsi həm Naxçıvanda, həm də digər rayonlarda səyyar kino avtomobilləri vasitəsi ilə kino tamaşaları keçirirdi. Kinofikaçiya idarəsinin səyyar kino maşınları müntəzəm olaraq kolxozlarda olurdu. Əsasən həmin dövrlərdə kolxozçulara Böyük Vətən müharibəsini əks etdirən bədii filmlər göstərilirdi. "Stalinqrad" bədii filmi demək olar ki, bütün rayon mərkəzlərində və kolxozlarında göstərilmişdir.

"Şərq qapısı" qəzetinin 29 avqust 1942-ci il tarixli nömrəsində dərc olunmuş "Qlavkinoprokatın Naxçıvan şöbəsində" başlıqlı yazıdan aydın olur ki, Qlavkinoprokatın Naxçıvan şöbəsi də Böyük Vətən müharibəsinin tələblərini ödəmək üçün bütün imkanlardan yaxşı istifadə edirmiş. Kino nöqtələrinin müxtəlif yeni revodyuçion, tarixi, bədii, Böyük Vətən müharibəsi cəbhələrindəki epizodlara dair filmlərlə

təmin edilməsində Naxçıvan Qlavkinoprokat şöbəsinin müdiri Adil Əliyev xüsusi aktivliklə çalışmışdır. 1942-ci ildə Naxçıvanda 12 kino nöqtəsi əvəzinə 14-ü fəaliyyət göstərirdi. 1942-ci ilin birinci kvartalında 538 əvəzində 546 seans kino tamaşası verilmişdir [105. 1942, 29 avqust].

Bu dövrlərdə kino tamaşaları təkcə rayon mərkəzlərində və kolxozlarında deyil, həmçinin məktəblilər üçün də təşkil edilirdi. 1944-1945-ci il dərs ilinin başlanması ilə əlaqədar Telman adına Naxçıvan Mərkəzi Pionerlər evində pioner və məktəblilər üçün xüsusi kino tamaşaları verilmişdir [105. 1944, 10 sentyabr].

1942-ci ildə Naxçıvan Qızıl Ordu evində komandir, siyasi rəhbər və qızıl əsgər ailələrinin uşaqlarından ibarət yeni bir xor dərnəyi təşkil edilmişdir. Bu dərnəyə talantlı gənc oxuyan qız Gültəkin Səfərli rəhbərlik edirdi. Həmçinin dərnəyin balet qruppası da fəaliyyət göstərirdi [105. 1942, 23 oktyabr].

24 oktyabr 1942-ci il tarixdə Naxçıvan Dövlət Dram Teatrının aktyorları tərəfindən S.Vurğunun "Fərhad və Şirin" əsəri tamaşaya qoyulmuşdur. Bu tamaşa haqda "Şərq qapısı" qəzeti belə yazır: "Fərhad və Şirin" əsəri tamaşaya qoyulmaqla öz yaradıcılıq tarixində irəliyə doğru yeni bir addım atmışdır. Fərhad rolunda İbrahim Həmzəyev, Şirin rolunda Zəroş Həmzəyeva, Şapur rolunda Səməd Mövləvi, Şuriyyə rolunda Yunis Qasımov və başqaları oynamışlar [63, v. 7].

Naxçıvan Dövlət Dram Teatrının 6 noyabr 1942-ci il tarixli 227 nömrəli əmrində N.B.Vəzirovun "Hacı Qənbər" əsərinin tamaşaya qoyulması və rollarda kimlərin oynanılması barədə əmr verilmişdir. Əmrdə həmin tamaşada rollar aşağıdakı kimi bölünmüşdür. Hacı Qənbər rolunu M.H. Mirişli, Dilbər Xanım rolunu Sara xanım, Cavahir Xanım rolunu Sofiya İsmayılova, Yetər xanım rolunu Zəroş Həmzəyeva, Hacı Salman rolunu Ə.Əhmədov və Ə.Qurbanov, Cəbi rolunu Ə.Haqverdiyev, Əşrəf Bəy rolunu A.Rzayev, Qıdı kirvə rolunu





Ağalar Əliyev, Molla Səfi rolunu Səməd Mövləvi, Aşıq Vəli rolunu K.Şeyxov, İmamqulu rolunu Ə.Rüstəmov, Mahmud rolunu Həsən Fətullayev və Adil Səfərov, Mayor Xudaverdi rolunu K.Hüseynovun oynaması göstərilmişdir. Bu pyes 11dekabr 1942-ci ildə tamaşaya qoyulmuşdur [63, v. 9-14].

Naxçıvan Dövlət Dram Teatrının 1943-cü il 13 fevral tarixli əmrində C.Cabbarlının "Yaşar" əsərinin səhnələşdirilməsi və həmin tamaşada oynayacaq aktyorlar barədə məlumat verilir. Yaşar rolunda İbrahim Həmzəyev, Yaqut rolunda Zəroş Həmzəyeva, Tuğrul rolunda Əşrəf Rüstəmov, İmamyar rolunda Səməd Mövləvi, Əmirqulu rolunda Əyyub Haqverdiyev, Şərəbanı rolunda Sara Xanım, Niyaz rolunda Ağarza Rzayev, Qürbət rolunda Əsgər Qurbanov, Mürsəlqulu rolunda S.Möhsümov, Tanya rolunda Telli Əkbərova, Prokuror rolunda Əli İmanov, Sədr rolunda Mirhəsən Mirişli, Professor rolunda Rza İsfəndiyarlı, Əliyar rolunda A.Bağırov, Qədim rolunda Ə.Səfərov, Nüsrət rolunda M.Rza Əliyev, İslam rolunda Q.Allahverdiyev, Mirzə Həsən rolunda isə Kazım Hüseynovun oynadıqları göstərilmişdir. Bu tamaşanın quruluşçu rejissoru İbrahim Həmzəyev, bədii tərtibatçısı Şəmil Qazıyev, rejissor assisenti isə Xədicə Qazıyeva olmuşdur [63, v. 20-29].

1943-cü ilin 24 mart tarixli əmrdə M.Hüseynin "Nizami" tamaşasının səhnəyə qoyulması və tamaşada rolların aşağıdakı aktyorlara bölünməsi göstərilmişdir. Həmin tamaşada Nizami rolunu İbrahim Həmzəyev, Qivami rolunu Əyyub Haqverdiyev, Xədicə rolunu Pakizə Məmmədova, Məhsəti rolunu Firuzə Əlixanova, Afaq rolunu Zəroş Həmzəyeva və Xədicə Qazıyeva, Tuğrul rolunu Kazım Hüseynov, Çingiz rolunu M.Rza Əliyev, Yusif rolunu Əşrəf Rüstəmov, 1-ci cəngavər rolunu Əkbər Qurbanov, 2-ci cəngavər rolunu Ağalar Əliyev, Şirvan hökmdarı rolunu Səməd Mövləvi, Vəzir rolunu Əyyub Haqverdiyev, Vali rolunu Mirhəsən Mirişli və başqalarının adları göstərilmişdir. Bu tamaşanın quruluşçu

rejissoru Səməd Mövləvi olmuşdur [63, v. 57-58].

1943-44-cü dərs ili üçün Naxçıvan ASSR XKS yanında İncəsənət İşləri İdarəsinin musiqi məktəbinə tələbə qəbulu da həyata keçirilmişdir. Həmin dövrdə Naxçıvan musiqi məktəbi tar, kamança, skripka, fortopiano, yastı balaban və klarnet ixtisasları üzrə musiqiçilər hazırlayırdı [105. 1943, 10 iyun].

Azərbaycan incəsənətinin inkişafı sahəsində xidmətlərinə görə Azərbaycan SSR Ali Sovetinin Rəyasət heyətinin 17 iyun 1943-cü il tarixli fərmanı ilə bir qrup aktyora, o cümlədən Naxçıvan Dövlət Dram Teatrının aktyorlarından olan İbrahim Həmzəyevə, Səməd Mövləviyə, Əyyub Haqverdiyevə və həmyerlimiz, Quba dram teatrında bədii rəhbər və rejissor işləyən İsa Musayevə Azərbaycan SSR-nin əməkdar artisti fəxri adı verilmişdir [105. 1943, 22 iyun].

Böyük Vətən müharibəsi günlərində faşist işğalçılarına qarşı vuruşan həmyerlimiz Əkbər Heydər oğlu Məmmədov 12 avqust 1943-cü il tarixdə Naxçıvan Dövlət Dram Teatrının artistləri İbrahim Həmzəyev, Səməd Mövləvi və Əyyub Haqverdiyevə cəbhədən məktub göndərmiş və bu artistləri Azərbaycan SSR-in əməkdar artisti adı almaları münasibətilə səmimi qəlbdən təbrik edərək yazırdı: "Uca Qafqaz dağlarının ətəklərində yerləşən Şimali Qafqazdan göndərdiyim döyüşçü salamımı qəbul edin. Bir neçə gün düşmənlə vuruşduqdan sonra istirahətə buraxılmışdıq. Bir gün istirahətdə ikən hissəmizə Azərbaycan qəzetləri çatdırıldı, "Kommunist"i mənə verdilər. Bu qəzeti oxuyub doğma yurdumun həyatı ilə tanış oldum. Gözümə Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin fərmanı göründü. Bu fərmanda Azərbaycanın bir çox incəsənət işçilərinə fəxri adlar verilmişdir. Bizim Naxçıvan teatrının artistləri olan siz İbrahim Həmzəyev, Səməd Mövləvi və Əyyub Haqverdiyev yoldaşlar da Azərbaycan SSR-in Əməkdar artisti kimi fəxri ad almısınız. Bu yüksək qiymət Naxçıvan zəhmətkeşləri üçün, xüsusən incəsənətçilərimiz üçün böyük fəxrdir.

Biz cəbhədə düşmənlə amansızcasına mübarizə





apardığımız kimi, siz də xalqımıza yüksək bədii tamaşalar göstərməkdə əlinizdən gələni əsirgəməyin. Naxçıvanın həyatından, həmçinin Dövlət Dram Teatrının işindən mənə yazın. Əllərinizi sıxıram. Sizin Əkbər Məmmədov" [105. 1943, 12 avqust].

Əkbər Məmmədovun İsa Musayevin adını çəkməməsi onu göstərir ki, İsa Musayev 1940-cı ildən 1943-cü ilin avqust ayına kimi Quba Dram Teatrında bədii rəhbər və rejissor vəzifəsində çalışmışdır. Görünür ki, Əkbər Məmmədov "Kommunist" qəzetində Naxçıvan teatrının aktyorlarından üçünün S.Mövləvi, İ.Həmzəyev və Ə.Haqverdiyevin adlarını oxuduğu üçün onların ünvanına məktub göndərmişdir.

Naxçıvan şəhərində fəaliyyət göstərən Mərkəzi Pionerlər evinin bədii briqadası 1943-cü ildə Qaraxanbəyli, Tumbul, Əliabad, Şıxmahmud kəndlərindəki kolxozların üzvlərinə teatr və konsertlər vermişlər [105. 1943, 16 sentyabr].

1943-44-cü dərs ilində Naxçıvan musiqi məktəbi yaşlılar üçün muğamat və xalq mahnıları, tar, kamança, pianino, skripka və nəfəsli musiqi alətləri şöbəsinə tələbə qəbulu həyata keçirirdi [105. 1943, 28 sentyabr].

1943-cü ilin avqustunda M.Əzizbəyovun adına Azərbaycan Dövlət Dram Teatrının bədii briqadası 15 gün müddətində Naxçıvanda olmuşdur. Bədii briqadanın tərkibinə Azərbaycan SSR-in Xalq artistləri Fatma Qədiri, Kazım Ziya, Azərbaycan SSR-in Əməkdar artistləri Haşım Kələntərli, Əjdər Sultanov, Hökümə Qurbanova daxil idi. Briqadaya M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrının direktoru, əməkdar incəsənət xadimi S.Turabov rəhbərlik edirdi. Briqadanın üzvləri qastrolda olduğu müddətdə S.Vurğunun "Vaqif", "Fərhad Şirin", M. İbrahimovun "Məhəbbət", S. Rəhmanın "Toy" əsərlərini göstərmişlər.

Naxçıvan teatrı 1943-cü ildə Azərbaycan xalqının mübariz keçmişini, qəhrəmanlığını, müasir həyatın qəhraman övladlarının Vətən mübarizəsi illərində göstərdiyi igidlikləri

əks etdirən əsərləri uğurla tamaşaya qoymuşdur [15, s. 163].

Naxçıvan teatrı 1943-cü il mövsümünü 10 sentyabr tarixdə S.Vurğunun "Vaqif" mənzum faciəsi ilə açmışdır. Teatr 1943-1944-cü il repertuarına Rəsul Rzanın "Vəfa", Abdulla Şaiqin "Vətən", C.Cabbarlının "Oqtay Eloğlu", "Yaşar", A.Şirvanzadənin "Namus", N.B.Vəzirovun "Adı var, özü yox", Şeksprin "Otello", Şillerin "Məkr və Məhəbbət", S.Rüstəmin "Qaçaq Nəbi", A.Ostrovskinin "Günahsız müqəssirlər" pyesləri və bir sıra başqa əsərlər daxil etmişdir.

Naxçıvan teatrı Böyük Vətən müharibəsi illərində muxtar respublikanın rayon və kəndlərində maraqlı tamaşa və konsert proqramı ilə çıxış etmişdir. Teatrın 1943-cü ilə aid əmrlərində taxıl və eləcə də pambıq yığımı kampaniyasında Naxçıvan teatrının aktyorları muxtar respublikanın Şərur, Şahbuz, Ordubad, Culfa rayonlarında rayon əməkçilərinə tarixi dramlardan tamaşalar göstərmiş, bədii konsertlər vermişlər [63, v. 4-7].

1943-cü ildə Naxçıvan ASSR XKS yanında İncəsənət İşləri İdarəsinin təşəbbüsü ilə Naxçıvanda Dövlət cazı təşkil edilmişdir. Həmin caz orkestrinin iştirakçılarının ilk vaxtlarda sayca az olmasına baxmayaraq orkestrin bədii rəhbəri Məmməd Cavadov və administrator Daniel Jivovun ciddi çalışması nəticəsində cazın yaxşı müvəffəqiyyəti, gözəl və məzmunlu proqramı yaradılmışdı. Yerli musiqi həvəskarlarından təşkil edilmiş bu orkestrin proqramında SSR xalq artisti, ordenli bəstəkar Üzeyir Hacıbəyovun, məşhur rus bəstəkarı Çaykovski və başqa bəstəkarların əsərlərindən ibarət müxtəlif zəngin musiqilər və mahnılar var idi. İlk vaxtlarda orkestrin konsertlərində çıxış etməyə dəvət olunan Azərbaycan SSR Əməkdar artisti Əyyub Haqverdiyev, aktrisa Zəroş Həmzəyeva, gənc oxuyanlardan Gültəkin Səfərli, Asya Bayda və Ustinov yoldaşlar öz nəfis çıxışları və gözəl talantları ilə konsertlərin dəyərini xeyli artırmışdılar.

Bu caz orkestrinin təkcə Naxçıvanda deyil, həmçinin də





digər rayon mərkəzlərində və kolxozlarda da çıxışları olmuşdur. Daha sonralar Naxçıvan Dövlət Caz orkestri çalğıçılarının, xüsusilə şərq musiqi alətləri üzrə sayını çoxaltmış, proqramını Azərbaycan musiqi və mahnıları hesabına genişləndirmiş, iştirakçılarına cəldlik, şənlik ümumiyyətlə, caz orkestri iştirakçısına xas olan xüsusiyyətləri aşılamaqla öz müvəffəqiyyətlərini artıra bilmişdilər [105. 1943, 24 noyabr].

Naxçıvan teatrının repertuarında olan Abdulla Şaiqin "Vətən" pyesi 1943-cü ilin dekabr ayında tamaşaya qoyulur. "Şərq qapısı" qəzetinin 16 dekabr 1943-cü il tarixli nömrəsində İdris Səlimovun "Vətən" tamaşası haqda resenziyası dərc edilmişdir. İ.Səlimov resenziyasında yazır: "Azərbaycan SSR Əməkdar İncəsənət Xadimi A.Şaiq tərəfindən yazılmış "Vətən" (Elman) yüksək səhnə mədəniyyəti, bacarıqlı rəssam, talantlı aktyor və həssas bəstəkar incəliyi tələb edən bir əsərdir.

"Vətən" məzmunu etibarilə fantastik xalq nağılları əsasında yazılmış bir dramdır. Bir çox belə cazibəli əsərlərin yaradıcısı olan Abdulla Şaiq "Vətən" əsərində romantik bir planda vətən müdafiəsi ideyasının qüdrətini vermişdir. Bu tamaşanın quruluşcu rejissoru İsa Musayev, bədii tərtibatçısı Şəmil Qazıyev olmuş, Elman rolunu İbrahim Həmzəyev, Gözəl rolunu Zəroş Həmzəyeva, Bilici Baba rolunu Səməd Mövləvi, İfritə rolunu Firuzə Əlixanova, Şimşad rolunu Sara xanım, Lələş Pəhləvanı rolunu isə Mirhəsən Mirişli oynamışdır [105. 1943, 16 dekabr].

Naxçıvan teatrında 1944-1945-ci illərdə A.Şirvanzadənin "Namus", A.Şaiqin "Vətən", Q.Musayevin "Arsenal", K.Simonovun "Vətən oğlu", V.Şeksprin "Otello", C.Məmmədquluzadənin "Ölülər", N.Nağıyevin "Polad", Şkvarkinin "Şən nəğmə" və sair əsərlər tamaşaya qoyulmuşdur.

Naxçıvan teatrının aktyorları tərəfindən 7 yanvar 1944-cü il tarixdə M.S.Ordubadi və S.Rüstəmovun "Beş manatlıq gəlin", 24 mart 1944-cü il tarixdə A.Şaiqin "Vətən", 7 may 1944-cü il tarixdə A.Şirvanzadənin "Namus", 24 noyabr 1944-

cü il tarixdə isə C.Məmmədquluzadənin "Ölülər" əsəri tamaşaya qoyulması teatrın əmrlərində göstərilmişdir [63, v. 24-11].

10 aprel 1944-cü il tarixdə Naxçıvan ASSR XKS-nin yanında İncəsənət İşləri İdarəsi tərəfindən Azərbaycan Cümhuriyyətinin sovetləşməsinin 24-cü ildönümü münasibətilə Naxçıvan İncəsənətində görkəmli xidmətlərinə görə və Vətən müharibəsi günlərində arxa cəbhədə xalqa vətənpərvrəlik ruhunu aşılamaqda yorulmadan çalışmış bir sıra incəsənət işçilərinin adları təltif olunmaları üçün Naxçıvan ASSR Ali Sovetinin Rəyasət Heyətinə göndərilmişdir.

Onlar arasında Naxçıvan Dövlət Dram Teatrının rəssamı Qazıyev Şəmil Həsən oğlu Əməkdar İncəsənət Xadimi adı ilə, Mirişli Mirhəsən Miriş oğlu, İsfəndiyarov Rza Ələkbər oğlu, Həmzəyeva Zəroş Mirzəbağır qızı, Abbasov Əyyub Vəli oğlu, Əlixanova Firuzə Məmmədqulu qızı və xanəndə Nağıyev İdris Həsən oğlu Əməkdar artist adı ilə, Naxçıvan Dövlət Dram Teatrının rəssamı Hüseynov Əyyub Museyib oğlu, Naxçıvan Dövlət Cazının bədii rəhbəri Cavadov Məmməd Kərim oğlu, Naxçıvan İncəsənət İşləri İdarəsinin inspektoru və Naxçıvan Dövlət Dram Teatrının artisti Şeyxov Kazım Bağır oğlu, Naxçıvan Dövlət Dram Teatrının artisti Rüstəmov Əşrəf Rüstəm oğlu və Naxçıvan Dövlət Cazının artisti Səfərli Gültəkin Həsən qızının adları Fəxri fərmanla təltif olunmaları üçün göndərilmişdir [62, v. 26].

1944-cü ildə Naxçıvan teatrının aktyorlarının döyüşçülər və zəhmətkeşlər qarşısında uğurlu çıxışları və onların ifaçılıq qabiliyyəti nəzərə alınaraq M.H.Mirişliyə Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti fəxri adı verilmiş, Əyyub Haqverdiyev isə Zaqafqaziya Hərbi dairəsi komandanlığının, Azərbaycan SSR Ali Sovetinin və Naxçıvan MSSR Ali Sovetinin fəxri fərmanları ilə təltif edilmişdir ("Şərq qapısı" qəzeti, 13 dekabr 1966).

Müharibə dövrünün çətinliklərinə, kadrların böyük





əksəriyyətinin cəbhəyə getməsinə, maddi çatışmazlıqlarına baxmayaraq, respublikamızın maarif və mədəniyyət müəssisələri nəinki öz fəaliyyətlərini genişləndirir, eyni zamanda bir sıra yeni incəsənət ocaqları və ədəbi birliklər yaradırlar.

Müharibə illərində (1944) teatra olan maraq nəzərə alınaraq Ordubadda Dövlət Dram Teatrı təşkil edilir. M.F.Axundov adına Naxçıvan Dövlət Dram Teatrı Ordubad Dövlət Dram Teatrında kadr və bacarıqlı aktyor heyətinin az olmasının nəzərə alaraq onları himayəyə götürür.

Naxçıvan MSSR Ali Soveti Rəyasət heyyətinin 31 iyul 1944-cü il tarixli fərmanı ilə həmin teatra M.S.Ordubadinin adı verilir [60, v. 57-58].

1944-cü il fevral ayının 5-də Naxçıvan Vilayət Partiya Komitəsinin və Naxçıvan MSSR Xalq Komissarları Sovetinin bürosunda M.F.Axundov adına Naxçıvan Dövlət Dram teatrının 60 illik yubileyinin keçirilməsi haqqında qərar qəbul edilir. Yubiley günü S.Vurğunun "Xanlar" əsərinin oynanılması müəyyənləşdirilir. Qərar qəbul olunmasına baxmayaraq əsər oynanılmamışdır. Naxçıvan teatrının 60 illik yubileyi ilə əlaqədar Naxçıvanda yeni tikilmiş 500 yerlik yay kinoteatrına C.Məmmədquluzadənin adı verilir [60, v. 57-58].

Bütün bunlar xalqın həyat və mübarizəsindən ayrı olmayan sənət adamlarımızın sənətə olan böyük məhəbbəti ilə bağlı idi.

Müharibə illərində Naxçıvan teatrında tamaşaların keyfiyyətini artırmaq məqsədilə teatrın direktorluğunun vaxtaşırı hesabatları dinlənilirdi [37, v. 42].

1941-1945-ci illər müharibəsi teatrlarımız qarşısında yeni və ciddi vəzifələr qoymuşdu. Bütün xalqlarla birlikdə incəsənət xadimləri də öz işlərini müharibənin tələbləri əsasında qururdular. Naxçıvan teatrının kollektivi Vətən qarşısındakı vəzifəni səylə yerinə yetirir və böyük fədakarlıqla çalışırdı. Teatrın bir çox aktyorları isə vuruşan orduda xidmət edirdilər. Onlardan biri də teatrın artisti Abbas Quliyev idi. O,

müharibənin ikinci günü cəbhəyə getmiş, topçu alaylarının birində batareya komandiri vəzifəsində xidmət etmişdir.

Həmin illərdə "İzvestiya" qəzetinin döyüşən orduya həsr etdiyi məqaləsində Naxçıvan teatrının keçmiş aktyoru Abbas Quliyevə həsr edilmiş yazısı belə verilmişdir: "Naxçıvan teatrının tamaşaçıları həmin teatrın keçmiş artisti, indi isə enlikürəkli, aslan baxışlı, zabit Abbas Quliyevi görsələr çox güman ki, tanımayacaqlar. Bir zaman səhnə əsərlərində rolları ifa edən artist indi qvardiya baş leytenentıdır. O, Qızıl bayraqlı topçu alayının birində batareya komandiridir. Quliyev Polşada batareyasının bütün şəxsi heyətini və silahlarını çaydan bərə ilə keçirmiş, onun topçuları faşistlərin 20-yə yaxın həmləsini dəf etmiş və əlverişli təpəni tutmağa şərait yaratmışdır. Teatr müharibə dövründə özünün ən yaxşı dram artisti Quliyevdən uzaq düşmüş, Qızıl Ordu isə gözəl topçu zabiti qazanmışdır.

İkinci Dünya müharibəsinin son günlərində (8 may 1945-ci ildə) Naxçıvan teatrının keçmiş rəssamı, Böyük Vətən müharibəsi iştirakçısı, yerli dramaturq Nağı Nağıyevin "Polad" əsəri tamaşaya qoyulur [105. 1945, 8 may]. Tamaşanın həyat üzü görməsi çox uğurlu olur. Əsərdə əsas rollarda Əyyub Məmmədov (Polad), Əliyev Ağarza (alman zabiti), Xədicə Qazıyeva (şəfqət bacısı) rollarını məharətlə oynamışlar. Tamaşanın quruluşunu rejissor İsa Musayev, bədii tərtibatını quruluşçu rəssamlar Əyyub Hüseynov və Şamil Qazıyev vermişdilər.

O dövrün teatrlarının, eyni zamanda Naxçıvan teatrını müharibə illərindəki tamaşalarına nəzər salsaq, o zaman doğma yurdun şərəfi və istiqlaliyyəti uğrunda böyük sınaqlardan çıxmış xalqın mübarizəsini təsvir edən təsirli və real mənzərələr göz önündə canlanır. Bu mənada həmin illərdə "Ədəbiyyat və incəsənət" qəzeti (19 aprel, 1975) yazırdı: "Biz haqlı olaraq Azərbaycan bəstəkarlarının, dramaturqlarının əsərlərini və bu əsərlər əsasında aktyorlar və rejissorlar tərəfindən yaradılmış tamaşaları iftixarla xatırlayırıq.

Teatrın müharibə dövrü tamaşaları bir daha göstərdi ki,





Azərbaycan xalqının milli ənənələri və bütövlükdə xalqın həyatı, mənafeyi tam şəkildə bir-birini üzvi surətdə tamamlayır. Azərbaycan mədəniyyəti müharibənin ilk anlarından döyüş meydanlarına atılaraq odlu-alovlu günlərdə xalqın ən etibarlı silahına çevrildi. İncəsənət işçiləri müharibə illərində ağır sınaqlardan müvəffəqiyyətlə çıxdılar.

21 avqust 1944-cü il tarixdə Naxçıvan ASSR Xalq Komisarları Soveti yanında İncəsənət İşləri İdarəsinin rəisi İsa Musayev Azərbaycan İncəsənət işləri İdarəsinin naçalniki Rəhimova göndərdiyi sənəddə xalqımızın mədəni tələbini ödəmək üçün bir sıra incəsənət obyektlərinin yaradılması üçün müraciət etmişdir. Göndərilən sənəddə Naxçıvan şəhərində musiqi orta məktəbinin açılması, Dövlət Filarmoniyası, Şəxsi yaradıcılıq evi, Rəssamlıq məktəbi, İncəsənət muzeyi, Ordubad rayonunda musiqi məktəbi, Noraşen rayonunda dövlət teatrı kimi bir sıra obyektlərin yaradılmasını nəzərə çatdırmışdır. Sənəddə göstərilən obyektləri təşkil etmək üçün bina və kadr olduğu da vurğulanmışdır. Eyni zamanda bildirilmişdir ki, Azərbaycan XKS-nin 1944-cü ildəki qərarında Rəssamlıq məktəbi muzeyinin açılması göstərilsə də, lazımı olan pulun alınması üçün Naxçıvan XMK-na sərəncam verilməmişdir.

Azərbaycan XKS yanında olan İncəsənət İşləri İdarəsinin rəisi İsgəndərovun 31/611 №-li 23 iyun 1944-cü il tarixli təliqəsinə cavab olaraq Naxçıvan İncəsənət İşləri İdarəsi bildirmişdir ki, Naxçıvan Dövlət caz orkestri ləğv edilib və sizin göstərişiniz əsasında filarmoniya təşkil edilir. Həmçinin qeyd edilmişdir ki, Naxçıvanda filarmoniya binası mövcuddur, lakin təmirə ehtiyacı vardır. Həmin bina 280 nəfərə qədər yerə malikdir. Kadr məsələlərinə gəlincə, yerli kadrlar cəlb edilmiş simli orkestr 15 nəfər, xor dəstəsi (qız) 12 nəfər, el aşıqları 8 nəfər, zurnaçı dəstəsi 6 nəfər, oynayan oğlan və qız 10 nəfər cəlb edilmişdir. Sənəddə qeyd edilmişdir ki, filarmoniyanın rəsmi işə salınması üçün göndərilmiş smetanı təsdiq edib datasiya buraxılması üçün sərəncam verilsin [62, v. 29; 41].

1944-cü ilin yanvar ayının 1-də incəsənət üzrə məlumat cədvəlindən aydın olur ki, Naxçıvan şəhərində bir teatr olmaqla, burada 20 kişi, 10 qadın aktyor, 2 kişi rəssam, 12 kişi və 2 qadın şair fəaliyyət göstərirdi. Eyni zamanda bir caz orkestr olmaqla, burada 15 kişi və 5 qadın aktyor fəaliyyət göstərirdi. Ordubad şəhərində bir teatr fəaliyyət göstərmiş, burada 14 kişi, 5 qadın aktyor, 1 kişi aşıq və 1 kişi rəssam olmuşdur. Naxçıvan rayonu üzrə 1 ansambl olmaqla, burada 5 kişi, 3 qadın aktyor və 9 kişi aşıq olmuşdur. Noraşen rayonunda 3 kişi aşıq, Şahbuz rayonunda 2 kişi, 1qadın aşıq, Əbrəqunus rayonuda isə 2 kişi aşıq olmuşdur [62, v. 64].

1944-cü ilin birinci yarım ilində Naxçıvan M.F.Axundov adına Dövlət Dram teatrı planda nəzərdə tutulmuş 137 tamaşanın verilməsini işini artıqlamasıyla yerinə yetirərək 140 tamaşa vermişdir. Həmçinin yeni əsərlərdən 4-ü tamaşaya qoyulmuş, tamaşaçıların sayı isə 17.839 nəfər olmuşdur. Müğənni olaraq kolxozlarda 30, əsgəri hissələrdə 6 konsert verilmiş, tamaşaçıların sayı isə 9000 nəfər olmuşdur. Ordubad teatrında 3 yeni əsər tamaşaya qoyulmuş, 53 tamaşa verilmiş və kolxozlarda 18 konsert verilmişdir. Tamaşaçıların sayı 10.600 nəfər olmuşdur.

Dövlət cazı üzrə isə yeni əsərlərdən 2 tamaşa verilmiş, 43 tamaşada iştirak edilmişdir. Kolxozlarda 43, hərbi hissə və hərbi xəstəxanalarda isə 15 tamaşa olmuşdur. 1944-cü ildə rəssamlarımız Vətən müharibəsi və digər temalarda olan plakatlar üzərində çalışmışlar. Gənc rəssam Əyyub Hüseynov Azərbaycanda Sovet hökumətinin qurulmasının 25-ci illiyi münasibəti ilə Bakıda açılacaq sərgiyə hazırlıq üçün Naxçıvan kolxozçularının arasında Stalinin dokumentlərinin öyrənilməsi tablosu, Naxçıvan peyzajı, Naxçıvan ASSR Kolxoçularının təsərrüfat sahəsində irəlidə gedənlərin portretlərini hazırlamaq üzərində çalışmışdır. 1944-cü ildə musiqi məktəbinin 147 nəfər tələbəsi olmaqla 9 nəfər müəllimi olmuşdur. Həmçinin həmin il məktəbin bütün ixtisaslar üzrə 18 nəfər tələbəyə buraxılış





verəcəyi bildirilmişdir. 1944-cü ildə şəxsi yaradıcılıq dərnəkləri hesabı ilə Culfa rayonu ən irəlidə getmiş, dərnəklərdə mütəşəkkil olaraq tamaşalarını davam etdirmişlər [62, v. 88-89].

1944-cü il oktyabrın 10-da Naxçıvan musiqi məktəbinin müəllim kollektivinin yığıncağı keçirilir. Məktəbin təmirinə büdcədən pul ayrılsa da, bu təmir ehtiyaclarını qarşılamadığı üçün yığıncaqda iştirak edən məktəbin müəllimləri belə bir qərar qəbul edirlər ki, istirahət günləri kolxozlarda konsert keçirib alınan pulu məktəbin hesabına versinlər [60, v. 124].

Naxçıvan MSSR-nin 24-cü ildönümü münasibəti ilə Naxçıvan İncəsənət İşləri İdarəsinin görəcəyi iş planında göstərilmişdir ki, 24-cü il münasibəti ilə kolxozlara, əsgəri hissələrə və yaylaqlara bədii briqadalar göndərilsin. Həmçinin Naxçıvan şəhərində təşkil edilmiş yay teatrına C.Məmməd-quluzadənin, Ordubad D.D.Teatrına isə M.S Ordubadinin adına keçirilsin. Bundan başqa 24-cü il münasibəti ilə Ordubad kol-xozlarına və yaylaqlarına bədii briqadalar göndərilsin [60, v. 27].

Naxçıvan teatrının aktyor kollektivi tərəfindən 25 noyabr 1944-cü il tarixdə isə C.Məmmədquluzadənin "Ölülər" pyesi tamaşaya qoyulmuşdur. Həmin əmrdə və eləcə də afişada rolları oynayan aktyorların adları aşağıdakı kimi göstərilmişdir: Şeyx Nəsrulla rolunda Səməd Mövləvi, Şeyx Əhməd rolunda Ağarza Rzayev, Hacı Həsən rolunda Mirhəsən Mirişli, İsgəndər rolunda İsa Musayev, Cəlal rolunda Əkrəm, Nazlı rolunda Tamara xanım, Hacı Baxşəli rolunda İbrahim Həmzəyev, Hacı Kazım rolunda Yusif Haqverdiyev, Məşədi Oruc rolunda Əyyub Haqverdiyev, Mirbağır ağa rolunda Kazım Hüseynov, Əlibəy rolunda Əşrəf Rüstəmov, Mirzə Həsən rolunda Rza İsfəndiyarlı, Kərbəlayi Vəli rolunda Məmməd Quliyev, Müsafir rolunda Əyyub Abbasov və başqaları iştirak etmişdilər. Bu tamaşanın rejissoru İbrahim Həmzəyev və Səməd Mövləvi olmuşdur [63, v. 19].

Müharibə illərində Azərbaycan SSR Əməkdar artisti, sonralar Xalq artisti olmuş İbrahim Həmzəyevin yaratmış olduğu səhnə surətləri, həm tamaşaçılar həm də ədəbi tənqidin diqqət mərkəzində olmuşdur. N.Vəzirovun "Müsibəti Fəxrəddin" pyesində Fəxrəddin, O.Sarıvəllinin "Babək" mənzum dramında Babək, M.Lermontovun ***"İki qardaş" əsərində Aleksandr, M.Hüseynin "Nizami" tarixi əsərində Nizami, S.Vurğunun "Fərhad və Şirin" mənzum faciəsində Fərhad, M.Təhmasibin "Aslan yatağı" pyesində Şahmar, C.Cabbarlının "Oktay Eloğlu" əsərində Oktay, A.Ostrovskinin "Günahsız müqəssirlər"*** pyesində Neznamov, M.İbrahimovun "Məhəbbət" dramında Yusif, V.Şeksprin "Otello" faciəsində Otello, K.Simonovun "Vətən oğlu" pyesində Kamal, A.Şaiqin "Vətən" dramında Elman kimi zəngin xarakterli bitkin səhnə obrazları aktyorun maraqlı ifasında uzun illər yaddan çıxmamışdır [88].

Naxçıvanda teatr fəaliyyətinin müharibə illərindəki mühüm dövrü əsasən bunlardan ibarət idi. Bununla belə müharibə dövrünün əsas tamaşaları aktual və həyati əhəmiyyətə malik olub, teatrın yaradıcılıq həyatında keyfiyyət dəyişikliklərini əks etdirir. Bu tamaşalar insanları mənəvi cəhətdən silahlandırır, onlarda milli qürur hissi tərbiyə edir, düşmənlərə qarşı nifrət hissini gücləndirir və qələbəyə inamı artırırdı [88].

Naxçıvan teatrının kollektivi Böyük Vətən müharibəsi illərində zəhmətkeşlərə sədaqətlə xidmət etmiş, repertuarında xalqımızın tarixi keçmişini və düşmənə qarşı qəhramanlığını, şücaətini, igidliyini tərənüm edən pyeslərə geniş yer verməklə tamaşaçıda vətənə məhəbbət, sevgi hissləri, xoş duyğular aşılamışdır.





**1941-45-ci illər Böyük Vətən müharibəsində itkin düşən və həlak olanların adlı siyahıları**

**Naxçıvan şəhəri üzrə itkin düşənlər**

| Soyadı, adı, atasının adı | Təvəllüdü | Çağırışa qədər yaşayış yeri | Milliyyəti | Sovet Ordusu sıralarına nə vaxt və hansı hərbi komissarlıq tərəfindən çağırılıb. | Nə vaxt naməlum itkin düşüb |
|---|---|---|---|---|---|
| 1.Əhmədov Mənsum Əhməd oğlu | 1914-cü il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 23.06.41-ci il. | May 1942-ci il |
| 2.Abbasov İbrahim-Xəlil Abbas oğlu | 1917-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 06.10.39-cu il. | Oktyabr 1941-ci il. |
| 3.Allahverdiyev Həsən İsmayıl oğlu | 1900-cu il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 15.06.1941-ci il. | Fevral 1942-ci il. |
| 4.Əhmədov Rza Əli oğlu | 1922-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 25.01.1942-ci il. | Mart 1945-ci il. |
| 5.Əliyev Bəhlul Əli oğlu | 1918-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 07.07.1941-ci il. | Avqust 1941-ci il. |
| 6.Əhmədov Mənsum Əhməd oğlu | 1911-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 27.06.1941-ci il. | Noyabr 1942-ci il. |
| 7.Əsgərov Əkbər Səfərəli oğlu | 1910-cu il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 23.06.1941-ci il. | May 1942-ci il |
| 8.Əhmədov Rızak Əli oğlu | 1926-cı il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 17.01.1942-ci il. | 12.07.1944-cü il. |
| 9.Abbasov Əli Rıza oğlu | 1920-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 22.06.1941-ci il. | 18.04.1942-ci il. |
| 10.Əkbərov Əhməd Səfər oğlu | 1906-cı il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 01.07.1941-ci il. | 07.02.1944-cü il. |
| 11.Abbasov Duman Allahverdi oğlu | 1898-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 26.05.1942-ci il. | 15.02.1944-cü il. |
| 12.Əliyev Maqaman Cəfər oğlu | 1923-cü il | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 15.03.1943-cü il. | 15.04.1943-cü il. |

| | | | | | |
|---|---|---|---|---|---|
| 13.Əliyev Abbas Allahverdi oğlu | 1911-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 22.06.1941-ci il. | 18.09.1943-cü il. |
| 14.Əliyev Nəcəfəli Məhəmməd oğlu | 1911-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 22.06.1941-ci il. | 18.09.1943-cü il. |
| 15.Əliyev Bahlul Əli oğlu | 1915-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 22.06.1941-ci il. | 17.09.1942-ci il. |
| 16.Əlizadə Əli Həsən oğlu | 1914-cü il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 22.06.1941-ci il. | 17.09.1942-ci il. |
| 17.Əliyev Mehbalı Nəcəf oğlu | 1909-cu il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 22.06.1941-ci il. | 16.09.1943-cü il. |
| 18.Əliyev Hüseyn Muxtar oğlu | 1915-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 12.06.1941-ci il. | 31.01.1943-cü il. |
| 19.Abbasov İbrahim Xəlil oğlu | 1917-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 23.06.1941-ci il. | 01.01.1944-cü il |
| 20.Abbasov Xəlil Rəhim oğlu | 1906-cı il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 23.06.1941-ci il. | 12.12.1942-ci il. |
| 21.Abbasov Tağı Abbas oğlu | 1905-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 23.06.1941-ci il. | 12.12.1942-ci il. |
| 22.Allahverdiyev Həsənəli Əli oğlu | 1905-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 23.06.1941-ci il. | 10.10.1943-cü il |
| 23.Ataşov Sudja Əli oğlu | 1911-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 23.06.1941-ci il. | 24.07.1944-cü il. |
| 24.Abbasov Ceyan Hüseyn oğlu | 1916-cı il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 23.06.1941-ci il. | 06.06.1942-ci il. |
| 25.Allahverdiyev İbaş Əli oğlu | 1918-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 09.09.1939-cu il. | 10.10.1942-ci il. |
| 26.Abdullayev Abbas | 1912-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 06.07.1942-ci il. | 12.1944-cü il. |
| 27.Abbasov Cəfər Məmməd oğlu | 1907-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 23.06.1941-ci il. | 03.1942-ci il. |





| | | | | | |
|---|---|---|---|---|---|
| 28.Abbasov Qaşəm Məmməd oğlu | 1923-cü il | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 07.08.1942-ci il. | 04.04.1944-cü il |
| 29.Abbasov Əli Zeynalabdin oğlu | 1926-cı il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 09.08.1943-cü il. | 09.1944-cü il |
| 30.Axundov Tayfıl Cəfər oğlu | 1922-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 05.05.1942-ci il. | 12.01.1943-cü il |
| 31.Əlizadə Nurəddin Bayraməli oğlu | 1924-cü il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 23.05.1941-ci il. | 17.02.1942-ci il |
| 32.Əsgərov Əsgər İbrahim oğlu | 1913-cü il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 23.06.1941.-ci il. | 16.05.1944-cü il. |
| 33.Abbasov Abbas Hüseyn oğlu | 1904-cü il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 08.06.1942-ci il. | 13.06.1944-cü il. |
| 34.Əsgərov Ələsgər Zeynalabdin oğlu | 1895-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 21.06.1942-ci il. | 02.05.1943-cü il. |
| 35.Əliyev Abil Məmməd oğlu | 1905-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 23.06.1941-ci il. | 20.05.1942-ci il. |
| 36.Əliyev Bağır Nağı oğlu | 1905-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 23.06.1941-ci il. | 20.02.1943-cü il. |
| 37.Əliyev Məhəmmədəli Səməd oğlu | 1909-cu il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 22.04.1941-ci il. | 06.06.1943-cü il. |
| 38.Ataşov Bayram Əli oğlu | 1911-ci il. | Naxçıvan şəhəri | | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 10.03.1940-ci il. | 16.05.1943-cü il. |
| 39.Ataşov Sudja Əli oğlu | 1901-ci il. | Naxçıvan şəhəri | azərbaycanlı | Nax. MSSR Respublika Hərbi Komissarlığı. 23.06.1941-ci il. | 19.05.1944-cü il |
